AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NƏSİMİ ADINA DİLÇİLİK İNSTİTUTU

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ANADAN OLMASININ 102-Cİ İLDÖNÜMÜNƏ HƏSR OLUNMUŞ GƏNC DİLÇİ DOKTORANT VƏ DİSSERTANTLARIN SƏLƏFLƏR VƏ XƏLƏFLƏR RESPUBLİKA ELMİ KONFRANSININ

MATERİALLARI

Bakı - "Elm və Təhsil"- 2025

Elmi redaktor: Fil.e.d. Prof. Nadir Məmmədli

Nəşrə məsul: Fil.e.d., dos. Qətibə Mahmudova

AMEA Nəsimi adına Dilçilik İnstitutunun Gənc Alim və Mütəxəssislər Şurasının sədri:

Arzu İsgəndərzadə

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ANADAN OLMASININ 102-Cİ İLDÖNÜMÜNƏ HƏSR OLUNMUŞ GƏNC DİLÇİ DOKTORANT VƏ DİSSERTANTLARIN SƏLƏFLƏR VƏ XƏLƏFLƏR RESPUBLİKA ELMİ KONFRANSININ MATERİALLARI. Bakı, "Elm və təhsil", 2025, 216 səh.

 Qeyd: Topluda dərc olunan məqalələrə görə müəlliflər məsuliyyət daşıyır.

KONFRANSIN ELMİ HEYƏTİ

İsa Həbibbəyli – ***Akademik, AMEA-nın prezidenti***

Nadir Məmmədli – ***filologiya elmləri doktoru, professor***

Sayalı Sadıqova – ***filologiya elmləri doktoru, professor***

Məsud Mahmudov - ***filologiya elmləri doktoru, professor***

İlham Tahirov – ***filologiya elmləri doktoru, professor***

İsmayıl Kazımov – ***filologiya elmləri doktoru, professor***

İsmayıl Məmmədli – ***filologiya elmləri doktoru, professor***

Sevil Mehdiyeva - ***filologiya elmləri doktoru, professor***

Mayıl Əsgərov – ***filologiya elmləri doktoru, professor***

Kamilə Vəliyeva - ***filologiya elmləri doktoru, dosent***

Aynel Məşədiyeva – ***filologiya elmləri doktoru, dosent***

Baba Məhərrəmli – ***filologiya üzrə fəlsəfə doktoru, dosent***

Kifayət İmamquliyeva – ***filologiya elmləri doktoru, dosent***

İlhami Cəfərsoy – ***filologiya elmləri doktoru, dosent***

Nərgiz Hacıyeva – ***filologiya elmləri doktoru, dosent***

Zemfira Əliyeva - ***filologiya elmləri doktoru, dosent***

Sevinc Əliyeva - ***filologiya elmləri doktoru, dosent***

Şəbnəm Həsənli-Qəribova – ***filologiya elmləri doktoru, dosent***

Qətibə Mahmudova – ***filologiya elmləri doktoru, dosent***

Qətibə Quliyeva – ***filologiya elmləri doktoru, dosent***

Gülsüm Hüseynova - ***filologiya elmləri doktoru, dosent***

Nəriman Seyidəliyev – ***filologiya elmləri doktoru, dosent***

Nərmin Əliyeva – ***filologiya elmləri doktoru, dosent***

Tünzalə Baxşıyeva - ***filologiya elmləri doktoru, dosent***

Lalə Qurbanova - ***filologiya elmləri doktoru, dosent***

Rasim Heydərov- ***filologiya üzrə fəlsəfə doktoru, dosent***

Xədicə Heydərova - ***filologiya üzrə fəlsəfə doktoru, dosent***

Sevinc Məmmədova - ***filologiya üzrə fəlsəfə doktoru, dosent***

KONFRANSIN TƏŞKİLAT KOMİTƏSİ

Qətibə Mahmudova – ***filologiya elmləri doktoru, dosent***

Arzu İsgəndərzadə – ***AMEA Nəsimi adına Dilçilik İnstitutunun Gənc Alim və Mütəxəssislər Şurasının sədri***

Şəkər Orucova – ***filologiya üzrə fəlsəfə doktoru, dosent***

Elnarə Əliyeva – ***filologiya üzrə fəlsəfə doktoru, dosent***

Təranə Şükürlü – ***filologiya üzrə fəlsəfə doktoru, dosent***

Günel Hüseynova – ***filologiya üzrə fəlsəfə doktoru, dosent***

Dilbər Camali – ***filologiya üzrə fəlsəfə doktoru***

İmanyar Quliyev – ***filologiya üzrə fəlsəfə doktoru***

MÜNDƏRİCAT

ÖN SÖZ

AZƏRBAYCAN DİLÇİLİYİNİN SABAHI ETİBARLI ƏLLƏRDƏDİR
Qətibə Mahmudova **9**

ELM KÖRPÜSÜ: SƏLƏFLƏRDƏN XƏLƏFLƏRƏ BİLİK VƏ DƏYƏR AXINI
Arzu İsgəndərzadə **12**

I BÖLMƏ
AZƏRBAYCAN DİLÇİLİYİ

AZƏRBAYCAN DİLİNDƏ ANLAMA FEİLLƏRİNİN SEMANTİK XÜSUSİYYƏTLƏRİ
Aytən Əfəndiyeva **14**

AZƏRBAYCAN DİLİNDƏKİ -ÇI-⁴ ŞƏKİLÇİSİNİN TÜRKİYƏ TÜRKCƏSİNDƏ EKVİVALENTLƏRİ
Əsmər Kərimova **17**

MÜSTƏQİLLİK DÖVRÜ AZƏRBAYCAN BƏDİİ NƏSRİNDƏ DİALEKT FRAZEOLOJİ BİRLƏŞMƏLƏRİN İŞLƏNMƏ XÜSUSİYYƏTLƏRİ
Gülnar Ağakişiyeva **21**

AZƏRBAYCAN DİLİNDƏ İQLİM VƏ ATMOSFERLƏ BAĞLI COĞRAFİYA TERMİNLƏRİNƏ DAİR
Sevda Rüstəmova **25**

AZƏRBAYCAN DİLİNDƏ TİBBİ TERMİNLƏRİN MƏNBƏLƏRİNƏ DAİR
Nurlana Həsənova **27**

“YARIMÇIQ ƏLYAZMA” ROMANINDA PARAFRAZ
Samirə Qurbanova **30**

AZƏRBAYCAN DİLİNİN “İNSANIN EMOSİONAL VƏZİYYƏTİ” FRAZEOSEMANTİK SAHƏSİNDƏ “TƏƏCCÜB”
Ülkər Xəlilli **35**

II BÖLMƏ

DİL VƏ ÜSLUB MƏSƏLƏLƏRİ

PAREMİOLOJİ VAHİDLƏRİN TƏRKİBİNDƏ ZOOLEKSİKA ELEMENTLƏRİ VƏ ONLARIN LİNQVOKULTUROLOJİ ÖZƏLLİKLƏRİ
Leyla Hacıyeva **38**

AZƏRBAYCANDİLLİ HÜQUQİ SƏNƏDLƏRDƏ ÜSLUB MƏSƏLƏLƏRİ
Məlhəm Mehtiyeva **41**

DİL VƏ ÜSLUB MƏSƏLƏLƏRİ
Ruhanə Xambatova **45**

VAHİD ƏZİZ POEZİYASINDA FRAZEOLOJİ BİRLƏŞMƏLƏRİN ÜSLUBİ İMKANLARI **48**
Gülnar Rzayeva

III BÖLMƏ

ƏDƏBİ DİL MƏSƏLƏLƏRİ

XIV-XV ƏSR QIPÇAQ LÜĞƏTLƏRİNDƏ TOXUCULUQ LEKSİKASI **52**
Tünzalə İsmayilova

“KİTABİ-DƏDƏ QORQUD” DASTANLARINDA “-MAQ/-MƏK” ŞƏKİLÇİSİNİN SÖZDÜZƏLDİCİLİK FUNKSİYASI **56**
Rəna Süleymanova

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ ƏDƏBİYYATDA DİL VƏ ÜSLUB MƏSƏLƏLƏRİ **60**
Elməddin Quliyev

IV BÖLMƏ
TÜRKOLOGİYANIN AKTUAL PROBLEMLƏRİ

M.KAŞĞARİ “DİVAN”INDA İSMİN HALLARI **66**
Elnarə Əliyeva

TACƏDDİN ƏHMƏDİNİN “CƏMŞİD VƏ XURŞİD” MƏSNƏVİSİNDƏ İSLAM TERMİNOLOGİYASI VƏ DİNİ LEKSİKANIN TƏDQİQİ **69**
Arzu İsgəndərzadə

UĞAN: QƏDİM TÜRK DİLİNDƏKİ İZLƏRİ **74**
Günəş Mustafayeva

TÜRK DİLİNİN FRAZEOLOJİ BİRLƏŞMƏLƏRİNDƏ GEYİM ADLARININ FUNKSİONAL XÜSUSİYYƏTLƏRİ **77**
Selcan Akden

UKRAYNA DİLİNDƏ TÜRK MƏNŞƏLİ SÖZLƏRİN YARANMA TARİXİ VƏ TƏSNİFATI **81**
Müşgünaz Nağıyeva

TÜRK DİLLƏRİNDƏ FUNKSİONAL SİNTAKSİS VƏ DİLİN KATEQORİYALARI (ASPEKTUALLIQ VƏ MODALLIQ) **86**
Dilbər Camali

QIPÇAQ DİLİNDƏ FEİLLƏRİN SİNONİMLİK XÜSUSİYYƏTLƏRİ (“Codex Cumanicus”un materialları əsasında) **89**
İmanyar Quliyev

TÜRK DİLİNDƏ SAİT FONEMLƏR **93**
Təranə Şükürlü

AZƏRBAYCAN VƏ TÜRK AŞIQ ŞEİRİNDƏ TƏSƏVVÜF MƏNALI İFADƏLƏRİN METAFORİKLƏŞMƏSİ **95**
Gülnarə Əliyeva

TÜRK DİLLƏRİNDƏ KƏMİYYƏT KATEQORİYASININ ŞƏKİLÇİ MORFEMLƏRLƏ REALLAŞMA ÜSULLARI **98**
Pərvin Qəribova

V BÖLMƏ
TERMİNOLOGİYA VƏ ONOMASTİKA MƏSƏLƏLƏRİ

QARABAĞ BÖLGƏSİNDƏ ANTROPONİMLƏRDƏN ƏMƏLƏ GƏLƏN MİKROTOPONİMLƏR **102**
Ayşən İsmayıllı

MÜASİR AZƏRBAYCAN DİLİNDƏ ONOMASTİK VAHİD KOMPONENTLİ FRAZEOLOGİZMLƏR VƏ ONLARIN LİNQVİSTİK XÜSUSİYYƏTLƏRİ **107**
Günay Əliyeva

NƏSİMİ YARADICILIĞINDA "AYƏT" QURANI TERMİNİ **109**
Xədicə Heydərova

AZƏRBAYCAN TOPONİMLƏRİ YUNAN MƏNBƏLƏRİNDƏ **113**
Ülkər Mirzəyeva

ANARIN ƏSƏRLƏRİNDƏ BƏZİ KTEMATONİMLƏRİN ÜSLUBİ XÜSUSİYYƏTLƏRİ **117**
Püstəxanım Babayeva

FOLKLOR ONOMASTIKASININ LİNQVOKULTUROLOJİ XÜSUSİYYƏTLƏRİ **119**
Rafiq Məmmədov

ONOMASTİK VAHİDLƏRDƏ KONVERSİYA PROSESİ **122**
Validə Abbasbəyli

QƏRBİ AZƏRBAYCANDA TÜRKMƏNŞƏLİ ZOOTOPONİMLƏRİN ETİMOLOJİ-SEMANTİK MƏNZƏRƏSİ **124**
Saffet Alp Yılmaz

VI BÖLMƏ
NƏZƏRİ VƏ TƏTBİQİ DİLÇİLİK

GENERATİV QRAMMATİKA NƏZƏRİYYƏSİNİN NOAM XOMSKİ POSTULATLARI **131**
Qismət Cəfərov

İDEOLOJİ METAFOR ANLAYIŞININ FUNKSİONAL ƏSASLARI **134**
Səmra Həsənzadə

DİLÇİLİKDƏ ELMİ PARADİQMA DƏYİŞİKLİKLƏRİ **137**
Vəfa Allahverdiyeva

ÇOXMƏNALILIĞIN MƏDƏNİ-SOSİAL AMİLLƏRİ **141**
İlhamə Xanəliyeva

DİL SƏRİŞTƏSİNİN QİYMƏTLƏNDİRİLMƏSİNDƏ SÜNİ İNTELLEKTİN ƏHƏMİYYƏTİ **144**
Sayalı Quliyeva

PAREMİYALARDA SAYLARIN MİFOPOETİK ANLAMI **148**
Nuray Nurizadə

DİALOJİ NİTQİN LİNQVİSTİK XÜSUSİYYƏTLƏRİ **151**
Nigar Nağıyeva

A. MİTSKEVİÇİN "ŞƏRQ ÇİÇƏKLƏRİNİN" DİLİ HAQQINDA **156**
Bahar Qədirova

TƏRCÜMƏ DİSKURSU VƏ EKVİVALENTLİK ANLAYIŞI **160**
Tairə Axundova

SOSİAL-MƏDƏNİ REALİLƏRİN LİNQVİSTİK XÜSUSİYYƏTLƏRİNƏ DAİR **164**
Səbinə Mehrəliyeva

SİYASİ DİSKURSDA PARALELİZMLƏR **168**
Günay Təhməzova

ETİMOLOJİ LÜĞƏTLƏRİN TƏRTİBİ PRİNSİPLƏRİ **170**
Nuranə Hüseynova

PARSELYASİYA ÇOXASPEKTLİ POLİFUNKSİONAL VƏ ASSİMMETRİK-SİNTAKTİK HADİSƏ KİMİ **174**
Leyla Piriyeva

VII BÖLMƏ
MÜQAYİSƏLİ TİPOLOJİ DİLÇİLİK

MÜXTƏLİFSİSTEMLİ DİLLƏRDƏ ZİDD SEMANTİKA DAŞIYAN "DOST" VƏ "DÜŞMƏN" KONSEPTLƏRİ VƏ ONLARIN DİLDƏ FUNKSİONALLAŞMA ÜSULLARI **177**
Əfsanə Baxşəliyeva

AZƏRBAYCAN VƏ MÜASİR YUNAN DİLİNDƏ BƏNZƏR VƏ YA EYNİ MƏNA KƏSB EDƏN SABİT SÖZ BİRLƏŞMƏLƏRİ **180**
Pərvin İsgəndərova

ÇIXIŞDA EMOSİONAL TƏSİR VASİTƏSİ KİMİ NİTQ HİSSƏLƏRİ **182**
Əsmər Cəfərli

AZƏRBAYCAN (NAXÇIVAN FOLKLOR NÜMUNƏLƏRİ ƏSASINDA) VƏ İNGİLİS DİLLƏRİNDƏ TAPMACA CÜMLƏ STRUKTURU **186**
Gülvira Abbasova

VIII BÖLMƏ
HİND-AVROPA DİLLƏRİ

QLOBAL DİL KİMİ İNGİLİS DİLİNİN DÜNYA DİLLƏRİNƏ TƏSİRİ **190**
Firuzə Kərimova

FRANSIZ DİLİNDƏ AİLƏ KONSEPTİ İFADƏ EDƏN FRAZEOLOJİ BİRLƏŞMƏLƏRİN LEKSİK-SEMANTİK TƏHLİLİ **193**
Günay Məhərrəmova

İNGİLİSDİLLİ REKLAM MƏTNLƏRİNDƏ İSPAN ALINMALARI **196**
Xanım Abbasova

HİND-AVROPA DİLLƏRİ **199**
Yaqub Axundov

GERMANŞÜNASLIQDA LEKSİKOQRAFİYA MƏSƏLƏLƏRİNİN TƏDQİQİ **204**
İzzət Cabbarova

Qətibə Mahmudova[1]

AZƏRBAYCAN DİLÇİLİYİNİN SABAHI ETİBARLI ƏLLƏRDƏDİR

Hörmətli İsa müəllim!

Hörmətli Nadir müəllim!

Hörmətli qonaqlar və dəyərli gənc dilçilər! Gələcəyin alimləri!

Gənclərimizin bir fərd, əsl Azərbaycan vətəndaşı kimi formalaşmasında müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, Ümummilli Lider Heydər Əliyevin danılmaz əməyi, misilsiz xidmətləri var. Ulu Öndərin rəhbərliyi ilə aparılan məqsədyönlü siyasətin nəticəsində respublikamızda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə və milli düşüncəyə malik gənclər formalaşdı. Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı ilə gənc nəslə diqqətin göstərilməsi dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrildi.

1999-cu ildə Heydər Əliyev tərəfindən imzalanan dövlət gənclər siyasəti haqqında Fərman bu sahəyə Prezident səviyyəsində böyük önəm verilməsinin təzahürü kimi qiymətləndirilə bilər. "Dövlət gənclər siyasəti haqqında" fərman çox geniş spektri - gənclərin təhsili, tərbiyəsi, sağlamlığı, intellektual və mənəvi inkişafı, asudə vaxtın təşkili problemlərinin həlli, hüquqların müdafiəsi, respublikanın ictimai-siyasi və mədəni həyatında iştirakı ilə bağlı məsələləri əhatə edir. Dövlət gənclər siyasəti bu məqsəd və prinsiplərin reallaşdırılması üçün hazırlanıb, müvafiq hüquqi sənədlərdə öz əksini taparaq hökumət qurumlarının icrasına yönəldilib. Fərmana müvafiq olaraq "Gənclər siyasəti haqqında'" Azərbaycan Respublikasının Qanunu qəbul edilib və 9 aprel 2002-ci il tarixində Ulu Öndər Heydər Əliyev tərəfindən imzalanıb.

Bu gün də gənc nəslin düzgün yetişdirilməsi ölkə siyasətində önəmli yer tutur. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan dövlət gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün Azərbaycan gəncləri bütün sahələrdə özlərini doğruldurlar. O cümlədən elm sahəsində. Ulu Öndərin gəncliyə və gənclərə etimadı bu gün artıq öz təsdiqini tapmaqdadır. Bu gün ölkəmizdə gənclər siyasəti mahiyyət və keyfiyyətcə yeni mərhələsini yaşayır. Prezident İlham Əliyev Ulu Öndərin gənclər siyasətinə sadiqliyini öz qərarları ilə təsdiq edir.

Prezident İlham Əliyev dekabrın 29-da "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının təsdiq edilməsi haqqında Fərman imzalayıb. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası ölkə həyatının bütün sahələrində inkişaf siyasətinin əsas strateji hədəflərini özündə ehtiva edir və onun həyata keçirilməsi məqsədli dövlət proqramları vasitəsilə gerçəkləşdiriləcəkdir" – deyə, fərmanda bildirib.

Həmin konsepsiya əsasında "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı hazırlanmış və Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2017-ci il 15 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir.

Gənclərin mənəvi inkişafı, vətənpərvərlik tərbiyəsi, xarici ölkələrdə təhsili, sosial müdafiəyə ehtiyacı olanların problemlərinin həlli istiqamətində görülən işlər, gənclər təşkilatlarının formalaşması və inkişafı üçün yaradılan şərait və imkan bu sahəyə böyük diqqətin nəticəsidir.

Ümummilli liderimiz Heydər Əliyev daim gənclərin himayəçisi olmuş, xüsusilə elmə qədəm qoyan gənclərə daim qayğı göstərmişdir. Məhz bu səbəbdən də gənc dilçilərin "Sələflər və xələflər" elmi konfransı Ümummilli liderin 102 illik yubileyinə həsr olunmuşdur. Ümummilli liderimiz Heydər Əliyevin 102 illik yubileyinə həsr olunmuş *Gənc Dilçi Doktorant və Dissertantların Respublika Konfransının* keçirilməsinin əsas səbəbi də gənc nəsildə öz sələflərinə, görkəmli dilçi alimlərə hörmət, ehtiram hissinin aşılanmasının vacibliyidir.

[1] Filologiya elmləri doktoru, dosent, AMEA Nəsimi adına Dilçilik İnstitutunun Həmkarlar Təşkilatının sədri.

Bugünkü konfransın keçirilməsinə şərait yaradan AMEA prezidenti, akademik İsa Həbibbəyliyə, Dilçilik İnstitutunun direktoru, professor Nadir Məmmədliyə gənclər adından təşəkkür edirik. Konfrans Dilçilik İnstitutunun Gənc alimlər və mütəxəssislər şurasının təşəbbüsü, institutun Həmkarlar Təşkilatı, Doktorantura və dissertantura şöbəsinin dəstəyi ilə gerçəkləşməkdədir.

Konfransın adı da təsadüfi seçilməmişdir. Ta qədimlərdən atalar və oğullar, analar və qızlar, müəllimlər və tələbələr, sələflər və xələflər mövzusu aktual olmuşdur. Aralarında zaman, təcrübə, elmi təcrübə, dünyagörüşü baxımından fərqlərin olmasına baxmayaraq, hər iki nəsil daim bir-birindən öyrənmiş, bir-birlərinin fikirlərinə hörmətlə yanaşmış, bir-birlərinə dayaq olmuşlar.

Hələ 22-25 oktyabr 2014-cü il tarixlərində Bakıda AMEA Nəsimi adına Dilçilik İnstitutunun təşkilatçılığı ilə görkəmli ictimai xadim Əli bəy Hüseynzadənin 150 və akademik Məmmədağa Şirəliyevin 105 illik yubileylərinə həsr olunmuş "Sələflər və xələflər" mövzusunda birinci Beynəlxalq konfrans keçirilmişdir. Biz də öz sələflərimizdən öyrəndiklərimizi gənc nəslə ötürmək, onların elmi inkişafına təkan vermək üçün bu konfransın keçirilməsinə qərar verdik. Düzü, təşkilat komitəsi konfransın elanını verdikdə bu elm məclisinə bu qədər çox maraq və müraciətin olmasını gözləmirdik. Konfransa məqalələr 8 bölmə üzrə qəbul olunmuşdur:

1. Azərbaycan dilçiliyi
2. Dil və üslubiyyat məsələləri
3. Dialektologiya və ədəbi dil məsələləri
4. Türkologiyanın aktual problemləri
5. Terminologiya və onomastika məsələləri
6. Nəzəri və tətbiqi dilçilik
7. Müqayisəli-tipoloji dilçilik
8. Hind-Avropa dilləri

Konfransın təşkilat komitəsinə respublikanın müxtəlif elm və təhsil müəssisələrindən – Nəsimi adına Dilçilik İnstitutu, Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Naxçıvan Dövlət Universiteti, AMEA-nın Naxçıvan bölməsi, Bakı Slavyan Universiteti, Azərbaycan Dillər Universiteti, Sumqayıt Dövlət Universiteti, Lənkəran Dövlət Universiteti və Gəncə Dövlət Universitetindən ümumilikdə 67 nəfər doktorant və dissertantdan konfrans materialı daxil olmuşdur. Konfransın tələblərinə cavab vermədiyi üçün 10 nəfərin məqaləsi qəbul olunmamışdır. 55 nəfərin məqaləsi qənaətbəxş hesab edilərək çapa tövsiyə olunmuşdur.

Burada bir nüansı da nəzərinizə çatdırmaq istərdim. Bu gün Azərbaycan elmində bir gender problemi müşahidə olunmaqdadır. Konfransın 55 iştirakçısından cəmi 5 nəfəri kişi doktorantdır. Ümidvarıq ki, Azərbaycan dövlətinin elmə gələn gənclərə qayğısı daha da artacaq və gender bərabərsizliyi aradan götürüləcəkdir.

Konfransın təşkilində fəallıq göstərdiyi üçün institutumuzun Türk dilləri şöbəsinin əməkdaşlarına xüsusi minnətdarlığımızı bildiririk.

Konfransın işində bütün gənc alimlərə uğurlar diləyirik!

Arzu İsgəndərzadə[2]

ELM KÖRPÜSÜ: SƏLƏFLƏRDƏN XƏLƏFLƏRƏ BİLİK VƏ DƏYƏR AXINI

Hörmətli İsa müəllim!

Hörmətli Nadir müəllim!

Hörmətli konfrans iştirakçıları, əziz alimlər, dəyərli qonaqlar!

Əvvəlcə hamınızı Azərbaycan Milli Elmlər Akademiyası, Nəsimi adına Dilçilik İnstitutunun Gənc Alim və Mütəxəssislər Şurası adından salamlayır, Gənc dilçi doktorant və dissertantların "Sələflər və Xələflər" Respublika elmi konfransında iştirak etdiyiniz üçün təşəkkürümü bildirirəm.

İcazənizlə, çıxışımın əvvəlində bu mühüm elmi konfransın ərsəyə gəlməsində dəstəyi və əməyi olan bir sıra dəyərli şəxslərə təşəkkürümü bildirmək istəyirəm.

İlk olaraq, Azərbaycan elminin strateji inkişaf xəttini müəyyənləşdirən, gənc alimlərə daim dəstək göstərən Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyliyə bu konfransın təşkilinə verdiyi töhfəyə görə dərin minnətdarlığımı bildirirəm.

Dilçilik İnstitutunun direktoru, professor Nadir Məmmədlinin elmi təşəbbüslərə verdiyi dəstək bizim fəaliyyətimizi daha da stimullaşdırır. Ona da xüsusi təşəkkürümü bildirirəm.

Həmçinin, Dilçilik İnstitutunun Həmkarlar Təşkilatının sədri Qətibə Mahmudovanın da gənclərə olan diqqəti, bu kimi tədbirlərin təşkilindəki fəallığı minnətdarlığa layiqdir.

Əziz iştirakçılar!

Bugünkü konfransımız müasir Azərbaycanın memarı, xalqımızın dahi oğlu, Ulu Öndər Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuşdur.

Qeyd edək ki, Heydər Əliyev şəxsiyyəti təkcə siyasi lider kimi deyil, həm də maarifçi, elmə və mədəniyyətə xüsusi önəm verən bir şəxsiyyət kimi xalqımızın yaddaşında yaşayır. Onun hakimiyyəti dövründə elm və təhsilin inkişafı üçün atdığı addımlar bu gün də öz bəhrəsini verir. Heydər Əliyev deyirdi: *"Elm və təhsil hər bir millətin gələcəyinin təminatıdır."* Məhz bu baxış bucağı bu gün də Azərbaycan elminin inkişafında əsas istiqamət kimi götürülür.

Heydər Əliyevin milli dil siyasəti xüsusi olaraq qeyd olunmalıdır. O, Azərbaycan dilinin dövlət dili kimi Konstitusiyaya salınmasına nail oldu və bu dili yalnız hüquqi müstəviyə gətirmədi, eyni zamanda onun inkişafını, elmi və ədəbi bazasının zənginləşməsini dəstəklədi. Onun ifadə etdiyi "Dil hər bir xalqın varlığının, milli-mənəvi dəyərlərinin əsasını təşkil edir" fikri bizim üçün çağırışdır. Bu çağırışı biz – gənc alimlər – elmi tədqiqatlarımızla, təşəbbüslərimizlə, layihələrimizlə davam etdiririk.

Biz bu gün burada elmin sələflərini – böyük alimlərimizi ehtiramla anırıq və onların yaratdığı elmi bazanı gələcək nəsillərə ötürmək üçün bir körpü qururuq. Biz sələflərimizin zəngin mirasını dərindən öyrənməli, onları çağdaş elmi yanaşmalarla birləşdirərək yeni tədqiqat istiqamətləri müəyyənləşdirməliyik. Bu konfrans da məhz bu məqsədə xidmət edir: müxtəlif nəsillərin alimlərini bir araya gətirmək, ideyaların mübadiləsinə şərait yaratmaq, gələcək üçün möhkəm elmi təməllər formalaşdırmaq. Bu körpünün hər iki tərəfində duranlar – həm ustadlar, həm də gənclər – Azərbaycan elminin davamlılığını təmin edirlər.

Bu platforma gənc tədqiqatçılara öz elmi fikirlərini paylaşmaq, sələflərindən öyrənmək və elmi irsi davam etdirmək imkanı verir. Elə konfransa göndərilən materiallara da nəzər saldıqda gənclərin fəal şəkildə elmi konfransa qoşulması, yeni baxış bucaqları gətirməsi və müasir çağırışlara uyğun tədqiqat istiqamətləri müəyyən etməsi bizi sevindirir.

Müasir dünyada elmi inkişaf yalnız biliklə deyil, həm də yaradıcı düşüncə, innovasiya və əməkdaşlıqla mümkündür. Bu mənada biz gənc alimlərə böyük vəzifə düşür. Elmin

[2] AMEA Nəsimi adına Dilçilik İnstitutunun Gənc Alim və Mütəxəssislər Şurasının sədri, AMEA Nəsimi adına Dilçilik İnstitutunun Türk dilləri şöbəsinin böyük elmi işçisi.

populyarlaşdırılması, nəticələrin tətbiqə yönəldilməsi və beynəlxalq elmi aləmə inteqrasiya bugünkü gənc nəslin üzərinə düşən vəzifələrdəndir.

Ulu Öndər Heydər Əliyevin qurduğu elmi-siyasi irs bizə öz gücümüzə inanmağı öyrədir. Biz bu irsdən güc alaraq, Azərbaycanın gələcəyini daha da parlaq edə bilərik.

Əminliklə deyə bilərəm ki, bu gün burada iştirak edən gənclər arasında gələcəyin böyük alimləri, mütəxəssisləri var. Biz birgə əməkdaşlıqla elmimizi daha da gücləndirə, beynəlxalq səviyyədə layiqincə təmsil edə bilərik.

Hörmətli iştirakçılar!

Bu konfrans bir başlanğıcdır. Arzumuz budur ki, bu ənənəvi xarakter alsın, hər il sələf və xələf elmi düşüncələrinin qovuşduğu bir məkana çevrilsin. Biz bu tədbirlərlə həm Ulu Öndərin xatirəsini yaşadır, həm də gələcəyin alimlərini yetişdiririk.

Sonda konfransın uğurlu keçməsini arzulayır, bütün məruzəçilərə elmi fəaliyyətlərində müvəffəqiyyət diləyirəm.

Diqqətinizə görə təşəkkür edirəm!

I BÖLMƏ
AZƏRBAYCAN DİLÇİLİYİ

AZƏRBAYCAN DİLİNDƏ ANLAMA FEİLLƏRİNİN SEMANTİK XÜSUSİYYƏTLƏRİ

Aytən Əfəndiyeva
Gəncə Dövlət Universiteti
Azərbaycan, Gəncə
83aytan@gmail.com

Azərbaycan dilinin feil sistemi digər nitq hissələrindən orijinallığı və milliliyi ilə seçilir. Belə ki, insan təfəkküründə nitqdə inikasında xüsusi önəm kəsb edən bu leksik vahidlər fikrin ifadəsi zamanı nitqi davranışın həyata keçirildiyi şəraitdən asılı olaraq tam fərqli çalarlarda işlənmə potensialına malikdir. Anlama prosesi bir neçə ardıcıl alqoritmdən ibarət olduğundan bu proses biristiqamətli olduğu kimi, ikisitiqamətli də baş verə bilər. Yəni dinləyən, məlumatı qəbul edən onun təfəkküründə təhlil edib anladığı kimi, yeni bir biçimdə qarşı tərəfin anlamasına da şərait yarada bilər ki, bu zaman əldə edilən nəticə anlama prosesinin bir dövrəsinin başa çatmasının göstəricisinə çevrilir.

"*İnsan fəaliyyəti məqsədyönlüdür, biz onun məqsədi haqqında suala keçəndə, insanın cəmiyyətdə özünü aparmasının təhlinə keçirik... Adam danışır ki, başqasına nəsə desin, ondan nəyisə və s. xahiş etsin — bu zaman nitq fəaliyyəti həmişə məqsədyönlü olur*" [1, s.63].

Mahmud Kaşğarinin "Divanü-lüğat-it Türk" əsərində feillləri geniş təhlil edərək araşdıran E.Məmmədova qeyd edir ki, "*düşüncə aktının nəticəsi məzmunlu feillər də dildə xüsusi çəkiyə malikdir. Məlumdur ki, təfəkkür prosesi sonda bu aktın nəticəsi ilə başa çatır... Bu feillərin özü də müxtəlif semantik çalarlara malikdir*" [4].

Müəllif buradakı feilləri təhlil edərkən yazır ki, burada "*qeyd olunan feillərin bir qismi təfəkkür prosesi nəticəsində "anlamaq, başa düşmək" məzmunu bildirir. Buraya usla — "anlamaq", uk —"anlamaq", odhğar — "anlamaq" feilləri daxildir. Qeyd edək ki, sonuncu feil ifadə etdiyi mənaya görə əvvəlkilərdən çalar səviyyəsinədə fərqlənir. Belə ki, bu söz tam mənasında "xeyli sonra anlamaq" məzmununa malikdir. Bu fikir süçün – feili haqqında da söyləmək olar. Bu söz "sözün feyzini anlamaq" mənasına malikdir* [4].

Bir məsələni də xatırladaq ki, zahirən bu tip feillərə bənzəyən sözlər var ki, əslində, sözün ifadə etdiyi məzmun təfəkkürlə bağlı olsa da, tamam başqa anlayışa malikdir" [7, s.60]. E.Məmmədova öz araşdırmasında "başa düşmək" və "başa salmaq" feillərindən birincini təfəkkür, ikincini isə iş feili kimi qələmə alır. Bu feillərin, demək olar ki, eyni məna ifadə etməsi onların valentliyi ilə bağlı olan məsələdir. "*Frazemdaxili struktur səviyyəsində valentlik feilə məxsusdur, yəni hansı sözlərlə birləşmə əmələ gətirməsi məsələsi feilin semantik həcmindən asılıdır. Lakin "miniatür məcaz" olması xüsusiyyətinə əsasən frazeologizmin daxilində nitq və təfəkkür feillərinin distribusiyası, valentlik imkanı genişdir. Məsələn, "başa düşmək" feili hansısa danışığı, məsələni, gizlədilən bir hərəkəti başa düşmək anlayışı ilə bağlıdır*" [6, s.23]. Məsələn, daxili semantikaya görə "başa salmaq" söyləmi "başa düşmək" söyləmi ilə yaxındır. "*Belə ki, başa düşmək başa salmaq prosesinin nəticəsidir, halbuki, başa salmaq təfəkkür feili deyil, iş feilidir. Abidədə "başa salmaq" mənasında uktur feili verilmişdir ki, bu da "başa düşmək" mənasında olan uk feili ilə eyniköklüdür. Bu tipdən olan feillərin bir qismi görüb-anlama nəticəsində müəyyən biliyə sahib olmaq semantikasını bildirir. Məsələn, abidədə verilmiş bil sözü müasir oğuz dillərində, əni Azərbaycan, türk türkmən və qaqauz dillərindəki mənaya malikdir. Bu söz "bilsik" formasında "bilinmək, faş olmaq" mənasındadır*" [7, s. 60].

"*Frazeoloji sabit birləşmə yaranarkən "başa düşmək" feilinin birləşmə əmələ gətirmək qabiliyyətində — valentliyində genişlənmə baş vermişdir... Leksik vahidin strukturu nə qədər sadə olsa, onların frazeoloji vahid yaratma qabiliyyəti də bir o qədər yüksək olur*" [10, s.24].

"Azərbaycan dilinin sinonimlər lüğəti"ndə "anlamaq" feilinin sinonimləri kimi bu feillər qeyd edilir: "*qanmaq, başa düşmək, baş açmaq, baş çıxarmaq, düşünmək, baş tapmaq, dərk etmək, düşünmək, qavramaq*". "Anlatmaq" feilinin sinonimləri kimi isə "*aydınlaşdırmaq, başa salmaq, izah etmək, qandırmaq*" kimi feillər qeyd edilir [8, s.25]. Bu feillər arasında diqqətimizi çəkən "izah etmək" feili nitq feilləri ilə təfəkkür feilləri arasındakı keçid mövqedə bərqərar olub desək, yanılmarıq, çünki kontekstdən asılı olaraq, qeyd edilən feil bəzi məqamlarda "bəyan etmək" mənasında nitq feili kimi çıxış edir. Nitqi situasiyaların əksəriyyətində isə təqdim olunan məlumatın daha asan qavranılması üçün detallı şəkildə təqdimatına işarə edərək anlama feili kimi funksionallaşır.

Təsadüfi deyil ki, Azərbaycan dilinin izahlı lüğətində bu feilin mənalarından biri kimi "*anlatmaq, şərh etmək, açmaq, bəyan etmək*" [2, s. 617] qeyd edilir. Bu feilin anlama semantikasına misallar üzərindən nəzər yetirək: "*Təhminə özü Zauru başa salmışdı ki, Dadaş necə edir bunu və nə səbəbdən edir? İndi də Spartak? Yəqin söz düşsəydi, Təhminə Spartak məsələsini də dəqiq-dürüst izah edərdi Zaura*" [3, s.169];

Hər iki nümunədə "izah etmək" feili "anlatmaq, başa salmaq" mənasında işlədilmişdir.

Anlama feilləri sırasına "idrak etmək" feilinin də əlavə edilməsi daha yaxşı olardı. Müasir Azərbaycan dilində geniş işləkliyə malik olmayan "idrak etmək" feilinə "anlamaq, dərk etmək" mənasında daha çox ədəbi klassiklərin əsərlərində təsadüf etmək mükündür: "*Hər xəyalın idrak edən; Könül güzgüsün pak edən* (Əmani); *Mən idrak etmədim dünyaya gəlməkdən nədir hikmət…*(M.Hadi); *Qul olduğunu edincə idrak; Hürriyyətin istəmişdi bibak* (A.Səhhət)" [11].

Anlama feillərin leksik əhatəsi məsələsinə topxunduqda, qeyd etmək istərdik ki, bu feillər ikivalentlidir, yəni onların semantik strukturu "anlamaq" feilini əhatə edən anlamanın subyekt və obyektinin olmasını tələb edir. Anlama feillərinin semantikasının əsas əlamətləri kimi bunları qeyd edə bilərik: 1. Subyektin növü: burada anlama prosesini həyata keçirən subyekt insan (*Mən də daha Cırtdanla zarafat etməyin necə təhlükəli bir iş olduğunu anladım* [5, s. 262]), digər canlı növü (*At da sahibinin fikrini başa düşmüş kimi təlasir, az qala qanadlanıb uçurdu* [9, s. 23]), mücərrəd anlayış (*Hisslər sözləri dərk eləmir* [3, s. 67]), bədən üzvləri (*Qəlbim məni başa düşmədiyi halda* [4, s. 129]), təbiət hadisələri *(Planetimiz də bizi anlamağa başlayar* [4, s. 89]) və s. ola bilər; 2. Anlamanın yönəldiyi obyektin növü: obyekt qismində hiss və duyğular (*İndi Fındıqburunun məqsədini başa düşüb dedi* [4, s. 92]), insan və digər canlılar (*Mən səni anlayıram* [5, s. 129]).

"Mən də daha Cırtdanla zarafat etməyin necə təhlükəli bir iş olduğunu anladım" [5, s. 262] nümunəsində belə görünür ki, "anlamaq" feilinin subyekti qismində konkret bir şəxs çıxış edir və bu feil onun digər insanların davranışı, dəyərləri haqqında bilgili olmasına işarə edir ki, bu da bu feilinin epistemik-praqmatik məzmunun göstəricisi kimi çıxış edir.

Bu nümunələrə nəzər saldıqda, "anlamaq" feilinin məzmununda epistemik-praqmatik göstəricilərin başqa bir yöndə özünü biruzə verdiyinin şahidi oluruq. Belə ki, burada insan davranışının dəyərləndirilməsi də nəzərdə tutulur: özünü harada və necə aparmaq lazımdır, müəyyən davranış qaydalarına riayət edilməldir və ya hiss və emosiyaları fərqli situasiyalara görə cilovlamaq və ya idarə etmək bacarığının olmasına işarə edilir. Bu definisiyadan belə görünür ki, burada həmsöhbətin istifadə etdiyi söz və işarələrin mənasını anlamaq məzmunu ifadə edilib ki, bu da siqnifikativ anlamadır.

... və Zaur yenə də axıracan anlaya bilmirdi — doğrudanmı Təhminə səmimi deyir bu sözləri, onu sevdiyindən deyir, ya dolayır, ələ salır... [3, s. 231].

Burada hadisələrin və hadisələrin qiymətləndirilməsinə eyni münasibəti və oxşar davranış sərgiləyən, yaxın və ya oxşar dəyərlərə malik insanların motivlərini və məqsədlərini başa düşmək nəzərdə tutulur. Bu, feilin epistemik-praqmatik məzmunudur.

Anlama feillərinin semantik əlamətləri: anlama feillərinin semantik əlamətlərinə görə təsnifatı zamanı aşağıdakı meyarlar nəzərə alınmalıdır: subyekt tərəfindən informasiyanın hansı üsulla alınması: İnsan məlumatı görmə, eşitmə, iybilmə və toxunuş hissi ilə əldə edə bilir; subyekktin aldığı informasiyanın kimə və ya nəyə aid olması: insana, müəcrrəd varlıq və ya hadisəyə, canlılar aləmi və ya təbiətə, cansız əşyaya və s.

Təhlil zamanı anlama feillərinin subyekt-obyekt, eləcə də kəmiyyət-keyfiyyət xüsusiyyətləri aşkar edilmişdir. Azərbaycan və ingilis dillərinin feillərinin subyekt-obyekt parametrləri ardıcıl və eyni tipdə təqdim olunursa (hərəkətin subyekti və obyekti ya aktiv, konkret və canlı, ya da passiv, mücərrəd və cansızdır), onda dərketmənin kəmiyyət-keyfiyyət xüsusiyyətləri (fəaliyyətin metodu və xarakteri, intensivliyi və zamanın uzunluğu kimi) istəyə bağlıdır və bəzi hallarda tədqiq olunan feillərin kontekstdə istifadəsi ilə əlaqələndirilir. Bundan əlavə, bu əlamətlər bizim tərəfimizdən müəyyən dərəcədə şərtiliklə seçilir ki, bu da anlama feillərinin xüsusiyyətləri ilə izah olunur – onların ifadə etdiyi proses demək olar ki, heç bir xarici təzahürə malik deyil, yalnız insan şüurunda davam edir.

THE SEMANTIC FEATURES OF VERBS OF UNDERSTANDING IN AZERBAIJANI LANGUAGE

Abstract

The verb system of the Azerbaijani language stands out from other parts of speech with its originality and national character. Since the process of comprehension consists of several consecutive algorithms, it can occur not only in a one-way direction but also in a two-way direction. That is, the listener or recipient of the information may not only analyze and comprehend it within their own mind, but also facilitate the understanding of the other party in a new form. In this case, the result obtained becomes an indicator of the completion of one cycle of the comprehension process. An examination of the functions of basic understanding verbs as direct nominative markers shows that these verbs have an implicative function. It is rare to find them performing a perceptive function. On the other hand, in dialogue texts, it is also quite common to encounter cases where verbs of understanding are used to confirm information and facts.

The article examines the lexical semantic properties of the verb “başa düşmək” (to understand).

Keywords: Azerbaijani language, verb to understand, lexical-semantic meaning, analysis

Ədəbiyyat siyahısı

1. Abdullayev, Ə.Ə. Mətn, məna və anlama: kommunikativ-koqnitiv təhlil:/ filol.e.d.dissert./ – Bakı, 2001. – 359 s.
2. Azərbaycan dilinin izahlı lüğəti. – II c. –2006. –790 s.
3. Anar. Seçilmiş əsərləri / Anar. – Bakı: Lider nəşriyyat, – 2004. – 416 s.
4. Xəlil, Z. Seçilmiş əsərləri: Uşaqlar üçün nağıl-povestlər / Z.Xəlil. – III c. – 405 s.
5. Kərim, Ə. Seçilmiş əsərləri: [II cild]. (Nəsr əsərləri) / Ə.Kərim. – Bakı: Elm və təhsil, –2012. –500 s.
6. Məmmədova, E.A. Mahmud Kaşğarinin “Divanü-lüğat-it Türk” əsərində feil: / filologiya üzrə fəlsəfə doktoru dis. / – Bakı, – 2015. –150 s.
7. Sadiq, Ş. Od Ərlər / Ş. Sadiq. – Bakı: Xan nəşriyyatı, – 2017. – 224 s.
8. Seyidov, Y.M. Azərbaycan dilinin qrammatikası. Morfologiya / Y.M.Seyidov. – Bakı: Bakı Universiteti nəşriyyatı, – 2010. – 215 s.
9. Şıxlı, İ. Seçilmiş əsərləri: [iki cilddə] / Şıxlı İ. – Bakı: Şərq-Qərb, – c. 2. – 2005. – 400 s.
10. Абрамов, В.Г. Семантические поля русского языка / В.Г.Абрамов. Монография. – Москва-Краснодар: Акад. Пед. И соц. Наук РФ, Кубан. Гос. Ун-т, –2003. – 338 с.
11. https://obastan.com/idrak/18081/

AZƏRBAYCAN DİLİNDƏKİ -ÇI-4 ŞƏKİLÇİSİNİN TÜRKİYƏ TÜRKCƏSİNDƏ EKVİVALENTLƏRİ

Əsmər Kərimova
Bakı Slavyan Universiteti

"Söz-düşüncənin alətidir, o fikri formalaşdırır və ifadə edir" [8,17]. Müxtəlif vasitələrlə yenidən yaradılan söz kökün ifadə etdiyi mənadan daha artığını və fərqli çalarlarını təsvir etməyə qadirdir. Söryaratma, əsasən, morfoloji, sintaktik və kalka üsulu ilə reallaşır. Dillər arasında üsulların məhsuldarlıq nisbəti və formaları fərqlilik göstərə bilir. Lakin türk dillərində morfoloji və sintaktik üsullar oxşarlıq təşkil edir və daha aktuallıq kəsb edir. Son yüzillikdə Türkiyə türkcəsində bu üsullarla yanaşı qısaltma abreviatura, məna genişlənməsi, daralması və qədim türk sözlərinin yenidən canlı dilə gətirilməsi yollarından da geniş istifadə edillir. Sözdüzəldici şəkilçinin/yapım eki sözün kökünə və ya başlanğıc formasına artırmaqla həm Azərbaycan dili, həm də Türkiyə türkcəsində yüzlərlə söz yaratmaq mümkündür. İstər milli, istərsə də alınma şəkilçilərin ayrı-ayrılıqda və ya hibrid formada söz yaradıcılığına cəlb edilməsi dillərin keçdiyi uzun inkişaf prosesinin yekunu kimi qiymətləndirilməlidir. Dildə heç də bütün sözlərə eyni növ şəkilçi artırmaqla yeni məna əldə etmək olmur. "Qaydalara və şərtlərə uyğun yaradılmayan sözlər yadırğanır və ya dilin məntiqinə zidd gələn hərf və səs yığını meydana gətirir. Dildə yeni söz yaradılarkən müəyyən qanunauyğunluğa əməl olunmalıdır" [8, 8] .

Söz yaradıcılığının dilçiliyin hansı yarusuna aid edilməsi tarixən mübahisəli məsələ olmuş və müasir dilçilikdə hələ də öz həllini tapmamışdır. Yeni yaranan sözün birbaşa leksik mənayla bağlı olması leksikologiya, bu mənanın şəkilçilər vasitəsi ilə yaranması və nitq hissələri ilə əlaqələnməsi morfologiya, sözlər arasında sintaktik əlaqənin qurulması isə sintaksis bəhsinə aid edilib-edilməməsi məsələsi dilçilərdə fərqli fikirlər formalaşdırmışdır. "Söz yaradıcılığı çoxəsrlik dilçilik elminin tərkib hissəsi olub, tarixi səciyyə daşıyır. Müəyyən zaman kəsiyində baş verən bu proses sinxron mahiyyət kəsb edir" [5,14]. Türkiyə türkcəsində bu bölgü morfologiya daxilində "söz yapımı" terminiylə adlandırılır. Söz yaradıcılığı dilin bütün səviyyələri üzrə fasiləsiz şəkildə davam edən bir prosesdir.

"Azərbaycan dilində 200, Türkiyə türkcəsində 300 -ə yaxın sözdüzəldici şəkilçi var" [4, 54-55]. Sözdüzəldici milli şəkilçilərin böyük əksəriyyəti hər iki dildə eynilik təşkil edir. Alınma şəkilçilərin çoxu qrafikası və funksiyasına görə fərqlənir. Hər iki dildə həm avropa mənşəli, həm də ərəb-fars mənşəli sözlərə qoşularaq peşə-sənət, ictimai-siyasi mövqe, əqidə, müəyyən işlə məşğul olan kəs, mənsubluq mənalarını ifadə edən –çı-4 şəkilçisi ən məhsuldar şəkilçilərdəndir. Bu mənalardan əlavə "Türkiyə türkcəsində -cı-,-cu- şəkilçisi -lar-cəm şəkilçisiylə bərabər səmt, məhəllə, kənd, küçə kimi yer adları da ifadə edir: Ayrancı, Bostancı, Akıncılar. Demirciler və s."[3, 42]. Azərbaycan dili və Türkiyə türkcəsində -çı-4 şəkilçisinə ekvivalent olaraq alınma sözlərlə birlikdə dillərə daxil olan avropa mənşəli –ist, -oloq-,-ik-, ərəb-fars mənşəli –şünas-, -saz-, -dar-, -kar-, -xor-, -baz-, -pərəst-, -pərvər-, -keş- şəkilçiləri ilə ekvivalentdir. Azərbaycan dilində avropa mənşəli -tor-, -evt-, -or- , -ör-, -er-, ərəb-fars mənşəli -ban-, -gir-, -zen-, -dan- şəkilçiləri ilə yaranan şəxs məzmunu ifadə edən sözlərin Türkiyə türkcəsində bəzilərinin ya tamamilə ekvivalenti yoxdur, ya qeyri-məhsuldardır, ya da qarşılığı söz birləşməsinin əsas tərəfi kimi "uzman, düşkün" sözlərinin vasitəsiylə verilmişdir. Hal-hazırda bəzi sözlər yuxarıda adları çəkilən şəkilçilərlə yaransa da, digər dildə ekvivalent deyil, hətta lüğətdə qarşılığı –çı-4 şəkilçisiylə verilən nümunələri təqdim edək:

Azərbaycan dili - Türkiyə türkcəsi

akvariumçu – akvarist	esperantist – esperantocu	dispetçer – yönetici
arxivşünas – arşivci	bağban – bahçivan	əfsunkar – efsuncu
çarvadar – sürücü	boksçu – boksör	əntiqə**baz** - antika**cı**
		dükan**dar** – dükkan**cı**

bədihə**gu**–
doğaçlama**cı**
ekspedit**or** –
sevkiyat**cı**
ərəb**şünas** – arab**ist**
cadu**gər**,cadu**kun**–
büyü**cü**
eksperimentat**or**-
deney**ci**
gene′t**ik** – **genetikci**
cama**dar** – hamam**cı**
eksproproiat**or**–
Istimlak**cı** gimnast –
kültürfizikci
cin**dar** – cin**ci**
energe`t**ik** - ihtisas**cı**
gül**baz** – gül**çü**
heykel**təraş** - heykel**ci**
həqiqət**pərəst** –
hakikatcı
höcət**kar** – inad**cı**
hüquq**şünas** –
hukuk**cu**
xəyal**baz** – hayal**cı**
xalça**şünas** – halçacı
xəmir**gir** – hamur**cu**
ibadət**kar** – dua**cı**
icarə**dar** – icra**cı**
idarə**dar**- idare**ci**
inqilab**baz** – inkılap**cı**
kinoppera**tor** –
kamera**cı**
kino**şünas** – sinema**cı**
komisyon**er**–
komisyon**cu**
kommun**or** –
kömür**cü**
qanun**pərəst**/**şünas**–
yasa**cı**
maarif**pərəst/pərvər**
– maarif**ci**
metal**şünas** -
metalürji**ci**
məktəb**dar** – eğitim**ci**
mina**saz** – mine**ci**
texni`k-teknis**yen**,
tekni**ser**
terror**çu** – terör**ist**
poçtal**yon**-posta**cı**

Türkiyə türkcəsində müşahidə olunub Azərbaycan dilində qarşılığı olmayan peşə-sənət, iş icraçısı mənalarını ifadə edən leksik vahidlər bunlardır; *fabrikatör, desinatör, deflatör, dekoder, distribüter, editör, güvernor, kötehor, kudumzen, kursiyer, plantator*. Azərbaycan dilində olub Türkiyə türkcəsində olmayan peşə-sənət, iş icraçısı mənalarını ifadə edən leksik vahidlər isə aşağıdakılardır:*əfsunkar, əntiqəbaz, rekvizitor, rekorsdsmen, ssenarist, şaxtyor, şikayətkar, ştangist, şərabxor, şərəşura, taksist, tarixşünas, tarzən, telefonistka, təşəbbüskar, zindanbar.*

Hər iki dildə qarşılığı eyni məzmunda olsa da, fərqli alınma şəkilçilərlə yaranan peşə-sənət, iş icraçısı mənalarını ifadə edən sözlər həm morfoloji, həm də sintaktik üsulla yarana bilir. Məsələn, f*izioterapevt-fizyoterapist, fonetist-fonolog, hidroteni'k-hidrotexniker, hindşünas-hindolog, kimyagər-alşemist, qəmxor-kederlenen, riyaziyyatşünas-matematisyen, ruhşünas-psikolog, iranşünas-iranist, insanpərvər-humanist, kisəkeş-kesedar, korrektor-düzeltmen, qədirdan-kadirşinas, ləhcəşünas-diyalektolog, mifoloq-mitaman, şəmşirbaz-zinakar, baletmeyester-koreograf.* Nümunələrdən də göründüyü kimi, leksik-semantik ekvivalentlik hər iki tərəfdə alınma mənşəli şəkilçilər ilə qorunur. Sözün semnatikasının saxlanılması ilə bir-birinə ekvivalentlik təşkil edən sözlər quruluşuna görə bəzi hallarda bir-birindən fərqlənir. Azərbaycan dilində şəxs, icraçı mənalarını ifadə edən bəzi düzəltmə sözlərin Türkiyə türkcəsindəki qarşılığı sadə sözlə verilmişdir: xəyanətkar - hain, kasadar - kassir, kəşfçi - keşşaf. Kirvə - kirfeger sözündə isə əksini görmək mümkündür. Azərbaycan dilində yuxarıda adları qeyd edilən şəkilçilərin vasitəsilə yaranan bəzi sözlərin Türkiyə türkcəsində ekvivalenti ya mürəkkəb sözlə, ya da söz birləşməs ilə verilmişdir. Məsələn, *atbaz(fars)-at düşkünü, istiqlaliyyətpərvər-hüriyetsever və ya xormeystr – hor drijoru, hesabdar - hesab uzmanı, məhkəməbaz - mahkeme düşkünü, mənsəbpərəst- görev düşkünü, nağılbaz – masal düşkünü, sərxoş-içki düşkünü və s.*

Türk dilləri arasında **–man-/-men-** şəkilçisinin varlığı barədə ilk dəfə Evliya Çelebinin "Səyahətnamə" əsərində Alman boğazından bəhs edilərkən verilmişdir. Əsərdə alman millətinin adının çəkilməsi Almanboğazı sözünün də bu köklə bağlılığının olduğu şübhələrini irəli sürmüşdür. Lakin Türkiyə türkcəsində bununla yanaşı *çalman, kırman, sarman, alaman, akman, bozman, çakman, karaman, kırman, kökmen, kuman, torman/toraman, arman* sözlərinin çoxluğu bu barədə türk dilləri arasında araşdırma aparmağa əsas verdi. Əsərdə bildirilən yerin torpağının qırmızı, yəni al rəngdə gəldiyi fikrini ortaya qoymuşdur. İ.Şahinin də araşdırmasında verildiyi kimi bu şəkilçi tarixən rəng adlarına ak+man, kara+man, gök+men formasında əlavə edilirmiş. "Türk dili coğrafiyasının müxtəlif bölgələrində əsasən rəng adı +man formasında ortaya çıxmış, ancaq zamanla işləkliyini itirərək yer adları, insan adları, kök adlarında qəlibləşərək günümüzə qədər gəlib çatmışdır" [6, 46-68]. Türkiyə türkcəsində qeyri-məhsuldar şəkilçisi olan –man-/-men- Hind-Avropa şəkilçisi olan -man- şəkilçisindən yarandığını iddia edən nəzəriyyələr də mövcuddur. Məqalədə qeyd edildiyi kimi, M.Kaşğarinin "Divani lüğəti ət türk" əsərində Türkmən sözününün "türkə bənzəyən" mənasında işlənən "türk manend" sözü fars dilindən keçmədir. Məhz buna görə də bəzi alimlər şəkilçinin alınma olduğunun

və farscadan "mamang"-bənzəyən, kimi ərəb dilindən "bən"- vətən, torpaq mənalarında işləndiyi göstərilmişdir. Besim Atalayın "Türkcəmizdə Men-Man" adlı kitabında şəkilçinin türk dillərinə xas I şəxs tək şəkilçisinin məna genişlənməsinin nəticəsində sözdüzəldici funksiyaya keçdiyini vurğulamışdır. "Türk dillərində birinci şəxs əvəzliyi olan ben/men-in Moğolcada *mi* ve Mançu dilinde mi olduğunu və bu şəkilçilərin kökü həmin əvəzliklərdən gəlmişdir. "İnsanı, kişiyi" bildiren bir leksik quruluşdan çıxan {man} ın dilin inkişafında bir tərəfdən I şəxsi bildirən qrammatik şəkilçi, digər yandan ise "yaxın, zaman, bənzər " mənalarını ifadə edən sahib olan {man} leksik şəkilçisi meydana gətirmişdir"[1, 176].

Söz yaradıcılığı baxımından bu şəkilçi feildən isim, isimdən sifət və feil düzəldir. Sağçam (sağılmalı heyvan), açımal (mayalanmış acmal), taamal (tanınmış kimsə), caşamal (təcrübəli), közömöl (basiretli), göçmen (göçebe), ekipman (üzv) mənalarında işlənən sözlərdir. Azərbaycan ədəbi dilində arzuman, (ataman, batman, behman, bombardman, buşmenlər) sağmal sözləri dəyişilmiş şəkildə qalmaqdadır. Türkiyə türkcəsində bu şəkilçi yeni söz yaratmaq ixtiyarını itirmiş olsa da, onomastik vahidlərdə, xüsusən də, insan adlarında Toraman, Doğaman formasında qalmaqdadır.

-çı-[4] şəkilçisinin tarixi qədimdir. Bu şəkilçi türk dillərinin əski və müasir formalarında öz məhsuldarlığını qoruyub saxlamışdır. Hal-hazırda Oğuz qrupu türk dilləri ilə bərabər müxtəlif fonetik variantlarda qazax, qırğız, tatar, başqırd dillərində eyni məna ifadə edən sözdüzəldici şəkilçi kimi işlənməkdədir. Yalnız "çuvaş və yakut dillərində -çı-[4] şəkilçisi yoxdur, eyni mənanı leksik və sintaktik vahidlər əvəzləyir". [2, 27]. "Bu şəkilçinin əmələ gətirdiyi mənaları tədqiq etdikdə belə bir qənaətə gəlmək olur ki, yeni sözlərin əksəriyyəti əvvəlcə əlamət bildirməyə xidmət etmiş, şəkilçilər isə sifət düzəldən məhsuldar şəkilçilər olmuşdur. İndi isə xalis ad kimi işlənən isim kateqoriyasına daxil olur"[7, 81].

Nəticədə qeyd etmək olar ki, tədqiqatlar, nümunələr türk dillərində şəkilçinin semantika və morfemikasının sabit olduğunu söyləməyə əsas verir. Eyni zamanda zamanla -çı-[4] şəkilçisinin fərqli alınma ekvivalentlərinin olması və yeniləri ilə əvəzlənməsi də qaçınılmazdır. Bu isə dildə yeni üslubi və ifadə imkanlar yaradır.

Resume

Word creation is a periodic procüss at all levels of the language. Word creation by morphological metod has always been relevant for modern Turkic languages/ The existence of different derivational equivalents of the suffix. The semantics and morphemics of the suffix -çı-[4] in modern Turkic languages are stable, however it is also possible that there are equivalent has been acquired over time.

Keywords: word formation (morphological) methods, equivalents of the suffix -çı-[4].

Ədəbiyyat siyahısı

1. Altay B. Türkçemizde men-man. //İstanbul:- 1940.-176s.
2. Buran A. Türk dilinin uzak lehçeleri.Ankara:Akçaçağ-2018.-272s.
3. Korkmaz Z. Türkiye türkçesi grameri. Ankara:-2009.- 1344s.

4. Mahmudova Q. Müasir türk dillərində sözyaratma üsulları. Bakı:-2021-253s
5. Mirzəliyeva M. Söz yaradıcılığı prosesinə dair nəzəri qeydlər [3cilddə] Bakı: Türk dillərinin tarixi-müqayisəli leksikologiyası məsələləri, -2012.- c.3-12-28s.
6. Şahin İ. Türk dilinde renk adı+man sistemi ekinin kökenine dair.//Uluslararası Türkçe edebiyat kültür eğitim dergisi.Ankara:-2015.№4.- 45-68s.
7. Zeynalov F. Türk dillərininmüqayisəli qrammatikası. [2 hissəsli] Bak:-2008.-h.1-353 s.
8. Лев Выготский.Мышление и речь. Eksmo:-2024. 544s.

MÜSTƏQİLLİK DÖVRÜ AZƏRBAYCAN BƏDİİ NƏSRİNDƏ DİALEKT FRAZEOLOJİ BİRLƏŞMƏLƏRİN İŞLƏNMƏ XÜSUSİYYƏTLƏRİ

Gülnar Ağakişiyeva
Bakı Slavyan Universiteti
dissertant
gulnar.rehimli.90@mail.ru

Dilin tarixi inkişaf yollarını, xalqımızın qədim tarixini, mədəniyyətini, adət-ənənəsi ilə bağlı bir çox məsələləri izləyən və özündə yaşadan frazeoloji birləşmələrin, ifadələrin ədəbi dilin lüğət tərkibinin zənginləşməsində, söz ehtiyatının artmasında rolu əvəzsizdir. Xalq danışıq frazeologiyasında hər bir millətin öz adət-ənənəsi, milli xüsusiyyətləri və həmin xalqın keçdiyi inkişaf yolu öz izlərini qoruyub saxlayır.

Ümumiyyətlə, sabit birləşmələr, sabit ifadələr, frazeoloji birləşmələr, vahidlər bu cür ifadələr Azərbaycan dilinin, hər bir dilin öz milliliyini ifadə edən dil vahidləri hesab olunur, çünki bu ifadələr hər bir xalqın öz düşüncə tərzi, psixologiyası ilə bağlı olan ifadələrdir.

Frazeologiya sözü yunanca “phrasis”-ifadə, loqos-anlayış, elm mənalarında işlənən sözlərdən əmələ gəlmişdir. Mənası dilçiliyin sabit söz birləşmələrini öyrənən şöbə, bir dilə məxsus sabit söz birləşmələri və ifadələrdir.

Qeyd edək ki, dilimizin zənginləşməsində mühüm rol oynayan bu vahidlərin öyrənilməsinə Azərbaycan dilçiliyində son illərdə başlansa da, ədəbi dilimizin frazeologiyasına dair az da olsa, bir neçə əsər və məqalələr yazılmışdır. Lakin dilimizin ayrı-ayrı dialekt və şivələrində işlənən zəngin frazeoloji vahidlərin tədqiqinə az əhəmiyyət verilmişdir. Bu baxımdan M.İslamovun Nuxa dialekti materialları əsasında yazmış olduğu “Frazeoloji birləşmələr” [11], M.Çobanovun “Borçalı şivələrinin leksikası” [7] adlı əsərləri çox dəyərlidir. Professor M.Məmmədli “Azərbaycan dialektologiyası” [12]

əsərində çox yığcam halda "Dialekt frazeologiyası" adı altında, professor İ.Bayramov da "Azərbaycan dialektologiyası" [3] adlı əsərində "Xalq frazeologiyası" başlığı altında yığcam şəkildə mövzuya toxunmuşlar. Həmçinin N.Həsənovanın "Yevlax şivələrinin leksikası" [10] monoqrafiyası, B.Əhmədovun "Azərbaycan dilinin Mingəçevir şivələri" [8], Nuray Əliyevanın "Naxçıvan dialektinin frazeologiyası", Ş.Məmmədovanın "Naxçıvan dialekt və şivələrində frazeoloji vahidlər" [13] adlı tədqiqat işlərindən və bu sahə ilə bağlı yazılan məqalələrdən başqa şivələrin frazeologiyası ilə bağlı elmi tədqiqata rast gəlmirik.

Müstəqillik illəri Azərbaycan nəsrində sabit birləşmələr xüsusi bir lay təşkil edir. Filoloji ədəbiyyatda sabit birləşmələr haqqında müxtəlif fikirlər mövcuddur. Azərbaycan dilindəki sabit birləşmələr məcazi olub olmamaqla iki yerə bölünür. Məcazlıq, ekspressivlik, emosionallıq daşıyan sabit birləşmələrə frazeoloji vahidlər, atalar sözləri və məsəllər, alqışlar, qarğışlar, andlar aid edilir. Məcazi sabit birləşmələr ədəbi dildə işləndiyi halda dialekt leksikasında da geniş rast gəlinir. Müstəqillik illəri Azərbaycan nəsrinin dilində işlənən sabit ifadələrin bir çoxuna müəyyən fonetik dəyişikliklərlə ədəbi dildə rast gəlinsə də, bəziləri yalnız dialekt leksikasında reallaşır. Yalnız dialekt leksikasında rast gəlinən sabit ifadələrə bunları nümunə göstərə bilərik:

Bal yemiş baş istəmək- daha çox istəyən, azla kifayətlənməyən. Amma bunu korun qızına başa salmağa *bal yemiş baş istəyir* [9, s.6]; Qapısında küllənmək- birinin evindən, ailəsindən, qapısından əl çəkməmək, çörək ummaq. Boğaz otarmaq- avaralanmaq, onun-bunun qapısında yaşamaq, yeməyə şərik olub heç bir iş görməmək. Elə dədəsi də bir köpəkoğlu, xeyirri-xidir döyül, işi-gücü onun-bunun *qapısında küllənmək, boğaz otarmaqdı* [9, s.22]. Sonuncu nümunədəki *qapısında küllənmək, boğaz otarmaq* ifadələrinə yalnız dialekt leksikasında rast gəlinir. Qeyd edək ki, bu nümunə ilə yazıçı həm də obrazın avaralığını, tənbəlliyini oxucuların gözü önündə canlandıraraq fərdiləşdirmə yaradaraq üslubi məqamda işlətmişdir. Digər nümunəyə nəzər salaq: nif tökmək- əksər şivələrdə qarğış etmək anlamında işlənir. Ələjdər bərkdən ağlayır, üzünü göyə, Allaha tutub aslanır, *nif tökürdü* [9, s.29]. Bu cümlədəki "*nif tökmək*" frazeoloji birləşməsinin Aran zonasında "nifrinini üstümə tökmə" variantı da istifadə olunur. Digər nümunələrə nəzər salaq: Dov gəlmək-(Culfa, Naxçıvan, Şahbuz) – müqavimət göstərmək, qarşı çıxmaq, hədə-qorxu gəlmək. Amma heç biri o birinə *dov gələ bilmirdi* [9, s.171]; Dolax/dolaf gəlmək- (Ağdam, Naxçıvan) aldatmaq, fırıldaq gəlmək, hiylə ilə məqsədli şəkildə qarşı tərəfi çaşdırmaq. Deyəsən, hərifi yavaş-yavaş *dolağa gətirirdi* [9, s.176]; Züy tutmaq- hay küy salmaq, boş-boş danışmaq. Ölən kimi *züy tutacaqlar* [9, s.164]; Yumurtadan yun qırxanın dərisini soymuşdular [2, s.138]; Vahimədən ödümü uddum [2, s.198]; Qaraçuxası qalxmaq- ifadəsinin semantikası vəziyyəti düzəlmək, işləri daha yaxşı getmək anlamına gəlir. İndi bir balaca *qaraçuxanız qalxıb* deyə gözünüz ayağınızın altını görmür [9, s.119]; Qırmızı körpünün o tayınnan gələnnərin *qaraçuxası* qalxıb [9, s.8]; Ala qoymaq- (Laçın) aldatmaq, hiylə gəlmək. Baxırdı ki, bu işdən Dıqqanın həqiqətən də xavarı yoxdu, ya da özünü *ala qoyur* [9, s.130]; Pələsəng olmağ- (Şamaxı) dağılmaq. Ögey ana da

bunnara baxmadı hərəsi bir tərəfə *pələsəng oldu* [9, s.109]; Marığına durmaq- Qadının marığına durdu [2, s.9] və s.

Biz bu dövr müstəqillik dövrü Azərbaycan nəsrində də bu sabit ifadələri 3 əsas bölmə altında qruplaşdırmağı məqsədəuyğun hesab edirik: frazeoloji birləşmələr, alqışlar, qarğışlar.

Frazeloji birləşmələrdə: Ürəyi qopmacaya düşmək- təşviş, həyəcan, qorxuya düşmək mənalarında işlənən bu frazeoloji vahidlə yazıçı obrazın keçirdiyi narahatlıq, qorxu hissini emosional şəkildə, obrazlı ifadə etmişdir. Ananın *ürəyi qopmacaya düşdü* -ürəyi qopmacaya düşmək [6, s.3]; Cannarına ciri əkmək- əzab vermək, birinin canını yandırmaq, üzərinə bədbəxtlik gətirmək anlamında tədqiqata cəlb etdiyimiz bədii nəsr nümunələrində işlənmişdir. Oğul-qız yox, *cannarına ciri əkiblər* [9, s.132];

Alqışlarda: Yoox *qadoylalım*, bizdə o tavana hardadı? -qadoyalım; "Sənə *sadağa gedim,* pendir-çörək yemişəm [6, s.98]**;**

Qarğışlarda: Mən o qarabaxtın balasına, kəmbaxtın balasına *balaon qabağıva döşənsin* demədim [6, s.14]**;** Cəhənnəmə eşitsinlər, *finnara* eşitsinlər; *Boyuna qamış ölçüm,* ay Səməndər, yekə kişidi bunun arvad kimi ağlamağına bax, sən canın! [5, s.113]; Deyinən *qəddəl oğlu qəddəl* xalxı ağlamaq üçün qapısına qoydu? [9, s.111]; Onun *yolu yumrulsun* [5, s.55]; və s. Bu dövr nəsr əsərlərində tədqiq etdiyimiz alqışlar, qarğışlar ədəbi dildən fərqli fonetik xüsusiyyətlərlə müşahidə olunur.

Nümunələrdən də göründüyü kimi, frazeoloji birləşmələr sabit quruluşa malik məcazi mənada işlənən vahidlərdir ki, bu vahidlər də məna baxımından bütövlük təşkil edir. Dialekt frazeoloji birləşmələr isə məhəlli danışıq formalarını əks etdirən, xalqın yerli dildən qaynaqlanan ifadələridir. Belə frazeoloji ifadələr çox vaxt konkret coğrafi məkanın mənəvi-mədəni xüsusiyyətlərini ifadə edir.

Müstəqillik illəri yazılan bədii nəsr əsərlərində yazıçılar çox zaman dialekt frazeoloji birləşmələrə müraciət etməklə əsərə milli ruh, emosionallıq, obrazlılıq, orjinallıq qatmaq istəmişlər.

Qeyd edək ki, dialekt frazeolji birləşmələr tematik baxımdan çox vaxt xalqın məişətində, təbiət hadisələrində, ailə-münasibətlərində və sosial hadisələrdə istifadə olunmuşdur. Semantik baxımından isə bu ifadələr: qorxu, sevinc, təəccüb, qəm kimi emosional hallarda real əhval-ruhiyyənin yaradılmasına xidmət edir.

Frazeolji vahidlərin yaranmasında somatik leksik vahidlər də iştirak edir. Somatik leksika dünya dillərinin, o cümlədən Azərbaycan dilinin qədim leksik layını təşkil edir. Somatik leksika insanın bədən üzvlərinin adlarını ifadə edən lüğəvi vahidlərdir. Bu leksik qatdan dil tarixi və dillərin qohumluğu ilə bağlı əsas problemlərin həllində həmişə yaxından istifadə edilmiş və edilir.

Qeyd edək ki, frazeoloji birləşmələrin əksəriyyəti somatik səciyyə daşıyır. Azərbaycan dilinin dialekt və şivələrində somatik frazeoloji vahidlər olduqca çoxdur. Tədqiqata cəlb etdiyimiz müstəqillik dövrü Azərbaycan bədii nəsrində işlənən insanın bədən üzvlərinin adları ilə bağlı olan dialekt frazeolji birləşmələri nəzərdən keçirək:

Danışanda *ağzına çullu dovşan sığmır* [9, s.51]; Ağızdarına bir söz düşdümü, *gözün yamannıq görməsin*, üstünü də bəzəyib düz bir ay danışacaqlar [9, s.8].

Deyilənlərdən belə nəticəyə gəlmək olar ki, məqalədə ilk dəfə müstəqillik dövrü kimi geniş dönəmi əhatə edən bədii nəsr nümunələrindən dialekt frazeoloji vahidlərinin toplanması geniş, sistemli araşdırmaya cəlb olunması, eyni zamanda, nəzərə alsaq ki, bu dil vahidləri dildə müəyyən bir inkişafın nəticəsində sözlərin məcaziləşməsi yolu ilə meydana çıxır, o zaman tam əminliklə deyə bilərik ki, frazeoloji vahidlərin öyrənilməsi dilimizin inkişaf mərhələlərinin izlənməsi baxımından bizə zəngin material verir və mövzunun aktuallığını şərtləndirir.

THE FEATURES OF THE USAGE OF DİALECTAL PHRASEOLOGİCAL UNİTS İN THE ARTİSTİC PROSE OF THE İNDEPENDENCE PERİOD OF AZERBAİJAN

Summary: The usage of dialectal phraseological units in the prose of the independence period of Azerbaijan plays a significant role in preserving the integrity of the people's language and their historical spiritual heritage. This research shows that dialectal phraseological units are valuable linguistic materials that express not only the literary language but also the people's way of thinking, traditions, and worldview. The use of such linguistic units by writers once again reveals the richness of the Azerbaijani language in terms of national character, originality, naturalness, and spiritual depth.

Key words: dialectal phraseology, independence period, somatic units, artistic prose, literary language

Ədəbiyyat

1. Azərbaycan dilinin dialektoloji lüğəti. –Bakı: Şərq-Qərb,– 2007. – 568 s.
2. Babanlı, V. Bulanıq dünya / V. Babanlı. –Bakı: Şərq-Qərb, –2011. – 348 s.
3. Bayramov, İ.M. Azərbaycan dialektologiyası/ İ.Bayramov. – Ankara: 2022. – 456 s.
4. Behbudov, S.M. Azərbaycan dili şivələrinin frazeologiya lüğəti. Bakı: Elm və təhsil, –2011. – 291 s.
5. Cəfərzadə Ə. Eldən-elə. –Bakı: Şərq-Qərb,– 2006, 384 s.
6. Cəfərzadə, Ə. Bir səsin faciəsi / Ə. Cəfərzadə. –Bakı: Şərq-Qərb,-1995.–290 s
7. Çobanov, M.N. Bolnisi rayonu şivələrinin leksikası / M.Çobanov. – Bakı: Təhsil EİM, – 1997. – 210 s.
8. Əhmədov, B.B. Azərbaycan dilinin Mingəçevir şivələri: / filologiya elmləri namizədi dis. / – Bakı, 1965. – 378 s.
9. Əlləzoğlu, E. Odunçu geri qayıdır / E. Əlləzoğlu. – Bakı: Şərq-Qərb,– 2016.–102 s.
10. Həsənova, N.E. Yevlax şivələrinin leksikası: / filologiya üzrə fəlsəfə doktoru dis. / – Bakı, 2010. – 140 s.

11. İslamov, M.İ. Frazeoloji birləşmələr, Azərbaycan SSR EA xəbərləri, ictimai elmlər seriyası, 1957, 127-140 s.
12. Məmmədli, M.Ə. Azərbaycan dialektologiyası / M.Məmmədli. – Bakı: Zərdabi Nəşr MMC, – 2019. –352 s.
13. Məmmədova, Ş.H. Naxçıvan dialekt və şivələrində frazeoloji vahidlər/ filologiya üzrə fəlsəfə doktoru dis. / – Naxçıvan, 2021. – 136 s.

AZƏRBAYCAN DİLİNDƏ İQLİM VƏ ATMOSFERLƏ BAĞLI COĞRAFİYA TERMİNLƏRİNƏ DAİR

Sevda Rüstəmova
Bakı Slavyan Universitetinin dissertantı
rustamova_sevdaa@mail.ru

Elmlər sistemində coğrafiyanın özünəməxsus yeri və rolu var. Coğrafiya bizi əhatə edən ətraf aləmlə bağlı təsəvvürlərimizi genişləndirən, təbiət və ictimai elmlər sistemində xüsusi çəkisi olan bir elmdir. Coğrafiya ölkəmizdə XX əsrin əvvəllərindən xüsusi elm sahəsinə çevrilmişdir. Bu gün coğrafiya elmi özünün müstəqil inkişaf yolu olan elm sahəsidir. Elə buna görə də coğrafiya elminin terminlərinin linqivistik baxımdan tədqiq olunması günümüz üçün çox aktualdır. Coğrafiya terminlərindən yalnız coğrafiyaya dair elmi mətnlərdə deyil, cəmiyyət həyatımızda da tez-tez istifadə olunur. Coğrafiya terminləri digər elm sahələrinin terminlərindən fərqlənir. Çünki insanlıq coğrafiya elminin varlığından xəbərsiz olduqları zaman belə bu gün termin kimi dəyərləndirdiyimiz "*göl, çay, dərə, təpə, dolu, qar, yağış və s.*" leksik vahidlər dilimizdə mövcud olmuşdur. Məhz bu baxımdan da coğrafiya terminlərinin sistemli şəkildə öyrənilməsi mövzunun aktuallığını səciyyələndirir.

Terminlər elmi biliklərin sistemləşdirilməsində və ötürülməsində mühüm rol oynayır. Coğrafiya elminin əsas sahələrindən biri olan iqlim və atmosfer haqqında biliklərin dəqiq və universal şəkildə ifadəsi üçün terminlərdən geniş istifadə olunur. Azərbaycan dilində bu sahəyə aid terminoloji sistem zamanla formalaşmış, müxtəlif mənbələrdən təsirlənmiş və milli dilin leksik imkanları ilə zənginləşmişdir. Bu məqalədə Azərbaycan dilində iqlim və atmosferlə bağlı coğrafi terminlərin mənşəyi, strukturu, semantikası və istifadəsi araşdırılır.

İqlim və atmosferlə bağlı terminlər əsasən aşağıdakı sahələrdə istifadə olunur:

1. **Elmi ədəbiyyat və dərsliklərdə:** Coğrafiya dərsliklərində, elmi məqalə və tədqiqatlarda bu terminlər standartlaşdırılmış formada işlədilir.

2. **Kütləvi informasiya vasitələrində:** Hava proqnozlarında, təbiət xəbərlərində və iqlim dəyişiklikləri ilə bağlı ictimai məlumatlandırmalarda geniş yer tutur.

3. **Gündəlik nitqdə:** Bəzi terminlər, məsələn, “hava şəraiti”, “isti hava”, “güclü külək” ifadələri gündəlik danışıqda da tez-tez istifadə olunur.

Bu, göstərir ki, terminlər yalnız mütəxəssislər üçün deyil, həm də geniş ictimaiyyət üçün əlçatan və başa düşülən formadadır.

İqlim və atmosferə dair terminlərin Azərbaycan dilində inkişafı, ümumilikdə, dilin elmi potensialının göstəricisidir. Bu terminlər vasitəsilə təbiət hadisələrinin elmi izahı verilir, maarifləndirmə aparılır və cəmiyyətin təbiətə münasibəti formalaşır. Bu sahədə terminlərin dəqiqliyi və normallaşdırılması elmi informasiyanın düzgün ötürülməsi baxımından xüsusi əhəmiyyət kəsb edir.

Azərbaycan dilində iqlim və atmosferlə bağlı coğrafi terminlər zəngin və çoxşaxəli bir sistem təşkil edir. Bu terminlər müxtəlif mənşəli olsa da, milli dilin semantik və morfoloji qaydalarına uyğun şəkildə işlənmiş və formalaşmışdır. Terminlərin həm elmi, həm də gündəlik səviyyədə funksionallığı onların dilin canlı və dinamik bir hissəsi olduğunu sübut edir. Gələcəkdə bu sahədə terminoloji vahidlərin daha da sistemləşdirilməsi və müasir tələblərə uyğunlaşdırılması elmi dilin inkişafı baxımından mühüm addım olacaq.

Azərbaycan dilində coğrafiya terminologiyasındakı iqlimlə bağlı terminlərin böyük bir qismini alınma leksik vahidlər təşkil edir. Bu tip terminlər əsasən sadə və birləşmə tipində olurlar. Məsələn, *adveksiya*- latın mənşəli termin olub, təzyiqin və temperaturun dəyişməsi ilə əlaqədar hava kütləsinin öz xassələrini saxlamaqla üfüqi istiqamətdə yerdəyişməsidir; *aerologiya*-yunan mənşəlidir. Meteorologiyada, atmosferin yuxarı qatlarını öyrənən elm sahəsi və s. Azərbaycan dilində işlənən iqlimlə bağlı terminlərin bir qismi isə türkmənşəlidir. Məsələn, *ağ yel*- quru və isti külək; *ağ yağış*- daha çox yayın əvvəllərində az buludlu havada müşahidə edilən qısamüddətli güclü yağış; *burulğan*- havanın sütun və ya qıf formasında fırlanan hərəkəti; *bulud*- su buxarı kondensasiyalı məhsulların atmosferdən asılı və gözlə görünən toplusu. Səmada toplanan su buxar yığını. Azərbaycan dilində atmosferlə bağlı coğrafiya terminləri də intensiv işləkliyə malikdir. Atmosfer hadisələri ilə bağlı terminlər özləri də iki yerə bölünür: 1. Elmi üslubda işlənən atmosferlə bağlı terminlər; 2. Xalq danışıq dilində işlənən atmosferlə bağlı terminlər. *Atmosfer* - (yun. *atmos* – “buxar” və *sphaira* – “təbəqə, kürə”) Yeri əhatə edən qarvari hava təbəqəsi. Səma cisminin qazlardan ibarət örtüyüdür. Coğrafi terminologiyada “atmosfer” komponentli terminlərə rast gəlinir. Bu tip terminlər birləşmə quruluşlu olur. Məsələn, *atmosfer akustikası, atmosfer cəbhəsi, atmosfer fizikası, atmosfer şüaslanması, atmosfer təzyiqi, atmosferin hərəkət mərkəzləri, arid iqlim* - rütubət əmsalının vahiddən çox kiçik olduğu, torpaqda rütubətin kəskin çatışmadığı quraq iqlim şəraiti və s. [2, s.225].

Xalq danışıq dilində işlənən atmosferlə bağlı terminlər də çoxluq təşkil edir. Atmosferlə bağlı coğrafiya terminlərinin böyük bir qismi həm ümumişlək leksikada, həm də terminologiyada işlənir. Məsələn, *boran*- küləkli qar və yağış, çovğun, qasırğa. Türk dillərinin meteoroloji leksikasının təhlili V.Danilovanın “Türk dillərinin meteoroloji leksikası” əsərində verilmişdir [1,s.26].

Beləliklə, Azərbaycan dilinin terminoloji sistemində coğrafiya terminlərinin iqlimlə və atmosferlə bağlı leksik vahidləri də önəmli mövqe tuturlar.

ON GEOGRAPHICAL TERMS RELATED TO CLIMATE AND ATMOSPHERE IN THE AZERBAIJANI LANGUAGE

Abstract

This article examines the formation, origin, semantic features, and usage of geographical terms related to climate and atmosphere in the Azerbaijani language. Terms associated with climate and atmospheric phenomena are widely used both in scientific contexts and in everyday life. These terms not only enrich the language but also reflect society's perception of nature and the environment, making them an essential part of the vocabulary.

The article explores the main etymological sources of these terms, including Turkic-origin words, borrowings from Arabic and Persian, as well as terms adopted from international terminological systems. The semantic fields and phonetic-morphological structures of these terms are also analyzed. Additionally, the frequency and functional use of these terms in geography textbooks, scientific literature, and media are discussed.

The research concludes that terms related to climate and atmosphere not only serve the purpose of conveying scientific information but also preserve traces of cultural and historical development within the terminological system of the Azerbaijani language.

Key words: *Azerbaijani language, geographical terms, climate, atmosphere, terminology, semantics, etymology, natural phenomena, language and science relationship.*

ƏDƏBİYYAT

1. Данилова, В. Метерологическая лексика тюркских языков: / автореферат диссертации доктора философии по филологии/ В.Данилова. – Ташкент, 1972.

2. Məmmədli, N. Azərbaycan dilində alınma terminlər / N.Məmmədli. – Bakı: Elm və təhsil, – 2017. –

AZƏRBAYCAN DİLİNDƏ TİBBİ TERMİNLƏRİN MƏNBƏLƏRİNƏ DAİR

Nurlana Həsənova
Bakı Slavyan Universitetinin dissertantı
nurlana.hasan@mail.ru

Azərbaycan dilində tibb terminlərindən bəhs etdikdə mütləq türklərin təbabətə, tibbə dairə əsərlərə nəzər salmaq lazım gəlir. Türklərin tibbə dair əsərləri XIV əsrə təsadüf edir. Bu tarix türklərin Anadoluya yerləşməsi tarixi ilə üst-üstə

düşür. Anadoluya köçən oğuz türkləri ərəb, fars və yunan təbabətini öyrənərək yeni türk təbabətini tətbiq etməyə başladılar. Bu məqsədlə türklər ilk olaraq ərəbcə, yunanca olan tibb kitablarını türk dilinə tərcümə etməyə çalışırdılar. İlk tərcümələr ürk həkimlərindən Hacı Paşaya məxsus idi. İlk həkimlər həm də din alimləri idilər. O dönəm üçün əslində tibb sahəsində ən etibarlı mənbə hədislərdən sağlamlıqla bağlı məlumatların toplanmasından ibarət olan. Dövrün önəmli tibb kitablarından "Tıbb-ı Nebevî" göstərmək mümkündür. "Tıbb-ı Nebevi" Ərəbcə Şeyx Əbu Nəim tərəfindən yazılmışdır. Onun türkcə tərcümələri təbabətdə mühüm yer tuturdu. Bu dövrün təbabətini başa düşmək üçün dövrün tibbi anlayışını bilmək lazımdır.

Normal bədəndə bu mayelər müntəzəm olaraq qarışdırılır. Əgər bunlard bir düzənsizlik varsa, xəstəlik baş verəcəkdir. Türklərin təbabət haqqındakı bu ilkin anlayışları XIX əsrə qədər xəstələrin müalicəsində qüvvədə qaldı. Türklərin bütün xəstəlikləri bu dörd ünsürlə əlaqələndirməsinin rüşeyimi təbii ki, Qədim Yunanların tibb haqqındakı elmindən gəlirdi. Bu anlayışın müəllifi təbabətin banisi kimi qəbul edilən Hippokrat idi. Bu nəzəriyyənin uğurunun səbəbi onun insanların ehtiyaclarına çox yaxşı uyğunlaşdırılması idi. Tibbə aid əsərlərin Anadolu türkcəsinə tərcüməsi ilə bərabər türk dilində elmi üslubun əsası qoyuldu. İlk olaraq Anadoluda tərcümələrlə başlayan türkcənin elm dili olma prosesi,inkişaf yoluna qədəm qoydu. Beləliklə türk dilində ilk tibbi terminlər yaranmağa başladı. Həyatın davamlı olması üçün sağlamlıq, xəstəliklərdən müalicə türklərin əsas prioritetinə çevrildi. Təbii ki, bütün bu proseslərin mərkəzində insan amili dayanırdı. Təbabətlə bağlı əsərlərə ilk dəfə Uyğurlar dövründə rast gəlinmişdir. Sonrakı dövrlərdə "Divânü Lügati't-Türk", "Kutadgu Bilig" kimi əsərlərin təbabətlə birbaşa əlaqəsi olmasa da, tibb-sağlamlıqla bağlı leksikaya rast gəlinirdi. Anadolu sahəsində tibb mövzusunda ilk türkcə tərcümə əsəri Hekim Bereketin yazıldığı tarix məlum olmayan "Tuhfe-i Mübârizî" adlı əsəri tarixi məlum olan ilk tərcüməmizdir. "Bahşayiş Lügati" ərəb-fars-türkcə bir lüğət olub tərkibində təbabət leksikasını tibb terminləri yer almışdır. "Cerrâhiyyetü'l-Hâniyye" əsəri Sabuncuoğlu Şerefeddin tərəfindən yazılmışdır. Olsuqca önəmli əsərdir. Əsərdə miniatür şşəkillər yer almışdır ki, bunlar tibdə istifadə olunan alətlərin rəsimləri idi. "Ed-Dürretü'l-Mudiyye Fi'l-Lügati't-Türkiyye" əsəri XIV əsrə aiddir. Tək nüsxəsi Türk Dil Qurumunun kitabxanasında saxlanılır. Anadolu türkcəsinə dair əsas kəlimələr əsərdə verilmişdir.

Azərbaycanda da tibb elminin çox qədim tarixi mövcud olmuşdur. "*Ümumi qanunauyğunluq belədir ki, tarixi–siyasi proseslər mədəni həyata daim öz təsirini müsbət və ya mənfi formada göstərir. Təbabət elmi də bu qanunauyğunluqlardan kənarda qalmamışdır. Məsələn, islam dinini qəbul etməklə islam ölkələrinin bir parçasına çevrilən Azərbaycanda təbiblər indiyə qədər burada mövcud olan tibbi biliklərdən yararlanırdı. Yerli ənənələr və islam təbabətinin təsiri ilə öz biliklərini zənginləşdirən həkimlər bütün islam dünyasında məşhur oldu və təbabət elminə öz töfhələrini verdilər*" [3, s.98]. Orta əsrlərdə bir sıra Şərq ölkələri kimi, Azərbaycanda da tibb yüksək inkişaf dövrünü yaşayırdı. Hələ 700 il bundan əvvəl Azərbaycan alimi Yusif İbn İsmayıl Xoyi (İbn Kəbir) səmərəli qida nəzəriyyəsini təklif etmişdir. Bu

tövsiyələrin bir çoxu müasir Amerika Sağlamlıq Fondunun və başqa tibbi təşkilatların rəyləri ilə uyğun gəlir. "*Mahmud İbn İlyas (XIII əsr) psixoterapiya, hipnozla müalicə prinsipləri, musiqi ilə, rəng və ətirlə sağaltma barədə yazırdı. Həsən İbn Rza Şirvani (XVII əsr) tərəfindən 800-dən artıq çoxtərkibli dərman nüsxələri tərtib olunmuşdu. Hacı Süleyman Qacar İrəvani (XVIII əsr) 600-dən artıq dərman bitkisi növlərini təsvir etmişdi*" [1,s.20] .

Ərəb istilasından sonra (VII-VIII əsrlər) Azərbaycanda islam tibbi, yaxud yunan-ərəb təbabəti deyilən yeni tibb konsepsiyası yayılmağa başladı. Bu konsepsiya, əsasən, Hippokratın və Galenin nəzəriyyələrinə əsaslanırdı. Əbu Əli ibn Sina (980-1037) bütün Şərq ölkələrində, o cümlədən Azərbaycanda, tibb sahəsində ən tanınmış alim sayılırdı. XI əsrə aid M.Kaşğarinin "Divanü luğat-it-türk" əsərində təbabətlə bağlı 150-yə yaxın tibbi leksik vahidə rast gəlinir. Həmin dövrə aid Yusif Balasaqunlunun "Qutadğu bilig", Əhməd Yuqnəkinin "Ətabətül-həqaiq", Xoca Əhməd Yuqnəkinin "Divani-Hikmət" əsərlərində də çoxsaylı tibbi terminlər mövcuddur. Yazılı abidələrdə müxtəlif xəstəlikləri, onların əlamət və müalicə yollarını əks etdirən çoxsaylı leksik vahidlərə rast gəlinir. "*Xəstə olan, xəstəlikli görünən şəxslərə XI-XII əsrlərdə ala deyirdilər. Oğuz və qıpçaqlar cüzam xəstəliyini anumı adlandırırdı. Oğuzcada xəstəyə eyni zamanda sökel də deyilirdi. XIV əsr mənbələrində isə farsca xəstə, ərəbcə märiz (ə.) türkcə sayru terminləri "sökəl, ala" sözlərini əvəz etmişdir. Xəstəlik isə sayruhk, rənc, mərəz kimi terminlərlə ifadə edilirdi. XIV-XVI əsrlərə aid elmi əsərlərin böyük bir qismi tibbə həsr olunmuşdur. Belə əsərlərdən ilki Geredeli İshaq bin Muradın 1389-1390-cı illərdə yazdığı "Ədviyəyi Müfrədə" əsəridir*" [2, s.210].·Azərbaycanda tibb elminin tarixi qədim zamanlardan başlasa da, XIX əsrin əvvələrində Zaqafqaziya xalqlarının Rusiya ilə yaxınlaşması tibb elminin inkişafına böyük təkan verdi. Səid Məhəmməd Hüseyn xanın 1830-cu ildə yazdığı "Böyük Karabəddin" kitabı bütün İslam Şərqində məşhurdur. Bu əsərdə bir çox xəstəliklərin müalicəsi üçün cürbəcür dərmanlar göstərilir. Elmi tibb terminologiyasının formalaşması tarixi XIX əsrin II yarısında başlayır. Tibb elminin inkişafının ilk sələfləri olan Həsən bəy Zərdabi, Nəcəf bəy Vəzirov, Mustafa bəy Vəkilovun tibbi terminologiyanın ilkin rüşeymlərinin yaranmasında böyük rolu olub. Azərbaycanda elmi təbabətin, tibb elminin güclü inkişafı 1919-cu ildə Bakı Dövlət Universitetinin təşkil olunması və burada tibb fakültəsinin yaradılması ilə bağlı olmuşdur. Tibb elminin sürətli inkişafı ilə əlaqədar olaraq bir-birinin ardınca elmi-tədqiqat institutları yaranmışdır. Ümumiyyətlə, istər ingilis, istərsə Azərbaycan dilinin tibbi terminologiyasında iki istiqamət nəzəri cəlb edir:

anatomik terminologiya

klinik terminologiya.

Hər sahədə olduğu kimi tibbdə də yeni terminlərin formalaşması zəruri diqqətəlayiqdir. Çünki terminlər ardıcıl olaraq ümumi dilin bir hissəsi olur. Kodlaşdırılmış dil ilə elmi dil arasında çox yaxın bir əlaqə var. Elm dili, hər bir xalqdakı ümumi dilin yazılmış və çap olunmuş ritualların dörddə üçünü təşkil edir. Baxmayaraq ki, ümumi dil bütün sahələrə xidmət edir. Dil istifadəçiləri, elmi dildən istifadə edərək müəyyən anlayışların adlarını terminlər vasitəsilə reallaşdırırlar.

Abstract

This article is dedicated to exploring the sources of medical terminology in the Azerbaijani language. Medical terminology, especially in accordance with the demands of the modern era, involves the integration of new concepts accepted from world languages into Azerbaijani. The article discusses the main sources of medical terms, including terms borrowed from Latin, Greek, Arabic, and other foreign languages. Additionally, it analyzes the processes of adapting these terms into the Azerbaijani language, the relationship between local words and expressions with medical terms, as well as the development of the terminological system and its role in modern healthcare. The comparison of traditional medical terms with contemporary ones, the formation and usage rules of new terms are also key topics in this article. The findings of the research indicate that the correct selection and application of medical terms strengthens the development and influence of language in the healthcare field.

Key words: Azerbaijani language, medical terminology, sources, Latin language, Greek language

Ədəbiyyat:

1. Ələkbərli, F. Avropada tibb elminin inkişafında Şərq alimlərinin böyük rolu var. Tibb qəzeti. –2017.-31 mart.-
2. Ishak bin Murad. Edviye-i-Mufrede. Yayıma hazırlayan: Prof.dr. M.Canpolat, prof.dr. Z.Önler. Ankara: TDK, –2016, –320 s.
3. Seyidbəyli, M.H., Azərbaycan tibb tarixinin qaynaqları və tarixşünaslığı / M.H. Seyidbəyli, B.N. Quliyev, S.N. Namazova –Bakı: –2019. –298 s. s.98

“YARIMÇIQ ƏLYAZMA” ROMANINDA PARAFRAZ

Samirə Qurbanova
dissertant
Gəncə Dövlət Universitetinin
alvina0710@gmail.com

Müasir dilçilikdə parafraz anlayışına münasibətdə fikir müxtəlifliyi vardır. Bu anlayışın terminoloji ifadəsinə də ikili münasibət mövcuddur. Ədəbiyyatda “parafraz” və “perifraz” terminlərindən istifadə olunması müşahidə edilir. Bəzi tədqiqtçılar bu iki terminin ifadə etdiyi anlayışları fərqləndirir və onlara fərqli tərifl verirlər. Məsələn A.P. Kvyatovskinin lüğətində parafraz və perifraz ayrı-ayrı lüğət məqalələri kimi təqdim olunur. Lüğətin tərtibçisinin fikrinə görə, “*parafraz ədəbi əsəri başqa bir müəllifin öz sözləri ilə yenidən nəqletməsi* [8, s.227-228], *perifraz qədim poetikada nəsri nəzmə çevirmə*”*dir* [9, s.245-246]. O, hesab edir ki, bu iki anlayışı qarışdırmaq, yaxud eyniləşdirmək olmaz. Bu izahda parafraz birbaşa adlandırılmayan predmetin və ya şəxsin təsvirlə ifadə olunması,

perifraz isə yazıçının məlum başqa əsərdəki formanı struktur və səslənməni qorumaq şərtilə əks məzmunda istifadə etməsidir.

O.S.Axmanovanın tərtib etdiyi lüğətdə *"parafraz" iki mənada izah edilir: 1)təsviri ifadə; 2) sözün təsviri ifadə ilə əvəzlənməsi. "Perifraz" terminin qarşısında isə müəllifin "bax: parafraz"* qeydi verilir [7, s.608; s.312]. Göründüyü kimi, o, hər iki terminin eyni anlayış ifadə etdiyini bildirir. Y.N.Karaulov isə O.S.Axmanovadan fərqli olaraq, "perifraz" terminini işlətməyə üstünlük verir. Onun fikrinə görə, perifraz predmetin, anlayışın, şəxsin birbaşa deyil, dolayısı ilə təsviri şəkildə ifadəsidir. Bu zaman təsvir olunan predmetin müvafiq situasiya ilə bağlı hansısa vacib keyfiyyəti əsas götürülür [11, s.703; s.334]. Maraqlıdır ki, Y.N.Karaulov perifrazı perifrazlamadan fərqləndirməyin vacibliyini vurğulayır. O, perifrazlamanı atalar sözü və ya qanadlı sözün tam və ya qismən dəyişdirilməsi kimi təqdim edir. Adları çəkilmiş bu müəlliflər parafraz və ya perifrazın intertekstuallıq fiquru olması barədə heç bir informasiya vermirlər. Fikrimizcə, bunun izahı çox sadədir. Parafraz intertekstuallıqdan əvvəl elmi dövriyyəyə daxil edilmiş anlayışdır və sabit söz birləşmələri, konkret söyləmlər və definitiv kontekstlərin şərhi və ya təqdimatı, təkrar söylənməsi prosesindəki fərqlərin aşkara çıxarılması nəticəsində meydana gəlmişdir. Ə.Abdullayev elementlərin mətnə təkrar daxil edilməsi yolarından bəhs edərkən parafrazlaşma məsələsinə də toxunur, onu məzmunun digər dil vasitələri ilə ifadəsi kimi izah edir, parafrazlaşmanın sinonim, eləcə də hipo-hipernomik əvəzlər növlərini fərqləndirir [3, s.272; s.206–208]. Parafraz və perifraza münasibətlə bağlı fərqli fikirlərin hər birində ümumi cəhət müəyyən hadisənin başqa sözlərlə təsviridir. Burada məzmun cəhətinin dəyişdirilməsi və ya strukturdakı sözün əvəzlənməsi xüsusi hallar yaradır. *Paraphrasis* termin kimi yunan dilində *para* 'yanında, yaxınlığında, yanaşı' və *phrazo* 'danışıram' sözlərindən əmələ gəlmişdir, mətni ona yaxın mənada təsviri şəkildə canlandırmaq, öz sözləri ilə təsvir etmək kimi başa düşülür. Belə izahda təsviri izahlandırmaq, başqa sölərlə ifadə etmək aparıcıdır. Burada əvvəlki sözün, söyləmin, mətnin təsviri nəzərdə tutulur. Öz söləri ilə təsvirdə predmetə aid müəyyən keyfiyyətə əsaslanmaq lazım gəlir. Parafrazlamanı hadisə müstəvisinə köçürsək, o halda müəllifin bu hadisəni öz sözləri ilə izah etməsini nəzərdə tutmuş olarıq. Eyni və ya əks mənada, yaxud başqa şəkildə təsvir konkretləşdirilmir. Belə nəticəyə gəlmək olar ki, parafraz müəyyən sözün, söz birləşməsinin, söyləmin, mətnin yeni variantda izah və təsvirini nəzərdə tutur. Bu baxımdan parafrazın hadisənin məğzini olduğu kimi saxlamaqla parafrazlama, məzmunu qismən dəyişməklə parafrazlama və s. növlərini ayırmaq olar.

Parafrazın intertekstuallıq fiquru kimi istifadəsindən V.P.Moskvin, O.A.Babuşkin, Z.Q.Teuçej və başqaları bəhs etmişlər. Z.Q.Teuçej bu intertekstuallıq fiquru ilkin söyləmin qismən dəyişdirilməsi, təkrar modelləşdirilməsi hesab etmişdir [12, s.16; s.6]. V.P.Moskvinin fikrinə görə, *parafraz sabit birləşmənin leksik tərkibini dəyişmə nəticəsində alınan intertekstuallıq fiqurudur* [10, s.165; s.118]. "Yarımçıq əlyazma" romanında müxtəlif parafrazlardan istifadə olunmuşdur. İntertekstuallıq nəzərə alınarsa, romanın müəllifi pretekstdəki bir sıra hadisələri pretekstən fərqli şəkillərdə

təsvir edir. Bəzən hadisənin iştirakçılarını sayının, aparıcı iştirakçının, bəzən motivin və sairin dəyişməsi ilə qarşılaşırıq. Bu dəyişmələrə baxmayaraq, hadisənin əvvəlki forması saxlanır və ondan pretekstə keçid yaranır. Tədqiqat üçün həm bu şəkildə olan təsvirlər, həm də sadəcə struktur və leksik-qrammatik tərkibdə dəyişmələrin müşayiətilə formalaşan parafrazları əhəmiyyətlidir. Nümunələrə baxaq:

"*– Ölüncə yolunda qara başımı qomağa fürsət ver mənə, lütfən,–deyib Qazan yerə sərildi, təkrar-təkrar başını yerə vurdu, Bayındır xana bir dəxi sitayiş etdi*" [1, s.288; s.37]. Bu kontekstdə pretekstə işarə "Ölüncə yolunda qara başımı qomağa fürsət ver mənə" söyləmindədir. KDQ-nin mətnində "Qara başım qurban olsun" ifadəsi istifadə olunur. Bu və ya digər dərəcədə işlək olan bu ifadə dastan personajlarının dilində səslənir. Məsələn: "*Yalnuz oğul xəbərin, a Dirsə xan, degül mana / Qara başım qurban olsun bu gün sana*" [5, s.265; s.38]; "*Ol gödəndə canın varsa, oğul, xəbər mana / Qara başım qurban olsun, oğul, sana*" [5, s.265; s.39].

Müasir Azərbaycan dilində *canım sənə qurban* ifadəsi alqış qəlibi kimi işlənir. *Yolunda başımı qoyaram* söyləmi alqış-and formasındadır. O da hazır qəlibdir. Azərbaycan dilinin frazeologiyasında *başını qoymaq* frazeoloji vahidi də vardır. Bəzən onun *yolunda / uğrunda başını qoymaq* formasından da istifadə olunur. "Yarımçıq əlyazma"da müəllif parafrazdan istifadə etmişdir. Doğrudur, burada parafrazın formalaşmasında allüziya fiquru kimi *qara başım* ifadəsi də iştirak edir. Müasir dildə yazılmış mətnlərdə bu ifadə KDQ-nin xatırlanmasına zəmin yaradır. Müəllif KDQ-də istifadə olunmuş qəlib ifadəni dəyişdirmişdir. Kiminsə yolunda baş qoymaq başı və beləliklə, özünü qurban vermək anlamındadır. Yuxarıdakı fraqmentdə Qazanın "*Ölüncə yolunda qara başımı qomağa fürsət ver mənə*" deyəndən sonra başını yerə döyməsi onun sözlərinin həqiqət olduğuna inandırmaq məqsədi daşıyan paralinqvistik hərəkətlərdir. Qeyd etdiyimiz kimi, KDQ-də *qara başım* müxtəlif kontekstlərdə işlənir. Məsələn, *Qara başım götürdüm, sənə gəldim, Qara başın sədəqəsi, yigit, mədəd mana* [5, s.265; s.53]. At ayağı külük, ozan dili çevik olur. Bu ifadə nəqledənin, ozanın dilində işlənir və zamanın ötüb keçməsini nəzərə çatdırır. Dirsə xan oğlu Buğac boyunu danışan ozan uşağın dünyaya gəlməsi, dayələrə verilib saxlanmasından on beş yaşına çatmasına qədər olan müddəti buraxmaq məqsədilə bu ifadədən istifadə edir və nəqletmədə on beş il irəliyə gedir, eyni zamanda dastanın hissələrini bir-biri ilə bağlayır: "*Xatunı hamilə oldu. Bir neçə müddətdən sonra bir oğlan toğurdu. Oğlancuğunu dayələrə verdi, saqlatdı. At ayağı külük, ozan dili çevik olur. İyəgülü ulalur, qapırğalı böyür. Oğlan on beş yaşına girdi*" [5, s.265; s.35-36]. "*Və mən başladım söz söylədim. At ayağı yel kimi olursa, ozan dili dəxi çevik olur. Amma hər ozanın dili yox. Mən isə Tanrının buyruğu ilə ozanam. Hərdən mənəelə gəlir ki, mən qayibdən dəxi dürlü xəbərlər söyləyə bilərəm. Nə olacaq, necə olacaq? –Bunları kimsə bilməz. Mən bilərəm*" [1, s.288; s.38]. Qədim dastanlarda ozanın dilində işlənən bu qəlib ifadə dəyişmişdir. "*Eposun həyatda da dinamikliyə üstünlük verməsi folklorda "At ayağı külük, ozan dili çevik olur" poetik qəlibini də ortaya çıxarmışdır. Bu qəlib sonralar müəyyən dəyişikliyə uğrayaraq "Aşıq dili yüyrək olar" şəklini almışdır*" [6, s.137]. Əlbəttə, burada da parafraz izlərini görmək olur. "Yarımçıq

əlyazma”da müəllif qədim formanı verərkən parafrazdan istifadə etmiş, onu bir qədər təsviri formada vermişdir. Buna baxmayaraq, parafraz pretekstə işarəni təmin etmişdir. Yurdu darımaq. “*Düşünürəm ki, mən ava çıxdım, böyük seyrangah qurdum, yadındamı? Kafirin casusu hazır oldu, casusladı. Mən olmaya-olmaya kafir ordusu Oğuzu daradı, elim-obam əsir getdi, demi*?” [1, s.288; s.131]. KDQ-də bu səhnə daha təsirli dillə verilmişdir. Qazan çapılıb-talanmış, dağıdılmış yurdu ilə xəbərləşəndə *Səni yağı nerədən darımış, gözəl yurdum*cümləsini işlədir. “Yarımçıq əlyazma”da müəllif bu hadisəni təsvir edir və bu zaman *Oğuzu daramaq* ifadəsindən istifadə edir. Kontekstdə *yurd* sözü *Oğuz* ilə əvəz edilmişdir. Parafrazlama bu və ya digər hadisənin fərqli şəkildə, yəni məzmunu dəyişdirilməklə nəql edilməsində də özünü göstərir. Beyrək boyunda Boz oğlan bəzirganları qarət etmiş kafirlərlə vuruşur və malları geri alıb tacirlərə qaytarır. “Yarımçıq əlyazma”da da bu epizod yer almışdır. Müəllif həmin epizodu fərqli şəkildə təqdim edir. Burada bəzirganları soyan kafirlər yoxdur. Beyrək Dədə Qorquda deyir: “*Dədə, bunu sənə söyləyim yalnız. O düşmən dediklərim yar-yoldaşım idilər. Öncədən göndərdim bəzirganları hay-küy salıb qorxutdular. Sonra mən təpdim. Pərən-pərən etdim*” [1, s.288; s.63]. KDQ-nin süjetinə daxil olan bir sıra hadisələrin “Yarımçıq əlyazma”da fərqli rakurslardan təsvir olunması halları az deyildir. Bəkilin dastanda Bayındır xandan küsməsi, romanda Qazandan küsməsilə əvəz olunmuşdur.

Romanın müəllifi “Gizli Dədə Qorqud” əsərində Oğuz qəhrəmanlarının həyatı ilə yunan mifologiyası arasında paralelər aparmış, Odisseyin yunan mifologiyasında təkbaşına gördüyü işi KDQ-də iki nəfərin – Beyrək və Basatın həyata keçirdiyini bildirir. O, Beyrəyin özünü Banıçiçəyə tanıtmasının, Dəli Domrul ilə Əzrayıl arasındakı hadisələrin də yunan mifologiyasındakı paralellərinə toxunur [2, s.152; s.4-5]. Belə paralellər aparmış Anar da öz tədqiqatında yazır: “Kitabi-Dədə Qorqud” süjetləriylə bağlı daha əski paralellər qədim yunan mifologiyasına dirənir. “*Dəli Domrul boyu*”*yla Admet mifi*, “*Beyrək boyu*”*yla Odisseyin sərgüzəştləri, evinə qayıtması yalnız süjet uyğunluğuyla deyil, cürbəcür bədii detallar, ayrıntılarla da heyrətamiz dərəcədə yaxındır*” [4, s.536; s.181]. Əlbəttə, bu paralellərdən başqa tədqiqatçılar da bəhs etmişlər. “Yarımçıq əlyazma”da müəllif Təpəgözü Təkgöz ilə əvəz etmişdir. Təpəgöz boyundakı hadislər və inkişafında da dəyişikliklər edilmişdir. Burada diqqəti parafraz kimi antroponimdə edilmiş dəyişiklik cəlb edir: Dəpəgöz / Təpəgöz – Təkgöz. Yeri gəlmişkən qeyd edək ki, romanın Xətaiyə aid hissəsindəki personajlardan birinin adı da dəyişdirimiş şəkildə verilmişdir. Osmanlı qəhrəmanlarından biri olan Malkoçoğlu romanda Malbaşoğlu adlandırılmışdır. Fərman Kərimzadənin “Çaldıran döyüşü” romanında bu personaj Malkoçoğlu adını daşıyır. “Yarımçıq əlyazma”da qeydə alınmış intertekstuallıq fiqurları Xətai xətti ilə daha çox “Çaldıran döyüşü” pretekstinə işarə edir. Bu iki əsər arasında intertekstuallığı ifadə edən əsas göstərici allüziyadır. Allüziyalar adlar, müraciətlər səviyyəsində daha çox aşkarlanır. Burada konkret parafraz nümunələri tapmaq bir qədər çətindir və demək olar ki, yoxdur. Ümumiyyətlə, Xətai xətti ilə konkret preteksti müəyyənəşdirmək olmur. Beləliklə, “Yarımçıq əlyazma” romanı daha əvvəl yazılmış başqa mətnlərlə, xüsusən “Kitabi-Dədə Qorqud” dastanı, Kamal Abdullayevin “Gizli “Dədə

Qorqud" monoqrafiyası, Fərman Kərimzadənin "Çaldıran döyüşü"romanı ilə intertekstuallıq əlaqələrinə malikdir. Bu əlaqələr "Yarımçıq əlyazma" romanında yer almış sitat, mətn aplikasiyası və allüziya kimi intertekstuallıq fiqurları vasitəsilə üzə çıxır. Tədqiqat göstərir ki, başqa mətnə işarə arxaik sözlər, onomastik vahidlər, söz birləşmələri, cümlə və deyimlər, hadisə və epizodun təkrarı şəklində təzahür edir.

Ədəbiyyat siyahısı

1. Abdulla K. Yarımçıq əlyazma / K.Abdulla. Bakı: XXI –YNE, 2004. –288 s.
2. Abdullayev K.M. Gizli "Dədə Qorqud". Bakı: Yazıçı, 1991.–152 s.
3. Abdullayev Ə. Aktual üzvlənmə, mətn və diskurs / Ə.Abdullayev. Bakı: "Zərdabi LTD" MMC, 2011. –272 s.
4. Anar. Dünya bir pəncərədir / Anar. –Bakı: Gənclik, 1986. –536 s.
5. Kitabi-Dədə Qorqud. Bakı: Yazıçı, 1988. –265 s.
6. Qasımlı M. Ozan və qopuz ənənəsi /M.Qasımlı // Dədə Qorqud aliliyi (məqalələr toplusu). –Bakı: Sultan graphics, 1999. –s.135–142.
7. Ахманова О.С. Словарь лингвистических терминов. Изд-е 2-ое стереотип. М.: Советская энциклопедия, 1969. –608 с.
8. Квятковский А.П. Парафраз // Квятковский А.П. Поэтический словарь. М.: Дрофа, 1998. –с. 227–228.
9. Квятковский А.П. Перифраз // Квятковский А. П. Поэтический словарь. М.: Дрофа, 1998. –с.245–246.
10. М осквин В.П. Интертекстуальность: Понятийный апарат. Фигуры, жанры, стили. 2-е изд. М.: Либроком, 2013. –165 с.
11. Русский язык. Энциклопедия / гл. ред. Ю.Н. Караулов. 2-ое изд., перераб. и доп. М.: Большая Российская энциклопедия; Дрофа, 1997. –703 с.
12. Теучеж З.Г. Структурно-семантическая и коммуникативно-прагматическая специфика лингвистической парафразы (на материале русского и французского языков). Автореф. дис. ...канд.филол. наук. Майкоп, 2008.-16 с.

THE PARAPHRASE IN THE NOVEL OF "HALF- WRITTER MANUSCRIPT"

Abstract

In modern linguistics, there is a diversity of opinions regarding the concept of paraphrase. There is also a dual perspective concerning its terminological expression. In literature, the use of the terms "paraphrase" and "periphrasis" can be observed. Some researchers distinguish between the concepts these two terms represent and provide them with different definitions. Paraphrasing manifests itself in the retelling of a given event in a different way, that is, by altering its content. Paraphrasing uses expressions that are consistent with the original text. The novel "Incomplete Manuscript" has intertextual

connections with other previously written texts, in particular the epic “Kitabi-Dede Gorgud”, Kamal Abdullayev's “Secret Dede Gorgud” monograph, and Farman Karimzadeh's novel “The Battle of Chaldiran” and has created paraphrases with them.

Keywords: The novel “Incomplate Manuscript”, literary examples, paraphrase, comparative analysis

AZƏRBAYCAN DİLİNİN “İNSANIN EMOSİONAL VƏZİYYƏTİ” FRAZEOSEMANTİK SAHƏSİNDƏ “TƏƏCCÜB”

Ülkər Xəlilli
AMEA Nəsimi adına Dilçilik İnstitutu

İnsanın emosional vəziyyəti olduqca mürəkkəb psixi prosesdir. Bu proses psixologiya ilə yanaşı, linqvistika üçün mühüm əhəmiyyət kəsb edir. Çünki emosional vəziyyət əksər vaxtlar daxildə qalmaqla kifayətlənmir, insanın nitqində və xarici fəaliyyətində də özünü göstərir. Ümumiyyətlə, “hiss və emosiya insanın dərk etdiyi cisim və hadisələrə, başqa adamlara, həmçinin özünün rəftar və davranışına, fikir və arzusuna bəslədiyi münasibəti ifadə edən psixi prosesdir” [1, s. 153]. Hisslər və emosiyalar insanın idrak obyektinə subyektiv münasibətini əks etdirir. Bu münasibət müsbət və ya ya mənfi olmaqla yanaşı, ikili xarakter daşıyaraq qeyri-müəyyənlik də kəsb edə bilər. Yəni belə hisslərdə “razılıq və narazılıq təkcə birləşmir, onların biri o birinə keçir, hər iki hiss yanaşı yaşanır [3, s. 341]. Təəccüb və heyrət də belə ambivalent hisslərdəndir. Belə ki, idraki obyektə olan münasibətdən asılı olaraq, müsbət və ya mənfi səciyyə eyni anda özünü göstərə bilir.

Sahənin nüvəsində “təəccüblənmək”, “heyrətlənmək”, “təəccüb və ya heyrət vəziyyətində olmaq” arxiseması ilə birləşən frazeoloji vahidlər dayanır. *Barmağı ağzında qalmaq, gözləri böyümək, heyrətə gəlmək* və s. ifadələr nüvə zonasına məxsus əlamətlərə malik olduğu üçün sahənin nüvəsində yer alır. Bu sahənin özünəməxsusluğu ondan ibarətdir ki, sahəni təşkil edən vahidlərin tərkibində “təəəcüblənmək”, “heyrətlənmək” feilləri nadir hallarda iştirak edir. Yaxın periferiya zonası “çox təəccüblənmək”, “həddindən artıq təəccüblənmək”, “çox heyrətlənmək”, “həddindən artıq heyrətlənmək” diferensial semaları ilə birləşən vahidlərdən təşkil olunub. *Gözü kəlləsinə çıxmaq* (“həddindən artıq təəccüblənmək”), *qanı damarlarında donmaq* (“hədsiz dərəcədə heyrətlənmək, heyrətdən donub-qalmaq”) frazeoloji vahidləri təəccüb hissinin yüksək intensivlik dərəcəsini əks etdirdiyi üçün yaxın periferiya zonasına aid edilir. Bu birləşmələr dinamikdir və yüksək ifadəlilik imkanlarına malikdir. Yaxın periferiya zonasına həmçinin “xoşagəlməz hadisədən təəccüblənmək” diferensial semalı vahidlər daxildir. Məsələn, *ayağının altından yer qaçmaq* vahidi “üzləşdiyi gözlənilməz vəziyyət və ya eşitdiyi xəbərdən bərk təsirlənmək, həyəcanlanmaq, qorxmaq” mənalarını ifadə edir [2, s. 31], təəccüb emosional

vəziyyətinin mənfi xarakterini bildirir. *Gözündən od çıxmaq, əli üzündə qalmaq* sabit söz birləşmələrində də analoji hal müşahidə edilir. Yaxın periferiyanı təşkil edən vahidlərin bir qismi isə "təəccüblü vəziyyətdə mənfi və ya müsbət emosiyalar yaşamaq" diferensial seması ilə xarakterizə olunur. "Bu frazeoloji vahidlərin özəlliyi ondan ibarətdir ki, onlar subyektin düşdüyü vəziyyətdən asılı olaraq, müsbət və ya mənfi təəccüb ifadə edə bilir" [4, s. 99]. Məsələn, *gözlərinə inanmamaq* birləşməsi işləndiyi kontekstdən və situasiyadan asılı olaraq, müxtəlif xarakterli olur. Polisemik tipli frazeoloji söz birləşmələri də yaxın periferiya sahəsinə aid edilir. Buraya müxtəlif frazeosemantik sahələrin periferiya zonalarına aid olan vahidlər daxildir. Məsələn, *gözləri dörd olmaq* "həddindən artıq təəccüblənmək" mənasını bildirir və "Təəccüb" altsahəsinin periferiyasında yer almaqla yanaşı, həmçinin "çox diqqətli, ehtiyatlı, ayıq-sayıq olmaq" mənalarını da ifadə edərək "İnsan xarakteri" frazeosemantik sahəsinin periferiyasına aid edilir. Başqa bir misal, *mat qalmaq* frazeologizmi "təəccüblənmək, heyrət etmək" mənalarını bildirməkdən əlavə, "şahmatda məğlub olmaq, uduzmaq" mənalarını verərək "İnsan fəaliyyəti" frazeosemantik sahəsinə də aid edilir. "Təəccüb" altsahəsində elə frazeoloji vahidlərə də rast gəlinir ki, həmin ifadələr eyni frazeosemantik sahə daxilində başqa bir altsahəyə aid edilə bilər. Məsələn, *gözündən od çıxmaq* ifadəsi "heyrətdən, təəccübdən, qəzəbdən gözü (gözləri) parlamaq, bərəlmək" mənasını ifadə edir. Bu da həmin sabit söz birləşməsinin eyni zamanda "Qəzəb" altsahəsinə aid edilməsinə əsas verir. Və ya *şoka düşmək* vahidi "hədsiz dərəcədə qorxmaq" və "hədsiz təəccüblənmək, heyrətlənmək" mənalarını bildirir, bu da onu həmçinin "Qorxu" altsahəsinin periferiya zonasına daxil etməyə imkan verir. Başqa bir misal, *gözləri ağara almaq* ifadəsi ("təəccüb etmək, heyrət etmək") "Təəccüb" sahəsində polisemiya keyfiyyəti daşıyır və həmçinin "bir işi sona çatdırınca böyük əzab çəkmək, əziyyətə qatlaşmaq" mənalarını bildirərək eyni frazeosemantik sahə daxilində yer alan "Əzab \ Əziyyət" altsahəsinin yaxın periferiyasını daxil edilir. Beləliklə, "Təəccüb" sahəsinin sərhədləri bulanıqdır, tam aydın deyil: sahəyə daxil edilən hər hansı bir frazeoloji vahid məna cəhətdən başqa bir sahəyə də aid edilə bilər. Göründüyü kimi, polisemik vahidlər haqqında danışılan sahədə kəmiyyət baxımından çoxluq təşkil edir. Sahənin uzaq periferiya zonasına isə "təəccübləndirmək", "heyrətləndirmək", "təəccübünə və ya heyrətlənməsinə səbəb olmaq" diferensial semaları ətrafında birləşən frazeoloji vahidlər aid edilir. *Mat qoymaq, məəttəl qoymaq, heyrətə salmaq, heyrətə gətirmək, heyrətdə qoymaq* frazeologizmlərində "təəccübləndirmək", "heyrətləndirmək" semaları olduğundan bu vahidlər uzaq periferiya zonasında yerləşir. Beləliklə, iyerarxik quruluşa malik olan "Təəccüb" altsahəsi ekstralinqvistik amillərlə müşayiət olunan müxtəlif tipli frazeoloji vahidlərdən ibarətdir. Hər bir vahid daxil olduğu zonanın əsas xüsusiyyətlərini özündə əks etdirir.

"SURPRISE" IN THE PHRASEOSEMANTIC FIELD OF THE " HUMAN'S EMOTİONAL STATE " OF THE AZERBAIJANI LANGUAGE

Abstract

The concept of "Surprise" has a unique place in the phraseological field of "Human emotional state" in the Azerbaijani language. Surprise is a state in which a person encounters an unusual, strange, or incomprehensible event. There are also a sufficient number of phraseologisms expressing this situation in the Azerbaijani language, which allows us to examine them using the principle of field theory.

Like other subfields related to "Human Emotional State", "Surprise" has a complex structure - it consists of core and peripheral zones. Each zone has its own unique characteristics and is composed of various phraseological units.

ƏDƏBİYYAT

1. Bayramov Ə., Əlizadə Ə. Psixologiya. Ali məktəblər üçün dərslik. Bakı, 2006, 620 s.

2. Məhərrəmli Q., İsmayılov R. Azərbaycan dilinin frazeologiya lüğəti, Bakı, 2018, 287 s.

3. Seyidov S., Həmzəyev M. Psixologiya, Bakı, 2007, 650 s.

4. Синельникова И.И. Емотивные фразеологизмы французского языка в полевом аспекте. Монография. Белгород, 2013, 188 с.

II BÖLMƏ
DİL VƏ ÜSLUB MƏSƏLƏLƏRİ

PAREMİOLOJİ VAHİDLƏRİNİN TƏRKİBİNDƏ ZOOLEKSİKA ELEMENTLƏRİ VƏ ONLARIN LİNQVOKULTUROLOJİ ÖZƏLLİKLƏRİ

Leyla Hacıyeva
Slavyan Universiteti
leyla_hacyeva@bk.ru

Paremiyoloji vahidlər, mədəniyyətin və dilin ayrılmaz bir hissəsi olaraq, xalqın müdrikliyini, təcrübəsini və dünyagörüşünü əks etdirən dil vahidləridir. Bu vahidlər arasında atalar sözləri, deyimlər, müdrik ifadələr və metaforik konstruksiyalar yer alır. Paremiyoloji vahidlər, yalnız dilin strukturu ilə deyil, həm də xalqın sosial, mədəni və tarixi həyatını yansıdan ifadələrdir. Bu vahidlərdə tez-tez heyvanlara aid elementlər də rast gəlinir. Bu elementlər zooleksikanı meydana gətirir və dilin və mədəniyyətin nə qədər zəngin olduğunu göstərir. "*Azərbaycan xalqının yüzilliklərlə ölçülən mədəniyyət tarixində xalq müdrikliyinin inikası olan, dərin, kəsərli və tutarlı fikirləri ifadə etmək qüdrəti ilə səciyyələnən atalar sözləri xüsusi yer tutur. Xalq şüuru, xalq həyatı ilə yoğrulmuş, zamanın süzgəcindən keçib gələn, büllurlaşmış fikirlər xəzinəsi olan frazeoloji ifadələrin, atalar sözlərinin semantik inkişafı nəzərə alınmadan onları şərh etmək, açıqlamaq müəyyən çətinliklər yaradır*" [2, s. 3].

Zooleksika, heyvanlara aid olan leksik vahidlər toplusudur. Dilin təbiətində heyvan adlarının istifadəsi, sadəcə olaraq onların bioloji xüsusiyyətlərini əks etdirməklə kifayətlənmir. Bu adlar və əlaqəli ifadələr, həm də mədəni və sosial mənaları daşıyır, çünki heyvanlar müxtəlif mədəniyyətlərdə müəyyən simvolik və əxlaqi dəyərlərlə əlaqələndirilir. Paremiyoloji vahidlərdəki zooleksika elementləri isə həmin dəyərləri və anlayışları dilin vasitəsilə nəsildən-nəslə ötürür. Bildiyimiz kimi, istənilən xalqın sosial həyatında, məişətində heyvanların təkzibedilməz rolu vardır. İnsan həyatında önəmli rola malik olan heyvanlar, xüsusilə də ev heyvanları artalar sözlərinin tərkibində də xüsusi bir lay təşkil edir. Azərbaycan dilində tərkibində zooleksika elemntləri olan nümunələrə nəzər salaq: Zooleksika elementləri paremiyoloji vahidlərdə müxtəlif formalarda təzahür edə bilər. Bu elementlər, əsasən, heyvanların xüsusiyyətlərinə və davranışlarına əsaslanaraq metaforik və simvolik mənalar qazanır. Məsələn, azərbaycanlılar arasında tarixən ad qəhrəmanlıq, igidlik simvolu olmuşdur. Həmçinin at bir kiçinin, igidin, qeyrət və n amus simvolu kimi də xarakterizə olunur. Məhz bu səbəbdn də Azərbaycan dilindəki paremioloji vahidlərin tərkibində işlənən "at" komponenti müsbət çalarlarla xarakterizə olunur. Nümunələr nəzər salaq: *At gücünü karvanda gör, mərd gücünü meydanda; Ər altında at olur, qeyrət altında ər olur; Meydansız at sürülməz, sınaqsız ər bilinməz.; Yaxşı ata bir qamçı, yaman ata - min qamçı;*

Dayça nə qədər bərk qaçsa, arabanı çəkən atdır, at!; Dayça at olunca yiyəsi mat olar.;

Paremiyoloji vahidlərdəki heyvan adları, insanların davranışlarını, xarakterlərini və sosial münasibətlərini təsvir etmək üçün geniş istifadə olunur. Məsələn, "Pişiyə oyun, siçana qıyın".ifadəsi, iki tərəf arasında gərgin və qarşılıqlı əlaqəni təsvir edir. Beləliklə, zooleksika, dilin metaforik imkanlarını genişləndirir və mədəniyyətin dərinliyini ortaya qoyur. Zooleksika elementləri, dilin yalnız struktural xüsusiyyətlərini deyil, həm də onun mədəni və sosial fonunu təşkil edir. Hər bir mədəniyyətin heyvanlar haqqında öz spesifik anlayışları və bu anlayışlara uyğun simvolik dəyərləri vardır. Məsələn, bir çox mədəniyyətlərdə "aslan" cəsarətin, qüdrətin və hökmranlığın simvolu olaraq qəbul edilir, amma bəzi mədəniyyətlərdə aslan, qorxulu və təhlükəli bir varlıq kimi təsvir edilə bilər. Bu fərqlər, zooleksikanın linqvokulturologik aspektini formalaşdırır və həmin elementlərin mənalarını müxtəlif mədəniyyətlərdə fərqli şəkildə təfsir etməyə imkan verir. Zooleksikanın linqvokulturologik xüsusiyyətləri həmçinin sosial və əxlaqi meyarlarla sıx əlaqədardır. Bir çox zooleksika elementi, təbiət və mədəniyyət arasındakı qarşılıqlı əlaqəni əks etdirir. Məsələn, "şir kimi" ifadəsi, bir insanın cəsarətini və gücünü simvollaşdırır, çünki şir, bir çox mədəniyyətlərdə gücün və cəsarətin təcəssümüdür. Bu tip ifadələr, təkcə heyvanların fiziki xüsusiyyətlərini deyil, həm də onların əxlaqi və sosial mənalarını ehtiva edir. Farklı mədəniyyətlərdə zooleksikanın istifadəsi, o mədəniyyətin dünyagörüşünü və dəyərlərini yansıtdığı üçün, bu ifadələrin mənaları da mədəniyyətlər arasında dəyişə bilər. Məsələn, bəzi mədəniyyətlərdə müəyyən heyvanlar mənfi mənalarda istifadə edilə bilər, çünki bu heyvanlar həmin mədəniyyətlərdə çirkinlik və təmizliyə qarşı olan simvollar kimi qəbul edilir. Eyni zamanda, başqa mədəniyyətlərdə bu heyvanlar bambaşqa mənalar daşıya bilər, məsələn, onlar zənginlik və bərəkətin simvolu ola bilər. Məsələn, Azərbaycan, türk mədəniyyətində "donuz" mənfi konnotasiyalarda reallaşır. Məslən, *Donuzun başı ağır olsa da, leşi çəkər; Donuzdan toğlu doğulmaz; Donuzdan bir tük də qənimətdir* [3].

Zooleksikanın bu müxtəlif istifadəsi, dilin və mədəniyyətin qarşılıqlı əlaqəsini və dəyişən sosial şərtlərlə necə uyğunlaşdığını göstərir. Dilin hər bir frazası, idiomatik ifadəsi və paremiyoloji vahidi, həm də həmin dilin təmsil etdiyi mədəniyyətin dərin təbəqələrini əks etdirir.

Azərbaycan xalqının ilk məşğuliyyətləri tarixən əkinçilik və heyvandarlıq olmuşdur.Bu üzdən də əkinçilikdə istifadə olunan heyvanlar onların həyatında çox böyük önəmə malik olmuşdur. Paremioloji vahidlərin tərkibində sıx-sıx işlənən "öküz" komponentinin səbəbi də məhz budur. Nümunələrə nəzər salaq: *Öküzün cütə getməyənini ətlik adına satarlar; Öküzün qocalanı dana-buzova qoşular; Öküzün böyüyü pəyədə qalıbdır; Öküzü ölənə yol göstərən çox olar; Öküzü öləndən danışma.; Öküzü yorulana çox söz deyərlər; Öküz ölməyincə inəyə qiymət olmaz; Öküz ölər, gönü qalar, igid ölər, ünü qalar.; Öküz öldürüb adını üstümdən götürə bilmirəm; Öküz öldü, ortaq ayrıldı; Öküz özünə yonca əkəndə başı ağrıyar; Öküz olacaq dana bugündən bilinər; Öküz gərək cüt ola!; Öküz kimi yeyir, dana kimi yatır.; Öküz əhildəməkdən boyunduruq əhildəyir;*

Öküz dəvəcən olanda, dəvə dağcan olar; Öküz deyər: - Mən ağama nökərəm [1].

Zooleksika elementləri paremiyoloji vahidlərdə yalnız dilin strukturunu zənginləşdirmir, həm də dilin dərin mədəni və sosial mənalarını ortaya qoyur. Hər bir heyvan adı, dilin və mədəniyyətin inkişafında mühüm rol oynayır və insanların davranışlarını, xarakterlərini və sosial münasibətlərini təsvir etməyə kömək edir. Paremiyoloji vahidlərdə zooleksikanın istifadəsi, dilin və mədəniyyətin necə qarşılıqlı əlaqə qurduğunu, həmçinin insanların dünyagörüşünü necə formalaşdırdığını göstərir. Bu təhlil, zooleksikanın linqvokulturologik əhəmiyyətini daha da aydınlaşdırmağa və dilin sosial, mədəni və əxlaqi dəyərlərini anlamağa kömək edir.

THE COMPOSİTİON OF PAREMİC UNİTS, ZOOLEXİCAL ELEMENTS, AND THEİR LİNGUOCULTURAL FEATURES

Abstract:

This article examines the zoolexical elements within paremical units and their relation to linguocultural features. Paremical units, such as folk sayings, proverbs, and wise expressions, are essential language components that form the core of culture. These units often include elements related to animal names, behaviors, and characteristics. Zoolexics refers to lexical units related to animals, and these elements reflect the richness of language and the depth of culture.

The article discusses how zoolexical elements influence the interaction between language and culture, how they differ in social and cultural contexts, and in what cases these elements carry linguocultural significance. It also explores the diverse uses of zoolexics in different languages and cultures, emphasizing the moral, symbolic, and cultural meanings embedded in them.

Furthermore, the article presents theoretical and practical approaches to the role of zoolexical elements in the development of language and culture, as well as how these elements shape the structure of language.

Key words: *paremical units, zoolexics, animal names, linguoculture, culture, language*

ƏDƏBİYYAT

1. Atalar sözləri. Bakı, “Nurlan”, 2013, 476 səh.
2. Əhmədova X. Müxtəlifsistemli dillərdə atalar sözlərinin linqvistik təhlili və tərcümə məsələləri (Azərbaycan və alman dillərinin materialları əsasında) Fil. ü. fəl. dok. dissertasiyanın avtoreferatı, BAKI – 2011
3. Zeynallı H. Azərbaycan atalar sözü. Bakı: Elm və təhsil, 2012, 174 s

AZƏRBAYCANDİLLİ HÜQUQİ SƏNƏDLƏRDƏ ÜSLUB MƏSƏLƏLƏRİ

Məlhəm Mehtiyeva
AMEA Nəsimi adına Dilçilik İnstitutu
doktorant

Azərbaycan Respublikasında hüquqi sənədlər funksional üslublar arasında rəsmi-işgüzar üslub çərçivəsində yer alır. Bu üslubun əsas vəzifəsi qanunvericilik prosesini təmin etmək, rəsmi münasibətləri ifadə etmək və normativ-inzibati fəaliyyətə hüquqi forma verməkdir. Hüquqi sənədlər təkcə normativ hüquqi aktlar deyil, həmçinin müqavilələr, ərizələr, qərarlar, protokollar və s. əhatə edir. Bu sənədlərin dili rəsmi-işgüzar üslubun prinsiplərinə uyğun formalaşır. Rəsmi-işgüzar üslub hüquqi sənədlərdə stereotipləşmiş konstruksiyalar və sabit formulalar, emosionallıqdan uzaq dil, sabit leksik-sintaktik konstruksiyalar, normativlik və qətilik, yüksək dərəcədə standartlaşdırılmış struktur əlamətləri ilə təzahür edir. Bu xüsusiyyətlər isə hüquqi sənədlərin tərtibində normativlik və dəqiqlik yaratsa da, bəzən dilin canlılığını və oxunaqlılığını azaldır.

Hüquqi sənədlərin mətnində dəqiqlik, lakoniklik, emosionallığın olmaması, təkrarlılıq, formallıq, qanunilik, şablonlaşmış ifadələr əsas dil xüsusiyyətləri kimi çıxış edir. Bu sənədlərdə şəxsi münasibətə, hisslərə yol verilmir, subyektiv fikrə əsaslanılmır. Mətnlərdə "zənnimcə" , mən hesab edirəm" kimi ifadələrin istifadəsi yolverilməzdir. Bu mətnlərdə qaydaların sistemli verilməsi, yəni maddələr, bəndlər şəklində formalaşdırılması, qanunun məqsədi, tətbiq sahəsi, şərtləri və nəticələrinin ardıcıllığı onları daha funksional və hüquqi baxımdan tutarlı edir. Son illərdə hüquqi sənədlərin avtomatlaşdırılmış platformalarda hazırlanması üslubda bəzi dəyişikliklərə səbəb olmuşdur. Hazır və avtomatik mətnlər bəzən üslubi səliqəsizliyə səbəb olur. Mövcud sənədlərimizdə bir sıra üslubi problemlərin müşahidə olunduğunu görürük: çətin başa düşülən, dolaşıq cümlələr, qeyri-standart tərcümələrdən yaranan süni ifadələr, söz sırasının pozulması və natamam struktur, öz dilimizdə uyğun qarşılığı olmayan terminlərin istifadəsi və s. Hüquqi sənədlərdə tez-tez rast gəlinən sabitləşmiş və şablon ifadələr hüquqi mətnin rəsmi mahiyyətini əks etdirir və hüquqi normanı qoruyur. Məsələn, "müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir", "qanunvericilikdə nəzərdə tutulmuş qaydada" və s. Bu tip sabit ifadələr sənədin qanunvericiliyə uyğunluğunu göstərmək məqsədi daşısa da, çox istifadə olunduqda üslub baxımından oxucuya yeknəsəq mətn təsiri bağışlayır. Belə ifadələrin yaradıcılıqdan uzaq, dəyişmədən və təkrar-təkrar istifadə olunması mətnin üslubi keyfiyyətini azaldır.

Sabit və şablon ifadələrin istifadəsinə tamamilə son qoymaq mümkün olmasa da, onları kontekstdən asılı olaraq dəyişmək, fərqli ifadələrlə əvəz etmək mümkündür. Hüquqi mətnin həm də üslubi cəhətdən estetik görünməsi üçün yeni hüquqi üslub nümunələri yaradıla, sinonim ifadələr işlənə bilər. Məsələn, "nəzərə alaraq" əvəzinə "dəyərləndirərək" , "təhlil edərək" və s. Hüquqi mətnlərdə terminlər əsasən rus, latın, ingilis, ərəb və fars mənşəli sözlərdən

ibarətdir. Bu isə oxucuya yad üslub yaradır. Məsələn, “reqlament” , “kompensasiya” , “normativ” , “sanksiya” , “subordinasiya” “instansiya” , “akkreditasiya”, “ lizinq” , “identifikasiya” və s. terminlər hüquqi cəhətdən dəqiqliyi təmin etsə də, dilin üslubi imkanlarını məhdudlaşdırır, sadə vətəndaş üçün anlaşılmada çətinlik yarada bilir. Alınma sözlərin tez-tez və bəzən izahsız şəkildə istifadəsi mətnin sıravi oxucu tərəfindən qavranılmamasına, nitqin aydınlığının azalmasına, dilin daxili imkanlarının arxa plana keçməsinə səbəb olur. Alınma sözlərin ana dilimizə uyğun qarşılıqlarının yaradılması və tətbiqinə üstünlük verilməsi, hüquqi sənədlərdə terminlərin istifadə olunduğu ilk yerdə onların izahlı variantlarının verilməsi mətnlərin həm hüquqi, həm də üslubi dəyərini artıracaqdır. Azərbaycandilli hüquqi sənədlərdə əsas sintaktik quruluş mürəkkəb cümlələrdir. Bu cümlələr adətən çoxlu budaq cümlə və əlavələrdən ibarət olur. Məsələn, “Maraqlı şəxs - inzibati aktın qəbul edilməsi və ya müvafiq hərəkətin edilməsi ilə bağlı inzibati orqana müraciət etmiş və ya barəsində inzibati akt qəbul edilmiş və ya müvafiq hərəkət (hərəkətsizlik) edilmiş şəxs və yaxud inzibati orqan tərəfindən qəbul edilməsi nəzərdə tutulan və ya qəbul edilmiş inzibati aktın və ya inzibati orqanın hərəkətinin hüquqlarına və ya qanunla qorunan maraqlarına birbaşa təsir etdiyi və ya təsir edə biləcəyi və öz vəsatətinə əsasən və ya xidməti vəzifəsindən irəli gələn hallarda inzibati orqanın təşəbbüsü ilə inzibati icraata cəlb edilən hər hansı fiziki və ya hüquqi şəxs...” [3, səh 61]. Burada uzun struktur və təkrar ifadələr mətnin başa düşülməsini çətinləşdirir.

Bəzi hüquqi sənədlərdə riyazi elementlərin çoxluğu müşahidə olunur. Məsələn, maddə nömrələri, istinadlar, müxtəlif say göstəriciləri, rəqəmlər və s. Bunlar sənədin konkretliyini və dəqiqliyini təmin etmək baxımından əhəmiyyət kəsb etsə də, mətnin ümumi dil-üslub harmoniyasını pozaraq onu mexaniki hala salır və hüquqi informasiyanın qəbulunu qəlizləşdirir. Hüquqi mətnlərdə informasiya bolluğu ilə yüklənmiş bu tip elementlər funksional baxımdan zəruri olsa da, onların sıxlığı diqqəti yayındırır, nitq ahəngini pozur. Bunun həlli üçün balanslaşdırılma aparılmalı, mümkün olduqda rəqəmlər sözlə ifadə olunmalı, alternativ ifadə vasitələri, izahlı yanaşmalar istifadə olunmalıdır. Hüquqi sənədlər rəsmi sənəd növləri arasında xüsusi əhəmiyyətə malik olub, cəmiyyətin hüquqi münasibətlərinin tənzimlənməsində, vətəndaşların hüquq və vəzifələrinin müəyyənləşdirilməsində mühüm rol oynayır. Bu sənədlərin dili aydın, dəqiq və qüsursuz olmalıdır. Lakin təhlillər göstərir ki, məhkəmə sənədlərində, eləcə də digər hüquqi sənədlərdə müxtəlif səciyyəli dil və üslub nöqsanlarına rast gəlinir. Bu nöqsanlar sənədin mahiyyətinə təsir göstərməklə yanaşı, bəzən onun hüquqi qüvvəsinə də xələl yetirə bilir. Ən çox müşahidə edilən nöqsanlardan biri orfoqrafik səhvlərdir. Məhkəmə sənədlərində müəyyən sözlərin düzgün yazılmamasına tez-tez rast gəlinir. Bəzən sənəddə rəsmi dil normalarına uyğun olmayan ifadələrə yer verilir. Məsələn, "nikah" sözü yerinə səhvən "nigah" yazılması halları müşahidə olunmuşdur. Bu cür səhvlər sənədin dəqiqliyinə və oxunaqlılığına zərər yetirir. Bu cür fonetik-orfoqrafik nöqsanlar hüquqi sənədlərin rəsmi üslubunu pozur, onların ciddiliyinə kölgə salır. Fonetik səhvlərlə yanaşı, leksik nöqsanlar da hüquqi sənədlərdə mühüm yer tutur. Leksik səhvlər əsasən söz seçiminin düzgün olmaması və ifadə vasitələrinin yerində

istifadə edilməməsi ilə bağlıdır. Məsələn, sənədlərdə "tərərflər arasında baş vermiş inciklik" ifadəsi düzgün deyildir, çünki burada "inciklik" sözü emosional xarakter daşıyır, qeyri-dəqiqdir. Burada "tərəflər arasında yaranmış hüquqi mübahisə" ifadəsi işlənsə, düzgün olar. Bu cür səhvlər sənədin məzmununun anlaşılmasına mane olur, məhkəmə və digər hüquqi orqanlar tərəfindən sənədin düzgün təfsir olunmasına çətinlik yaradır, hüquqi dəqiqliyin pozulmasına gətirib çıxarır. Hüquqi sənədlərdə dəqiqlik və müəyyənlik tələb olunduğundan, leksik səhvlər burada xüsusilə ciddi problem hesab edilir.

Bəzi hallarda isə hüquqi sənədlərdə terminlərin səhv istifadəsi müşahidə edilir. Məsələn, "qərar" sözü ilə "qətnamə" sözlərinin yer dəyişdirməsi sənədin növünü dəyişdirə və onun hüquqi təsirini azalda bilər. Halbuki hüquqi sənədlərdə terminlərin düzgün və yerli-yerində işlədilməsi əsas şərtlərdən biridir. Hüquq sənədlərində terminoloji ardıcıllıq pozulanda sənədin hüquqi qüvvəsi şübhə altına alınır, oxucuda qeyri-müəyyənlik hissi yaradır. Digər bir problem isə hüquqi sənədlərdə üslub pozuntularının olmasıdır. Rəsmi üslub hüquqi sənədlər üçün məcburi xarakter daşıyır. Buna baxmayaraq, bəzi hallarda hüquqi sənədlərdə gündəlik danışıq dilinə xas ifadələrə, emosional yüklü söz və cümlələrə rast gəlinir. Belə hallarda sənədin obyektivliyi və rəsmi xarakteri pozulur. Məsələn, qanunvericiliyə uyğun olaraq istintaq sənədlərində və məhkəmə qərarlarında tərəfsizlik və obyektivlik əsas prinsipdir. Əgər sənəddə subyektiv münasibət bildirilirsə və ya emosional ifadələrə yol verilirsə, bu, sənədin hüquqi əsaslarını zəiflədir. Ümumiyyətlə, hüquqi sənədlərdə dil və üslub nöqsanlarının aradan qaldırılması üçün bir sıra tədbirlərin görülməsi zəruridir. İlk növbədə, hüquqi sənədləri tərtib edən şəxslərin rəsmi yazı üslubu qaydalarını və hüquqi terminologiyanı dərindən bilməsi vacibdir. Bundan əlavə, hüquqi sənədlərin dilinin təkmilləşdirilməsi məqsədilə onların tərtibatı zamanı linqvistik redaktə aparılmalı, sənədlər peşəkar redaktorlar tərəfindən yoxlanmalıdır. Hüquqşünasların və məhkəmə işçilərinin dil bacarıqlarının artırılması üçün mütəmadi təlimlər və seminarlar keçirilməlidir. Həmçinin hüquqi sənədlərdə norma və standartların tətbiqi məsələsinə ciddi yanaşmaq lazımdır. Hüquqi mətnlərin hazırlanmasında dəqiqlik, konkretlik, neytrallıq və aydınlıq prinsiplərinə əməl olunmalıdır. Hüquqi sənədlərin dili mübahisəyə yol verməyəcək dərəcədə açıq və qəti olmalıdır. Çünki hüquqi sənədlər yalnız hüquqşünaslar üçün deyil, həm də hüquqi bilikləri məhdud olan şəxslər üçün nəzərdə tutulur. Bir digər vacib məqam isə hüquqi sənədlərin tərtibində milli dil normalarına əməl olunmasıdır. Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dili olduğuna görə, hüquqi sənədlərdə Azərbaycan dilinin orfoqrafik və qrammatik qaydalarına ciddi riayət edilməlidir. Rəsmi sənədlərdə dilin dövlət dili kimi qorunması və inkişaf etdirilməsi dövlət siyasətinin mühüm istiqamətlərindən biridir. Bu baxımdan, hüquqi sənədlərin dilinin düzgünlüyü yalnız texniki məsələ deyil, həm də milli dəyər kimi qiymətləndirilməlidir.

Nəticə etibarilə demək olar ki, hüquqi sənədlərdə dil və üslub nöqsanları həm sənədin hüquqi keyfiyyətinə, həm də vətəndaşların hüquqlarının qorunmasına birbaşa təsir göstərir. Ona görə də bu sahədə sistemli yanaşma formalaşdırılmalı, dil və hüquq mədəniyyətinin qarşılıqlı əlaqəsi təmin

edilməlidir. Yalnız bu halda hüquqi sənədlərin cəmiyyət üçün etibarlı hüquqi baza rolunu yerinə yetirməsi mümkün olacaqdır.

Gələcəkdə hüquqi sənədlərin dilinin daha da təkmilləşdirilməsi onların geniş ictimaiyyət üçün daha aydın və anlaşıqlı olması baxımından aktual məsələ kimi qalır.

STYLISTIC ISSUES IN AZERBAIJANI LANGUAGE LEGAL DOCUMENTS

SUMMARY

Legal documents are official texts that are of significant importance for public administration, legal relations and the regulation of public order. The language and structure of these documents play a direct role in the application of law and the formation of legal relations. The linguistic choices in the text of legal documents influence the understanding, application and execution of legal norms. The preparation of these documents in a correct, clear and understandable style is crucial for the supremacy of law, citizens' access to legal information and the transparency of legal relations. Ambiguity and uncertainty are considered unacceptable in the language of legal documents, the study of the stylistic features of legal documents is important both from a linguistic and a legal perspective.

The article explores the stylistic features in legal documents, touches on stylistic flaws and emphasizes the role of the principles of objectivity and impartiality. It is shown that stylistic problems such as repetition, long and complex sentence structures in legal documents cause misunderstandings during interpretation.

Keywords: legal style, legal documents, stylistic features, stylistic flaws, legal terms.

ƏDƏBİYYAT

1. Əliyeva N. Azərbaycan məhkəmə sənədlərinin dili. Bakı, “Nurlan”, 2004, 124 səh.
2. İsmayılova M. Azərbaycan dilinin tətbiqi işinin təkmilləşdirilməsi. Bakı, 2008, 90 səh.
3. Kərimov S., Vəliyeva G. İnzibati icraat haqqında Azərbaycan Respublikasının Qanunu. Kommentariya. Bakı, “Hüquq ədəbiyyatı”, 2006, 464 səh.
4. Məmmədli N. Azərbaycan dilində alınma terminlər. Bakı, Elm və təhsil, 2017, 488 səh.
5. Yusifova N. Y. Azərbaycan dilinin üslubiyyatı. Bakı, “İqtisad Universiteti” nəşriyyatı, 2022, 198 səh.

DİL VƏ ÜSLUB MƏSƏLƏLƏRİ

Ruhanə Xambatova
Gəncə Dövlət Universiteti

"Dil və üslub" ifadəsi həm ədəbiyyatda, həm də publisistikada digər yazılı sözlü nitq sahələrində çox vacib anlayışlardır. Onların hər biri fərqli funksiyaya malikdir, amma bir-biri ilə sıx bağlıdır. *Dil* – fikirlərin, duyğuların ifadə vasitəsi olan, müəyyən qaydaları (qrammatikanı) olan sistemdir. *Ədəbi dil* – ədəbi normalara uyğun şəkildə işlənmiş, cəmiyyətin qəbul etdiyi dildir.

Dil həmçinin müəllifin hansı dildə yazdığını və hansı ifadə vasitələrindən istifadə etdiyini göstərir: Sadə dil – sadə, aydın, hər kəsin anlaya biləcəyi dil; Bədii dil – təşbehlər, metaforalar, epitetlər və digər bədii vasitələrlə zənginləşdirilmiş dil; Elmi dil – obyektiv, terminlərlə dolu, dəqiq və səlis dil. Üslub – müəllifin düşüncələrini ifadə etmə tərzidir. Üslub müəllifin fərdi yazıya xas olan ton, söz seçimi, cümlə quruluşu və yanaşmadır.

Əsas üslub növləri:

1. Bədii üslub – ədəbiyyatda istifadə olunur, obrazlı və emosionaldır.
2. Elmi üslub – elmi əsərlərdə, məqalələrdə, dərsliklərdə istifadə olunur.
3. Rəsmi-işgüzar üslub – ərizələr, sənədlər və rəsmi yazışmalarda istifadə olunur.
4. Publisistik üslub – qəzet, jurnal, çıxışlar və sosial nitqdə olur, həm məlumatverici, həm də təsiredicidir.
5. Söhbət üslubu (danışıq üslubu) – gündəlik ünsiyyətdə istifadə olunur, sərbəstdir və emosionallıq daşıyır.

Məsələn: "O, qaranlıqda itmiş bir ulduz kimi idi." – Bu cümlədə *bədii dil* və *bədii üslub* istifadə olunub. Müəllif metaforadan istifadə edib və obraz yaratmağa çalışıb. Dövrümüzün siyasi lideri Heydər Əliyevin üslubu onun natiq kimi çıxışlarında, yazılarında və ictimai fəaliyyətində formalaşmış xüsusi və tanınan bir üslubdur. Bu üslub Azərbaycan ictimai-siyasi düşüncəsində dərin iz buraxmışdır.

Rəsmi və ciddilik daşıyan üslub. Heydər Əliyev çıxışlarında və sənədlərində *rəsmi-işgüzar və publisistik üslubu* ustalıqla birləşdirirdi. Ciddi, dəqiq və ölçülü danışırdı, nitqlərində ardıcıllıq və məntiq güclü olurdu. Məsələn: "Azərbaycan xalqı bu gün müstəqil dövlət qurmaq hüququna tam malikdir və bu hüquq bizim tarixi nailiyyətimizdir. Heydər Əliyevin çıxışlarında milli kimlik, vətən sevgisi, tarixə hörmət və xalqın birliyi tez-tez vurğulanırdı. Onun üslubu bu mənada emosional və ruhlandırıcı idi: "Mən fəxr edirəm ki, azərbaycanlıyam!" – bu məşhur ifadəsi onun xalqına bağlılığını və vətənpərvərliyini ifadə edir. Heydər Əliyev nitqlərində çox vaxt səliqəli və aydın dil işlədirdi. O, mürəkkəb anlayışları sadə dillə izah etməyi bacarırdı. Bu onun geniş kütlələrə təsir etmək qabiliyyətini artırırdı. Onun nitqlərində dərin siyasi və tarixi təhlil olurdu. Müəyyən qərarları izah edərkən keçmişə, tarixi təcrübəyə və dünya siyasətinə istinad edirdi. Bu onun nitqlərinə həm ağırlıq, həm də inandırıcılıq qatırdı. Onun danışığında və çıxışlarında liderlik ruhu, qətiyyət və idarəçilik məsuliyyəti hiss olunurdu. Heydər Əliyev auditoriyasına əminlik və

inam aşılayırdı. Heydər Əliyevin üslubu: Rəsmi, ciddi, anlaşıqlı və milli ruhludur, liderlik xarakteri daşıyır, məntiqi ardıcıllıq və aydın siyasi mövqe ilə seçilir, tarixi və strateji baxışlara əsaslanır, xalqla ünsiyyətdə səmimi, amma məsafəni qoruyandır. Heydər Əliyev, Azərbaycan dilinin inkişafı və qorunması sahəsindəki fəaliyyəti ilə həm dövlətçilik, həm də mədəniyyət tariximizdə əvəzsiz izlər qoymuş böyük şəxsiyyətdir. Onun dil siyasəti yalnız hüquqi sənədlərlə məhdudlaşmayıb, həm də şəxsi nümunə, nitq mədəniyyəti və milli kimliyin qorunmasına yönəlmişdir. Heydər Əliyev, Azərbaycan dilinin yalnız hüquqi deyil, həm də mədəni inkişafına xüsusi diqqət yetirmişdir. Onun rəhbərliyi ilə Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü hər il 1 avqust tarixində qeyd olunmağa başlanmışdır. Bu, dilimizin saflığının qorunması və inkişafı istiqamətində atılmış mühüm addımdır . Ulu öndər Heydər Əliyev öz çıxışlarında Azərbaycan dilinin zənginliyindən və gözəlliyindən fəxrlə bəhs etmiş, dilin qorunması və inkişafı istiqamətində şəxsi nümunə göstərmişdir. Onun nitqləri, dilin zənginliyini və ifadə imkanlarını nümayiş etdirən nümunələrdir. Bu yanaşma, dilin yalnız kommunikasiya vasitəsi deyil, həm də milli kimliyin daşıyıcısı olduğunu göstərir. Heydər Əliyevin Azərbaycan dili ilə bağlı apardığı siyasət, yalnız hüquqi tədbirlərdən ibarət olmayıb, həm də şəxsi nümunə, nitq mədəniyyəti və milli kimliyin qorunmasına yönəlmişdir. Onun bu sahədəki fəaliyyəti, Azərbaycan dilinin dövlət dili kimi inkişafını və qorunmasını təmin etmiş, gələcək nəsillərə bu irsi miras qoymuşdur. Heydər Əliyev coşğun bir vətənpərvər şəxsiyyət kimi daim ana dilinin keşiyində durmuş və ona böyük qayğı göstərmişdir. Dünyada Azərbaycan dili kimi tanınan ana dili adının ya türk dili, ya Azərbaycan türkcəsi, Azərbaycan türk dili və ya daha başqa versiyalarla verilməsi fikirləri səsləndirilirdi. Heydər Əliyev vaxtında bu işə müdaxilə edərək xalqın tarixinə, mədəniyyətinə, dilinə, varlığına qəsd kimi yönəlmiş bu rüsvayçı təxribatın aradan qaldırılmasına nail oldu. 1995-ci ildə bilavasitə Heydər Əliyevin təşəbbüsü və iştirakı ilə ana dilinin adlandırılması məsələsi ilə bağlı geniş müzakirələr keçirildi. Müzakirələrin nəticəsi olaraq ana dilinin adı Azərbaycan dili kimi qətiləşdirildi və təsbit olundu [1. s.7]. 2001-ci il iyunun 18-də Heydər Əliyev tərəfindən "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı" imzalandı. Fərmanda dilin inkişafı üçün dövlət qayğısının mühüm rol oynaması ilə əlaqədar olaraq göstərilir ki: *"Dil öz daxili qanunları əsasında inkişaf edirsə də onun tədqiq və tətbiq edilməsi üçün yaradılmış geniş imkanlar bu inkişafın daha sürətli və dolğun olmasına təkan verir. İnkişaf etmiş zəngin dil mədəniyyətinə sahib olan xalq əzilməzdir, ölməzdir, böyük gələcəyə malikdir".* Ana dilinin tədqiqi, tətbiqi və tədrisi işinin səmərəli inkişafını təmin etmək məqsədi ilə Respublika Prezidentinin 4 iyul 2001-ci il tarixli Sərəncamı ilə Dövlət Dil Komissiyası yaradılmışdır. Sərəncamın verilməsi "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 18 iyun 2001-ci il tarixli 506 nömrəli Fərmanın yerinə yetirilməsi məqsədi ilə qərara alınmışdır. [2]. Ulu öndər Heydər Əliyev dilin xalqın mənəvi sərvəti və milli kimliyin əsas daşıyıcısı olduğunu qeyd etmişdir: "Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onundilidir dilidir!", "Dil xalqın böyük sərvətidir. Ədəbi dilin tərəqqisi olmadan mənəvi mədəniyyətin tərəqqisi mümkün deyildir." Heydər Əliyev ana

dilinə olan sevgisini və onun qorunmasının vacibliyini vurğulamışdır: “Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi köklərə malikdir. Şəxsən mən öz ana dilimi çox sevir və bu dildə danışmağımla fəxr edirəm.”, “Ana dili bizim müqəddəs sərvətimizdir. Ana dili ömrümüzə məna verən, onu gözəlləşdirən əxlaq dərsliyidir.”Ulu öndər gənclərin ana dilini düzgün mənimsəməsinin vacibliyini qeyd etmişdir: Mənim dilim “Öz dilini sevməyən adam öz tarixini bilə bilməz. Ana dilini bilməyən gənc Nizamini oxuya bilməz. Füzulini oxuya bilməz. Cəlil Məmmədquluzadəni oxuya bilməz. Əgər onları oxuya bilməsə, o, tariximizi bilməyəcək, bizim mədəniyyətimizi bilməyəcək. Onları bilməsə, o, vətənpərvər olmayacaq, onda vətənpərvərlik duyğuları, hissiyyatı olmayacaq.” Heydər Əliyev dilin müstəqil dövlətin ən böyük milli sərvəti olduğunu vurğulamışdır: “Ana dilimiz müstəqil Azərbaycanın, Azərbaycan xalqının ən böyük milli sərvətidir.”

LANGUAGE AND STYLE ISSUES

Summary

The expressions "language and style" are very important concepts in both literature and journalism and other areas of written oral speech. Each of them has a different function, but is closely related to each other. Language is a system that is a means of expressing ideas and feelings, has certain rules (grammar). Style is the author's way of expressing his thoughts. Style is the tone, choice of words, sentence structure and approach inherent in the author's individual writing. Heydar Aliyev often used neat and clear language in his speeches. He was able to explain complex concepts in simple language. Heydar Aliyev's style: It is official, serious, understandable and national in spirit, has a leadership character, is distinguished by logical consistency and a clear political position, is based on historical and strategic views, is sincere in communicating with the people, but keeps a distance.Heydar Aliyev's policy regarding the Azerbaijani language did not consist only of legal measures, but also of personal example, aimed at preserving speech culture and national identity. His activities in this field ensured the development and protection of the Azerbaijani language as the state language, bequeathing this heritage to future generations.

Key words: language, speech, literary language, style, speaker

ƏDƏBİYYAT

1. 1. Əliyev, H. Ədəbiyyatın yüksək borcu və amalı / Tərt ed: V.Quliyev. – Bakı: Ozan, – 1999. – 496 s.

2. Yusifov, M. Dahi şəxsiyyətin nitq fenomenliyi / M.Yusifov. – Bakı, 1997. – 144 s.

3. “Azərbaycan Respublikasında Təhsilin inkişafı üzrə Dövlət strategiyası”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // –2013, 24 oktyabr, № 13: www. e-qanun.az /framework/ 27274.

VAHİD ƏZİZ POEZİYASINDA FRAZEOLOJİ BİRLƏŞMƏLƏRİN ÜSLUBİ İMKANLARI

Gülnar Rzayeva
Azərbaycan Dillər Universiteti
dissertant

Frazeologiya dilçilikdə sabit söz birləşmələrini öyrənən sahəyə deyilir. Dilçilikdə frazeologiyanın ayrıca bir sahə olması məsələsi kifayət qədər mübahisəli hesab edilir. Baxmayaraq ki, bu sahədə son illər kifayət qədər tədqiqatlar aparılmış, frazeoloji birləşmələrin müxtəlif növləri fərqləndirilmişdir. S.Cəfərov bu barədə danışarkən yazır: "Frazeoloji birləşmələrdə öyrənilən sabit söz birləşmələrinin aşağıdakı növləri vardır: idiomlar; ibarələr; hikmətli sözlər; atalar sözləri; zərbi-məsəllər və tapmacalar" [1.s.89]. Göründüyü kimi, S.Cəfərov dildə hazır şəkildə mövcud olan bütün sabit söz birləşmələrini frazeologizm adı ilə birləşdirir. M.Mirzəliyeva isə bununla razılaşmır. Onun fikrincə, "əgər frazeoloji vahidlər "sabit söz birləşmələri" adı altında "sərbəst söz birləşmələri"nin əks qütbü kimi öyrənilirsə, onda bu mövzu sintaksisin obyekti olmaqla "Söz birləşmələri" bəhsinə daxil edilməlidir. Yəni söz birləşmələri ibarətdir: 1. Sərbəst söz birləşmələri; 2. Sabit söz birləşmələri. Lakin ,bizcə, frazeoloji vahidlər bu sabit söz birləşmələrinə aid olmayıb, həm söz, həm söz birləşməsi (xüsusi ilə sabit söz birləşməsi), həm də cümlə səviyyəsində məcazlaşma prosesinə məruz qalıb semantik bütöv qazanan və dildə hazır vəziyyətdə mövcud olan sabit dil vahidləridir" .[5,s.20]

Bu mənada Vahid Əziz poeziyasının öyrənilməsi də dilimizin lüğət tərkibinin tədqiqi baxımından maraq kəsb edir. Çünki Vahid Əziz poeziyasında frazeologizmlər xüsusi üslubi çalar kəsb edir və bu poeziya frazeoloji birləşmələrlə zəngindir. Bu da şairin doğma dilimizi nə dərəcədə gözəl və dərin bilməsinin göstəricisidir. Şairin şeirlərində bu frazeoloji birləşmələr həm olduğu kimi, həm də bəzi dəyişikiliklər edilməklə işlədilir. Misallara diqqət edək:

Mənə yüz il ömür arzulamayın –
Bu qədər yaşayan hansı çiçəkdir?
Sən yaşda qalmırsa taytuşun-tayın,
Qurdnan qiyamətə qalmaq deməkdir! [9,s.7]

Məlumdur ki, dilimizdə "qurdla qiyamətə qalmaq" ifadəsi var. Bu frazeologizm "çox yaşamaq, ölməmək, həmişə yaşamaq"kimi izah edilir. [3,s.197] Vahid Əziz poeziyasında rast gəlinən frazeoloji birləşmələrdən biri də "daşını atmaq" ifadəsidir. *Bəzən ləyaqətin daşını atıb,Dözdüm səni yaxşı tanımaq üçün* [8,s.6]. Dilimizdə "daşını atmaq" birləşməsi bir neçə mənada işlənir: 1. Tərgitmət, əl çəkmək; 2. Xilas olmaq, azad olmaq; 3. Uzaqlaşmaq, ayrılmaq [6,s.501] .Şair bu birləşmədən məharətlə istifadə edərək birləşməni "ləyaqətin daşını atdım" formasında işlədir və burda həm də bir üslubi çalar yaradır. Dilimizdə "ayaq açmaq" ifadəsi də bir neçə mənada işlədilir: 1. Yeriməyə başlamaq; 2. Get-gələ başlamaq, bir yerə tez-tez gəlmək; 3. Yayılmaq, çoxalmaq, artmaq [6,s.161] .*Qonşuya elçilər ayaq açdılar, Yerişdən gördülər – qızın vaxtıdı* [7,s.383]. Göründüyü kimi, şair bu ifadəni "qonşuya getməyə

başlamaq" mənasında işlədir. Məlumdur ki, frazeoloji birləşmələr həm də xalqın müdrikliyinin, dünyagörüşünün ifadəsi kimi işlədilir. Bu mənada bu tip birləşmələr işlənən mətn daim məsləhət xarakterli olur. Vahid Əziz poeziyasında da biz bunu bir daha görürük:

Ağlı olan - özün öyməz,
Düz işləri - Fələk əyməz,
Şeytan özü gözə dəyməz –
Onu, adamda tanıdım [7,s.384].

Nümunədən də göründüyü ki, sanki şair oxucusuna öyüd-nəsihət verir. Şeir parçasında işlədilən "gözə dəymək" – görünmək, hiss edilmək frazeologizmindən şair bu formada istifadə edir. Dilimizdə "dil tapmaq", "dil tapa bilmək" frazeoloji birləşmələri də aktual birləşmələrdən hesab edilir.

Payızla dərdləşdim, quş dili bildim,
Başda- daş, gözlərdə -yaş dili bildim,
Gül dili, sazlarda tel dili bildim–
dil tapa bilmədim özüm-özümlə [7,s.336]

Şair bu birləşmədən məharətlə istifadə edir. Belə ki, dilimizdə "quş dili bilmək" ifadəsi işlədilir. "Anlaşılmaz, mürəkkəb cümlələr və qəliz ibarələrlə dolu dil, danışıq tərzi haqqında işlədilən ifadədilimizdə çox işlədilir və bu ifadə e.ə. 965 – 928-ci illərdə hökmdarlıq etmiş Süleyman peyğəmbər (Süleyman ibn Davud) haqqında dolaşan əfsanələrdən qaynaqlanır. Şərqin görkəmli mütəfəkkiri Fəxrəddin Əttarın bu əfsanə ilə əlaqədar "Məntiq-üt teyr" ("Quşların nitqi") adlı fəlsəfi poeması mövcuddur. Sufizm görüşləri və rəvayətləri əsasında yazılmış bu əsərin iştirakçıları quşlar (hüd-hüd, tutu, tovuz, bülbül, qumru, turac, göyərçin, şonqar və s.) olub öz "quş dillərində" danışırdı. Buradakı "quş dili" ifadəsi həqiqi mənadan əlavə, bir də (əsasən) rəmzi, sufi təriqətinə xas bir dil mənasını da bildirir. Odur ki, sufizmdən xəbərdar olmayanlar üçün bu müəmmalı, sirli, anlaşılmaz bir dil olaraq qalır. Sonralar, ümumiyyətlə, anlaşılmaz, qəliz ibarələrlə dolu dilə tədricən "quş dili" deməyə başlamışlar. Vahid Əziz poeziyasında maraq doğuran məqamlardan biri də odur ki, şair xalqın deyimlərinə və frazeologiyasına tez-tez müraciət edir və bəzən eyni bənddə bir deyil bir neçə frazeoloji birləşmədən istifadə edir. Məlumdur ki, Azərbaycan dilində "canı boğazına yığılmaq (gəlmək), cana yığılmaq, cana gəlmək, cana doymaq, boğaza yığılmaq, zara gəlmək, zinhara gəlmək, canından bezmək, qan ağlamaq frazeoloji birləşmələri ilə sinonim olan "təngə gəlmək" ifadəsi tez-tez işlədilir. Bu birləşmə "bezmək, usanmaq" mənasında işlədilir. [4,s.250] Şair bu ifadəni işlətməklə yanaşı eyni zamanda eyni bənddə daha bir frazeoloji birləşmə işlədir:*Özüm də təngə gəldim,Özümə gileyimnən,Gözüm daha su içmir,Şübhəli taleyimnən* [8,s.504]

Tez-tez şair hamıya məlum, bildiyimiz frazeoloji birləşmələri özünəməxsus şəkildə dəyişir, onlara yeni məna, yeni forma verməklə yanaşı, həm də onları öz istəyinə uyğun cilalayır, dilimizin imkanlarını bir qədər də genişləndirir. Məsələn:*O gün yenə "kor fələklə" savaşdım,bəxt qapısın o bağladı, mən açd*ım**.**[7,s.451]**.**Burada şair *"Kor fələklə" savaşdım* ifadəsini işlədir. Digər misrada işlənən bəxti bağlanmaq və bəxti açılmaq frazeologizmləri

də şair tərəfindən özünəməxsus şəkildə istifadə olunur. Burada da şair iki antonim birləşmədən məharətlə istifadə edir.

Bəzən isə şair yeni frazeoloji birləşmə yaradır. Nümunəyə diqqət edək: *Kim ki, sevməz millətini –Düşmən almış qeyrətiniQəhrəmanlar qüdrətini,Azərbaycanda tanıdım* [7,s.384] Nümunədə işlədilən "düşmən qeyrətini alıb" birləşməsi dilimizdə işlənmir. Buna uyğun dilimizdə "qeyrətini itirmək" ifadəsi olsa da "qeyrətini almaq" ifadəsi işlənmir və şair "özünü rüsvay etmək", "abırsız olmaq" ~ namusunu satmaq, namusu yeyib, arı belində bağlayıb (şəlləyib)[3,s.187] formalarında işlənən frazeoloji birləşmənin mənasını saxlamaqla yeni forma yarada bilmişdir. Ümümxalq dilində elə frazeoloji vahid yoxdur ki,şeir dili , poeziya dili ona biganə qalsın. Vahd Əzizin şeir dilində işlənən frazeoloji vahidlərdə xalqın psixologiyası və düşüncə tərzi var.Xalq danışıq dilinə yaxşı bələd olan Vahid Əziz atalar sözlərindən, zərb-məsəllərdən ustalıqla yararlanmışdır." Atalar sözləri və məsəllər frazeologiyanın xüsusi qatını təşkil edir. Onlar emosional-ekspressiv mənalarla müxtəlif münasibətlərlə ola bilərlər".[2,s.4] Məsələn:*Çomağı əlimdə yerə qoymuram:Gördüyüm qurdlara yaxşı bələdəm.* [9,s.301], *Atalar sözü var:"Qotur keçilər,ölməkçün çomağa sürtər özünü"* [10,s.79]. Nümunələr əyani şəkildə göstərir ki,frazeologizmlər xalq zəkasının,xalq müdrikliyinin ifadəsidir.

Nəticə olaraq, söz sənətkarının əsərlərinin dilində frazeologizmlərin tədqiqi frazeoloji vahidlərin sistemləşdirilməsində,poetik dilin üslubi imkanlarının müəyyən edilməsində vacib rol oynayır.

Summary

Stylistic possibilities of phraseological units in Vahid Aziz's poetry

The study of phraseology, a powerful means of expression in the poetic structure of poetic language, is highly significant for linguistics. In this context, the analysis of phraseological units in Vahid Aziz's lyrical poetry holds particular importance. The article is devoted to the selection of phraseological expressions in Vahid Aziz's poetry, examining their functions in literary language, the analysis of ways of forming phraseological units bearing a stylistic load, as well as the poet's role in this process

The poet skillfully uses phraseological units with jeweler-like precision, continuing to create the finest examples of modern Azerbaijani poetry. The national poet gives a new look to existing folk sayings, enriching the semantic potential of poems based on well-established folk expressions with a special approach. Knowing well the worldview of his people and its centuries-old traditions, the master of words widely uses folk sayings and expressions. Studying the stylistic features of phraseological units in the poet's works makes it possible to determine his ability to work with language.

Ədəbiyat

1. Cəfərov S. Müasir Azərbaycan dili. II hissə, Leksika, Bakı, Şərq-Qərb, 2007, 192 s.
2. Əlizadə Z. Azərbaycan atalar sözü və zərb məsəllərin leksik-semantik xüsu- siyyətləri. Bakı: ADU nəşriyyatı, 1989
3. Məhərrəmli Q,İsmayılov R. Azərbaycan dilinin frazeologiya lüğəti. Bakı, Altun kitab, 2018.

4. Məhərrəmli Q., İsmayılov R. Məsəllər, deyimlər. Etimoloji lüğət. Bakı, Altun kitab, 2019

5. Mirzəliyeva M. Türk dillərinin frazeologiyası. 2 cilddə, I c., Bakı, Nurlan, 2009, 216 s.

6. Seyidəliyev N., Əhmədov B. Azərbaycan dilinin böyük frazeoloji lüğəti. iki cilddə, I cild., Bakı, Elm və təhsil, 2024, 1140 s.

7. Vahid Əziz .Yaşamağa tələsməyin. Azərnəşr, Bakı-2025

8. Vahid Əziz. Alça çiçəyinə bənzəyən ömür ,Azərnəşr, Bakı, 2008,672 səh

9. Vahid Əziz. Sənlə. seçilmişlərdən seçmələr (1966-2023) yenilənmiş təkrar nəşr.Bakı, Azərnəşr, 2023, 500 s.

10.Vahid Əziz.Param-Parça illər.Qarabağ dəftərindən (1988-2021) ,Azərnəşr, Bakı-2021

III BÖLMƏ

ƏDƏBİ DİL MƏSƏLƏLƏRİ

XIV-XV ƏSR QIPÇAQ LÜĞƏTLƏRİNDƏ TOXUCULUQ LEKSİKASI

Tünzalə İsmayılova
AMEA Nəsimi adına Dilçilik İnstitutu

Türk mədəniyyətinin ayrılmaz hissəsi olan toxuculuq sənəti qədim tarixi köklərə malikdir. İnsanın zehni və fikizi əməyinə əsaslanan bu sənətin söz varlığında xalqın zəngin irsi, mədəniyyəti, dünyagörüşü, zamanın süzgəcindən keçib-gələn təcrübəsi özünü göstərir. Türk dilinin tarixi inkişafının bütün dövrlərində ərsəyə gəlmiş əsərlərdə toxuculuq leksikasına aid zəngin nümunələr işlənmişdir. Bu əsərlər arasında tədqiqata cəlb etdiyimiz "Kitab əl-idrak li-lisan əl-ətrak", "Ət-töhfətüz-zəkiyyə fil-lüğətit-türkiyyə", "Kitabud-dürrətil-mudiyyə fil-lüğətit-türkiyyə" kimi qıpçaq lüğətləri xüsusi yer tutur. Bu lüğətlərdə toxuculuqla, tikişlə bağlı zəngin nümunələr mövcuddur. Bu nümunələr arasında *ağurşaq, ik~ig, çuvalduz, təmən, ignə~inə* kimi sözlər diqqət çəkir. Bu sözlər türk mənşəli leksikaya aid olmaqla yanaşı, inkişaf prosesində demək olar ki, dəyişikliyə çox az məruz qalmışdır.

Ç*uvalduz* "çuvalduz, qıyıq" [8, s.45]. "Kitabud-dürrətil-mudiyyə fil-lüğətit-türkiyyə"də (bundan sonra – **DM**) sözün *çuvaldız* və *şuvaldız* variantları ilə yanaşı, *tümə yinə* lekseminə də rast gəlirik [18, 10a]. "Ət-töhfətüz-zəkiyyə fil-lüğətit-türkiyyə"də (bundan sonra – **TZ**) isə bu mənada *təmən* işlənmişdir [4, 8a-1]. Qıpçaq lüğətlərində eyni semantikada işlənən *təmən* və *tümə yinə* sözləri "Divan"da *təmən, təmən yignə, təmən yingnə* kimi qeyd olunmuşdur [2, s.402; 3, s.35]. *Temen* sözü bu mənada müasir türk dillərində müxtəlif formalarda izlənilir. Türkməncədə *temen*, uyğurcada *tömünə*, qırğızcada *temene,* qazaxcada *teben* [14], başqırdcada *tiben* [15, s. 614] kimi qorunur. Söz Azərbaycan ədəbi dilində *çuvalduz* və Meğri dialektində isə *çuvaldız* [5, s.108] kimi işlənməkdədir. Həmçinin söz atalar sözlərimizin tərkibində də işlənmişdir: *İynəni özünə, çuvalduzu yoldaşına* [6, s.502]. Türkiyə türkcəsində bu atalar sözü demək olar ki, eyni formada işlənir. Bununla yanaşı, söz "bir evde iki kız, biri çuvaldız biri biz" atalar sözündə də diqqət çəkir [19]. Digər türk dillərində sözün işlənmə formaları belədir: özbək dilində *cuvàldiz*, qırğız dilində *cōbaldız***,** qazax dilində *juvaldız*, uyğur dilində *çuvalduz* [13]. Sözün etimoloji araşdırması ilə bağlı A.Tietze qeyd edir ki, söz farsca *"çuval tikən, çuvalçı"* mənasına gələn **çuvāldüz** sözündən götürülmüşdür. Bu leksemin tərkibinə gəldikdə isə, *"çuval (torba) + düz (tikən)"* sözlərindən ibarətdir [17, s.271]. V.V.Radlov da sözün tərkibinə görə təhlilini eyni formada vermişdir [23, s.2187]. Göründüyü kimi, söz farscada peşəni bildirsə də, türk dilinə *"*tikməyə yarayan böyük iynə" kimi keçmişdir. Sözün kökü olan *çuval* ilə bağlı H.Eren bildirir ki, "*söz türkcədən Suriya ərəbcəsinə çvāl formasında keçmiş, Misir ərəbcəsində isə şuwāl*

formasında işlənmişdir" [11, s.102]. Nəzərə alsaq ki, qıpçaqlar 13-16-cı əsrlərdə Misir-Suriya ərazisində hakim qüvvəyə çevrilmişlər, bu siyasi təmasların nəticəsində xalqlar arasında söz alış-verişi də qaçınılmaz olmuşdur. Odur ki, sözün qıpçaqlar vasitəsilə Misir ərəbcəsinə keçməsi təbii haldır. Qıpçaq lüğətlərində *ignə* və *inə* sözləri "iynə"ni ifadə etmişdir [4, s.4b-12; 8, s.19; 18, s.10a]. "Kitab əl-idrak li-lisan əl-ətrak"da (bundan sonra – **Kİ**) sözün qıpçaqlar tərəfindən "*inə*" formasında deyildiyi vurğulanmışdır. Kİ və TZ lüğətlərində hər iki variant işlənmişdir. M.Kaşğari sözün *yignə* şəklini qeyd etmişdir [1, s.789]. Qıpçaq lüğətlərində sözün y-siz variantda işlənməsi qıpçaq dil xüsusiyyətidir. M.Kaşğariyə görə, oğuzlar və qıpçaqlar **y** ilə başlayan isim və feillərin ilk hərfini **əliflə,** yaxud **ç** ilə əvəz edirlər. Belə ki, digər türklər yolçuya *yəlkin*, oğuz və qıpçaqlar isə *əlkin* deyirlər. Eləcə də, türklər dəvənin uzanmış tükünə *yuğdu*, oğuz və qıpçaqlar isə *cuğdu* deyirlər [2, s.31]. Müasir türk dillərinin istər oğuz, istərsə də qıpçaq qrupunda bu fonetik hadisə ilə bağlı fərqli dil xüsusiyyətləri formalaşmışdır. Qıpçaq qrupundan qazax dilində y-ni **j**, qırğız dilində isə y-ni **c** əvəz etmişdir. Oğuz qrupunda isə Azərbaycan dilində **y** düşmüş, Türkiyə türkcəsində isə **y** qorunmuşdur. Söz müasir türk dillərində *ĕnə* (başqırdca), *inə~enə* (tatarca), *ignä* (özbəkcə), *iňňe* (türkməncə), *ine* (qazaxca), *iyne* (qırğızca), *iynə* (azərbaycanca), *iğne* (Türkiyə türkcəsi), *jiŋnä*/*ignä* (uyğurca) formalarında işlənməkdədir [14]. Sözün qıpçaq lüğətlərində işlənən *ignə* formasına şərq və şimal qrupu dialekt və şivələrimizdə də rast gəlinir. Bununla yanaşı, *iğnə, iqnə* formaları da dialektlərimizdə müşahidə olunur [16, s.85-86]. Bu variantlar dialektlərimizdə sözün arxaik formasını mühafizə etdiyini göstərir.

İk~ig "iplik əyirmək üçün istifadə olunan alət" [8, s.19; 4, s.34a-9]. DM-də əlavə olaraq **y** ilə olan variantı, yəni *yig* forması da işlənir [18, s.9b]. M.Kaşğari də *igə* "yig" deyildiyini, həmçinin sözün "ke" ilə, yəni *yik* variantını qeyd etmişdir [2, s.48; 3, s.144]. Azərbaycan dilinin izahlı lüğətində söz "pambıqdan, yundan və s.-dən iplik əyirmək üçün ortası şiş, iki ucu sivri ağac alət" mənasını da ifadə edir [7, s.614]. Dilimizdə sözün işlənmə forması *iydir* və omonimlik xüsusiyyətinə malikdir. İ*ynə* sözü də bu kökdən yaranmışdır. V.V.Radlov sözün Teleut, Altay, Kızıl, Saqay, Qara-qırğız, Çulı, Osmanlı və Çağatay dialektlərində işləndiyini göstərmişdir. Müəllif sözün "iy" mənası ilə yanaşı, "dəyirman daşını tutan paya", "payanın ətrafında fırlanan yuxarı dəyirman daşı", "oxun mili" və "təkərin mehvəri" mənalarda işləndiyini də vermişdir [22, s.1415]. Müasir türk dillərində sözün fonetik cildi belədir: qırğız dilində *iyik*, Türkiyə türkcəsində *iğ*, Azərbaycan dilində *iy*, türkmən dilində *ik*. Həmçinin bu mənada özbək və uyğur dilində *urçuk*, qazax dilində *urşık*, başqırd dilində *orsok* sözləri də işlənir.

Ağurşaq "iplik əyirmək üçün iyə keçirilən daş və taxtadan alət" [8, s.16]. DM-də sözün *ağırşaq~ağırşıq* fonetik formalarına rast gəlinir [18, s.10a]. TZ-də sözün *ağırçaq* və *avurçuq* şəkli işlənmişdir [4, s.11a-1]. M.Kaşğarinin *ağurşaq* formasında [1, s.13] qeyd etdiyi bu söz C.Klauson tərəfindən *ağırçak, ağırşak~ağırşuk* variantlarında göstərilmişdir. Müəllif tədqiqat əsərində sözün müxtəlif formalarının olmasına baxmayaraq, onun ***ağır***dan yarandığını bildirmiş, eyni zamanda *ç~ş* əvəzlənməsini *-çın/-şın* şəkilçisi üçün bilinən hal hesab etsə də, *-çak* üçün bunun o qədər də bilinmədiyini vurğulamışdır.

Həmçinin *-çak* şəkilçisinin kiçiltmə şəkilçisi olmadığını hesab etmişdir. Eləcə də, C.Klauson M.Kaşğaridən fərqli olaraq sözün "Divan"dakı mənasından əlavə, onun *"*çadırın bacası" və *"*dəyirman daşı kimi oxşar formalı digər obyektlər*"* üçün istifadə edildiyi qənaətinə də gəlmişdir [9, s.92-93]. "Qədim türk lüğəti"ndə sözün *ağurşaq* forması ilə yanaşı, *oğurşaq* forması da işlənmiş [20, s.24, 365]. Lüğət M.Kaşğarinin əsərinə istinad etsə də, bu variant "Divan"da işlənməmişdir [2, s.149]. Həmçinin "Qədim türk lüğəti"ndə sözün mənası "iy" kimi göstərilsə də, "Divan"da "iyə ağırlıq vermək üçün taxılan daş" mənasını ifadə etmişdir. Bir digər əhəmiyyətli mənbə olan V.V.Radlovun lüğətində sözün *"ağırsak-ağırşak-ağirşak"* formaları məlumdur. Lüğətdə söz "cəhrə, dəyirman daşı, dəyirmi ucluq, düyüm, çarx, güllə, diz qapağı, alaçıq bacası" kimi mənaları ifadə edir [21, s.162,171]. Bu mənalara əsasən demək olar ki, sözləri birləşdirən onların forma etibarilə oxşarlığı, yəni dairəvi olmasıdır. Osmanlıcada "ağırşaq formasını almaq, şişib qabarmaq" mənasında işlənmiş *ağırşaklanmak* sözündə də bunu bariz şəkildə görürük. İ.Z.Eyuboğluna görə, söz qədim türkcədə yüksəlmək mənasına gələn ***ağmaq*** morfeminə *"+ır+şak"* şəkilçiləri əlavə olunaraq düzəlmişdir. Müəllif sözün "hərəkət edərək yüksələn və yunun bağlandığı iyin sürətli fırlanması ilə yun əyirilməsini təmin edən vasitə" mənasına gəldiyini qeyd etmişdir [12, s.12]. Zənnimizcə, müəllifin verdiyi tərif toxuculuqda istifadə olunan cəhrənin bir hissəsi olan iy və ağırşağın iş prinsipinə uyğun gəlmir. Çünki ağırşaq iyə düzülən sapın nizami qaydada irəli və geri hərəkətini təmin edən ağırlıqdan ibarətdir. Bu leksik vahid eyni semantikada müasir Türkiyə türkcəsinin ədəbi dilində *ağırşak* formasında özünü mühafizə etmişdir. Bu dilin dialektlərində isə *ağırşax, ağışax, ağışak* variantlarında səslənir [10, s.92]. Azərbaycan dilinin istər ədəbi, istərsə də dialekt səviyyəsi üçün bu söz leksik arxaizmə çevrilmişdir. Şamaxı, Salyan, Cəbrayıl, İmişli dialektlərində onunla eyni semantikada *tağalağ* leksik vahidi işləkdir. Bu sözün dialektlərimizdə "dairəvi, girdə; dairəvi dəmir və ya taxta" mənaları da verilmişdir [5, s.477]. Yuxarıda bəhsi keçən *ağırşaklanmak* sözündə də kökün forma etibarilə məna qazandığı qənaətinə gəlmişdik. Bunu *tağalağ* sözündə də müşahidə edirik. Qeyd etdiyimiz kimi, ağırşaq sözü leksik olaraq arxaizm olsa da, semantik olaraq özünü *tağalağ* lekseminin hər iki mənasında göstərir. Qıpçaq lüğətləri zəngin dil materialını özündə ehtiva edən mənbələrdən biridir və bu mənbələrin tədqiqi, öyrənilməsi türkoloji araşdırmalar üçün əhəmiyyətli material verir. Qıpçaq lüğətlərində işlənmiş toxuculuğa aid dil vahidlərinin tədqiqi göstərir ki, bu sözlər müasir türk dillərində ya olduğu kimi qorunmuş, yaxud da çox cüzi fonetik dəyişikliyə uğramışdır.

Ədəbiyyat

1. Atalay B. Divanü Lûgat-it-türk dizini "Endeks". Ankara: Türk Tarih Kurumu Basımevi, 1986, 887 s.

2. Atalay B. Divanü Lûgat-it-türk tercümesi. I cilt, Ankara: Türk Tarih Kurumu Basımevi, 1985, 530 s.

3. Atalay B. Divanü Lûgat-it-türk tercümesi. III cilt, Ankara: Türk Tarih Kurumu Basımevi, 1985, 452 s.

4. Atalay B. Ettuhfet-üz-zekiyye fil-lûgat-it-türkiyye. İstanbul: Türk Dil Kurumu, 1945, 431 s.

5. Azərbaycan dilinin dialektoloji lüğəti. Bakı, “Şərq-Qərb”, 2007, 568 s.
6. Azərbaycan dilinin izahlı lüğəti. Dörd cilddə. I cild. Bakı, “Şərq-Qərb”, 2006, 744 s.
7. Azərbaycan dilinin izahlı lüğəti. Dörd cilddə. II cild. Bakı, “Şərq-Qərb”, 2006, 792 s.
8. Caferoğlu A. Kitâb al-İdrâk li-lisân al-Atrâk. İstanbul, Evfak Matbaası, 1931, 353 s.
9. Clauson G. An Etymological Dictionary of Pre-Thirteenth-Century Turkish. Oxford: Clarendon Press, 1972, pp.1034
10. Derleme sözlüğü. I cilt, Ankara Üniversitesi Basımevi, 1993, 445 s.
11. Eren H. Türk dilinin etimolojik sözlüğü. Ankara: 1999, 512 s.
12. Eyuboğlu İ.Z. Türk dilinin etimoloji sözlüğü. Sosyal Yayınlar, İstanbul, 1991, 335 s.
13. https://sozluk.gov.tr/
14. https://turklehceleri.org/
15. Özşahin M. Başkurt türkçesi sözlüğü. Türk Dil Kurumu yayınları. Ankara-2017. 761 s.
16. Şirəliyev M. Azərbaycan dialektologiyasının əsasları. Bakı, “Şərq-Qərb”, 2008, 416 s.
17. Tietze A. Tarixi və etimolojik Türkiyə türkcəsi lugati. II cilt, TÜBA, Ankara, 2016. 683 s.
18. Toparlı R. Ed-dürretü`l-mudiyye fi`l-lügati`t-türkiyye. Ankara: Türk Dil Kurumu, 2003,153 s.
19. www.dersimiz.com/atasozleri-sozlugu
20. Древнетюркский словарь. Под ред. В.М.Наделяева, Д.М.Насилова, Э.Р.Тенишева, А.М.Щербак. Ленинград, 1969,676 с.
21. Радлов В. Опыт словаря тюркских наречий. Том 1. Часть 1. Санкт-Петербург1893, с.968
22. Радлов В. Опыт словаря тюркских наречий. Том 1. Часть 2. Санкт-Петербург 1893, с.1914
23. Радлов В. Опыт словаря тюркских наречий. Том 3. Часть 2. Санкт-Петербург1905, с.2204

Summary

The art of weaving has occupied a special place among the Turks, who have always been engaged in creativity at all stages of development. The lexical units formed on the basis of this art have also always been in the center of attention. In this lexical layer, which bears the traces of the past, it is possible to obtain comprehensive and complete information about the ethnos, especially about its living conditions, customs, beliefs, and culture. Therefore, the weaving lexicon, which is considered a very valuable source in terms of having ancient historical roots and reflecting ethnographic features, has continued its relevance in the examples of the Kipchak language. The article is devoted to the analysis

of tools used in weaving in Kipchak dictionaries, such *ağurşaq, ik~ig, çuvalduz, təmən, ignə~inə.*

Keywords: *weaving lexicon, Kipchaks, dictionaries, ethnography, culture.*

"KİTABİ-DƏDƏ QORQUD" DASTANLARINDA "-MAQ/-MƏK" ŞƏKİLÇİSİNİN SÖZDÜZƏLDİCİLİK FUNKSİYASI

Rəna Süleymanova
Azərbaycan Dövlət Pedaqoji Universiteti
doktorant

Araşdırmalar göstərir ki, bu şəkilçi qədim türk dillərində olduğu kimi, dastan mətnində də feildən isim düzəltmək məqsədilə geniş şəkildə istifadə olunmuşdur. "-maq/-mək" şəkilçisi vasitəsilə yaranan isimlər hərəkəti, prosesi və ya bu hərəkətlə bağlı anlayışları ifadə edir və leksik-semantik baxımdan mətnin mənasına mühüm təsir göstərir. *Barmaq* - Bu söz abidədə "*barmaq/parmaq/barmax*" fonetik variantlarında işlənmişdir. "*Biləgümdən on barmağım qanda gördüm*" [1, s. 312]; *"Dügün qanlu olsun xan qızı! -deyüb barmağından altun yüzügü çıqardı, qızın parmağına keçürdi"* [1, s. 54]. Türk dillərinin əksəriyyətində istifadə olunan "barmaq" sözünün etimologiyası ilə bağlı müxtəlif nəzəriyyələr mövcud olmuşdur. A.Vamberi sözün *"bar-//var-" "getmək"* sözündən və ya *"bar-//var-"* - *"var-dövlət"* anlamında işlənmiş bir kəlmədən yaranmış olduğunu irəli sürmüşdür. Bu etimoloji fikirlər sonralar müxtəlif araşdırıcılar tərəfindən fərqli şəkildə təkrarlanmışdır [2, s. 118]. "Barmaq" sözünün kökünün "bar-" feili ilə əlaqələndirilməsi həm semantik, həm də məntiqi baxımdan düzgün deyil. Çünki əl və ya ayaqdakı bədən üzvü olan barmaq, getmək və hərəkət etmək anlayışları ilə əlaqəli deyil. Belə ki, ayaq və əl barmaqsız da müəyyən hərəkətləri icra etmək mümkündür. Həmçinin, "bar-" sözünün "*getmək*" anlamı ancaq ayağın barmaqları ilə əlaqələndirilə bilər. "Barmaq" kəlməsinin "*var-dövlət*" anlamında olan kök ilə əlaqəsi isə istər semantik, istərsə də qrammatik baxımdan uyğunsuzdur. Bir başqa tərəfdən, *"-maq//-mək"* şəkilçisi yalnız feil köklərinə qoşularaq işləyir, substantivlərə tətbiq edilmir.

Başmaq – *"Ərə varalıdan bərü dəxi qarnım toymadı, yüzüm gülmədi. Ayağım başmaq, yüzüm yaşmaq görmədi"* [3, s. 67]. Bu sözün etimoloji təhlili ilə bağlı türkologiyada müxtəlif, bir-birinə zidd fikirlər mövcuddur. A.M. Şerbak, "*başpaq//baspaq*" kimi formaları nəzərə alaraq, *"buzov, biryaşar dana*" mənasında olan başmaq sözünün bu kök ilə əlaqəli olduğunu irəli sürmüşdür [4, s. 18]. Lakin həmin tədqiqatçı, sözün etimoloji tərkibini müəyyən etmədiyi üçün yalnız zahiri oxşarlığa əsaslanaraq nəticəyə gəlmişdir. Türkoloji tədqiqatlarda başmaq şəkilli iki hecalı sözlərin düzəltmə olduğu fikrinin geniş şəkildə qəbul edildiyini nəzərə alsaq, belə sözlərin də düşəltmə olduğu qənaətinə gəlmək məqsədəuyğundur. Qeyd edək ki, *"ba-//bay-" "bağlamaq, hörmək"* sözü *"bağ-", "bağla-"* feillərindən də qədim sözdür. Tatarcaya aid dialektlərdə "*ev*

ayaqqabısı" anlamında "*baymaq*" sözünün [5, s. 89] işlədilməsi (burada -maq bay- sözkökünə birləşmişdir) və başmaq şəklinin etimoloji olaraq *"ba-" "bağlamaq"* sözündən *-ş* feilin növ əlamətinin "-maq" şəkilçisi vasitəsi ilə yarandığını sübuta yetirir. *Başmaq* kəlməsi eyni anlamda farscaya da keçib [6, s. 45]. Ətmək - "çörək" – *"Ağanuzun ətməgi sizə halal olsun"* [1, s. 66]; *"Qara sağac altında köməcdən nə var? Ətməkdən nə var?"* [1, s. 112].

Çaqmaq – "Qaranğu axşam olanda qayğulu çoban, qarla yağmur yağanda çaqmaqlu çoban" [1, s. 14]; *"Ala yılan sökməz ormanını çaqmaq çaqub oda uram"* [1, s. 114]. Çapmaq sözü "*çaq-" — "odlamaq, od çıxarmaq*" sözündən törəmişdir.

Çomaq – "*Çomağı omuzuna buraqdı*" [1, s. 16]; "*Andan Dönəbilməz Dülək Uran altı pərlü çomağilə at dəpüb gəlüb yuqarıdan aşağa kafəri qatı urdı, alımadı"* [1, s. 42]. "Kitabi-Dədə Qorqud" dastanından gətirilən nümunələr göstərir ki, orada işlənən "*çomaq*" sözü müasir Azərbaycan dilindəki mənasından fərqli olaraq, döyüş aləti kimi işlənmişdir. Bu ifadəni "*toqmaq*" sözü ilə eyni mənşəyə bağlı hesab etmək mümkündür. Düşüncəmizə görə, sözün başlanğıcında yer alan *t* və *ç* səsləri arasında baş vermiş fonetik əvəzlənmə nəticəsində "*toqmaq*" forması əvvəlcə "*çoqmaq*"a çevrilmiş, ardınca söz ortasında *q* ilə *ğ* arasında dəyişmə baş vermiş, ən sonda isə son samitin ixtisarı ilə "çomaq" forması yaranmışdır. Bu ifadələrin hamısında "çoq-" kök feilinin izlərinə rast gəlinir. Erkən çağatay yazılı mənbələrində bu fel ayrıca işlənərək "*iti alətlə vurmaq, deşmək*" mənasını ifadə etmişdir. Həmin mənbələrdə, eyni zamanda, bu felin "çoğ-" variantı da qeyd olunmuşdur. Bu faktlar, "*çomaq*" sözünün "ço-" və ya "çoğ-" fel kökündən, "-maq" formantı vasitəsilə düzəlməsi ehtimalını gücləndirir. "Kitabi-Dədə Qorqud" abidəsində məsdər formalarının ifadəsi üçün istifadə olunan "-ma//-mə" şəkilçisi də sözdüzəldici imkanları ilə seçilir. "-maq//-mək" şəkilçisi ilə paralel olaraq, bu formantın da feili isimlər yaratmaqda qrammatik funksiya daşıdığı və çoxlu sayda təsirli və təsirsiz fellərə artırıldığı müşahidə olunur. Sözdüzəltmə baxımından "-ma//-mə" şəkilçisinin yalnız mənaca deyil, morfoloji strukturun formalaşmasında da mühüm rol oynadığı məlumdur. Eyni şəkilçinin müxtəlif omonim funksiyalarla çıxış etməsi dilin tarixi inkişaf mərhələlərində təbii proses kimi qiymətləndirilir. Bu xüsusiyyətlərə əsaslanan bir çox tədqiqatçı qeyd edir ki, "-ma//-mə" şəkilçili sözlər həm məsdər (feili isim), həm də isim və sifət kimi çıxış edə bilir. Onlar arasında ən qədim funksiyanın isə sözdüzəltməyə aid olduğu düşünülür. Bu format fellərdən törəyən sözlərdə növ, zaman və inkarlıq kimi qrammatik göstəricilərdən uzaqlaşdırılır, həmin göstəriciləri əvəz edən formalar isə kökə inteqrasiya olunaraq daşlaşmış şəkildə qalır. Sözdüzəldici "-ma//-mə" şəkilçisi, əsasən təsirli fellərə artırılır və bu zaman ya bir vasitəni, ya nəticəni, ya da hərəkətin obyektini ifadə edən isimlər formalaşdırır. Sifət mənası daşıyan hallarda isə bu şəkilçili sözlər digər sözlərlə qurulan birləşmələrdə işlənərək atributiv funksiya yerinə yetirir. Bu baxımdan, "Kitabi-Dədə Qorqud"un dili xüsusilə maraqlıdır. Belə ki, əsərdə yer alan qədim söz birləşmələrində "-ma//-mə" formantı, tərkib hissələri arasında uyğunluğu təmin edən morfoloji vasitə kimi çıxış edir və həmin strukturun dil tarixindəki əhəmiyyətini daha da artırır. Məs: *"Təkur aydır: Bu yigidi anadantoğma soyun!"* [1, s. 302]; *"Baxdı-gördü*

bu Banıçiçək otağıymış ki, Beyrəgin beşikkərtmə nişanlısı-adaxlusıydı" [1, s. 68]. *"-maq//-mək" və "-ma//-mə"* şəkilçilərinin tarixi inkişafında müşahidə olunan bəzi yaxın semantik proseslər, bu şəkilçilərin mənşəyini bir-birinə bağlamağa əsas vermişdir. Türkologiyada bu məsələyə dair iki fərqli fikir mövcuddur: 1) İlk olaraq *"-ma//-mə*" şəkilçisi yaranmış, sonra isə *"-q//-k"* şəkilçisi ilə birləşərək *"-maq//-mək"* forması meydana gəlmişdir; 2) *"-ma//-mə"* şəkilçisi, *"-maq//-mək"* şəkilçisindən *"-q//-k"* şəkilçisinin düşməsi nəticəsində yaranmışdır [8, s. 65]. Bizim fikrimizcə, birinci fikir həqiqətə daha yaxındır. Çünki, ikinci fikrə əsaslanan paralelliyi fonetik cəhətdən izah etmək mümkündür, amma məntiqi baxımdan bunun tutarlı dəlillərlə sübuta yetirilməsi olduqca çətindir [7, s. 105]. "Kitabi-Dədə Qorqud" abidəsində yer alan "-ma//-mə" şəkilçisi ilə düzəlmiş isim və sifət mənalı sözlərin əksəriyyəti bu gün də müasir Azərbaycan dilində işlənməkdədir. Bununla belə, həmin formalardan bir qismi zamanla aktiv dildən çıxmış, passiv lüğət qatına keçmişdir və artıq gündəlik ünsiyyətdə rast gəlinmir. *Bağdama* – sözünə ancaq "Kitab"da rast gəlmək olur: *"Qavradı, qızın bağdamasın aldı"* [1, s. 17]; Dastanda bu söz ilə bərabər bağda- sözü də işlənir: *"Bu gəz Beyrək qızın incə belinə girdi bağdadı, arxası üzərinə yerə urdı"* [1, s. 48]. *Bağdama* kəlməsini S.Əlizadə çağdaş mətnlərdə "*sinəbağı*" [9, s. 106] olaraq.

Qıyma - "qıyıq": *"Qara qıyma gözlərin çöngəlməsəydi, ağam Beyrək diyərdim, ozan sana"* [1, s. 174]. Söz *"qıy-" "kəsmək"* sözündən əmələ gəlmişdir. "*Qıy*-" sözünə Kaşğari "Divan"ı və s. abidələrimizdə rast gəlinir. Bu sözdən "*qıyqacı (baxmaq), qiymə, qıyıq"* kimi söz və birləşmələr də əmələ gəlmişdir.

Yemə-içmə - "Yeddi gün yeddi gecə yemə-içmə oldı" [1, s. 89]; *"Oğuz bəgləri söhbətə dərilmişdi. Yemə-içmə idi"* [1, s. 87]. "Kitab"da və digər tarixi mənbələrdə bu sözün yemək-içmək formasına da rast gəlinir. *Yelətmə* - "*saz havası*" – "*Ozan gəldi, yelətmə çaldı*" [1, s. 89]. Söz ilə bağlı S.Əlizadə qeyd edir ki: *"Yelətmə rəqs melodiyasının adıdır. Onu təxminən müasir "Vağzalı" kimi başa düşmək olar. Güman etmək olar ki, "ilətmək//yilətmək "aparmaq, yola salmaq" feili ilə əlaqədardır*" [9, s. 54].

Çatma – "Topuğunda sarmaşanda qara saçlum, Qurulu yaya bənzər çatma qaşlum!" [1, s. 45]. Söz "çat-" feilindən törəmişdir. Z.Budaqova çatmaq sözünün *"dəymək, birləşmək, toqquşmaq, bağlamaq"* anlamlarında türkcələrdə və tatarcada işlədildiyini yazır [11, s. 27]. Bizim qənaətimizə görə, "çatma" sözü "bir araya gəlmək, birləşmək" mənası əsasında yaranmışdır. Müasir Azərbaycan dilində işlənən "çatıq", "çataq" və "çatı" kimi ifadələrin də eyni kökə bağlandığını demək mümkündür. Tarixi mənbələrdə və yazılı abidələrdə qeyd olunan bəzi sözlərin isə orta əsrlər dövründə fars dilinə keçdiyi məlumdur. Belə hallarda sözlərin türk mənşəli olub-olmadığını müəyyənləşdirmək üçün "-ma//-mə" şəkilçisinin varlığı xüsusi əhəmiyyət daşıyır. Bu tip struktura malik ifadələrə nümunə olaraq "girişmə", "sürmə", "yəğma" və bənzər sözləri göstərmək olar.

"*Yəğma*" – XII-XIII əsrlərdə "*yağma*" olaraq işlədilən söz, Təbriz və Ərdəbil bölgələrində "*yəğma*" şəklində tələffüz edilmiş və farscaya bu bölgələrdən keçmişdir. Farscada "*yəğma*" formasını almış və yenidən

Azərbaycan dilinə dönmüş və "*yağma*" variantını sıxışdırmışdır. Bu "*yəğma*" formasından "*yəğmaçı", "yəğmalamaq*" kimi sözlər də yaranmışdır. *"Pəs bir uğurdan bəglər hasara yüriş etdilər, yəğmaladılar"* [1, s. 234]. Fikrimizcə, "*yəğma//yağma*" kəlməsi "*yağ*" kökündən yaranmışdır. Bu söz "yağı" kəlməsinin tərkibində də əks olunur. "*Yağ*" kökünün "*qarət etmək*" mənasında müstəqil şəkildə rast gəlinmədiyini müşahidə etdik. Lakin "yarmaq" feilində həmin mənanın qorunduğu görünür. Məsələn, "*ev yarmaq" - "ev qarət etmək*". Bu uyğunluğa əsaslanaraq, "*yağ-" və "yar-"* sözlərinin tarixi olaraq "ya-" (qarət etmək) sözündən əmələ gəldiyini təxmin etmək mümkündür [1, s. 15].

Nəticə: "Kitabi-Dədə Qorqud"da "-maq//-mək" və "-ma//-mə" şəkilçiləri erkən dövrlərdən etibarən fəal sözdüzəldici funksiyaya malik olmuş, müxtəlif feillərdən isim və sifətlər yaratmaqla dilin leksik imkanlarını genişləndirmişdir. Bu şəkilçilər vasitəsilə yaranan sözlər poetik üsluba məna dərinliyi qazandırmaqla yanaşı, dilin tarixi-etimoloji inkişafını da əks etdirir.

Abstract

In *Kitabi-Dede Qorqud*, the derivational function of the suffix form "-maq/-mək" is observed in various asemantic roots, where the root and suffix appear in a fossilized form. To determine whether such forms are indeed derived words, it is essential to conduct historical and etymological analysis. Therefore, it is considered appropriate to examine these words individually. The article also illustrates, with examples, the functional load, semantic depth, and contribution of this suffix to the poetic style in different contexts.

Ədəbiyyat

1. Kitabi-Dədə Qorqud / – Bakı: "Elm", –1988, – 205 s.
2. Брокельман К. «Основы сравнительной грамматики семитских языков». – Берлин,– 1936, –328 с.
3. Рамстедт Г.И. Введение в алтайское языкознание. Морфология / – Москва: «Издательство иностранной литературы», – 1957, – 254 с.
4. Щербак А.М. Очерки по сравнительной морфологии тюркских языков (Глагол) / Щербак Ленинград: «Издательство АН СССР», – 1981, – 181 с.
5. Троянский А. Краткая татарская грамматика / – Казань: «Университетская типография», – 1824, – 195 с.
6. Ərəb – fars sözləri lüğəti / – Bakı: "Şərq-Qərb", – 2005, – 472 s.
7. Серебренников Б.А., Гаджиева Н.З. Сравнительно-историческая грамматика тюркских языков. Синтаксис. / - Гаджиева Н.З. – Баку: «Наука», – 1979, – 284 с.
8. Əsgərov M.B. Türk dillərində zaman formaları, adverbial feil formaları və onlar arasında funksional–semantik əlaqələr / – Bakı: "Nurlan", – 2002, – 146 s.
9. Əlizadə S. Orta əsrlərdə Azərbaycan yazı dili / – Bakı: "ADU nəş.", – 1985, – 250 s.
10. Dəmirçizadə Ə.M. Kitabi – Dədə Qorqud" dastanlarının dili(təkrar nəşr) / – Bakı: "Elm", – 1999, – 140 s.
11. Budaqova Z.İ. Birinci tərəfi feili sifətlə ifadə olunan söz birləşmələri // "Elmi əsərlər", – №5, – 1958, – s.137-152

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ ƏDƏBİYYATDA DİL VƏ ÜSLUB MƏSƏLƏLƏRİ

Elməddin Quliyev
AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu
doktorant

Cümhuriyyət dövrünü Azərbaycan ədəbi-mədəni mühitinin oyanış, təşəkkül mərhələsi adlandırsaq yəqin ki, mövcud gerçəkliyi təhrif etmiş olmarıq. Mətbuat orqanlarının, xüsusilə milli qəzet və jurnalların sıx fəaliyyət göstərdiyi yaradıcılıq mühitində ədiblər, publisistlər, düşüncə adamları tərəfindən milli dil, milli ədəbiyyat məsələləri, onların nəzəri və təcrübəvi aspektləri bu və ya digər formada qabardılmış, həlli yönümündə müəyyən addımlar atılmışdır. Milli məktəblərin, kitabxanaların, muzeylərin açılışı istiqamətindəki təşəbbüslər, milli dərsliklərin hazırlanması, əlifba islahatı, mədəniyyət, incəsənət, teatr sahəsində görülən uğurlu işlər bütövlükdə ədəbi-bədii prosesdən yan keçə bilməzdi. Xalqı milli istiqlala, azad və müstəqil dövlət quruculuğuna doğru aparan yolda ədəbiyyatın, mətbuatın, mədəniyyətin, təhsilin mühüm əhəmiyyət kəsb etməsi danılmaz həqiqətlərdir.

Cümhuriyyətin ideoloqlarından biri, Şurayi-milli rəisi Məhəmməd Əmin Rəsulzadə 1919-cu ildə nəşr olunan "İstiqlal" (1918 – 28 mayıs – 1919) məcmuəsində çap etdirdiyi "Azərbaycan Cümhuriyyəti" adlı məqaləsində milli dövlətçilik quruculuğunda ədəbiyyatın, mətbuatın, təhsilin milli şüurun oyanışına təsir imkanlarından, aparıcı mövqeyindən bəhs edərək yazırdı: *"Evet, düha (dahi) Azərbaycan "Molyer"i Mirzə Fətəli Axundov mərhumla başlayan müasir ədəbiyyat həvəsi, Həsən bəy Məlikov mərhumun "Əkinçi" qəzetəsi ilə mətbuati-milliyyə təsisi və davamına həsr olunan əmək, Cəmiyyəti-Xeyriyyə binası üçün bundan qırx yıl öncə aid olan təşəbbüs, nəhayət milli ədəbiyyat, milli məktəb tələbləri... daha çarlıq zamanında məktəb və mədrəsə islahı yolunda təvalli edən o bitməz-tükənməz dəvalar başqa bir şey degil. Yalnız bir dəva idi: Hakimiyyəti-milliyyə dəvası"* [1, s.11-12].

Milli hakimiyyət, müstəqil dövlət, azad cəmiyyət qurub-yaratmaq ideyası xalqın öncül ziyalılarının, ədəbiyyat və sənət adamlarının, mətbuat xadimlərinin hər zaman mübarizə konsepsiyası, fəaliyyət proqramı olmuşdur.

Cümhuriyyət dövrü mətbuatında dərc olunan ədib, publisist və siyasi düşüncə adamlarından xüsusilə Məhəmməd Əmin Rəsulzadə, Seyid Hüseyn Sadıq (Kazımoğlu), Mirzə Bala Məhəmmədzadə, Əbdül Vahab Məhəmmədzadə, Üzeyir bəy Hacıbəyli, Adil xan Ziyadxan, Əli Abbas Müznib, Abdulla Şaiq, Yusif Vəzir Çəmənzəminli, Yusif Qasımov, Fərhad Ağazadə və digər tanınmış ziyalıların elmi, ədəbi-tənqidi məqalələrində, publisistik yazılarında, icmallarda, keçirilən konfranslarda dövrün ədəbiyyat məsələləri nəzərdən keçirilmiş, qaranlıq və mübahisəli məqamlara qismən aydınlıq gətirilmiş, ciddi elmi-nəzəri problemlərə toxunulmuş, ədəbiyyat tarixinə aid mülahizələr sərgilənmiş, ayrı-ayrı poeziya nümunələri, nəsr və dram əsərlərinin bədii-estetik məziyyətləri dəyərləndirilmiş və ümumilikdə dövrün problematik

ədəbi mövzuları gündəmə çıxarılmışdır. Ədəbiyyat, mədəniyyət, sənət Cümhuriyyət dövründə də xalqlar və ölkələr arasıda mənəviyyat körpüsünə çevrilmiş, sülh, sabitlik, əmin-amanlıq sahəsində dövlət siyasətinin etibarlı ədəbi-mədəni xəttini təşkil etmişdir.

İctimai-siyasi xadim, ədib, mühərrir və publisist M.Ə.Rəsulzadə "Azərbaycan" qəzetinin 1919-cu il 8 nisan tarixli birinci səhifəsində çıxan "İran və biz" və 28 nisanda ikinci səhifəsində dərc edilən "Azərbaycan və İran" adlı məqalələrində qonşu ölkə ilə münasibətlərə ədəbi, mədəni, tarixi, siyasi konteksdə kompleks halda yanaşmış, bir sıra maraqlı mülahizələr irəli sürmüşdür.

M.Ə.Rəsulzadə "Azərbaycan" qəzetində dərc etdirdiyi "İran və biz" məqaləsində yazırdı: "*Azərbaycan ədəbiyyatının üstadi-əvvəli, şeyxüşşüəra Füzuli, bu türk Hafizi, bu gün Ərasın şimalından ziyadə cənubunda mərufdur.*

Nəbati, Raci, Məhəmməd Bağır, Dilsuz, Ləli və sairə kibi Azərbaycan gülşəni-ədəbiyyatına başqa bir rəng və ruğən verən ədiblər İranın yetişdirmiş olduğu güllər, çiçəklərdir.

Qafqasiya Azərbaycanı İrandan aldığı borcu mümkün olduğu qədər iadə etməyə dəxi çalışmışdır.

Yeni Azərbaycan ədəbiyyatının bərəkətli səhnəsini təşkil edən Bakı mətbuatı heç bir zaman İrana yabançı qalmamışdır. Burada nəşr olunan mətbuati-mövqutə hər zaman İran qüssələri ilə qüssələnmiş, onun sevincləri ilə sevinmişdir. Bunun üçün də o, İranda rəğbət qazanmış, bilxassə Təbriz - Bakı mətbuatının ikinci mərkəzi-tövzisi olmuşdur. "Molla Nəsrəddin" məcmuəsinin müvəffəqiyyəti isə İranın yalnız türkcə danışan şəhərlərinə deyil, bütün mühüm mərkəzlərinə qədər şamil olmuşdur.

Nəbati bizdə olduğu qədər, Seyid Əzim də İranda mərufdur. Biz Ləlini bildiyimizdən ziyadə, İran mərhum Sabiri tanır, "Hop-hop"un "Mən deyən oldu, sən deyən"ini hamı çocuqlar əzbərdən oxur" [5, s.2].

M.Ə.Rəsulzadə İran - Azərbaycan siyasi münasibətlərinin mülayimləşməsi istiqamətində ədəbiyyat amilinə, ortaq tarixi qatlara, mədəni-mənəvi ənənələrə istinad etməklə hər iki ölkənin xalqları tərəfindən sevilən klassik sənətkarların nümunəsində istimai-mənəvi iqlimin saflaşması, etimad mühitinin formalaşması yönümündə ədəbiyyatın zəngin potensialını, önəmini və əhəmiyyətini xüsusi vurğulayırdı.

Ölkələrarası əlaqələrdə ədəbiyyatın öncül mövqeyini təqdir edən dövlət xadimlərindən biri də, Gəncə xanı Cavad xanın nəticəsi, Moskva Dövlət Universiteti Hüquq fakültəsinin məzunu, türk, fars, rus, ingilis və fransız dillərini mükəmməl bilən Cümhuriyyət hökumətinin Xariciyyə nazirinin müavini və nazir vəzifəsini icra edən Adil xan Ziyadxan idi.

Onun "Azərbaycan" qəzetinin 1919-cu il mart, aprel və may tarixli nömrələrinin on sayında dərc etdirdiyi "Azərbaycan haqqında tarixi, ədəbi və siyasi məlumat" adlı silsilə məqaləsi dövrün aktual problemlərinə həsr olunmuş, Xalq Cümhuriyyətini Avropa ölkələrində daha yaxşı tanıtmaq və təbliğ etmək məqsədilə yazılmışdır. A.Ziyadxanın eyniadlı məqaləsi 1919-cu ildə (h.q. 1338) Hökumət mətbəəsində kitab formatında Azərbaycan və fransız dillərində nəşr edilərək Paris şəhərinə, Azərbaycan Nümayəndə heyətinin ünvanına

göndərilmişdir. Müəllifin "Azərbaycan haqqında tarixi, ədəbi və siyasi məlumat" (qısasa "Azərbaycan" – E.Q.) adlı irihəcmli məqaləsində ölkənin adı, tarixi ilə yanaşı ədəbiyyatı haqqında da geniş elmi məlumatlar öz əksini tapmışdır.

A.Ziyadxan Azərbaycan ədəbiyyatının klassiklərindən bəhs edərkən Gəncəli Məhsəti xanım, Əbilüla Gəncəvi, Xaqani Şirvani, Fələki Şirvani, Mirzə Şəfi Gəncəvi, Mirzə Məhəmmədxan oğlu Abbasqulu ağa, Molla Pənah Vaqif, Qasım bəy Zakir, Xurşidbanu bəyim Natəvan, Hacı Əbdürrəhim Qüdsi, Mirzə Məhəmməd Tağı Sidqi, Məhəmmədhüseyn xan Müştaq, İsmayıl bəy Nakam, Mirzə Fətəli Axundzadə, Mirzə Ələkbər Sabir və b. şair və ədiblərin adlarını ehtiramla çəkmiş, ədəbiyyat tarixində göstərdikləri xidmətləri və tutduqları yerləri haqqında yığcam məlumat vermişdir.

Müəllif Cümhuriyyət dövründə fəaliyyət göstərən ədəbi qüvvələr haqqında yazırdı: "*Əlyövm (bu gün) Azərbaycan Cümhuriyyətində və hali həyatda olan ədib və şairlərimiz bunlardır: Bakıda Məhəmməd Əmin Rəsulzadə, Mirzə Əbdülxalıq Cənnəti, Mirzə Əbdülxalıq Yusif, Gəncədə Mirzə Əli Məhəmmədzadə Nizami, Cavad Axundzadə, Şirvanda Məhəmməd Hadi Əbdülsəlimzadə, Qarabağda Əhməd bəy Ağaoğlu, Firidun bəy Köçərli, İbrahim Tahir, Salyanda Əli bəy Hüseynzadə bu pak vücud məşhurdur. Şairliyi ilə, həm də filosof, müvərrix, rəssam, mühərrirdir. Qazaxda məşhurdur Abbas ağa Nazir, Şəkidə məşhurdur dərin biliyi, ciddi və məzhəkəli şeirləri ilə Səlman Məhəmmədəmin oğlu Mümtaz, Naxçıvanda Hüseyn Cavid Rasizadə, Borçalıda Mirzə Abdulla Talıbzadə Şaiq.*

...Burada qeyd etməliyəm ki, Azərbaycan türk müəlliflərinin türk lisanında yazdıqları müxtəlif əsərlərindən savayı bir çoxları da fars və ərəb lisanında yazılmışdır. Bunun da səbəbi türk ədəbiyyatının fars və ərəb mədəniyyətinin təsiri altında qalması olmuşdur" [7, s.2].

Cümhuriyyət dövrü ədəbi tənqidinin ən qabaqcıl və fəal nümayəndələrindən biri "Kazımoğlu" təxəllüsü ilə dövri mətbuatda məqalələr dərc etdirən tanınmış ədəbiyyatşünas, yazıçı Seyid Hüseyn Sadıq idi. O gənc dramaturq Cəfər Cabbarlının "Ədirnə fəthi" adlı əsərinin tamaşasına 1919-cu il 10 avqust tarixində Hökumət Teartosunda baxdıqdan sonra "Açıq tənqid" rubrikası altında "Ədirnə fəthi" adlı silsilə məqaləsində öncə "münəqqidlərə" (tənqidçilərə-E.Q.) yazarların və dünya ədəbyatşünaslarının fərqli münasibətlərini sərgiləyir, ədəbiyyatda tənqidin rolunu, yerini və əhəmiyyətini qeyd edir.

Kazımoğlunun təbirincə desək: "*Mümafihə (öncə deyildiyi kimi), tənqid nə qədər çəkilməz bir şey olsa da, yenə olmalıdır və olacaqdır. Ən çox tənqiddən qorxan, onu görmək istəməyən mühərrirlər belə tənqidçilərin o acı və zəhralud (zəhərli-E.Q.) qələmlərindən yaxalarını qurtaramamışlardır. Bununla bərabər böyük ədib və şairlər də iqtidarını, dühasını, qüvvətini, fikrini, fəlsəfəsini bu zəhralud qələmlər ortaya çıxarmışdır. Bu halları nəzərə alaraq insan bəzən yazmaq istəmiyor, əksinə mövqeyini sarsıtmaq, arkadaşlarını, qələm arkadaşlarını kəndisindən rəncidə etməmək, ülfət və məvəddətini (sevgisini-E.Q.) qırmamaq üçün sükuti iltizamla ağrımayan başını ağrıtmaq istəməyor. Tənqidin ən münasib yolu bu idi ki, münəqqidi kimsə tanımaya idi*" [6, s.4].

Kazımoğlu bu yığcam cümlələrdə tənqidçinin çətin, ağır, əzablı durumundan, onun ədəbi mühitdə sevilmədiyindən bəhs etməklə yanaşı, tənqidin hətta böyük ədib, şairlər və dramaturqlara şamil olunan faydasından, ədəbiyyata təsir imkanlarından, sənətin məziyyətlərinə gətirdiyi müstəsna özəlliklərdən və polifoniklikdən bəhs etmişdir.

Ədəbi tənqid missiyasının icrasında məxfiliyi prioritet sayan müəllif ədəbi-bədii yazılarını Seyid Hüseyn adı ilə çap etdirsə də, "Açıq tənqid"i məqalələrinin imza yerində "Kazımoğlu" adını yazmasının örtülü məqamları təqdim olunan istinaddan da bəlli olur. Ən ciddi konspirasiyaya baxmayaraq Cümhuriyyət dövrünün ədəbi mühitində açıq tənqidi məqalələr yazan "Kazımoğlu" imzasının Seyid Hüseyn Sadığa aid olduğu çoxlarına, o cümlədən 20 yaşlı gənc dramaturq Cəfər Cabbarzadəyə də məlum idi.

Kazımoğlunun fikrincə gənc dramaturq Cəfər Cabbarzadənin "Ədirnə fəthi" tarixi dramı Balkan savaşı dövründə yerli qəzetələrdə müharibə ilə bağlı dərc edilmiş məlumatlar toplusunun bir-birinə bənd edilmiş hissələrindən ibarətdir. Onun qənaətinə görə dramaturqun bu səhnə əsərində yeganə üstün özəlliyi tamaşaçıları cəlb etmək məziyyətidir.

Cümhuriyyət dövrü ədəbiyyat məsələlərinin elmi-nəzəri aspektlərindən bəhs edən yazar və publisistlərdən biri də "Ə.H. **(.ج .ا)**" imzası ilə 1919-cu ildə "İstiqlal" və "Azərbaycan" qəzetlərində ciddi məqalələr ilə çıxış edən Əhməd Həmdi Qaraağazadə bəy əfəndidir [3, s.42]. Onun "Azəri-türk" jurnalının 1928-ci il 20-ci sayında yayımlanan müxtəsər tərcümeyi-halında Batumda doğulduğu, atasının acar əşrəflərindən olduğu, türk və fransız dillərində mükəmməl təhsil aldığı, 1917-ci ildə Bakıya gələrək "Açıq söz" qəzetində, Cümhuriyyət dövründə isə "Azərbaycan", "İstiqlal" qəzetlərində çalışdığı qeyd edilmişdir [1].

Əhməd Həmdinin "Ə.H." gizli imza ilə "Ədəbi tənqid" rubrikası altında "Azərbaycan" qəzetinin 1919-cu il 319 və 321-ci saylarında milli istiqlal şairi Əhməd Cavadın yenicə nəşr edilən, sayca ikinci – "Dalğa" kitabçası haqqında yazdığı geniş və əhatəli məqaləsi cavadşünaslıqda ilklərdən olduğu üçün ciddi maraq doğurur.

Əhməd Həmidi "Ə.H." imzalı "Dalğa" şairi Ə.Cavad" məqaləsində "Dalğa" adlı şeir kitabçasından bəhs edərkən öncə "lirizmin" bədii-estetik keyfiyyətlərindən söz açmış, poetik məcrada şeirin təhlilinə cəhd göstərmiş, tənqidi düşüncələrini sərgiləməkdən çəkinməmişdir. "Ə.H." yazır: "*Ə.Cavad əfəndinin şeirlərində lirizmin qüvvəti həman hər zaman hiss edilməkdə ikən təəssüf edirəm ki, şair bu məziyyətdən birdən-birə uzaqlaşaraq müzill (qüsurlu) bir xüsusiyyəti şeiriyyə ibraz (təzahür) ediyor. Şairin istiqlaliyyət məsləkində böylə etirafedici bir yol ixtiyar etməsi qəribədir. Fəqət bunun da səbəbləri vardır. Əvvəla, şair eyni zamanda vətənpərvər və millətçidir. Saniyən, mütaliədən, tətəbbödən (öyrənmək) çox da xoşlanan deyildir. O ən ziyadə sadəligə və təbiiligə mütəmaildir.*

İştə, həman hər şairdə təsadüf edilən bir məziyyət və nöqisələrdən biri də bu gənc şairdə var.

Bununla bərabər şairdə lirizm o qadar qüvvətlidir ki, hissi-vətəni və milli ilə yazdığı şeirlərdə belə qeyri-ixtiyari əxlaqi bir lirizmə boyun əgiyor. Misal: Azərbaycan bayrağına ithafən yazdığı şeirdə:

Gedərkən Turanə çıxdın qarşıma,
Kölgən dövlət quşu, qondu başıma,
İzn ver gözümdə coşan yaşıma,
Dinləsin dərdini ahə, bayrağım.

Nə müəssir (təsirli)*, nə mühəyyic* (həyəcanlandıran)*, fəqət nə qadar xəluq (xoş sifət) və qəlbi bir hissi-təkərrüm (hörmət hissi) var. Şair bayrağı hüzurunda hər şeyini unutuyor. Hər sevda və həyəcanlarından əl çəkmiyor*" [2, s.4].

Əhməd Həmidinin adaşı və arkadaşı Əhməd Cavad haqqında tənqidi fikirləri, xüsusilə lirizmdən uzaqlaşması ehtimalı*, "mütaliədən, tətəbbödən (öyrənməkdən) çox da xoşlanan*" olmadığını vurğulaması, onların həqiqətən də bir-birilərini yaxşı tanıdıqlarına əsas verən arqumentlərdən hesab edilməlidir. Məqalədə iradlarla yanaşı Əhməd Cavadın vətənpərvər və milliyyətçi şair adlandırılması və "Azərbaycan bayrağına" şeirini lirizmin ən qüvvətli nümunəsi kimi təqdim edilməsi mülahizəsi ilə razılaşmamaq mümkünsüzdür.

Milli bayraq dövlətçilik rəmzlərindən, insanda qürur, iftixar hissi doğuran mənəvi simvollardan biridir. Tənqidçinin istiqlal şairini milli ideallar kontekstindən dəyərləndirməsi, lirizmin poetik rəngarəngliyinin əsərə gətirdiyi rəğbət və cazidə hissinin qutsallığını duyması və təqdir etməsi təşəkkül mərhələsini yaşayan ədəbi tənqid prosesində yeni yanaşma tərzi idi.

Azərbaycan Cümhuriyyəti dövründə dil və üslub məsələləri milli kimlik quruculuğunun ayrılmaz hissəsi idi. Ədəbi dilin sadələşdirilməsi, türkcələşdirilməsi və xalq dilinə yaxınlaşdırılması istiqamətində atılan addımlar, sonrakı dövrlərdə Azərbaycan ədəbi dilinin formalaşmasına ciddi təsir göstərdi.

LANGUAGE AND STYLE ISSUES IN LITERATURE DURING THE PERIOD OF THE AZERBAIJAN DEMOCRATİC REPUBLIC

Summary

During the Republic of Azerbaijan (1918–1920), issues of language and style in literature were taking shape at a time when the ideas of national awakening and independence were strengthening, and socio-political thought was rapidly developing. In the literature of this period, issues of language and style were seriously on the agenda, both for the expression of national identity and for the purpose of enlightenment.

We have clarified all these issues in our research work.

Keywords: The press, language and style, M.A.Rasulzadeh, A.Ziyadkhan, A.Hamidi

Ədəbiyyat

1. Ahmet Hamdi. Merhum // – İstanbul: “Azəri-Türk” dərgisi. – 1928, 15 təşrini-sani (noyabr), № 20.
2. Ə.H. **(.ƺ .ǀ).** Ədəbi tənqid. “Dalğa” şairi Ə.Cavad” // Azərbaycan. – 1919, 11 təşrini-sani (noyabr). № 319, – s.4.
3. Məmmədli, Q. İmzalar / Q.Məmmədli. – Bakı: Azərnəşr. – 1977. – 118 s.
4. Rəsulzadə, M.Ə. Azərbaycan Cümhuriyyəti // – Bakı: İstiqlal məcmuəsi, – 1919. – s.11-12.
5. Rəsulzadə, M.Ə. İran və biz // Azərbaycan. – 1919, 8 nisan (aprel). № 152. – s.2.
6. Sadıq, (Kazımoğlu). Açıq tənqid. Ədirnə fəthi // Azərbaycan. – 1919, 14 avqust. № 251, – s.4.
7. Ziyadxan, A. Azərbaycan haqqında tarixi, ədəbi və siyasi məlumat // Azərbaycan. – 1919, 8 nisan. № 152, – s.2.

IV BÖLMƏ
TÜRKOLOGİYANIN AKTUAL PROBLEMLƏRİ

M.KAŞĞARİ "DİVAN"INDA İSMİN HALLARI

Elnarə Əliyeva
fil.ü.f.d., dos., AMEA Nəsimi adına
Dilçilik İnstitutunun aparıcı elmi işçisi

İsmin qrammatik kateqoriyalarının formal göstəriciləri türk dillərinin inkişaf dövrlərində əsasən sabitliyi, intensivliyi ilə müşahidə olunur. Bu kateqoriyalardan biri olan ismin hal kateqoriyası da digər türk dilləri kimi, Azərbaycan ədəbi dilinin inkişaf tarixində də sabitliyi ilə seçilən kateqoriyalardandır. İ.Kazımovun "Mahmud Kaşğari "Divan"ı və çağdaş türk dilləri" (Elm və təhsil, 2014) əsərində ismin hal kateqoriyasından bəhs edərkən bildirmişdir ki, "ismin hal kateqoriyası tarixən həm müasir dilimizdən fərqli, həm də indiki dildə olduğu kimi işlənmişdir" (3, s.146). "Divan"ı oxuduqca ismin hallarının müasir dildən o qədər də fərqlənmədiyi görünür.

Y.Seyidov qeyd etmişdir ki, "Azərbaycan dilinin indiki hal sistemi XIV əsr Azərbaycan türk dilində formalaşmış vəziyyətdə idi. Sonralar halların qrammatik mənalarında müəyyən dəqiqləşmə və sabitləşmə getmişsə də, sistem dəyişilməz qalmışdır" (5, s.233). Bu mənzərə ədəbi dili əks etdirən nümunələri izlədikcə daha aydın görünür.Adlıq hal demək olar ki, bütün türk dillərində işlənir və heç bir formal əlamətə sahib deyil, əsasən subyekt rolunda çıxış edir. Bu hal qədim yazılı abidələrin dilində müasir türk dillərində olduğu kimi formal əlamətsiz işlənir. *Ər ton tikdi "Kişi paltar tikdi"* (MK,II, s.20). Yiyəlik hal ismin aidlik, sahiblik məzmunu ifadə edən halıdır. Türk dillərinin demək olar ki, hamısında yiyəlik hal şəkilçisi qəbul etmiş söz (bəzi istisnalar olmaqla) əsasən əlaqəyə girdiyi sözlə birlikdə hər hansı cümlə üzvü olur. Müəyyən yiyəlik halın yaranmasında tarixən *sağır nun (–ıŋ[4])* səsi iştirak etmişdir. Q.Kazımov qeyd edir ki, ədəbi dilin inkişafının ilkin mərhələsində burun *ŋ* samiti, sonrakı mərhələdə isə ağız samiti üstünlük qazanmışdır (4,s.25).

Ol mənıŋ adzaqtın tikan suçluşdı "O mənə ayağımdan tikan çıxarmaqda kömək etdi" *(*MK, II, s.163).

Olar bir-biriniŋ yazuqın kəçrüşdi "Onlar bir-birinin taqsırını bağışladı" (MK, II, s.169).

Ol anıŋ küçin kəvtürdi "O, onun gücünü zəiflətdi" (MK, II, s.149).

Yönlük hal türk dillərində hərəkətin obyektini, yerini, zamanını, səbəbini, istiqamətini bildirir. M. Kaşğari "Divan"ında yönlük hal ***–a, -ə, -qa, -kə*** şəkilçisi ilə ifadə olunur.

Təvə silkinsə, əşəkkə yük yük çıqar "Dəvə silkinsə, eşşəyə yük çıxar" (MK, II, s.187)

Qul təŋrikə yügündi "Qul Allah-təalaya səcdə etdi" (MK.,III,s.68).

Ol yışığnı yığacqa sarmattı "*O, ipi ağac və sairəyə sarıtdı"* (MK, II, s.270)

Ol ölügkə yuğladı "O, ölü üçün ehsan verdi" (MK, III, s.263)

Ol maŋa at kəltürdi "O mənə at gətirdi". (MK, II, s.149)

Ər işqa başlandı "Kişi işə başladı" (MK, II, s.181).

Əriŋənkə əlig qarı böz üm tikəməs "Subay donuna əlli arşın bez çatmaz" (MK, I, s.172).

Təsirlik hal feillə qrammatik əlaqəyə girib obyekt anlayışı bildirir. M.Kaşğari "Divan"ınında müəyyən təsirlik hal *–ı*[4]*, -ni* şəkilçisi ilə formalaşmışdır.

Ol üzümni çağırladı " O, üzümdən çaxır qayırdı" (MK, III, s.280).

Ol məni közətti "O, məni gözlədi" (MK, II, 237).

Ol ölügni külitti. "O, ölü və sairəni basdırtdı" (MK, II, 241).

Ol suvnı tamıttı. *"O, su və sairəni damcılatdı"* (MK, II, 241).

Qeyri-müəyyən təsirlik halın formal əlaməti olmadığı üçün onun ətrafında kifayət qədər mübahisəli fikirlər mövcuddur. Bu M.Kaşğari "Divan"ınında qeyri-müəyyən təsirlik hal da geniş yayılmışdır:

Təŋri əsin əsnətti "Tanrı külək əsdirdi" (M.K, I, s.303).

Ol tavarın ədzlətti "*O, başlı-başına buraxılmış malını islah etdirdi*" (M.K.I, s.301)

Ol ayaq aşlattı. *"O qab düzəltdirdi*" (M.K., s.301).

M.Kaşğari "Divan"ınında yerlik hal geniş yayılmış, -da[2] şəkilçisi ilə formalaşmışdır.

Ol qoyın yaylağda yazlattı "*O qoyununu yaylaqda yazlatdı* (MK, II, 275)

Ol maŋa suvda nəŋ qarvaşdı. "O mənə suda dəmir çəngəllə şey axtarmaqda kömək etdi" (MK, II, s.168).

Qudzuğda suv bar, it burnı təkməs. "*Quyuda su var, ancaq ona itin burnu çatmaz"* (MK, I, s.403).

M.Kaşğari "Divan"ında **ç**ıxışlıq hal *–dən, -din* şəkilçisi ilə funksionallaşmışdır.

Ol məndin qolğırdı "O az qalmışdı ki, məndən şey istəsin ".

Küç əldin kirsə, törü tünlükdən çıqar "Güc (zülm) evin astanasından girərsə, qanun və insaf pəncərədən çıqar" (MK, II, 18).

Qılıç qındın suçlundı "*Qılıc qınından sıyrıldı*" (MK, II, s.187).

İt qamuğ tumlığdın qıstaşdı "*İtlər hamısı soyuqdan titrəyib zingildədi*" (MK,II, s.168).

Maraqlıdır ki, bir sintaktik vahidin tərkibində çıxışlıq hal iki fərqli şəkildə ifadə olunmuşdur. Həm *–din*, həm də *-dən* şəkilçisi işlənilmişdir.

Birgəlik-alət halı qədim türk yazılı abidələrində aktiv işlənmiş hallardandır. -ın, -in -n şəkilçiləri ilə düzəlib, vasitə, tərz, zaman, müqayisə anlayışları yaradır. M.Kaşğari "Divan"ında da kifayət qədər uyğun nümunələr mövcuddur.

Ol anıŋ birlə suvşaşdı.

Kişi məniŋ birlə ta(ı)lıqdı "*Kişi mənimlə bərabər danışaraq keyfimi soruşdu"* (MK, II, s.89).

Ol məniŋ birlə suv si(ü)mrüşdi "O mənimlə su və sairəni bir nəfəsə içməkdə yarışdı" (MK, II, 162).

Müasir türk dillərində istisna kimi rastlaşdığımız hal əvəzlənmələri qədim türk yazılı abidələrində geniş yayılmışdır. Belə əvəzlənmələr "Divan" da da mövcuddur.

Ol məni bu iştə qızğırdı "*O məni bu iş üçün cəzalandırdı*" (MK, II, 148)

Bu sətirlərdə *iş* ismi yerlik hal şəkilçisi qəbul edib. Semantik baxımdan isə bu cümlədə yönlük halı ifadə olunur.

Ol əvvin tarusladı "*O, ev üçün dam qayırdı"* (MK, III, 281).

Burada qeyri-müəyyən təsirlik semantik baxımdan yönlük halı ifadə edir.

Ol anıŋ adzağın bağdattı "*O, güləşdə onun ayağına badalaq vurdurdu*" (MK.II, 253)

Təsirlik hal yönlük halı əvəz edib.

Ər öfkəsinə ürüldi "*Kişi öfkəsindən (acığından) şişdi*" (MK, I, 243).

Yönlük hal çıxışlıq halı əvəz edir.

Ol məni tumlığqa üşitti "*O məni soyuqda üşütdü*" (MK, I, 256).

Nümunədən göründüyü kimi, yönlük hal yerlik halı əvəz edir.

Ümumiyyətlə, M.Kaşğari "Divan"ı ismin hal kateqoriyasını, halın semantik funksiyasının genişliyini əks etdirən mükəmməl bir əsərdir.

Ötən əsrin 50-ci illərindən bəri daha geniş tədqiqat obyektinə çevrilmiş "Divan" haqqında M.Hüseynova haqlı olaraq yazır:"..Azərbaycan dilçiliyində elə bir tədqiqatçıya rast gəlmək çətindir ki, Mahmud Kaşğari "Divan"ına bu və ya digər şəkildə müraciət etməmiş olsun, bu möhtəşəm və qədim abidədən yararlanmamış olsun ..." (1).

Mahmud Kaşğari "Divan"ı ədəbi dil tarixinin incələnməsində mühüm əhəmiyyətə malik əsərdir.

Noun Cases in Mahmud al-Kashgari's 'Divan Lughat al-Turk

Summary

Mahmud al-Kashgari's Divan is a work of great importance in the study of the history of literary language. The Divan plays an invaluable role in exploring the historical roots of the grammatical levels of language. One such grammatical category is the case system of nouns, which, like in other Turkic languages, stands out for its stability in the history of the development of the Azerbaijani literary language. The article highlights the characteristics of the usage of noun cases in the Divan.

Keywords: *M. Kashgari, noun, case, Turkic languages*

ƏDƏBİYYAT

1. Hüseynova M. Mahmud Kaşğarinin "Divani lüğət-it türk" əsərinin qrammatik xüsusiyyətləri. Bakı.2022.

2. Kaşğari M. Divanü lüğat-it-türk. 3 cilddə.Bakı, 2024.

3. Kazımov İ. "Mahmud Kaşğari ""Divan"ı və çağdaş türk dilləri" (Elm və təhsil, 2014) s.146.

4. Kazımov Q. İsmin qrammatik kateqoriyalarının tarixi. Bakı, Elm, 2023, S.25

5.Seyidov Y. Azərbaycan dilinin qrammatikası. Morfologiya. Bakı, 2000, s.233.

TACƏDDİN ƏHMƏDİNİN "CƏMŞİD VƏ XURŞİD" MƏSNƏVİSİNDƏ İSLAM TERMİNOLOGİYASI VƏ DİNİ LEKSİKANIN TƏDQİQİ

Arzu İsgəndərzadə
AMEA Nəsimi adına Dilçilik İnstitutu
arzu.isgandarzada@gmail.com
ORCİD ID: 0000-0002-2068-736X

Giriş

Türk dilinin geniş və köklü tarixini araşdırarkən, orta əsrlərdə yaşamış türk şair və yazıçılarının yaratdığı ədəbi nümunələr, bu sahədəki ən vacib və dəyərli mənbələrdən hesab olunur. Bu baxımdan, XV əsrə aid türkdilli yazılı abidələrdən biri olan "Cəmşid və Xurşid"in lüğət tərkibinin dərindən təhlil edilməsi, türk dilinin söz ehtiyatının və leksik zənginliyinin öyrənilməsi nöqteyi-nəzərdən xüsusi əhəmiyyətə malikdir. Bu ədəbi abidə yalnız dilin zamanla necə inkişaf etdiyini və dəyişdiyini əks etdirməklə kifayətlənmir, həm də həmin dövrün ədəbi üslubunu, poetik ənənələrini və bədii ifadə tərzini daha dərindən araşdırmağa imkan verir.

Bu sahədə V. Vinoqradovun mülahizələri xüsusilə diqqətəlayiqdir. O, yazılı abidələrin, xüsusilə də ədəbi-bədii materialların dilçilərin tədqiqatlarında mühüm rol oynadığını vurğulamışdır: "Hər hansı ədəbi-bədii materialı özündə əks etdirən yazılı abidə dilçilərin diqqətini cəlb etməlidir. Çünki yalnız bədii yaradıcılıq nümunəsi dilin inkişafını özündə daha çox əks etdirə bilir" [7, s.3]. Bu fikir, bədii ədəbiyyatın dilin təbii və dinamik inkişafını, xüsusilə dilin müxtəlif dövrlərdəki dəyişikliklərini və üslub fərqliliklərini daha canlı və əhatəli şəkildə əks etdirdiyini vurğulayır.

"Cəmşid və Xurşid", özündə tarixi dövrün estetik baxışını, insanların dünyagörüşünü və düşüncə tərzini əks etdirən vacib bir mənbə olmaqla yanaşı, eyni zamanda dilin sosial və mədəni kontekstini də işıqlandırır. Bu əsərin təhlili, o dövrün ədəbi və dil sahəsindəki inkişafını anlamağa, həmçinin türk dilinin zəngin keçmişini daha aydın bir şəkildə ortaya qoymağa kömək edir.

Məsnəvilər, adətən, Allahın təkliyini və birliyini təsdiq edən tövhid mövzusu ilə başlayır. Bununla yanaşı, bu əsərlərdə Allaha edilən dua və yalvarışların yer aldığı münacatlar, peyğəmbərin həyatına və şəxsiyyətinə dair məlumat verən, ondan şəfaət istəmək məqsədilə yazılan nətlər və peyğəmbərin mədhinə həsr olunan mədhiyyələr də əhəmiyyətli yer tutur. Bu hissələr çox vaxt qəsidə formasında yazılır və mətnin ilk hissələrini təşkil edir. Məsnəvinin başlanğıcında bu cür motivlərin yer alması həm ədəbi dəyəri artırır, həm də dini mövzulara olan xüsusi diqqəti və ehtiramı əks etdirir.

Leksik təhlil**:** Əsərin lüğət tərkibində yer alan türkmənşəli dini terminlərin və ifadələrin təhlili aparılmışdır. Bu məqsədlə, əsərdəki dini leksikanın müvafiq kontekstdə necə istifadə olunduğu və bu leksik vahidlərin dilin inkişafına necə təsir etdiyi öyrənilmişdir. Dini leksikanın geniş bir şəkildə təhlil edilməsi, sözlərin mənalarının və onların zamanla necə inkişaf etdiyini anlamağa imkan yaratmışdır.

Bu metodun köməyi ilə əsərin dilindəki dini terminlərin və ifadələrin dövrün dini təsəvvürlərini və təfəkkürünü necə əks etdirdiyi barədə ətraflı təhlil aparılmışdır. Araşdırma, həmçinin əsərin müvafiq dövrün mədəniyyətinə necə təsir etdiyini və türk dilindəki dini anlayışların inkişafını göstərmək məqsədini güdür. Həmçinin, müasir dövrün dilində istifadə olunan bəzi terminlərin kök və mənşələri üzərində də analiz aparılmışdır.

MÜZAKİRƏ

"Cəmşid və Xurşid" məsnəvisi də klassik məsnəvi olduğu üçün əsərin leksikasında dini sözlər xüsusi yer tutur. Bu cür ədəbi əsərlərdə dini mövzulara dair leksik bir atmosfer yaradılır və bu da dilin zənginliyini və müvafiq dövrün mədəniyyətini əks etdirir: *Allah, Xüda, Xüdavənd, tövhid, haqq, nəbi, rəsul, möcüzə, ilahi, iman, ibadət, namaz, sücud, hicab, mücahid, cənnət, cəhənnəm, tamu, keşiş, teŋri ("tanrı"), müfəzzəl (izah edilmiş), fəzl, rəhmət, hidayət, afəriniş (yaradılış, xilqət), övliya, ənbiya, ümmət, cahan, mələk, şəfaət, münzəl (yuxarıdan aşağıya hissə-hissə endirilən), haqq* və s.

Əsərin dilində istifadə olunan dini leksik vahidlərə nümunə olaraq aşağıdakı beytlərə nəzər salaq:

Səni dirüz səni isdərüz İlahi
Bilürsin qamu əsrarı kəmahi [1, b.14]

Həmişə qılgil anı xalqa sultan
Kim ol durur pənahi əhli iman [1, b.33]

Nə naqşı kim yazubdur ol Xudavənd
Qamusu xub u zibadur u dilbənd [1, b.75]

Zərrə zərrə yirdə gökdə nə ki var
Varlığuŋa birliğüñədür şühud [1, b.155]

Bu nazm ilə cevab itdi aña rahib
Ki düşdi göñlinə dürlü acayib [1, b.1657]

Anuŋ içün sufi içməz mey dəmadəm
Ki cənnətdə bulam dir dəxi yig həm [1, b.2485]

Nümunələrdən də müşahidə edildiyi kimi, XV əsr ədəbi dilində İslam dininin təsiri ilə ərəbmənşəli sözlər daha geniş şəkildə istifadə edilmiş və dilin leksik tərkibində mühüm bir yer tutmuşdur.

Dini leksika arasında türkmənşəli yalnız tanrı**,** uçmaq və tamu leksemləri qarşımıza çıxır. Bu leksik vahidlər isə əsərin lüğət tərkibində sadəcə bir dəfə istifadə edilmişdir:

Bənəm ol quş ki yerümdən irildüm
Yimədən danə uçmaqdan sürüldüm [1, b.2834]

Sana haqq su gibi verdi revanı
Tamu odu gibi olma zəbanı [1, b.4660]

İde yoldaş ile qonşıya hörmət
Kişi kim Teñgridən isdəyə rahmət [1, b.118]

Qədim türklərin müxtəlif tarixi dövrlərdə müxtəlif dini inanclara sahib olduqları məlumdur. Lakin türklər İslamı qəbul etməzdən əvvəl həm "göy" və "səma" mənasında, həm də "göydə mövcud olduğuna inanılan müqəddəs varlıq" kimi mənalarda "tanrı" kəlməsini istifadə edirdilər.

İslamın təsiri ilə bu anlayış zamanla təkamül etmiş, amma qədim türk inanc sistemlərinin izləri hələ də bu sözün anlamında özünü göstərmişdir. Tanrı sözünün işlədildiyi e.ə. IV əsrə aid çincə bir mətndə bu söz ən qədim türkcə kəlmə kimi tanınır. "Yaratgan" kəliməsi "yaradan" və ya "yaradıcı" mənasında istifadə olunsa da, M. Kaşğari bu kəlmənin izahında "tenğri" sözünü işlədərək, türklərin qədim inancları ilə əlaqəli olan mücərrəd bir qüvvənin və ya varlığın anlayışını da diqqətə çatdırır [5, s.52].

Uyğur mətnlərinin dilində tängri**,** tengri fonetik variantlarında tanrı semantikasında işlənmişdir [2, s.233]. G. Klauson isə bu sözü çox qədim bir termin olaraq dəyərləndirir və bildirir ki, ilk dövrlərdə "göy üzü" mənasında istifadə edilən tängri sözü sonradan "Allah" mənasını daşıyan bir terminə çevrilmişdir [3, s.523]. G. Klauson bu leksik vahidin XIV yüzillik Anadolu-osmanlı türkcəsində sadəcə taŋrı fonovariantında işlənmiş olduğunu qeyd etsə də [3, s.524], "Cəmşid və Xurşid" məsnəvisinin leksikasında tarixi "teŋgri" fonovariantında işləndiyini görürük. Fikrimizcə, bu fonetik fərqliliklərin nə vaxt meydana gəldiyini dəqiq müəyyənləşdirmək çətin olsa da, belə bir nəticəyə gəlmək olar ki, qədim türklər təktanrılı inanc sisteminə inanarkən, "göy" və "səma" mənasında istifadə etdikləri teŋri kəlməsinin mənası zamanla genişlənərək daha dərin və çoxşaxəli məna qazanmışdır. Dini və fəlsəfi anlayışların dilə inteqrasiyası sözlərin mənalarının dərinləşməsinə və mədəniyyətin zənginləşməsinə imkan yaratmışdır.

Bu leksik vahid müasir Azərbaycan, türkmən və türk dillərində "tanrı"**,** qırğız dilində "tengir", uyğur, başqırd və qazax dillərində "tänri", özbək türkcəsində "tängri", xakas türkcəsində "tigir", şor dilində "tegre", yakutca isə "taŋara", çuvaşca isə "torı" fonovariantında həm tanrı, həm də "müqəddəs obraz" semantikasında istifadə edilir.

Uçmaq: Bu leksik vahid qədim türklərin ölümlə bağlı inanc və təsəvvürlərini əks etdirir. "Uçmaq" sözü ölümü bədənin dünyadan ayrılması və ruhun göyə, yəni qeyri-maddi dünyaya yüksəlməsi kimi metaforik bir şəkildə təsəvvür etmələri ilə əlaqələndirilmişdir. "Uçmaq" kəlməsi bu dövrün dini və mədəni düşüncə tərzini, insanın həyat və ölüm qarşısında necə bir münasibət bəslədiyini göstərir. Tək Tanrıya inanan türklər ölüm sonrası ruhun göylərə, Allahın hüzuruna qalxacağına və cənnətin səmanın yüksək qatlarında yerləşdiyinə inanırdılar. Bu inanc onların ölüm və axirət haqqında düşüncələrini formalaşdırmışdır. Beləliklə, "uçmaq" termini İslamdan əvvəlki dövrə aid olaraq türklərin cənnət anlayışını ifadə etmişdir. Belə demək mümkündür ki, "uçmaq"

feilindəki "uç" kökü qanad semantikasında "yüksəlmək, havaya qalxmaq, səmaya yüksəlmək" kimi şərh olunur. Buradakı "-maq" şəkilçisi isə feildən isim əmələ gətirən bir şəkilçi kimi işlənmişdir. Bu formada "uçmaq" sözü yalnız fiziki yüksəlişi deyil, həm də mənəvi və simvolik bir yüksəlişi, yəni ruhun göylərə, cənnətə doğru qalxmasını ifadə edir. "Divanü Lüğat-it-Türk"də "cənnət" semantikasında "uçmaq" leksemi qeyd edilir. Eyni zamanda oğuzcada bir şeyin bitməsi və ya tükənməsi mənasında "uç" kəlməsinin işləndiyi göstərilir [4, s.681-682]. Qeyd edək ki, *uçmaq* sözü "Cəmşid və Xurşid" əsərinin leksikasında sadəcə bir dəfə işlənmişdir. Bu sözün ekvivalenti kimi isə ərəbmənşəli *cənnət* sözü iyirmi üç, farsmənşəli *firdevs* sözü isə altı dəfə işlənmişdir. Bu statistikaya əsasən deyə bilərik ki, XV əsrdə *cənnət* sözünün *uçmaq* sözünü sıxışdıraraq, istifadəsini passivləşdirmişdir. Bu söz zaman keçdikcə dilin inkişafı və dəyişməsi ilə daha az istifadə olunaraq, yalnız qədim türk ədəbiyyatında və dini mətnlərdə rast gəlinir.

Nəticə

Məqalə XV əsrə aid olan və türkdilli klassik ədəbiyyatın mühüm nümunələrindən biri sayılan "Cəmşid və Xurşid" məsnəvisində dini və fəlsəfi anlayışların dil vasitəsilə necə ifadə olunduğunu araşdırmaqla yanaşı, həmin dövrün leksik mənzərəsini və türk dilində baş verən semantik dəyişiklikləri də təhlil edir. Əsərin leksik strukturunda dini terminlərin və ərəbmənşəli sözlərin üstünlük təşkil etməsi islam dininin təsiri ilə formalaşan ədəbi-mədəni mühitin dildəki əksini açıq şəkildə ortaya qoyur. Bu fakt türkcənin digər mədəniyyətlər və dillərlə qarşılıqlı təsirinə məruz qalması prosesini anlamaq üçün mühüm əhəmiyyət daşıyır.

Əsərdə ərəb və fars elementlərinin fəal istifadəsi ilə yanaşı, qədim türklərin inanclarını və düşüncə tərzini əks etdirən türkmənşəli dini leksik vahidlər – "tanrı", "uçmaq", "tamu" kimi sözlər – məhdud şəkildə qorunmuşdur. Bu leksik vahidlərin məzmun yükü və kontekstual istifadəsi əsasında aydın olur ki, sözlərin semantik çalarları zamanla dəyişmiş, bəziləri poetik məna qazanaraq yeni funksional səviyyələrdə istifadə edilmişdir. "Tanrı" sözünün ilkin mifoloji çərçivədən təkallahlı inanc sisteminə doğru semantik təkamülü və "uçmaq" sözünün həm ölüm, həm də əbədi həyat (cənnət) anlayışı ilə əlaqələndirilməsi, türkcənin yalnız bir ünsiyyət vasitəsi deyil, həm də dərin fəlsəfi və dini məzmun daşıyıcısı olduğunu göstərir.

Nəticə etibarilə, "Cəmşid və Xurşid" məsnəvisi yalnız bir poetik mətn kimi deyil, həm də türk dilinin tarixi inkişaf mərhələlərini, söz ehtiyatının genişlənməsi və xarici təsirlərlə formalaşma prosesini izləməyə imkan verən etibarlı mənbə kimi qiymətləndirilə bilər. Bu cür təhlillər türkcənin leksik və semantik sistemində baş verən transformasiyaların izini sürmək, eləcə də dil-mədəniyyət münasibətlərini daha dərindən anlamaq baxımından mühüm elmi və metodoloji əhəmiyyət kəsb edir.

AN INVESTIGATION INTO THE ISLAMIC TERMINOLOGY AND RELIGIOUS LEXICON IN THE MASNAVI *JAMSHID AND KHURSHID*

Abstract:

This article offers a comprehensive examination of the religious vocabulary employed in *Jamshid and Khurshid*, a prominent example of 15th-century Turkic written literature authored by Tājaddīn Ahmadī. Poetic compositions by medieval Turkic authors serve as critical linguistic and cultural sources for tracing the complex historical development of the Turkic language. Within this framework, a systematic lexical analysis of the *Jamshid and Khurshid* masnavi provides valuable insights into the richness, semantic depth, and expressive capabilities of Anatolian Turkish during the classical period.

Beyond its literary merits, the work reflects the aesthetic worldview, religious sentiments, and socio-spiritual concepts of its time. It also offers an important perspective on the functional and symbolic roles of language in constructing collective cultural and religious identity. Through the analysis of its vocabulary and stylistic devices, this study contributes to a broader understanding of the evolution of literary thought, linguistic structure, and poetic norms in the 15th-century Oghuz Turkic literary tradition.

A key focus of this investigation is the integration of Arabic-origin religious terminology, demonstrating the profound influence of Islam on the literary lexicon of the period. At the same time, the study explores the semantic development and transformation of Turkic-origin religious terms, particularly *tanrı* ("god") and *uçmaq* ("to ascend / paradise"). The term *tanrı*, rooted in ancient Turkic cosmology, originally referred to a sacred celestial force, but gradually evolved to align with Islamic monotheistic concepts. Conversely, *uçmaq* came to symbolize both the act of dying and the soul's transcendence to paradise, acquiring deep metaphorical resonance in classical poetic discourse. These findings highlight the dynamic interplay between linguistic tradition and religious thought in shaping the vocabulary of medieval Turkic literature.

Keywords: Tājaddīn Ahmadī, *Jamshid and Khurshid,* Anatolian Turkish, religious vocabulary, Oghuz Turkic, Islamic terminology, classical poetry

ƏDƏBİYYAT SİYAHISI

1. Ahmedi. Cemşid ü Hurşid. İstanbul: İstanbul Universitesi, Nadir Eserler Kütüphanesi, Türkçe yazmalar bölmesi, – № 921.

2. Caferoğlu, A. Eski Uygur Türkçesi sözlüğü. İstanbul: Edebiyat Fakültesi Matbaası, 1968, 320 s.

3. Clauson, G. An Etymological Dictionary of Pre-thirteenth-Century Turkish. Oxford: Clarendon Press, 1972. 989 p.

4. Divanü Lüğat-it-Türk" Tercümesi. Ankara: Türk Tarih Kurumu, c. 3. 1985. 452 s.

5. Divanü Lüğat-it-Türk" Tercümesi. terc. ed. B.Atalay. − Ankara: Türk Tarih Kurumu, c. 4. 1986. 885 s.

6. https://www.etimolojiturkce.com/kelime/tanrı
7. Виноградов, В.В. Лексикология и лексикография. Избранные труды. Виноградов. Москва: Наука, 1977. 312 с.

UĞAN: QƏDİM TÜRK DİLİNDƏKİ İZLƏRİ

Günəş Mustafayeva
AMEA Nəsimi adına Dilçilik İnstitutu
doktorant

Dünya dilçiliyinin tarixi çox geniş və mürəkkəb bir sahədir. Dilçilik insanların danışıq və yazı dilləri ilə bağlı düşüncə və öyrənmələrinin zamanla inkişafı nəticəsində yaranmışdır. Müasir dövrdə dilçilik daha çox müxtəlif sahələri birləşdirən interdisipliner bir sahəyə çevrilmişdir.

Müasir dilçiliyin əsas qollarından biri koqnitiv dilçilikdir. Koqnitiv dilçilik dilin və düşüncənin qarşılıqlı əlaqəsini tədqiq edən bir dilçilik yanaşmasıdır. Koqnitiv dilçilik dilin yalnız bir rabitə vasitəsi olaraq deyil, eyni zamanda, insanın düşüncə tərzini və dünyagörüşünü əks etdirən bir struktura sahib olduğunu vurğulayır. Koqnitiv dilçiliyin əsas vahidi konseptdir. Konsept insanın şüurunda elmi fəaliyyət təcrübəsi, praktiki fəaliyyət təcrübəsi, düşünmə fəaliyyəti təcrübəsi, verbal və qeyri-verbal ünisyyət, duyğu təcrübəsi-hissiyat üzvləri vasitəsilə dünyanın dərki əsasında formalaşır.

Konseptlərin müxtəlif növləri vardır. Konseptlər arasında tanrı konsepti çoxcəhətli zənginliyinə görə maraq doğrurur. İstər qədim türk yazılı abidələrinin dilində, istərsə də müasir türk dillərində tanrı konsepti dilin müxtəlif səviyyələrində ifadəsinə görə rəngarəngdir. Tanrı konsepti birbaşa türklərin dini inanc sistemləri ilə bağlıdır. Tanrı olaraq qəbul edilən varlıq bizə məlum olan qədim türk yazılı abidələrinin dilindən etibarən müxtəlif sözlərlə ifadə olunmuş və ədəbiyyatlarda öz yerini tutmuşdur. Tanrı konsepti ilə əlaqələndirilən sözlərdən biri «uğan»dır. Bu sözün feili sifət olduğu qeyd olunur. Belə ki, burada «u» «qadir olmaq» mənasını ifadə edən feildir. *-ğan* isə feili sifət şəkilçisidir. «Uğan» sözü Tanrının sifətlərindən biridir. Bu söz Tanrının hər şeyə gücünün çatdığı, hər şeyə qadir olduğunu vurğulamaq üçün istifadə olunur. Bu sözü İslam dinində Allahın qüdrətini vurğulamaq üçün istifadə olunan qadir sözünün qarşılığı kimi başa düşə bilərik. Qədim türk dialektlərində u- «bacarmaq» kökü işlənmişdir. B. Məhərrəmlinin fikrincə, dilimizdə işlənən *uğur* sözünün kökü qədim u- («bacarmaq») morfemidir. Yəni qədim *u-* morfemi uğur sözündə *(*u+ğur)* asemantikləşməyə məruz qalmışdır. **U-* «bacarmaq» feilinin kökü yakut dilindəki *uy* «bacarıq» sözündə də qorunmuşdur. Bu qədim kökü özündə mühafizə edən sözlərdən biri oğan «Allah» leksemidir. V. Aslanov həmin sözün kökünü u- «bacarmaq» feili ilə əlaqələndirir. N.A.Baskakov,

M.Seyidov da həmin fikri irəli sürür. U- «bacarmaq» feili ondan törəmə uğan // oğan «Allah», «tanrı», oğan «qüdrətli», «qüvvətli» sözlərində daşlaşmışdır. [5, s.159] «Uğan» sözünə Göytürk yazısı abidələrinin dilində rast gəlinməsə də, kökü «u» hesab olunan söz «bacarmaq» mənasında bir çox abidələrin- Kültigin, Turfan, Yenisey abidələrinin dilində işlənmişdir. Belə ki, bu söz Kültigin abidəsində 2 dəfə, Irk bitig abidəsində 9 dəfə, Yenisey abidəsində 1 dəfə işlənmişdir. Uyğur yazısı abidələrinin dilində isə «uğan» sözü «tanrı», «Allah» mənalarını ifadə edərək işlənmişdir:

1. «Xəyal» adlı uyğur yazısı abidəsində: *On küçlüg bügü biliglik uğan arzılar/ On güclü sehirli bilikli tanrı müəllimləri* [6, s.330]
2. «Doğru yol» adlı digər uyğur yazısı abidəsinin dilində: *Uğan arγı yarlıkına udu iyin evrilsər/ Tanrı zahid əmrinə uyaraq dolayısı ilə gönsə*[6, 290]
3. «On cür niyaz» adlı digər uyğur abidəsində: *Uğanların on kut kolunç yorığı bu nomığ/ Tanrıların on səadət arzusu yolu olan bu qanunu* [6, 275]
4. «Otuz beş Burhana hörmət» adlı uyğur abidəsində: *Uğan arzı üzə uz nomladılmış/ Allah müəllim ilə ustalıqla vəz edilmiş* [6, 226]
5. «On cür yaxşılığın tərifi» adlı uyğur abidəsində «uğan» sözü «qüdrətli» mənasını ifadə etmişdir: *umuğumuz uğan alpının etüz belgüsi/ ümidsiz qüdrətli alpın vücud əlaməti.* [6, 212]

Əhməd Cəfəroğlu, Əbülfəz Rəcəbli «uğan» sözünün, həmçinin «oğan» formasında və eyni mənada işləndiyini vurğulamışdır. Xəqaniyyə türkcəsində yazılmış abidələrdən olan «Qutadqu Bilik» əsərində «uğan» sözü «qadir», «qüdrətli», «güclü» mənalarını ifadə etmişdir. Və aşağıda verilmiş nümunələrə əsasən qeyd etmək olar ki, «uğan» sözü tanrının bir sifəti olaraq işlənmişdir. Bu söz «bayat», «tenri», «idi» sözləri ilə birlikdə işlənərək əlamət bildirmişdir:

1. *küdezsü uğan tenri imanımız* [7, s.336]
2. *ayur min sena ol uğan tenrike* [7, s.204]
3. *uğan erklig ol bir kamuğdın sınar* [7, s.195]
4. *uğan ol köni çın törü bergüçi* [7, s.168]
5. *ukuğlı uğan ol ukar bu işig* [7, s.82]
6. *ay erklig uğan menü munsuz bayat* [7, s.4]
7. *uğan bir bayatka anar yok fena* [7, s.4]

Mahmud Kaşğarinin «Divan»ında «uğan» sözü «hər şeyə gücü çatan», «qadir», «qüdrətli» mənalarını ifadə etmişdir: *uğan tənqri/ qüdrətli, qadir tanrı.* [4, s.144] Yuxarıda qeyd olunduğu kimi, Xəqaniyyə türkcəsində, həmçinin Quranda tərcümə olunmuş və «uğan» sözü həmin tərcümədə Allahın adlarından biri kimi çıxış etmiş və müqtədir mənasını ifadə etmişdir:

1. *Ol Tanrı kamug neng üze ugan ol/ O Tanrı hər şeyə gücü çatandır.* [3, s.56]
2. *Ol Tanrı kamug neng üze küçlüg ugan turur/ Tanrı hər şeyə qadirdir.* [3, s.56]

Xəqaniyyə türkcəsində yazılmış «Atəbətül-həqaiq» əsərində «uğan» sözü «qadir», «Tanrı» mənalarını ifadə etmişdir:

1. *yarattı ol uğan tünün kündüzün/ O qadir Tanrı sənin gecəni və gündüzünü yaratdı.* [3, s.87]

2. *Uğan hukmi birle kelür kelgen iş/ Hər gələn iş qadir (Tanrı) hökmü ilə gəlir.* [3, s.85]

Əhməd Yəsəvinin «Divani-hikmət» əsərində «uğan» sözü «qadir» və «qüdrətli» mənalarını bildirmişdir: *Ruzə, namaz uğanımnı farzı bolğay.* [1, s.75]

Xarəzm türkcəsi ilə yazılmış «Muinül-Mürid» əsərində «uğan» sözü «Allah» mənasını ifadə etmişdir: *şükür hamd uganga tümen ming hezar.* [3, s.199]

Xarəzm Türkcəsi ilə yazılmış digər əsər «Qissəsül-Ənbiya»da «uğan» sözü «Allah», «qadir» mənalarını ifadə etmişdir: *yetti tün sekkiz ken içre yok bodun kıldı ugan.* [3, s.175]

Qıpçaq türkcəsi sözlüyündə söz «uğan» və «oğan» formasında qeyd olunmuşdur. Sözlükdə söz «yaradıcı», «Allah» mənalarını ifadə etmişdir. Bu söz qıpçaq yazılı abidəsi «Houtsma» lüğətində «oğan» («Allah», «yaradan», «törədən»), XV əsrə aid yazılı abidələrdə «uğan» («Allah») biçimlərində işlənmişdir. [5, s.159]

Müasir Türkiyə türkcəsində «uğan» sözü «oğan» formasında «Tanrı», «yaradan» mənalarını ifadə edir. Bu söz Trabzon, Balıqəsir, Konya kimi bölgələrdə «Tanrı» mənasında işlənir. Bundan əlavə, Türkiyənin Kastomonu vilayətinin bəzi bölgələrində «ugan» sözü «atəş», «od» mənalarını ifadə etmək üçün istifadə olunur. Sözün bu mənada işlənməsi orada yaşayanların daha öncə Zərdüştlüyə inanması ilə bağlı fikirləri formalaşdırır.

Nəticə olaraq qeyd edə bilərik ki, «uğan» sözü daha çox qədim dövrlərdən gələn və xüsusilə dini kontekstdə istifadə olunan bir sözdür. Müasir türk dillərində bu sözün yerinə başqa ifadələr istifadə olunsa da, tarixi və ədəbi əhəmiyyəti hələ də qalır.

UGAN: TRACES OF IT IN THE ANCIENT TURKIC LANGUAGE

Abstract

The entity considered as God has been expressed in various words since the language of the ancient Turkic written monuments known to us and has taken its place in literature. These expressions contain both belief and cultural and political information about the period in which the lexical unit was used. Some of the words expressing the entity believed in as God still adorn our language in our modern era. However, there are some words that were used in the language of a certain time and were not used later and have lost their functionality. One of these words is «ugan». The article notes the stages of development that the given word has gone through historically.

Keywords: God, ugan, faith, language of written monuments

Ədəbiyyat siyahısı

1. Cəfərov N. Əhməd Yəsəvi. Divani-hikmət. Bakı: Çaşıoğlu, 2004. 128 s.

2. Clauson G. An Etymological Dictionary of Pre-Thirteenth Century Turkish Languages. Oxford, At the Clarendon Press, 1972, 1048 p.

3. Deniz S. Karahanlı, Harezm ve Kıpçak türkçesi eserlerinde dini terimler, Elazığ, 2019, 1017 s.

4. Əskər R. Mahmut Kaşğari. "Divanü lüğat-it-türk". 4 cilddə. I cild. Bakı: Ozan, 2006, 515 s.

5. Məhərrəmli B. Türk dillərinin qədim leksikası. Bakı: Xəzər Universitəsi nəşriyyatı, 2017, 272 s.

6. Rəcəbli Ə. Qədim türk yazısı abidələri. 4 cilddə. III cild. Qədim uyğur yazısı abidələri, I hissə. Bakı: Elm və təhsil, 2010, 664 s.

7. https://oguzhanbasibuyuk.wordpress.com/wp-content/uploads/2015/08/kutadgubilig.pdf

TÜRK DİLİNİN FRAZEOLOJİ BİRLƏŞMƏLƏRİNDƏ GEYİM ADLARININ FUNKSİONAL XÜSUSİYYƏTLƏRİ

Selcan Akden
Bakı Slavyan Universiteti
dissertant
selcan.akden@hotmail.com

Frazeologiya xalqın, onun milli mədəniyyətinin sanki vizit kartıdır. Burada xalqın milli düşüncəsi, poetik təfəkkürü, mədəniyyət elementləri, təfəkkür tərzi əks olunmuşdur.

Frazeologizmlərin öyrənilməsi müasir türkologiyanın aktural tələblərindəndir. Bəllidir ki, frazeologizmlər müxtəlif komponentlərin birləşməsindən yaranmışdır. Bu komponentlər arasında leksik-semantik və qrammatik bağın olması önəmlidir. Birləşmə daxilində leksik vahidlər öz əsas semantik yükündən ayrılıb yeni funksiya qazanmış olur.

Türk dillərindəki frazeoloji vahidlər bəzən bir-birinə bənzəsə də, bəzən dildə gedən dəyişiklik, dillərin kökdən ayrılıb müstəqil inkişaf etdikdən sonra dəyişikliyə məruz qalmışdır. Bu dəyişiklik eyni bir fikir bir dildə söz birləşməsi şəklində ifadə olunursa, digər türk dilində cümlə şəklin ala bilər. Frazeoloji vahidlərin strukturu qalsa da, komponentlərində dəyişiklik ola bilər. M.Mirzəliyeva dildəki frazeoloji vahidlərin müasir vəziyyətini nəzərə alıb, strukturuna görə onları üç yerə ayırmışdır: söz, söz birləşməsi və cümlə şəklində olanlar [3, s.75]. Türk dillərindəki frazeoloji vahidlər struktur baxımdan deyil, həm də məzmunca müqayisə oluna bilər. Frazeologizmlərin semantik baxımdan təhlilini verərkən Q.Mahmudova türk dillərində daha çox somatik frazeoloji vahidlərin üstünlük təşkil etdiyini vurğulamışdır [2, s.272]. Lakin frazeoloji vahidlərin yaranmasında təkcə somatik vahidlər iştirak etmir. Onlar həm leksik, həm də semantik baxımdan çox rəngarəngdir. Bizim tədqiqatımızda diqqət frazeologizmlərin tərkibindəki geyim adlarına və onların bu zaman qazandıqları məna çalarlarına yönəlmişdir. Türk xalqlarının mədəniyyətində geyim, bəzək əşyaları xüsusi önəm daşıdığı üçün bu ifadələri əks etdirən kifayət qədər frazeoloji birləşmələr formalaşmışdır.

Türkiyə türkçəsində də geyim adları ilə əlaqəli bir çox frazeoloji ifadələr mövcuddur. Bu ifadələr birbaşa geyimləri əks etdirsə də, əksər hallarda məcazi

mənalar daşıyır və müxtəlif mədəni, sosial və emosional halları ifadə etmək üçün istifadə edilir.

a) Komponentlərində baş geyimlərinin və onların elementlərinin adları olan frazeologizmlər:

Baş geyimləri və onların elementləri ilə bağlı frazeologizmlər, dilin obrazlılıq və simvolizm baxımından çox zəngin hissələrindən biridir. Bu frazeologizmlər, adətən insanın xarakterini, davranışını, düşüncəsini və emosional vəziyyətini ifadə etmək üçün istifadə olunur. Baş geyimləri və onların elementləri, eyni zamanda, sosial, mədəni və tarixi kontekstdə müxtəlif mənalar kəsb edə bilər.

Baş geyimləri, tarixən cəmiyyətin sosial statusunu, hərbi və ya peşə vəzifəsini, dini və ya mədəni identifikasiyasını simvollaşdırıb. Ən geniş yayılmış baş geyimlərindən biri olan papaq, yaylıq qədimdən bəri türk dünyasında ən vacib və dəyərli elementlərdən biri kimi istifadə olunub.

Baş geyimləri ilə bağlı frazeologizmlər dilin obrazlı və metaforik qabiliyyətini nümayiş etdirir. Bu frazeologizmlər adətən insanın xarakteri, davranışları, sosial münasibətləri ilə əlaqələndirilir. Baş geyimləri müəyyən bir insanın xarakterini və ya davranışını simvolizə etmək üçün istifadə edilir. Məsələn, Azərbaycan dilində "*papağını göyə atmaq*" ifadəsi sevinci, "*papağını yerə vurmaq*" ifadəsi isə "nüfuzunu itirmək" simvolikasındadır. Baş geyimləri, cəmiyyətdəki davranışları və münasibətləri təsvir etmək üçün istifadə olunur. Türk dilində də kifayət qədər geyimlə bağlı frazeologizmə rast gəlirik

"Şapka çıkarmak"[4, s.1848] - Hər hansı söz və hadisəyə deyəcək sözü olmamaq, çox böyük hörmət və təqdir ifadə etmək anlamındadır. Birinin uğuruna və ya davranışına heyranlıqla yanaşarkən işlədilir. Bu birləşmədəki **şapka** ismi (baş geyimi) **çıkarmak** feili ilə birləşib məcazi məna qazanmışdır, isim + feil strukturunda olub, obrazlı mənada işlənir.

Bundan fərqli olaraq *"Başına şapka yapmak"* frazeologizmi isə "aldatmaq və ya təsir altına salmaq" anlamındadır. İnsanları hiylə ilə idarə edənlər üçün istifadə olunur.

"Duvağına doymamak" – təzə gəlinkən ölmək, və ya yoldaşından ayrılmaq,*"duvak düşkünü*" – evlənməyə çox istəkli olan [4, s.579] anlamındadır.

b) Komponentləri üst geyimləri ilə bağlı frazeologizmlər:

Üst geyimləri ilə bağlı frazeologizmlər insanın xarakteri, emosiyaları və davranışlarının təsvirində istifadə olunur. Bu frazeologizmlər dilin təsvir gücünü artırır və bir çox hallarda obrazlı şəkildə vəziyyətləri daha aydın ifadə edir. Üst geyimləri, adətən, insanın xarici dünyaya təqdim etdiyi imicini, həmçinin sosial davranışlarını və münasibətlərini əks etdirir. Bir çox frazeologizm isə məhz bu geyimlərlə bağlı sosial rollar, davranışlar və vəziyyətləri işıqlandırır.

Türkiyə Türkçəsində ətək sözünü ehtiva edən bir sıra frazeologizmlər mövcuddur: *Eteği belinde*- "zəhmətkeş, qıvraq qadın". (-Eteği belinde bütün evi o çeviriyor) *etek öpmek* "yaltaqlanmaq", *eteğe varmak* "kömək istəmək", *eteğinden ayrılmamak* "əl çəkməmək", *eteği ayağına dolaşmak* "əl-ayağı dolaşmaq, çaşmaq", *eteğini başına atmak* " birini təhqir etmək, kiminləsə

dalaşmaq", *eteğiyle mum söndürmek* "uyğun olmayan şəkildə iş görmək", *eteği tutuşmak* "çox narahat və ya tələşlı olmaq" və s. [4, s.660].

Etekleri zil çalmak - çox sevinmək, şadlıq hissi yaşamaq. İnsanların həyəcanlı və sevincli halları ilə bağlıdır.

Donuna kadar almak - kimisə tamamilə soyundurmaq, bütün malını əlindən almaq. Maddi istismarı və ya tamamilə ziyana uğramağı ifadə edir.

Gömleği değiştirmek – Özünü dəyişdirmək, fərqli davranış və ya şəxsiyyət sərgiləmək. Xüsusilə insanların qəfil dəyişməsi və ya yeni bir mövqeyə keçməsi haqqında işlədilir.

Pantolon giymek - ailədə və ya bir yerdə söz sahibi olmaq, gücü ələ keçirmək. Çox vaxt ailədə lider rolu oynayan şəxslər üçün deyilir.

Elbise asmak – işlərini dayandırmaq, hərəkətdən əl çəkmək. Həyatda və ya işdə passiv hala gələn insanlar haqqında deyilir.

Qeyd etdiyimiz söz birləşmələrinin bəziləri həm həqiqi, həm də məcazi mənalı olsa da, bəziləri yalnız məcazi mənalı olub, poetik səciyyə daşıyır. Belə ki, *pantolon giymek, elbise asmak, gömleği değiştirmek* və s. birləşmələr həm sabit, həm də sərbəst birləşmə kimi dildə funksionallaşmışdır. Eteğe varmak, etekleri zil çalmak birləşmələri isə sırf frazeoloji vahidlərdir.

c) **Geyim elementlərinə bağlı frazeologizmlər**:

Geyim elementləri ilə bağlı frazeologizmlər, insanların xarakterini, duyğusunu və davranışını təsvir etmək üçün tez-tez istifadə olunur.

Yakasını bırakmamak "kiməsə təzyiq göstərmək, narahat etmək", *yakasına sarılmak* "istəyini almaq üçün əl çəkməmək*", yakasına çökmek "təzyiq göstərmək", yakayı ele vermek "*ələ keçmək, qurtula bilməmək*", yaka bir tarafta, paça bir tarafta "*dağınıq vəziyyətdə olan*"* [4, s.*2109*].

Eli cebinde dolaşmak – tənbəllik etmək və ya heç bir işlə məşğul olmamaq. Passiv insanları və ya məsuliyyətlərini yerinə yetirməyənləri təsvir edir.

Cebi para görmek – kasıb adamın pul görməsi, cibini doldurmaq, qarşılaşdığı vəziyyətdən istifadə edib qazanmaq, pullanmaq[4, s.*359*].

d) Komponentləri ayaq geyimləri ilə bağlı olanlar*:*

Ayaq geyimləri ilə bağlı frazeologizmlər, həm də çox geniş mənalar daşıyan ifadələrdir. Bu tip frazeologizmlər, adətən, bir insanın xarakterini, əhvalını, vəziyyətini və ya davranışını obrazlı şəkildə ifadə etmək üçün istifadə edilir. Ayaq geyimləri (ayaqqabı, çəkmə, bot, çəkmə və s.) ilə əlaqəli frazeologizmlər çox vaxt sosial vəziyyəti, çətinliklər, irəliləyiş və ya geriləmə kimi mövzuları əhatə edir.

Çorap örmek – "aldatmaq", *çorap söküğü gibi gitmek*- "işi asan başa çatdırmaq"

Çarık başına dolanmak – "çətinliklərin üstün gəlməsi, problemlərin çoxalması". Həyatın sıxıntılı və ağır anlarını ifadə etmək üçün işlədilir.

Pabucu dama atılmak – Birinin dəyərinin azalması və ya əvvəlki mövqeyini itirməsi, gözdən düşmək. Yeni və daha yaxşı bir şeyin, şəxsin və ya fikrin ortaya çıxması nəticəsində əvvəlkindən uzaqlaşma vəziyyəti.

Pabuç kadar dili olmaq- kobud, tərbiyəsiz cavab vermək, *pabucuna kum dolmak* – "yaranan vəziyyətdən narahat olmaq", *pabucunu eline vermek* – qovmaq [4, s.1561].

Bu frazeoloji birləşmələr türk dilində nitqə rəngarənglik qatır. Ümumiyyətlə, geyim adları məcazi olaraq həm fərdi, həm də sosial münasibətləri ifadə etmək üçün istifadə olunur.

Dil və mədəniyyət kontekstində frazeologizmlər

Dil xalqın tarixinin, mədəniyyətinin güzgüsüdür. Cəmiyyətdəki hər bir sosial-siyasi, ictimai dəyişiklik dildə öz əksini qoyur. Dilin yaruslarından olan frazeologiya da bu təsirlərdən kənarda qalmır. Belə ki, müxtəlif məzmunlu sabit söz birləşmələri insanların cəmiyyətdəki statusuna işarə edir. Geyim adları, xüsusən baş geyimləri ilə bağlı frazeologizmlər bir dilin mədəniyyətini və tarixi inkişafını da əks etdirir. Bu ifadələr, dilin estetik və emosional yükünü daşıyır və eyni zamanda müxtəlif dövrlərdə insanların həyat tərzini və dünyagörüşünü göstərir.

Bu frazeologizmlər yalnız dilin zənginliyini deyil, həm də sosial mədəniyyətin, əxlaqın və psixologiyanın təzahürüdür. Hər bir baş geyimi və onun elementləri, müəyyən bir sosial və mədəni konteksdə fərqli mənalar daşır və müxtəlif vəziyyətlərə uyğun istifadə olunur.

Çox vaxt baş geyimləri, bir insanın mövqeyini, gücünü, statusunu və cəmiyyətdəki rolunu təmsil edir. Bununla əlaqədar olaraq, baş geyimlərinin dilə daxil olması da cəmiyyətin bu simvolik əşyaya olan münasibətini göstərir. Məsələn, müəyyən zamanlarda "şlyapa" yalnız aristokratik təbəqənin üzvləri tərəfindən istifadə edildiyi halda, zamanla daha geniş təbəqələr arasında da yayılmağa başlamışdır.

K. Özdemir 2007-ci ildə şapka ilə bağlı "Cumhuriyet Döneminde Şapka Devrimi Ve Tepkiler" adlı araşdırmasında qeyd etmişdir ki, "Dövlət məmurları rəsmi tədbirlərdə *ceketatay* "rəsmi pencək", *siyah yelek* "qara jilet", *pantolon* "şalvar", *frak* geyinməli idilər. Bunu önü sərt kollu ağ köynək, dik, yaxud ucları qırıq ağ bərk yaxalıq, ağ fiyonklu boyunbağı, qara laklı ayaqqabı və ya sadə laklı iskarpin, silindr şapka, ağ əlcək, baston və ya qara çətir tamamlayırdı. Rəsmi gecələrə və ya rəsmi teatr tamaşalarına isə silindr şapka ilə gediləcəkdi" [1,s.142].

Fatma Koç "Moda Tasarımı" Cumhuriyet Dönemi Türk Kültürü, Atatürk Dönemi (1920-1938) adlı tədqiqatında kişi və qadın geyimi ilə bağlı Türkiyədə gedən dəyişikliyi nəzərə çatdırmışdır: *"1925-ci ildə kişilər üçün qəbul edilən "Şapka İhdası Haqqında Qanun"un qüvvəyə minməsi ilə kişilər üçün papaq geyinmə məcburiyyəti qanunla təsbit olunsa da, qadınlar üçün belə bir məcburiyyət qoyulmamışdır" [1, s.146].* Həmin dönəmdə qadınların necə geyim və davranışı ilə bağlı hər hansı bir qanun, hüquqi akt və ya normativ qayda qəbul edilməmişdi, lakin qadının müasirləşməsi kişilərdən çox daha radikal şəkildə həyata keçirilmişdir.

Üst geyimləri ilə bağlı frazeologizmlər həm də dilin mədəniyyətlə əlaqəli dinamikliyini göstərir, çünki hər bir geyim elementinin fərqli cəmiyyətlərdə və dövrlərdə müxtəlif mənalar daşıdığı nəzərə alınmalıdır. Bu səbəbdən,

frazeologizmlərin yaranması və istifadəsi müəyyən bir cəmiyyətin sosial quruluşunu və dəyərlərini əks etdirir.

Functional Features of Clothing Names in Turkish Idiomatic Expressions

Summary

İn modern Turkology, the study of idiomatic expressions is important for understanding the historical background of the language. There are certain idiomatic units that are rooted in specific historical facts. This article examines the usage level of idiomatic expressions containing clothing names in the Turkish language.

Idioms related to clothing demonstrate the figurative and metaphorical capacity of the language. These expressions are generally associated with a person's character, behavior, and social relationships.

Keywords: Turkish language, idiomatic expressions, clothing names, lexicon.

Ədəbiyyat

1. 21. yüzyilda sanat yorumları.Ankara, 2023
2. Mahmudova Q. Türk dillərinin frazeologiyası.II.c. Bakı, 2009, s.272.
3. Mirzəliyeva M. Türk dillərinin frazeologiyası.I.c. Bakı, 2009, s.75.
4. Türkçe sözlük. TDK, Ankara, 2009

UKRAYNA DİLİNDƏ TÜRK MƏNŞƏLİ SÖZLƏRİN YARANMA TARİXİ VƏ TƏSNİFATI

Müşgünaz Nağıyeva
Bakı Slavyan Universiteti
mushgunaz_90@mail.ru
ORCID ID: 0009-0000-6528-9202

İndiyədək xalqlar arasında tarixi qarşılıqlı əlaqə prosesini əks etdirən Slavyan-Türk dili əlaqələrinin öyrənilməsi problemi slavyan dillərinin türk dillərinə təsirinin öyrənilməsi baxımından daha çox işlənmişdir. Halbuki, çoxəsrlik tarixi əlaqələr birtərəfli səciyyə daşımır, odur ki, slavyan dillərində, xüsusən də şərqi slavyan dillərində türk dillərindən alınan sözlər mühüm əhəmiyyət kəsb edir və bu gün də öz aktuallığını qoruyub saxlayır.

Rus, Ukrayna və Belarus dillərindəki türk mənşəli sözlərin tədqiqinə həsr olunmuş bir sıra elmi işlərin mövcudluğuna baxmayaraq, Şərqi Slavyan dillərində türk mənşəli sözlərin müqayisəli təsviri ilə bağlı bu günə qədər olduqca az iş görülmüşdür. Bu nöqteyi-nəzərdən, təqdim etdiyimiz kiçik elmi iş böyük aktuallıq kəsb edir.

Ukrayna dili özünün çoxəsrlik inkişafı dövründə qonşu və uzaq dillərlə uzun və intensiv əlaqələrə malik olmuşdur. Bu əlaqələr ən çox Ukrayna dilinin

leksik sisteminə üzvi şəkildə daxil olan, bir çox hallarda ona tamamilə uyğunlaşan çoxlu sayda alınma sözlərdə öz əksini tapır.

Ukraynanın iqtisadi-coğrafi mövqeyi müxtəlif tarixi dövrlərdə müasir Ukrayna ərazisində yaşayan slavyan tayfalarının türk tayfaları ilə sıx təmasda olmasına bariz nümunədir.

Türk tayfaları Şərqi Slavyan dillərinin – Ukrayna, Belarus, Rus dillərinin lüğət tərkibində nəzərəçarpacaq iz buraxmış, həmçinin bu dillərin frazeologiyasına və qrammatikasına müəyyən təsir göstərmişdir [1].

Ukrayna dilinin leksik tərkibi Ukrayna xalqının tarixi ilə sıx bağlıdır. Bəzi sözlər arxaikləşib, bəziləri isə elmin, texnikanın, incəsənətin inkişafı ilə dilin lüğət tərkibində aktiv rol oynayır. Tarixi-mədəni inkişaf prosesində Ukrayna xalqının dilinə xeyli sayda türk mənşəli sözlər keçmişdir. Ukrayna dilinə çoxlu sayda türk mənşəli sözlərin keçməsi, əsasən, XII-XVII əsrlərdə slavyan dünyası ilə türkdilli dünya arasında ticarət, kənd təsərrüfatı və hərbi əlaqələrin güclənməsi ilə əlaqədar baş vermişdir. Ukrayna dili coğrafi mövqeyinə və türklərin sıx məskunlaşdığı ərazilərə (Cənubi və Şimali Qafqaz, Türkiyə, Bolqarıstan və s.) yaxınlığına görə bilavasitə türk dillərinin təsirinə məruz qalmışdır. Ukrayna dilindəki türk mənşəli sözləri iki qrupa bölmək olar [2]:

- Ukrayna dilinə ümumi slavyan və ya başqa dillər vasitəsilə daxil olmuş türk mənşəli sözlər;
- Türk dillərindən bilavasitə keçmiş türk mənşəli sözlər.

Ukrayna-Türk dili əlaqələri Cənubi Qara dəniz bölgəsi çöllərinin türkdilli köçəri tayfa birliklərinin, hunların nəzarətində olduğu erkən Şərqi Slavyan dövründə (II-V əsrlər) inkişaf etməyə başlamışdır. Slavyan dillərinin söz bazasının zənginləşməsinə türk xalqları ədəbiyyatının təsirini qısaca qeyd etsək, tarixi kontekstdə belə bir görünüş ortaya çıxmış olur: avarlar (V-VII əsrlər), xəzərlər (VIII əsr), bulqarlar, peçeneqlər, türklər və oğuzlar (IX əsr), bulqarlar, polovtsiyalılar, Anadolu və Balkanlarda türk dövlətləri (X-XII əsrlər), bulqarlar, Qızıl Orda tatarları və XVI əsr türkləri (XIII-XVI əsrlər), tatarlar və türklər (XVI-XIX əsrlər), qaqauzlar (XVIII-XX əsrlər), inqilabdan əvvəlki Rusiya və SSRİ-nin türk xalqları, türklər (XIX-XX əsrlər).

Ukrayna xalqı Böyük Çöllə sərhəddə formalaşmışdır. Hunlar, avarlar, bulqarlar, xəzərlər, peçeneqlər, polovtsiyalılar Ukraynanın etnik formasiyasında və dilinin lüğət tərkibində dərin iz buraxmışdır. Sözügedən dövrdə xəzərlərin təsiri o yerə çatır ki, ilk Kiyev knyazları "*xaqan" ("хакан")* titulu daşımağa başlayırlar. Bəzi tarixçilər *"kazak" ("козак")* sözünün xəzərlərdən gəldiyini qeyd-şərtsiz təsbit edirlər.

Peçeneq və Polovts dilləri Qədim Kiyev dövrünün Ukrayna dialektlərinə müəyyən dərəcədə təsir göstərmişdir. Peçeneqin birbaşa törəməsi qaqauz dilidir (Odessa vilayətində və başqa yerlərdə). Polovts dili Krım bölgəsinin qıpçaq dillərinin – Krım-tatar, karaim və ya kəraim dillərinin (xəzər substratının qarışığı ilə, qıpçaq və urum (Rum substratı ilə)) əsasını təşkil etmişdir. "Keçmiş İllərin Nağılı", "Kiyev salnaməsi", "Qalisiya-Volın salnaməsi", "İqorun yürüşü haqqında nağıl" kimi bədii nümunələrdən və müqayisəli tarixi araşdırmalardan əldə edilən məlumatlar nəticəsində peçeneq və polovts dillərindən keçmiş təxminən 1500 ümumi söz və xüsusi adlar təsbit edilmişdir [3].

Tatar kazakları XIV-XV əsrlərdə parçalanmaqda olan Kiyev Rusunun ruhdan düşmüş əhalisinə böyük təsir göstərmişdir. Çöldəki slavyan qaçaqları hər şeydə tatar kazaklarını təqlid etməyə çalışırdılar. Onların paltarlarını, silahlarını və ən əsası təşkilati formasiyalarını mənimsəyirdilər. Ən səthi linqvistik təhlil belə bunu sübut edir.

Zaporojian Sich ("Запорізька Січ") *Koş ("Кош")* adlanırdı. *"Koş"* tatar sözü olub, "lager", "düşərgə" mənasını verir. "*Yesaul" ("Есаул")* kazakların ən yüksək rütbələrindən biridir, tatar dilində "köməkçi", "sərəncamların icraçısı" deməkdir. Yesaul rütbəsi atamandan dərhal sonra gəlirdi. "*Ataman" ("Атаман")* – tatar dilində "rəis", "başçı" deməkdir. Kazakların yaşadığı "*kuren" ("курень")* də tatar sözü olub, "üzük" deməkdir. Keçmiş zamanlarda dincəlmək üçün dayanan köçərilər arabalarını ətrafa yerləşdirirdilər. Yeri gəlmişkən, Çingiz xanın köçəri imperiyasında ən kiçik sosial vahid kuren adlanırdı [4].

Ukrayna dilində daha bir neçə türk mənşəli sözə nəzər salaq: *кош, курень, есаул, атаман, майдан, баштан, карман, баран, курдюк, кавун, гарбуз, диван, кылым, караван, карман, козак, ватага, сарай, чардак, базар, харч, башлик, калита, бариш, бугай, карий [8]*.

Türk mənşəli sözlər daha çox XV-XVIII əsrlərdə kazakların dövründə Krım xanlığı və Türkiyə ilə müxtəlif sahələrdə qurulan əlaqələr nəticəsində alınmışdır, məsələn, maldarlıqla bağlı: *чабан, отара, табун, аркан, торба, кабан, лоша, буланий, чалий, гайда;* çöl həyatına aid: *байрак, комиш, лиман, туман, беркут, сарана, бакай, гарба, курінь;* bağçılıq sahəsində: *баштан, гарбуз, кавун, тютюн;* hərb və orduya dair: *кіш, табір, осавул, бунчук, чайка, со(га)йдак; geyimlə bağlı: габа, кунтуш, кобеняк, шаровары, штани, очкур, сап'ян, чоботи, постоли, тасьма, серпанок;* ticarət, sənaye, gündəlik həyata dair: *чумак, аршин, могорич, майдан, чавун, казан, килим, тапчан, локша (локшина), кав'яр, кава, кобза, люлька, гайдамака, харциз, канчук, кайдани, чума;* həmçinin, bir sıra frazeologizmlər, məsələn, *калька "батьки"* (müqayisədə türkcə, *ebevèyn – eb "батько"* ikilisi) [5].

Çöl Ukraynasının toponimikasında çoxlu türk mənşəli sözlərə rast gəlinir *(Кременчуг, Ингул, Изюм, Самара).* Türk mənşəli sözlər, adətən, sait harmoniyası, sözün əvvəlində samit qrupunun olmaması və əksər hallarda son vurğu ilə səciyyələnir. Ukrayna dilinin fonetik inkişafına, xüsusən də hecasız sait ahənginin təzahürlərinə türk təsirinin olması ehtimalını istisna etmək olmaz. Məsələn, tam harmoniyada ən qədim, *morzъ* sözündə, daha sonra vurğulanan a-dan əvvəl *o > a* yerdəyişməsində, məsələn, *горазд* sözünün *гаразд* kimi; *кожух* sözünün *кужух* kimi tələffüzünü və s. misal göstərmək olar.

Türk dillərindən alınma sözlər, ilk növbədə, kazak və çumakların həyat tərzinə aiddir, məsələn: *товариш, джура, кіш, кочувати, гашник, кисет, тютюн, тарань, чабак, шатро.* Çoxtərəfli əlaqələr sayəsində təsərrüfat adları, bitki, heyvan adları, alətlər, mallar və s. ilə bağlı müxtəlif adlar ortaya çıxır. Məsələn, *саман, отара, Ґирлиґа, гарба, кишмиш, гарбуз, аїр, бузівок, барабан, кармазин, басма, тасьма, сап'ян, атлас, парча, куманець, терлик, килим, копил, буран.*

Ukrayna dilində şəxsi adlar da nəzərəçarpacaq dərəcədə təsirlənənlər sırasındadır. XVII-XVIII əsrlərin reyestrlərinə əsasən, türk mənşəli bir çox Ukrayna soyadlarını qeyd etmək olar: *Балабан, Мурза, Кочубей, Кутлубей, Шингерій.* Həmçinin, bir çox tipik Ukrayna soyadlarının türk mənşəli şəkilçi olan "*enko"*nun *("енко")* köməyi ilə formalaşdığını da qeyd edə bilərik.

Oxşar mənzərə Cənubi Ukraynanın toponimikasında da müşahidə olunur. Burada çox sayda Ukrayna xüsusi adları türk mənşəlidir: *Баштанка, Інгул, Каланчак, Комишуваха.* Belə ki, Qara dəniz və Azov bölgələrindəki yaşayış areallarının, irili-xırdalı çayların və digər su obyektlərinin adları geniş yayılmışdır. Çoxlu sayda türkdilli tayfalar uzun tarixi dövr ərzində müvafiq ərazilərdə yaşamışlar. Məsələn, türk mənşəli böyük çaylardan adlarını çəkə bilərik: *Тилігул, Чичиклія, Бакшала, Висунь, Громоклія, Саксагань, Самара, Кальміус, Айдар.* Bir qayda olaraq, türk mənşəli hidronimlər apelyativ adlara əsaslanır, məsələn: *Громоклія – Аргамакли* (türkcə, *аргамак "Bask atı"), Чичиклія* (türkcə, *чічак "çiçək") [7].*

Türklərin, Krım tatarlarının və digər türk etnik qruplarının həyatını əks etdirən türk mənşəli sözlər də birbaşa keçmişdir, məsələn: *хан, султан, візир, диван, чалма, калим, мечеть, намаз, ясир, гарем.* Qlobal Ukrayna-türk əlaqələri fonunda Cənubi Ukraynada Krım-tatar və noqay dilləri ilə, Kamyanets-Podolsk, Lvov, Lutsk, Stanislav (indiki İvano-Frankovsk) qıpçaq dili ilə, Mogilyov-Podolsk və qıpçaqdillilərin mövcud olduğu digər yerlərdə, Lutsk, Stanislav və Qaliçdə karaim dili, 1778-1779-cu illərdə Krımdan urumlar köçürüldükdən sonra Azov dənizi çərçivəsində urum dili, Bessarabiyada qaqauz dili ilə yerli dil əlaqələri inkişaf etmişdir. Yerli dil əlaqələrində qarşılıqlı təsir təkrarlanmayan lüğətə alınma sözlərin keçməsi ilə məhdudlaşmır, əksərən, bütün leksik təbəqəni və hətta bütövlükdə dil sistemini əhatə edir.

Müasir Ukraynada türkdilli əhalinin – Krım tatarlarının və krımçakların (Krım), urumların (Azov bölgəsi), karaimlərin (Qaliç), qaqauzların (Odessa vilayəti) məskunlaşması səbəbindən, Ukrayna-Türk əlaqələri bu gün də davam edir. Ukraynadan kənarda Ukrayna-Türk dili əlaqələrində müəyyən spesifiklik müşahidə olunur, burada Ukrayna dili təcrid vəziyyətindədir: Qazaxıstan, Qaraçay bölgəsi, Balkariya, Kumıkiya, Tatarıstan, Başqırdıstan, Altay və s. Bu ərazilərdə o, Ukrayna-Rus-Türk üçdilliliyinin və ya müəyyən çoxdilliliyin tərkib hissələrindən birini təşkil edir. Bu ərazilərdə yaşayanlar, adətən, ən azı üç dil bilirlər. Xüsusilə, slavyan qrupu əsasən rus dili ilə təmsil olunur [1].

Ukrayna dilindəki türk mənşəli sözləri 12 semantik bölgüdə qruplaşdırmaq olar:

- Təbiət, minerallar, bitkilər, heyvanlar: *алмаз, алича, кавун, лелека, гарбуз, шакал, борсук, ізюм.*
- Ev təsərrüfatı, məişət həyatı: *килим, баштан, мангал, сундук, дарах, бахча.*
- Sənətkarlıq, ticarət, pul, ölçü-mizan: *чабан, килимник, каган, візир, терези, гак.*
- Tikinti, binalar və qurğular: *юрта, караван-сарай, мечеть, мінарет.*
- Geyim: *башмак, кафтан, паранджа, тулуб, чадра, шаровари.*
- Yeməklər, içkilər: *айран, чурек, лаваш, бешбармак, кумис.*

- Oyunlar, musiqi alətləri: *зурна, дутар, саз.*
- Bədən, dərmanlar: *кадик, ясак, башибузук.*
- Fərd, cəmiyyət, inanc, xalq: *Аллах, байрам, імам, мурза, паша, ватага.*
- İnzibati-məhkəmə işi: *шаріат, каторга, караул, хаджі.*
- Hərb işi: *мішень, ватаг, чата, отаман, козак.*
- Fərqli mənalar: *тютюн, майдан, ашуг, сабантуй [6]*.

Türk mənşəli sözlər Ukrayna xalq yaradıcılığının tarixi nəğmə və duma kimi janrlarında xüsusilə aydın görünür. Alimlər yalnız Ukrayna milli mədəniyyətinə xas olan dumaların meydana çıxmasını kazaklarla əlaqələndirirlər. Kazakların fateh türklər və tatarlarla mübarizəsi, türk əsirliyində olan əsirlərin həyatı, onların qalalarda ağır həyatı, kazakların dəniz yürüşləri – bütün bu hadisələr Ukrayna dumalarının motivlərini təşkil edirdi.

Ukrayna dilində türk mənşəli sözlərə ukraynalı müəlliflərin bir çox ədəbi əsərlərində, xüsusən də "İqorun yürüşü haqqında nağıl"da ("Слово про похід Ігорів") rast gəlinir. Bura tatar istilası zamanı (XIII-XIV əsrlər) Ukrayna dilinin lüğət tərkibinə daxil olmuş türk mənşəli sözlər daxildir. Sonralar T. Şevçenkonun, İ.Neçuy-Levitskinin yaradıcılığında, M. Kotsiubinskinin Krım hekayələri silsiləsində, Lesya Ukrainkanın şeirlərində rast gəlinir. XX əsrin ikinci yarısında yazıçılar tarixi mövzulara müraciət edirlər, buna görə də onların əsərlərində knyazlıq və kazak dövrləri əks olunur, həmçinin ukraynalıların türkdilli əhali ilə qarşılıqlı əlaqəsi də izlənilirdi [2].

Müasir Ukrayna dilində 4000-ə yaxın türk mənşəli sözün olduğu güman edilir ki, onların yarısı ümumişləkdir, qalanları isə tarixizm, dialektizm və ekzotizmləri özündə təmsil edir. Türk mənşəli sözlərin Ukrayna dilinə assimilyasiyası prosesində bəzi hallarda alınma sözlərdə mənbə dillə fonetik və semantik eynilik və ya oxşarlıq saxlanılmış, digər hallarda semantika transformasiya edilmədən xarici formada morfoloji dəyişikliklər baş vermiş, yaxud morfologiyada dəyişiklik edilmədən semantik yerdəyişmələr olmuşdur. Bütün bunlar bir dilin elementlərinin digəri tərəfindən mənimsənilməsi qanunauyğunluqlarına müvafiqdir.

Türk mənşəli sözlər Ukrayna dilinə, bir qayda olaraq, şifahi danışıq vasitəsi ilə daxil olmuşdur və buna görə də hazırda xarici dil elementi kimi qəbul edilmir.

Hazırda Ukrayna-Türk dünyası əlaqələri kontekstində dövlət səviyyəsində təhsil və akademik sferalarda tərəfdaşlıq mövcuddur. Ukrayna universitetləri türkdilli müəllimləri ölkəyə dəvət edir, Ukraynada olduqca populyar olan türk dili kurslarına kifayət qədər çox rast gəlinir. Bütün bunlar ukraynalıların türk dilinə böyük maraq bəslədiyini göstərir.

Abstract

The main objective of the article is to generalize, systematize and reveal the reasons and methods of penetration and assimilation of Turkic languages into the Ukrainian language. Lexical examples of direct, indirect and calqued borrowings are given. Examples from different spheres of life are given, as well as borrowings in onomastics, which occurred as a result of close interaction of the Slavic and Turkic population. Some historical and cultural monuments are

mentioned, such as “The Tale of Igor’s Campaign”, “The Tale of Bygone Years”, “The Kiev Chronicle”. A lexical parallel is drawn between the languages of the peoples living on the territory of modern Ukraine. In conclusion, it can be said that the process of language transfers, associations and interpenetrations is still a living and ongoing process.

Keywords: Turkic, origin, loanword, Slavic-Turkic, language contact.

Ədəbiyyat siyahısı

1. Beletsky, A.A. (2012). Tasks of further comparative historical study of languages. Selected works. Kyiv, 121–150.
2. Garkavets, O.M. (2007). Ukrainian-Turkic language contacts Ukrainian language: encyclopedia. Kyiv, 774–775.
3. Titarenko, V. M. (2007). Vocabulary of foreign origin in the northern Ukrainian memos of the 16th – 17th centuries. Zhytomyr (manuscript).
4. Чолакова А.Д. (2009). «Функционирование тюркизмов в украинском языке». Харьков, 40 с.
5. Гаркавець, О.М. (2000). Тюркізм // Українська мова: Енциклопедія. Киев, Українська енциклопедія.
6. «Етимологічний словник української мови», (2001). Українська енциклопедія, Київ.
7. Мельничук О.С. (2012). «Етимологічний словник української мови». Київ: Наукова думка,. 568 с.
8. https://chisto-russkii.livejournal.com/3332.html

TÜRK DİLLƏRİNDƏ FUNKSİONAL SİNTAKSİS VƏ DİLİN KATEQORİYALARI (ASPEKTUALLIQ VƏ MODALLIQ)

Dilbər Camali
AMEA Nəsimi adına Dilçilik İnstitutu
böyük elmi işçisi
dilber.mehdiyeva@gmail.com

Türk dillərinin tədqiqində sintaksis məsələləri daim diqqət mərkəzində olmuşdur. Bu sahədə ənənəvi sintaksis yanaşmaları ilə yanaşı, son onilliklərdə funksional sintaksis konsepsiyası da geniş yayılmış və dilin quruluşu ilə yanaşı onun funksional imkanlarını da nəzərə almağa başlamışdır. Dilin kateqoriyalarından olan aspektuallıq və modallıq isə semantik və kommunikativ funksiyaları ilə sintaktik quruluşlara təsir göstərən mühüm anlayışlardır. Bu yazıda Türk dillərində funksional sintaksis anlayışı, aspektuallıq və modallıq kateqoriyalarının təzahür formaları, onların dil strukturuna və ünsiyyətə təsiri müzakirə ediləcəkdir.

1. Funksional sintaksis: məzmun və metod

Funksional sintaksis, ənənəvi sintaktik strukturların funksional-semantik aspektlərini nəzərə alan bir yanaşmadır. Bu istiqamət, struktur elementlərinin yalnız quruluş baxımından deyil, kommunikativ funksiyalarına görə də təhlil

edilməsini nəzərdə tutur. Belə ki, sintaktik vahidlər – cümlələr, söz birləşmələri və cümlə üzvləri – məna yükü, funksional rolu və kontekstdəki istifadəsinə görə analiz edilir [Çobanov, 2002].

Türk dillərində funksional sintaksisin tətbiqi, xüsusilə müxtəlif cümlə tiplərinin və onların informativ-struktur xüsusiyyətlərinin araşdırılması zamanı aktual olur. Məsələn, xəbər cümlələri ilə yanaşı sual, əmr, arzu və şərt cümlələrinin də semantik-praqmatik baxımdan fərqlənməsi sintaktik quruluşların funksionallığını ortaya qoyur [Erzhanov, 1998].

2. Dilin kateqoriyaları: aspektuallıq və modallıq

Aspektuallıq və modallıq dilin iki əsas kateqoriyası olaraq, hadisələrin zamanla əlaqəsi və danışanın münasibətini ifadə etmək üçün istifadə olunur. **Aspektuallıq**, hərəkətin zamana görə gedişini – tamamlanmışlıq, davamlılıq, vərdişilik və s. – ifadə edən kateqoriyadır. Türk dillərində aspektuallıq daha çox fel şəkilçiləri, köməkçi fellər və ya leksik vasitələrlə ifadə olunur. Məsələn, Azərbaycan dilində "-mış", "-ır", "-maqda" şəkilçiləri hadisənin tamamlanma və ya davam etmə səciyyəsini göstərir [Əliyev, 1999]. Qazax və qırğız dillərində də bu qəbildən aspekt göstəricilər mövcuddur: *barat jatır* (getməkdədir), *kelip tur* (gəlib durur) kimi konstruksiyalar [Iskakov, 1980]. **Modallıq** isə danışanın hadisəyə münasibətini – istək, imkan, zərurət, ehtimal və s. – bildirən kateqoriyadır. Türk dillərində modallıq həm qrammatik (modal köməkçi fellər və şəkilçilər), həm də leksik vasitələrlə (modal sözlər, zərflər və s.) ifadə olunur. Məsələn, *gərək, lazımdır, ola bilər* ifadələri Azərbaycan dilində modal münasibət bildirən vasitələrdir [Əsgərov, 2001].

3. Aspektuallıq və modallığın funksional-sintaktik təzahürləri

Aspektuallıq və modallıq yalnız leksik və qrammatik kateqoriyalarla deyil, sintaktik quruluşların da təşkili ilə sıx bağlıdır. Bu kateqoriyalar cümlənin informasiya strukturu, tematik-rəmatik bölgüsü və ümumi ünsiyyət məqsədinə təsir göstərir. Məsələn, "O, kitab oxuyur" cümləsi davam edən bir hərəkəti bildirərək aspektual xarakter daşıyır. Bu cümlə "O, kitab oxumuşdu" formasında isə həm aspekt (tamamlanmışlıq) həm də zaman (keçmiş) baxımından dəyişir. Cümlənin sintaktik forması semantik kateqoriyalara uyğun tənzimlənir. Modallıq baxımından isə "O, kitab oxumalıdır" cümləsində zərurət ifadə olunur və bu da modal münasibətin sintaktik strukturda əks olunmasıdır [Göksel & Kerslake, 2005].

4. Müxtəlif Türk dillərində müqayisə

Aspektuallıq və modallıq kateqoriyalarının müxtəlif Türk dillərində təzahürü onların sintaktik və morfoloji sistemlərinin qarşılaşdırılması üçün geniş imkanlar yaradır. Qırğız, özbək, başqırd və türk dillərindəki bu kateqoriyaların formaları və istifadəsi arasında həm ortaq, həm də fərqli cəhətlər mövcuddur. Məsələn, Türkiyə türkcəsində "-mekte/-mekteydi" formasında davamlılıq aspekti ifadə olunduğu halda, qırğız dilində bu funksiya "–jatır" və "–tur" köməkçi felləri ilə yerinə yetirilir [Johanson, 2000].

Nəticə. Türk dillərində funksional sintaksis dil vahidlərinin yalnız formal deyil, eyni zamanda semantik və praqmatik aspektlərini də araşdırmağı zəruri edir. Bu baxımdan aspektuallıq və modallıq kimi dil kateqoriyalarının sintaktik strukturlara təsiri təkcə cümlə quruluşunda deyil, eyni zamanda ünsiyyət

strategiyalarında da özünü göstərir. Müxtəlif Türk dilləri arasında bu kateqoriyaların təzahür formalarının müqayisəli şəkildə tədqiqi isə ümumtürk sintaktik və semantik sisteminin əsas xüsusiyyətlərini ortaya qoymağa xidmət edir.

Abstract

This paper explores the functional syntax of Turkic languages with a particular focus on the grammatical categories of aspectuality and modality. Functional syntax, which examines sentence structures in relation to their communicative and semantic functions, offers a comprehensive framework for analyzing how Turkic languages structure meaning beyond traditional grammatical analysis. The study emphasizes the interplay between syntactic constructions and semantic categories, highlighting how aspectual forms (such as completed, ongoing, and habitual actions) and modal expressions (necessity, possibility, volition) shape sentence structure and discourse function. Drawing from examples in Azerbaijani, Turkish, Kazakh, and Kyrgyz, the paper reveals cross-linguistic similarities and differences in how these categories are realized. The findings demonstrate that both aspectuality and modality are deeply integrated into the syntactic system, influencing not only verb forms but also the overall communicative intent of utterances. The paper contributes to a deeper understanding of Turkic syntactic typology within the framework of functional grammar.

Keywords: functional syntax, Turkic languages, aspectuality, modality, syntactic structure, semantics, pragmatic/

Ədəbiyyat

1. Çobanov, B. (2002). Türk dillerinde söz dizimi. Ankara: TDK Yayınları.

2. Erzhanov, K. (1998). Qazax tilindegi soylem quramı. Almatı: Qazaq Universiteti.

3. Əliyev, M. (1999). Müasir Azərbaycan dilində aspekt kateqoriyası. Bakı: Elm.

4. Əsgərov, H. (2001). Azərbaycan dilində modallıq. Bakı: Maarif.

5. Iskakov, A. (1980). Grammatika sovremennogo kazakhskogo yazyka. Alma-Ata: Nauka.

6. Johanson, L. (2000). Turkic: Typology of languages. Berlin: Mouton de Gruyter.

7. Göksel, A., & Kerslake, C. (2005). Turkish: A Comprehensive Grammar. London: Routledge.

QIPÇAQ DİLİNDƏ FEİLLƏRİN SİNONİMLİK XÜSUSİYYƏTLƏRİ
("Codex Cumanicus"un materialları əsasında)

İmanyar Quliyev
filologiya üzrə fəlsəfə doktoru
AMEA Nəsimi adına Dilçilik İnstitutu, Bakı

Giriş

XIII-XIV əsrlərdə yazıya alan qıpçaqların qiymətli aibdəsi "Codex Cumanicus"un ("Kodeks") dilindəki feillərin sinonimik cərgələrində iki əsas məqam nəzərə çarpır: Birincisi, sinonimik cərgədə tayfa və ya dialekt sözlərini görmək mümkündür. Ancaq bu sözlər "Kodeks"in dilini zənginləşdirmək məqsədi ilə verilmir, daha çox qeyri-qıpçaq əsilli tərtibçilərin seçimi, yəni bir mənada lüğətlərin spesifikası şəklində özünü göstərir. İkincisi, sinonimik cərgədə alınma və ya ortaq feillər yaxından iştirak edir. Bu da nəzərə alınaraq aşağıda ortaq feillərin izahına geniş yer ayrılmışdır. Düzdür, türk dilinin ən milli nitq hissələrindən birincisi məhz feil hesab olunur. Amma burada işlənən bəzi ortaq feilləri türk dilinin lüğət materialları ilə izah etmək olmur.

Sinonimik cərgədə alınma sözlərin özünə yer tapması həm xalqların təfəkkür və dünyagörüşünün ortaq xüsusiyyətlər ehtiva etməsinin, həm də eyni məfhuma müxtəlif yöndən və çalardan baxışın bir nəticəsidir. "Kodeks"də feillərin sinonimik cərgəsi o qədər zəngindir ki, bunu da vahid bir ədəbi dilin, standart yazı dilinin olmaması, informatorların tayfa mənsubiyyəti ilə, həmçinin bölgənin multietnik və multukultural vəziyyəti ilə izah etmək olar. Bütün bunları nəzərə alaraq "Kodeks"dəki nümunələri 3 müddəada ümumləşdirdik:

3. **Əsasən xalis türk feillərindən ibarət sinonimik cərgə**: *Biyən-* (14r)[3] – *sövin-*: *kaçan sən sövinsəŋ anıŋ üçün* "sən onun üçün sevinəndə" (62r); *bulqaş-* (37r) – *karıştur-* "qarışdırmaq" (17v); *çövür-* (29v) – *teyir-* "çevirmək" *çarx teyirmək* "çarx çevirmək, hərləmək" (29v); *ınan-* (7r) – *ışan-* (8r) "güvənmək, inanmaq"; *katulan – küçən* "çalışmaq, məşğul olmaq, çalışıb çabalamaq" (59r); *ula-* (57v) – *yılbıra* (80v) "əlavə etmək, birləşdirmək"; *ıd-* (4v) / *ıy-* (17r) – *uzat-* (7v) "göndərmək". Z.Teymurlu dialektologiyaya aid dərs vəsaitində Şəki, Zaqatala şivələrində "itələmək" mənasında "idmax // itmax" sözlərinin işləndiyini qeyd edərək *itmək* sözünün kökündə "toqquşmaq, əliylə vurub geriyə atmaq, uzaqlaşdırmaq, əllə uzaqlaşdırmaq" mənalarını diqqətə çatdırır ki, bunun da "bir şeyi uzaqlaşdırmaq, uzağa göndərmək" mənasında *ıdmaq* sözü ilə kəsişdiyini demək mümkündür [10, s.106].

Şiş- (58r) – *köbö-* (58r) "qabarmaq, şişmək"; *tapta-* − *bas-* (57v); *Toŋ-* − *üşü-* (82v); "donmaq, üşümək"; *kop-* (26v) – *tur-* (26v) "ayağa qalxmaq"; *törələ-* (16r) – *yarqula-* (16r) "hökm vermək, ittiham etmək"; *tüş- – yıkıl-* (6r) "yıxılmaq"; *uyal-* (29r), *emən-* (82v/2) // *imən-* (29r/21), *saarla-:* (82v/3) "utanmaq, xəcalət çəkmək". "Kodeks"də *emən-* və *saarla-* feilləri "utanmaq, xəcalət çəkmək" mənasında sinonim kimi verilmişdir. *Uyal-* sözü də "utanmaq" *(Uyalursən bir kişigə kənsi yazukın aytmağa "Öz günahını bir insana etiraf etməyə utanırsan!"* (63r/1);

[3] Nümunələr M.Argunşah və Galip Günerin "Codex Cumanicus" kitabından (Ankara: Türk dili Kurumu Yayınları, 2022, 880 s.) götürülmüşdür.

Uyalğıl: "Utan!" (lat. *Verecunde*)), "çəkinmək" (*Ança mı köp sövməkdən esirdiŋ, // kim xaçka minməgə uyalmadıŋ* "Çox sevməkdən o qədərmi məst oldun // ki çarmıxa çıxmağa çəkinmədin" (75r/7-8)) mənalarında işlənmişdir.

Yı- (8v); *− yomdar-* (8v) "yığmaq"; *sız- − iri-* "sızmaq ərimək, əriyib axmaq" (70v/10); *törə- – tuv-* (71v) "törəmək, doğmaq"; *balkı- − kızar-*: "qızarmaq, parıldamaq" (71v, 82r). 81v-də *öldi, kırıldı, xovatdı* sözləri "(hamısı) birdir" qeydi ilə alt-alta verilmişdir: "ölmək, qırılmaq, tələf olmaq"; *xovat- – yoqoy-:* "incəlmək, kiçilmək" (81v); *yaşun- − kizlən-:* "gizlənmək" (65v): *Ave, səndə kim yaşındı baldan tatlı Teŋri sözi* (70r); *Yaşınmaq* feili "yad kişilərə görünməmək üçün üzünü örtmək, üzünü bir şeylə örtüb gizlətmək" mənasında Azərbaycan dilində də var. Səhifə nömrələrindən də göründüyü kimi (eyni səhifə nömrəsi ilə verilən sinonimik cərgənin feilləri orijinalda da eyni səhifə və sətirdə verilmişdir) sinonimik cərgələrin əksər komponentləri tərtibçi tərəfindən yanaşı verilmişdir. Bu, lüğətlərin spesifikasından irəli gələn bir xüsusiyyətdir, əsas sözü hərtərəfli izah etmək üçün sinonimlərini göstərmək lazım gəlir.

4. **Bir sıra sinonimik cərgələrin bir, bəzən hər iki komponentini türk-monqol dillərində işlənən ortaq feillər təşkil edir.** Sinonim sözlərin bir qismi dilin ifadə imkzanlarının zənginliyindən irəli gəlir və fərqli mənaları, üslubları və ya kontekstləri ifadə etmək üçün istifadə olunur. Digər qismi isə dillərarası əlaqələrin nəticəsi olaraq meydana çıxır. Bu prosesdə fərqli və ya yaxın dillərin bir-birindən söz alması, mənimsəməsi nəticəsində sinonimik cərgə genişlənir.

""Kodeks"in spesifik xüsusiyyəti kimi məhz monqol istilasından sonra, ancaq monqol təsirinin hökm sürdüyü bir vaxtda və ən əsası da Qızıl Ordanın hakimiyyətindəki bölgədə yazılmasıdır. Ona görə də "Kodeks"də rast gəlinən bir çox monqol alınmaları Məmlük (Misir) qıpçaqcasına aid əsərlərdə özünü göstərmir" [5, s. 61]. Demək, monqol mənşəli sözlər "Kodeks"də iki əsas dövrün izlərini daşıyır: Birincisi, qıpçaqların Qara dəniz istiqamətinə köçlərə başlamasından əvvəl, ata yurdda gerçəkləşən türk-monqol dil əlaqələri dövrü. İkincisi, monqol istilaları ilə başlayan dil əlaqələri dövrü.

Abra- − karış- "qorumaq, müdafiə etmək". *Abra-* "qorumaq, müdafiə etmək" (10v), *abradum* "qorudum" [3, s.91]. "Kodeks"də bu söz sinonimi *karış-* feili ilə birlikdə verilmişdir. *Abra-* feili qıpçaq əsərlərindən yalnız "Kodeks"də işlənmişdir [11, s.1]. Şerbak bu sözü monqol mənşəli ortaq feillər sırasında göstərmişdir [9, s.18]. *Abra-* feili keçmiş Qızıl Orda bölgəsində və ya yaxın coğrafiyada yaşayan bəzi müasir türk dillərində bu mənalarda işlənir. Demək, bu feil monqol istilaları dövründə dilin lüğətinə gəlmiş və ya aktivləşmişdir: "xilas etmək, qurtarmaq" (karaim, tatar), "qorumaq" (yakut, çuvaş), "saxlamaq, qorumaq" (karaim, çuvaş) "bağışlamaq, rəhm etmək" (tuva, yakut) [8, s.59].

Alqışla- − öv- / ög- − ögünç ber- − maxta- (71r/7, 71r/14); *bildir-* "bildirmək, demək, xəbər vermək" (76r/6); *tuŋa-* "bildirmək, xəbər vermək, elan etmək" (58v). *Bildir-: bilinməgənni bildirdi* "bilinməzi xəbər verdi" (lat. *Nescitum,* 76r/6), *işl(ə)rini ayta bildin, apostol(l)ərgə bild(i)rdin* "xüsusiyyətlərini deyə bildin // Həvarilərə bildirdin" (71v/19-20). *Tuŋa-* "bildirmək, xəbər vermək, elan etmək" (lat. *Mando*, 58v) sözünə gəlincə, ESTY və EDT-də yer verilməyən bu feilə qıpçaq əsərlərindən yalnız "Kodeks"də rast gəlinir [11, s.284]. N.Poppeyə görə, "açıq şəklə salmaq, aşkar olmaq, açıq olmaq" mənasına gələn *tun-* feilindən törəmişdir

[7, s.339]. *Tuŋa-* feilinin *tuŋarmən* formasının latınca qarşılığı kimi verilən *mando* sözü "elan, əmr" mənasındadır, yəqin ki, *tuŋa- "rəsmi bir xəbəri bildirmək, elan etmək"* mənasındadır, elə həmin feildən düzələn *tuŋoul* (58v) isminin latınca qarşılığı *mandatum* da "elan, xəbər, əmr, tapşırıq" mənasına gəlir [4]. Dolayısilə əksəriyyət üçün aydın olan *bildir-* feili danışıq dilində, dini mətnlərdə işlənmiş, *tuŋa-* feili isə hakim dairənin – monqolların rəsmi hərəkətlərini, rəsmi mövqeyini ifadə etmişdir. MTS-də *tunqqaqla-* "bildirmək, elan etmək, hər kəsə söyləmək, açıqlamaq" [6, s.1299], "Monqolların gizli tarixi"ndə *tunqxaxu*, kalmık dilində *tuŋqa:ha,* ordosca *tuŋqa:-* şəklində *"*başqalarına vermək, bildirmək" mənlarında işlənir [2 s.86].

Ehtimal ki, Qızıl Orda dövründə orta monqol dilindən qıpçaq dilinə keçmiş və dar sahədə işlənmişdir. Çünki nə digər qıpçaq əsərlərində rast gəlinir, nə də türk dillərində işlənir. Eyni kökdən törəyən və quruluşuna görə *çapovul, qarovul* sözlərini xatırladan *tuŋovul* "elan etmə, bildirmə" sözünə də yalnız "Kodeks"də rast gəlinir.

5. Feillərin sinonimik cərgəsində bəzən komponentlərin biri tərkibi feil olur.

Büsrə- (70r) - *kabul et* (66r) "qəbul etmək, razı olmaq" *çın xan büsrəp səni sevdi* (70r); *Asrat- (72v) – amanat ber-* (24v) "əmanət vermək" *mannasın kimgə asrattı* (72v); *İnan-* (7r) *– yıqrar ber* "tanımaq, inanmaq, iqrar etmək"; *bütünlük et-* (58r) *– ant iç-* (66v) "and içmək" *ant içərmen* (66v); *Us et-:* (39r) – *yuvun-* (39r): yuyunmaq, duş qəbul etmək; Eyni vərəqdə "*vel* (və ya)" qeydi ilə sinonim kimi verilmişdir. Ehtimal ki, daha sonradan əlavə edilmişdir.

Nəticə

Qıpçaq dilində feillərin sinonimliyi "Kodeks Kumanikus" əsasında dərin semantik zənginlik və nüans fərqləri ilə seçilir. Bu sinonimlik dil daşıyıcılarının məfhumları təsviretmə və adlandırma xüsusiyyətlərini əks etdirməklə yanaşı, dilin tarixi inkişafını, tayfa və regional fərqliliklərini, həmçinin multietnik mühitin təsirini əks etdirir. Monqol istilalarının təsiri ilə dilə daxil olan *abra-*, *maxta-* kimi feillər tarixi və mədəni əlaqələrin qıpçaq leksik fondunda linqvistik izləridir. Əsərdə sinonimlər bəzən "eyni mənadadır" qeydi ilə təqdim edilir ki, bu da tərtibçinin sinonimləri bilərək seçdiyini, informatordan eşitdiyi izahları sıraladığını göstərir. Bununla yanaşı, dilə yeni gələn anlayışların ifadəsi zərurəti ilə meydana çıxan tərkibi feillər (*bütünlük et- – ant iç-* "and içmək" və s.) də sinonim cərgələri genişləndirir.

"Kodeks"də bəzi sinonim feillər "Kodeks"in səhifələrinə səpələnmişdir, bəziləri isə "ikisi birdir" və ya "eyni mənadadır" qeydi ilə təqdim olunur ki, bu ikinci də həm lüğətin spesifikası olaraq ortaya çıxır, həm də qıpçaqcanın standart yazılı dilinin olmaması ilə izah olunur. Nəticə etibarilə, "Kodeks"də feillərin sinonimliyi türk-monqol əlaqələrinin, regional və tayfa fərqlərinin, həmçinin tarixi-mədəni şəraitin təsirini nümayiş etdirir. Bu sinonimlik, həm dilin zəngin ifadə vasitələrinin olduğunu, həm də dilin təsirə məruz qaldığını göstərir.

Abstract

This article analyzes the synonymy of verbs reflected in the Codex Cumanicus, the lexical richness of the language, and the semantic nuances within a linguistic framework, considering the historical-cultural context. The diversity of

synonymous verbs and the breadth of synonymic rows are emphasized through various examples. The semantic nuances, stylistic differences, and contextual usage of verbs are presented as key elements that enhance the expressive power of the language. For instance, a nuanced difference in intensity is observed between verbs such as toŋ- (to freeze) and üşü- (to feel cold).

The primary source for the preparation of this article is the Kipchak lexicon of the Codex Cumanicus. While identifying the semantic nuances of words, their Latin equivalents' meanings were primarily referenced, alongside historical and etymological dictionaries and studies on Turkic-Mongolic language relations. The research employs comparative-historical methodology, lexical-semantic analysis, structural approach, and language-culture analysis. This study not only uncovers the richness of synonymous verbs in the Kipchak language but also highlights the historical development of the language and the influences of a multicultural environment.

Keywords: *verbs, synonymy, Codex Cumanicus, Kipchak language, multicultural environment*

Ədəbiyyat

1. Argunşah, M., Güner, G. Codex Cumanicus. Ankara: Türk Dil Kurumu Yayınları, 2022, 880 s.

2. Çiçek, S.E. Kıpçak Sözlüklerindeki Moğolca Unsurlar. Türk Dili Araştırmaları Yıllığı-Belleten, 2015, 63/1: 49-98.

3. Guliyev, İ. Codex Cumanicus'ta Alıntı Kelimeler // Тюркология, № 1, 2018, s. 89-102.

4. https://latin-dictionary.net/search/latin/mandatum

5. Quliyev, İ. Codex Cumanicus və kuman dilinin leksikası. Bakı: Elm və Təhsil, 2023, 208 s.

6. Lessing, F.D. Moğolca-Türkçe Sözlük / F.D.Lessing, çev. Günay Karaagaç. − Ankara: Türk Dil Kurumu, − c. 2. − 2003. − 835 s.

7. Poppe, N. Die Mongolischen Lehnwörter im Komanischen // Németh Armağanı, – 1962. – s. 331-340.

8. Севортян, Э.В. Этимологический словарь тюркских языков: Общетюркские и межтюркские основы на гласные / Э.В. Севортян. − Москва: Наука, − 1974. − 768 с.

9. Şçerbak, A. Türk-Moğol Dil İlişkileri (Dillerin Birbirinden Etkilenme və Birbirlerine Karışma Sorunu Üzerine) // çev. L. Babatürk. − Bişkek: Sosyal Bilimler Dergisi, − 2011. Sayı 25, − s. 9-32.

10.Teymurlu, Z. Azərbaycan dilinin dialekt leksikası. Dərs vəsaiti. Bakı: Bakı Mühəndislik Universitetinin nəşri, 2020 122 s.

11.Toparlı, R., Vural, H., Karaatlı, R. Kıpçak Türkçesi Sözlüğü /. − Ankara: Öncü Basımevi, 2007, 338.

TÜRK DİLİNDƏ SAİT FONEMLƏR

Təranə Şükürlü
filologiya üzrə fəlsəfə doktoru,dosent
AMEA Nəsimi adına Dilçilik İnstitutu

Oğuz qrupu türk dilləri bir-birlərinə nə qədər yaxın olsalar da onların fonetik sistemində müəyyən fərqlər vardır. Türk dilinin fonetik quruluşu leksik və qrammatik quruluşla üzvi surətdə inkişaf edərək təkmilləşmiş, beləliklə, türk dilinə xas olan fonetik quruluş sabitləşmişdir. Oğuz qrupu türk dillərinin fonetik quruluşunun tədqiqi XX əsrin ortalarından etibarən türkolqların diqqət mərkəzində olmuşdur.Türk dili saitlər baxımından zəngin bir dildir. Bəzi dillərdə 6 sait fonem olduğu halda, türk dilində 8 saait fonem mövcuddur.

A.N.Kononov türk ədəbi dilində səkkiz sait fonemin olduğunu göstərir: *a,ı,o,u,e,i,ö,ü* [1.s.21]

M.Ergin türk ədəbi dilində səkkiz sait fonemin olduğunu qeyd edir: *a,ı,o,u,e,i,ö,ü* [2.s.20]

Türk dilində danışıq dilində açıq *e`* saitinin yanında bir də *e* ilə *i* arasında söylənən bir qapalı e saiti də mövcuddur. [2.s.38]

Türk əlifbasında ifadə olunan saitlərlə Azərbaycan dili saitləri arasındakı fərq budur ki, Azərbaycan dilində norma kimi *ə* saitinin işarəsi verildiyi halda türk dili əlifbasında bu saitin işarəsi yoxdur.

Türk dilində isə *ə* saitini ancaq şifahi danışıqda müşahidə etmək olur. Yazılı dildə norma sabitliyinin saxlanılması üçün *ə* saitinin işarəsindən istifadə olunmur: *anne* (annə-ana) *kardeş* (kardəş-qardaş)

İstanbul Türkcəsinə dialektlərdən keçən qapalı *e* saiti *geç, ver,et* sözlərindəki *e* ilə *i* arasında olan saitdir. Türk dilində bu qapalı *e* ya *i,* ya da açıq *e* şəklinə keçmişdir.

Türk dilində saitlər qalın və incə, açıq və qapalı, dodaqlanan və dodaqlanmayan olaraq qruplaşdırılır. [2.s.40]

Türk dilində qısa *a* saitinə vurğulu hecada və *l* samiti ilə yanaşı olan sözlərdə rast gəlirik: *kumda, hal*

O saiti türk ədəbi dilində sözün əvvəlində və birinci hecasında işlənir: *orta"orta".* Daha açıq və qapalı variantlarda olur: *oda "otaq", son"son".*

O saitinin qapalı variantlarına o hallarda rast gəlirik ki, ondan sonrakı hecada *u* saiti işlənsin: *komşu "qonşu", otuz "otuz".*

U saiti Türk dilində sözün bütün mövqelərində işlənir: *uzun"uzun", okul" məktəb", kuzu"quzu".*

İ saiti . Türk ədəbi dilində *n* samitinin qarşısında işlənir:*bin"min", insan"insan".*

Vurğusuz hecada da *i* saitinə rast gəlirik: *gibi"kimi", asker idi"əsgər idi".*

Ü saiti. Türk dilində *ü* saiti daha açıq və qapalı variantlarda olur. Qapalı variant qapalı hecada vurğulu halda, açıq variant isə açıq hecada vurğusuz hecada olur: *üç" üç", yüz"yüz", dördüncü "dördüncü".*

Ö saiti Türk dilində isə *ö* saiti isə yalnız sözün ilk hecasında işlənir: *göz"göz", köpek"it".* Sonrakı hecalarda isə işlənmir.

E saiti Türk dilində *e* saiti açıq və qapalı variantlarda olur.Qapalı *e* fonemi rus dilindəki э saitinə yaxındır, ancaq ondan genişdir: *elma"alma", eski"köhne", gece"gece".*

Bəzən isə *e* saiti samitin təbiətindən asılı olaraq irəliyə doğru hərəkət edir ki, bu halda bu fonem, *i* saiti kimi qəbul olunur: *gi/ece "gecə".*

Açıq hecada və *n,h,t,v* samitləri qarşısında açıq *e* saiti xüsusi variant daşıyır: *deve "dəvə", çene"çənə", çete "partizan dəstəsi".*

Türk dilində uzun *e*: saiti müəyyən samitlərin düşməsi nəticəsində əmələ gəlir: *eer<er "yəhər".*

Türk dilində uzun sait fonem yoxdur. Bəzi səs düşmələri və birləşmələrində ortaya çıxan uzun saitlər keçicidirlər. Yalnız bəzi nidalarda və səs təqlidi sözlərdə uzun sait işlənə bilir.

Türk dilində 7 sait normal saitdir *I* saiti isə normadan qısadır. *I* saitinin Türk dilində yalnız normaldan qısa şəkli vardır.

Türk dilində burun saitləri yoxdur.

Sait səslərin ahəng üzrə sıralanmasında əsas prinsip dilarxası və dilönü saitlərin bir-birini izləməsindən ibarətdir.

Türk dilində də *a-a* və *a-ı* sırasının işlənməsi norma kimi sabitdir: *aktarmak, ağaç, anlama.*

Türk dilində də *ı-ı* saitlərinin sırası Azərbaycan dilindəki kimi daimidir: *çıkış, çıtırtı.*

Türk dilində sözün ikinci hecasında şəkilçilər üzrə *o* saiti norma kimi inkişaf etmədiyindən ikihecalı sözlərin tərkibində *o* saitinin ardıcıllıq üzrə işlənməsinə təsadüf edilmir. Yalnız türk dilində indiki zaman şəkilçisinin birvariantlı *–yor* forması mövcuddur ki, bu da ən yaxın heca tərkibi kimi üçüncü hecada işlənir: *alıyor, geliyor.*

Ədəbiyyat

1. А.Н.Кононов. Грамматика современного турецкого языка.
2. M.Ergin. Türk dil bilgisi. İstanbul, 1962.

Abstarct: As the network of research on Turkic languages expands, tendencies to use other structural language elements in addition to phonetic elements in their classification begin to emerge. The evolution, stabilization and standardization of Turkish language phonemes in this direction is not a matter of a thousand or two thousand years. Such standardization and refinement is a phenomenon that has passed through the filter of thousands of years.

Keywords: vowel, phoneme, language, vocalism, closed vowel, open vowel

AZƏRBAYCAN VƏ TÜRK AŞIQ ŞEİRİNDƏ TƏSƏVVÜF MƏNALI İFADƏLƏRİN METAFORİKLƏŞMƏSİ

Gülnarə Əliyeva
Bakı Slavyan Universiteti
Bakı

Türk ozan-aşıq sənəti öz kökləri və tarixi qaynaqları ilə çox-çox qədimlərə bağlanan türk etnomədəni yaddaşının ifadəsi baxımından müstəsna keyfiyyətlərə malikdir. Onu da deyək ki, türk folklorşünasları, etnoqraf və musiqişünasları Türk ozan-aşıq mədəniyyətinin mənşəyi,inkişafı və təkamülü ilə bağlı ciddi elmi-nəzəri mülahizələr irəli sürmüşlər.

Klassik ədəbiyyatdan, təsəvvüf-divan şeirindən gələn metaforaların əksəriyyəti aşıq şeirinin dilində mürəkkəb sözlər, izafətlər kimi çıxış edir və bunun səbəbləri aşağıdakılardır: "Əvvələn, bu kimi sözlərin sayəsində fikri qısa və yığcam şəkildə ifadə etmək, uzun təsvirlər əvəzinə az söz işlətmək mümkün olur [...]. İkincisi, bu sözlər danışanın obyektə münasibətini də əks etdirir. İsimlərin əvvəlinə gələn təyinlər öz təyinlənənləri ilə birləşərək bir leksik vahid yaradır ki, əvvəllər müəyyən məqsədlə işlənmiş bu təyin indi mürəkkəb sözün tərkibində əvvəlki mənasını az və ya çox dərəcədə saxlayır. Məhz obrazlılıq və yığcamlıq xüsusiyyətlərinə görə klassik sənətkarlar mürəkkəb söz şəklində olan metaforalardan geniş istifadə edirlər" [6, s.140].

Türk etnosunun metaforik konseptosferasının təsviri müəyyən prinsiplər əsasında belə qənaətə gəlirik: 1) Türk metaforik konseptosferasının nüvəsini fərdi konseptosferalar üçün səciyyəvi olan konseptlər təşkil edir; 2) metaforik konseptosferanın periferiyasını fərdi konseptlər yerləşir.Aşıq şeirində metaforik konseptosferanın bərpası və təhlili göstərir ki, poetik mətnin metaforik məkanının mərkəzində insan dayanır. Görkəmli folklorşünas M.H.Təhmasibin fikrincə,təsəvvüf anlamlarından və ifadələrindən aşıqlar sadəcə inversiya ilə istifadə etmişlər. "Sufi-hürufi terminologiyasından hətta Aşıq Ələsgər, Şəmkirli Aşıq Hüseyn kimi belə təriqət təsirindən uzaq olan görkəmli aşıqlarımız da heç fərqinə varmadan istifadə etmişlər" [11, s.364].

Aşıq şeirində daşlaşmış, qəlibləşmiş irfani-təsəvvüf metaforaları poetik obrazlılığın yaradılmasında fəal iştirak edir,bir üslubi vasitə kimi təzəliyini itirməmişdir. Buraya folklor metaforaları və metaforik epitetlər aiddir. Beləliklə, Azərbaycan aşıq şeir dilinin təhlili göstərir ki, metafora dünyaya poetik münasibəti ekspressiv ifadə vasitələrindən biridir, mürəkkəb müxtəlif planlı semantik struktur kimi çıxış edir.

Aşıq gözəlləmələrində ən işlək konseptual metaforalardan biri də "əttar dükanı" ifadəsidir. Qurbanidə yarın qoynu, gözəl, bihuşedici ətrinə görə ətir dükanına bənzədilir:

Qoynundu əttar dükanı,
Nə əcəb bu dada gəldim" [5, s.42].

Aşıq şeirində təsəvvüf diskursunun konseptual metaforaları arasında mortal (ölüm) metaforalar bir qrup təşkil edir ki, mənfi üslubi çalara malik olur. XII-XIX əsrlər aşıq şeirində, xüsusən vücudnamələrdə "ölüm" metaforasına geniş

rast gəlinir. "Ölüm" metaforası "ölüm-yuxu", "ölüm-zülmət", "ölüm-zindan", "ölüm-başqa ölkə", "ölüm-qapı" və s. paralellərə əsaslanır və mifoloji, dini təsəvvürlər ,folklor ilə bağlı olur.

Xəstə Qasım üçün " ölüm" "əcəl şərbətini içmək" deməkdir:

Xəstə Qasım əcəl şərbətini içdi / Bu əndək həyatı cövr ilə keçdi. Deyərlər,dünyadan adamsız köçdü / Bəs mənə yas saxlayanın necə olur? [7, s.79].

Burada "köçmək" feili metaforası da ölüm mənasındadır. "Təxt üstündən salmaq" deyimini də "ölüm" metaforası kimi qəbul etmək olar:

Nə müddətdi ölüm adlı / Qovur elə xata məni. [12, s.277].

Gör kimlərə tay olmuşam / Niyə qaçır ölüm məndən!? [12, s.299].

Qeyd olunmuş nümunələrdə "ölüm" metaforaları aşıq tərəfindən ən təbii halı ilə verilmiş və müəllif metaforanın bütün xüsusiyyətlərindən istifadə edərək,ölümü arzulanan bir nəsnəyə çevirməyə müvəffəq olmuşdur.

"Rəmzi-məcazi tutum çoxsaylı obraz və deyimlərlə yanaşı, hətta bəzi janrlara məxsus poetik mətnlərin bütöv struktur-semantik sistemində aparıcı mövqe əldə etmişdir. Belə deyilsə daha dəqiq olar ki, rəmzi-məcazi tutum əks etdirən qıfılbənd, müəmma, bağlama-deyişmə, vücudnamə, divani kimi aşıq şeiri şəkilləri məhz sufilikdən gələn fəlsəfi-estetik axarın təsiri altında tədrici təkamül prosesi keçirərək biçimlənmişdir" [6, s.161].

Aşıq şeirinin dil-üslub məkanında rəqəm metaforalarından istifadə olunduğunu görmək olar. "Azərbaycan dilində miqdar mənasını bildirən bir sıra saylar metaforik mənada işlədilir. Bunlardan ən geniş yayılanları üç, yeddi, doqquz, qırx metaforalarıdır" [1, s.152].

İncimirəm heç bir kəsdən, küsmüşəm / Taleyimin şes-caharı yoxumuş [9, s.244].

Qədim nərd oyununun rəqəm simvolikası - "şeş", "yek", "tale-qədər" metaforası kimi çıxış edir: Zərdən şeş istəyib, yek gətirəndə

Qovrulub bişməyin nə mənası var? [6, s.266].

Çahar atdım,şeş oynadım / Genə fələk uddu məni [6, s.11].

Təsəvvüf-divan ədəbiyyatından gələn metaforik formulların aşıq mətnlərində qəlibləşməsi, streotipləşməsi və ənənədən ənənəyə keçməsi də bu üzrədir. "Konkret mətn formulanı aktuallaşdırır,informasiyanı yenidən canlandırır,bir növ əvvəli məlum olan semantik qravitasiya mərkəzi yeni imkanlarını reallaşdırır. Söyləm-formula-söyləm-formula-söyləm sxemi belə bir vəziyyəti əks etdirir ki, nitq aktından alınan formula-yeni formula söyləmdən söyləmə (nitqdən nitqə) keçərək əsas poetik strukturanı yaradır" [8, s.239].

Təsəvvüf metaforalar aşıq şeirində poetik qəliblər-formullar səviyyəsində çıxış edir. Biz təsnifatımızda metaforaları hərəkət,əlamət,durum,predmet metaforaları kimi deyil, mürəkkəb konstruksiya kimi nəzərdən keçiririk,amma ismin metaforalaşması yolu ilə yaranmış əlamət metaforasını şərti olaraq fərqləndiririk. Məsələn, Ənənəvi təsəvvüf metaforalarının əksəriyyəti "zəncir", "yuva", "bağ", "dərya", "ev" kimi geniş işlənmə məkanına malik sözlərlə bağlıdır və onlar dayaq sözlər də adlandırmaq olar: mərifət bağı, könül bağı, şöhrət yuvası və s.

Əgər varın varsa səxavətli ol / Şöhrət yuvasında şeytan yatıbdı [6, s.169].

Qəlbin də mərfət bağını / Sən də becər, dərdin alım [6, s.164].

Aşıq şeirində "eşq bəhri" metaforasının "eşqin gölü" variantına da rast gəlirik.

Qəvvas olub girdim eşqin bəhrinə / Ümman dəryasından gətirdim sədəf [7, s.54].

"Dərya" nın invariantlarından biri də "dəniz" sözüdür ki,təsəvvüf aşıq şeirində o qədər də geniş işlənmir. "Dəniz", "dərya" obrazlarından "Tasavvufta ise, Allahın tecellilerinin, Rabbani açılımların, ilahi hakikatların bütün insanlara marifetler şeklinde, sel gibi devamlı aktığını belirtmek üzere kullanılır" [2, s.29].

Könül, sən ki,düşdün eşqin bəhrinə / Narın çalxan,narın silkin,narın üz [6, s.72].

Yaxud; *Məhəbbət bir dərya,keçə bilmərəm / Ayrılıq şərbətin içə bilmərəm* [5, s.89].

Ustad Aşıq Ələsgər metaforik epitetdən ("dərya dilim") və metaforik feildən məharətlə yararlanaraq,eşqin hiperbolik miqyasını ifadə etmişdir.

Dərya dilim dalğa vurdu,bulandı / Qərq olmaq istəyən ümmana gəlsin! [4, s.285].

Aşıqların və el şairlərinin yaradıcılığını səciyyələndirən əsas cəhətlərdən biri ənənəvi perifrastik metaforaların işlədilməsi üsuludur. Məsələn, bəzi saz-söz sənətkarları "can evi", "eşq dağı" işlədir, bununla da sözləri poetikləşdirir, obrazlaşdırırlar.Ümumilləşdirsək,belə qənaətə gəlmək olar ki,klassik Azərbaycan və türk aşıqlarının təsəvvüf diskursunda ritorik fiqurlar, məcazlar, sözün qüdrətini gücləndirmək, sözün mənasını qalıcılıq və təsirini artırmaq üçün istifadə edirdilər.

Abstract. The article examines the analysis of Sufi texts based on the material of Azerbaijani and Turkish ashug poetry. The role of metaphors in the works of the ashugs is noted, as well as Sufi semantic expressions in Azerbaijani and Turkish poetry. The work of the poets Gurbani, Khasta Gasim, M.Gasimli was taken on the basis of the analysis. According to Sufi scholars, Sufism is the result of a Muslim's spiritual quest. A Muslim who follows the path of Sufism strives to free himself from the material world and rise spiritually. The main analysis in the article is in Turkic poetry. It is shown that metaphor is one of the expressive means of poetic attitude to the world. The function of metaphors is given, which acts as a complex semantic structure with different language levels. Nowadays, the study of the cognitive properties of metaphor in the context of ashug poetry is both a linguistic and linguocultural problem. In metaphors, types of associations arise based on the association between words that have two separate semantic fields. The study of Sufi characteristics of metaphors in Turkish and Azerbaijani ashug poetry reveals the essence of the mechanism of metaphorical transference in the Turkic mind.

Keywords: poetry, ashugs, metaphors, concept, Turkic languages

Ədəbiyyat

1. Adilov M, Verdiyeva Z, Ağayeva F.Azərbaycan dilinin semasiologiyası. Bakı: Elm, 2019, 304 s.

2. Cebeci O. Metafor ve Şiir Dilinin Yapısal Özellikleri. İstanbul: İthaki Yay, 2013

3. Şamil Ə. Çıldırlı Aşıq İrfani (şeirləri, haqqındakı dastan-rəvayətlər). Bakı, "Elm və təhsil" nəşriyyatı, 2016, 152 s.

4. Ələsgər İ. Aşıq Ələsgər (Əsərləri, dastan-rəvayətlər, xatirlələr). Şərq-Qərb. Bakı, 1999, 578 s.

5. Kazımov Q. Qurbani və poetikası. Seçilmiş əsərləri. III cild. Bakı, 2008, 512 s.

6. Qasımlı M. Seçmə aşıq şeirləri antologiyası. Bakı, 2023, 360 s.

7. İbadi M,Qaraxanlı A.Xəstə Qasım. Bakı, "Nurlan", 2010, 232 s.

8. Nerimanoğlu K.V. Türk folklorıstığı Üzerine Düşünceler // Langua-Türkish Studies İnternational Periodical for the Language,Literature and History of Turkish of Turkic Volume 10/12 Summer 2015, p.879-914.

9. İsmayılov H.Göyçə aşıqları və el şairləri. III cild. Bakı, "Nurlan" nəşriyyatı, 2011, 584 s.

10.Qasımlı M., Allahmanlı M. Aşıq şeirinin poetik biçimləri və çeşidləri. Bakı: "Elm və təhsil", 2018, 220 s.

11.Məhəmmədhüseyn T.H. Azərbaycan xalq dastanları (orta əsrlər). Bakı: Elm, 1972, 397 s.

12.Qərbi azərbaycan aşıqları (poeziya antologiyası). Azərbaycan aşıqlar birliyi. Zərdabi nəşr. MMC nəşriyyatı. Bakı, 2023, 512 s.

TÜRK DİLLƏRİNDƏ KƏMİYYƏT KATEQORİYASININ ŞƏKİLÇI MORFEMLƏRLƏ REALLAŞMA ÜSULLARI

Pərvin Qəribova
Bakı Dövlət Universiteti
dissertant
garibovaparvin@gmail.com

Son dövrlərdə Azərbaycan dilçiliyində cəmliyin iki növü fərqləndirilir. Bunlardan biri "adi cəmlik növü", digəri isə "təxmini cəmlik növü" başlıqları adı altında nəzərdən keçirilir. Qeyd eləmək lazımdır ki, cəmliyin adi və təxmini növlərinin ayrılması özünü doğrultmur və bu mülahizə ilə razılaşmaq olmaz. Dildə kəmiyyət anlayışı müxtəlif üsullarla ifadə oluna bilər. Lakin həmin üsulların hamısı morfologiya bəhsində öyrənilməli deyil.

Müasir türk dilində cəmlik anlayışı *-lar, -ler* şəkilçisi ilə ifadə olunur. R.Rüstəmov yazır ki, kəmiyyət kateqoriyası əşyalar arasında kəmiyyət fərqini göstərir. İsimlər cəmdə olarkən ahəngə görə *-lar, -ler* kəmiyyət şəkilçisini qəbul edir. Məsələn, *kapı-lar, pencere-ler, tavşan-lar, kuzu-lar, yatak-lar* və s. [7, s.29-30]. T.Banquoğluna görə, eyni cinsdən birdən çox varlıqları ifadə etmək üçün isimlərin sonuna *-lar, -ler* şəkilçisi gətirilir. Məsələn, *ağaclar, kumlar, kazlar, kadınlar, duyğular, görüşler* [2, s.322].

Azərbaycan və türk dillərində əşyaların tək olmasını göstərmək üçün xüsusi bir forma yoxdur. Bundan çıxış edərək deyə bilərik ki, bu dillərdəki

kəmiyyət kateqoriyası təküzvlü paradiqmaya malikdir. *-lar*[2] şəkilçisini qəbul etmiş isimlər əksər halda cəmlik semantikasının yaranmasına xidmət etsələr də, onların şəkilçisiz qarşılıqları təkliyi ifadə edə bilmir. S.Yılmaz doğru olaraq qeyd edir ki, Türkiyə türkcəsində cəm şəkilçisi qəbul etməmiş isim, hər isim əsası isimlə ifadə olunan varlığın birini deyil, eyni növdən varlıqların hamısını təmsil etdiyindən və şəkilçi qəbul etməmiş isim əsasında "sıfır morfem" olmadığından ismin tək forması kimi dəyərləndirilə bilmir. Həmin təklik semantikası ismin müstəqim mənasının bir parçası kimi başa düşüldüyündən semantik araşdırma sahəsi daxilində qiymətləndirilməlidir [8, s.218]. Uyğun fikrə digər tədqiqatçılarda da rast gəlirik. D.Aksana görə, türk dilində təklik və cəmliyi bildirmək üçün xüsusi əlamətlər yoxdur və təklik-çoxluq yalnız *-lar / -ler* şəkilçisi ilə bildirilir. O, Cənubi Afrikadakı bantu dillərindən biri olan suaxili dilini nümunə göstərərək deyir ki, bu dildə isimlər altı əşya sinifinə ayrılır. Bunlardan birincisi insan sinifidir ki, bu sinifə aid isimlər təkdə və cəmdə fərqli şəkilçilər qəbul edirlər: *mtu* "insan", *watu* "insanlar, əhali" [1, s.256-257].

Qeyd eləmək lazımdır ki, cəm şəkilçisi qəbul etməmiş isimlər təkliyi ifadə etmədiyi kimi, həmin şəkilçini qəbul etmiş isimlər də həmişə cəmlik semantikasını ifadə edə bilmirlər. Bu cəhəti qədim türk dilinin Azərbaycan və türk dillərindəki izi hesab etmək olar. Məlum olduğu kimi, qədim türk dilində cəmlik şəkilçiləri, o cümlədən də *-lar, -lər* şəkilçisi çox az işlənir. K.Qrönbek qədim türk dilində cəmlik şəkilçilərinin yalnız bir neçə titul və qohumluq bildirən sözə artırıldığını göstərərək bu dildə çoxluğun bərabərlik bildirdiyini söyləyir [4, s.50]. O, buna nümunə kimi abidələrin dilində işlənmiş *bəglər, ekelerim, öglerim, kunçuylarım* sözlərini göstərir. Uyğur abidələrində *-lar, -lər* şəkilçisinin istifadəsinə diqqət çəkən A.fon Qaben qeyd edir ki, bir çox isimlər bu şəkilçini qəbul etsələr də, məntiqi baxımdan təkdə hesab olunurlar. Çünki buradakı *-lar* morfemi cəmlik bildirməyib, hörmət, sayğı ifadə edir. Müq. et: *bodisawatlar* "bir bodisatva" [5, s.62]. Uyğun fikir C.Başdaş tərəfindən də söylənilmişdir. Orta türk dövrü abidələrinin dilində də uyğun vəziyyətlə qarşılaşırıq. Bütün bunlar Azərbaycan və türk dillərində şəkilçisiz formanın təklik ifadə etməsi barədə geniş yayılmış mülahizəyə yenidən baxmağı gündəmə gətirir.

Azərbaycan dilində tək-cəm qarşıdurmasını araşdıran Y.M.Seyidov yazır ki, bəzən kəmiyyət kateqoriyasına məxsus tək-cəm qarşıdurması zəifləyir, hətta sıfra enir. Məsələn, *birinci - birincilər, o - onlar* qarşıdurmaları təbii səslənirsə, *uzaq -uzaqlar* formalarını eyni mənada işlətmək olur: *Dostum çox uzaqda yaşayir // Dostum çox uzaqlarda yaşayır. 13-lər* formasına isə tək qarşı tərəf müəyyən etmək mümkün olmur. Bu rəngarəngliyə baxmayaraq, *-lar, -lər* şəkilçisi qəbul etmiş müxtəlif nitq hissələrində cəmliyin ümumi qrammatik əsası pozulmur [10, s.162].

Azərbaycan və türk dillərində *-lar*[2] morfeminin istifadəsində müəyyən fərq də müşahidə olunur. Belə ki, türk dilində *-lar*[2] şəkilçisinin yerinə yetirdiyi bir funksiya Azərbaycan dilində *-gil* şəkilçisi ilə verilir. Müq. et: türkcə *Aliler, Hasanlar, Turqutlar, dayımlar, halamlar, ablamlar* ~ azərbaycanca *Əligil, Həsəngil, Turqutgil, dayımgil, bibimgil, (böyük) bacımgil*. Qeyd edək ki, Azərbaycan və qismən də türk dili istisna olunmaqla bütün türk dillərində *-lar*[2]

şəkilçisi bu mövqedə işlənir. Bu, reprezentativ çoxluq semantikasıdır. M.Qıpçaq reprezentativ çoxluqla bağlı yazır: "*Çoxluğun bu tipi şəxs adları (qohumluq terminləri) və xüsusi isimlər vasitəsi ilə ifadə olunur. Xüsusi ismə cəmlik şəkilçisi artırılır və sözün tərkibindəki cəmlik şəkilçisi göstərir ki, məlum şəxs müəyyən şəxslər qrupunun içərisindədir. Beləliklə də, bu qrup şəxslər həmin müəyyən şəxsin nəzərində xarakterizə olunur, başqa sözlə desək, həmin şəxsləri birləşdirir. Çoxluğun reprezentativ tipi bir o qədər də geniş yayılmamışdır. Bu tipə türk dillərində, eləcə də yapon, koryak, nivx və bir sıra digər dillərdə rast gəlmək olar*" [6, s.233].

Çoxluğun reprezentativ tipi barədə nəzəri dilçilikdə də müəyyən fikirlər var.

Nəzərə almaq lazımdır ki, *-gil* şəkilçisini qəbul etmiş sözlər canlı xalq danışıq dilində, eləcə də Azərbaycan dilinin şivələrində ədəbi dillə müqayisədə daha çox işləkliyə malikdir. Faktlar sübut edir ki, *-gil* morfemi və onun derivatı olan *-gillər* morfeminin yaranma tarixi o qədər də qədim deyildir. Azərbaycan yazılı abidələrinin materialları aydın şəkildə göstərir ki, XIX əsrə qədər Azərbaycan dilində belə şəkilçi mövcud olmamışdır.

Kəmiyyət anlayışının dildə ifadəsini araşdıran M.Qıpçaq Azərbaycan dilindəki bu şəkilçi barəsində yazır: "*-gil şəkilçisi Azərbaycan dilində vahid fonetik səs tərkibinə malik olub dar fəaliyyət sahəsinə dardır. Semantikasına görə topluluq anlamı yaradır. Həm ümumi, həm də xüsusi isimlərə artırılaraq digər leksik şəkilçilərdən fərqli olaraq mənsubiyyət şəkilçili sözlərdən sonra da artırıla bilir. Bəhs edilən şəkilçi qohumluq terminlərinə, ad və soyadlara artırılır. –gil şəkilçi morfemindən sonra işlənən -lar,-lər topluluq çalarını qüvvətləndirir*" [6, s.230-231].

Azərbaycan dilinə aid yazılmış tədqiqat əsərlərində *-gil* şəkilçisindən ya sözdüzəldici şəkilçi kimi bəhs olunur, ya da bu morfem ümumiyyətlə yada salınmır. Nəzərə almaq lazımdır ki, *-gil* şəkilçisini sözdüzəldici şəkilçi kimi xarakterizə etmək kifayət qədər çətindir. Çünki bu morfem mənşəyindən asılı olmayaraq istənilən şəxs adına artırıla bilir. Müq. et: *Həsəngil, İvangil, Klintongil, Əbu Fərəcgil* və s. Görkəmli rus türkoloqu A.N.Kononov *-gil* şəkilçisini topluluq-cəmlik şəkilçiləri sırasında nəzərdən keçirir və bu morfemin pratürk dövründən türk dillərində işlənməsi, daha sonralar öz fəaliyyət dairəsini daraltması barədə mülahizə irəli sürür [9, s.25-26].

Bizim fikrimizcə, Azərbaycan və türk dillərində cəmlik semantikasının yaranmasına xidmət edən *-lar*[2] və *gil (-gillər / -giller)* şəkilçilərini funksional şəkilçilər kimi dəyərləndirmək olar. Bu şəkilçilər yeni sözlər yaratmadığı kimi, sözlər arasında qrammatik əlaqələrin əmələ gəlməsinə də xidmət edə bilmirlər. Göstərilən şəkilçilərin bu xüsusiyyətlərini nəzərə alaraq deyə bilərik ki, Azərbaycan və türk dillərinin morfoloji quruluşunun uzun sürən tarixi inkişafı nəticəsində bu dillər cəmlik semantikasını ifadə etmək üçün xüsusi forma yaratmışlar. Nəzərə almaq lazımdır ki, leksik və sintaktik vasitələrlə deyil, morfoloji üsulla cəmlik semantikasının ifadə olunması dilin ümumiləşdirmə və mücərrədləşdirmə gücünü göstərir, bu vasitələrin mövcud olduğu dilin qrammatik quruluşunun kifayət qədər yüksək inkişaf etdiyini ortaya çıxarır. Azərbaycan və türk dillərində istər adi cəmliyin, istərsə də reprezentativ

cəmliyin ifadə olunması üçün xüsusi formaların olması bunu aydın şəkildə göstərir.

Abstract

This article explores the ways in which the category of quantity is expressed through derivational and inflectional morphemes in Turkic languages. The quantity category is a significant grammatical category. The study focuses primarily on how this category is realized at the morphological level—that is, through affixal morphemes. The means of expressing this category in Azerbaijani and Turkish are analyzed comparatively, and affixes are presented with illustrative examples. The article also examines the forms of expressing quantity in terms of both quality and number, taking into account syntactic and semantic nuances. The findings of the study reveal both similarities and differences in the morphological systems of Turkic languages within a Common Turkic context and contribute to a deeper understanding of the lexical, morphological, and semantic aspects of expressing quantity.

Key words: *Turkic languages, quantity category, affixal morpheme, morphology, quantity, category.*

Ədəbiyyat:

1. Aksan, D. Her Yönüyle Dil. Ana Çizgileriyle Dilbilim / D.Aksan. – Ankara: Türk Dil Kurumu Yayınları, –1995. –568 s.

2. Banguoğlu, T. Türkçenin Grameri /T. Banguoğlu. – Ankara: Türk Dil Kurumu Yayınları, –2007. –628 s.

3. Gabain, A.von. Eski Türkçenin Grameri / –Ankara: Türk Dil Kurumu Yayınları, –1995. –331 s.

4. Grönbeck, K. Türkçenin yapısı / K.Grönbeck. –Ankara: Türk Dil Kurumu Yayınları, –2000. –148 s.

5. Gülsevin, G. Eski Anadolu Türkçesinde Ekler / G. Gülsevin. –Ankara: Türk Dil Kurumu Yayınları, –1997. –156 s.

6. Qıpçaq, M. Kəmiyyət anlayışının dildə ifadəsi (tarixi-tipoloji tədqiqat) / M. Qıpçaq.– Bakı: Elm, –2000. –453 s.

7. Rüstəmov, R. Türk dilinin morfologiyası / R. Rüstəmov. –Bakı: Nurlan, –2007. –208 s.

8. Yılmaz, S. İsim Çoğul Ulamının Morfolojik ve Semantik Açıdan Değerlendirilmesi // İnternational Journal of Languages′ and Teaching, Volume 3,– 2014. –214-221 s.

9. Кононов, А.Н. Показатели собирательности-множественности в тюркских языках / А.Н. Кононов. – Ленинград: Наука, –1969. –30 с.

10. Seyidov, Y. Azərbaycan dilinin qrammatikası. Morfologiya (nəzəri kurs) / Y. Seyidov. –Bakı: Bakı Universiteti nəşriyyatı, –2000. –403 s

V BÖLMƏ
TERMİNOLOGİYA VƏ ONOMASTİKA MƏSƏLƏLƏRİ

QARABAĞ BÖLGƏSİNDƏ ANTROPONİMLƏRDƏN ƏMƏLƏ GƏLƏN MİKROTOPONİMLƏR

Ayşən İsmayıllı
AMEA Nəsimi adına Dilçilik İnstitutu
aysheaxmedova4@gmail.com

GİRİŞ

Qarabağ bölgəsində antroponimik leksika əsasında yaranan belə coğrafi obyektlərin müəyyən qismi ərəb və fars mənşəlidir. Mikrotoponimik vahidlərin mikrosistem qrupunun müəyyən olunmasında müxtəlif mənbə və məxəzlərə (qədim yazılı abidələr (“Oğuznamə”, “Divani lüğət-it-türk”, “Kitabi-Dədə Qorqud” dastanı, “Koroğlu” dastanı və s.), qəzet və jurnallar, müxtəlif lüğətlər (ensiklopedik, terminoloji, etimoloji və s); Qarabağın arxeoloji abidələr toplulları; inzibati ərazi bölgüsü ilə əlaqəli sənədlər; coğrafi xəritələr; dialekt və şivələr; informatorlardan toplanılan məlumatlar) müraciət olunaraq tədqiqat aparılmışdır. Qarabağ bölgəsində müşahidə olunan mikrotoponimlərin çox bir hissəsini şəxs adlarından əmələ gələn yer-yurd adları təşkil edir. Bu toponimik vahidlər sözyaratma prosesində olduqca məhsuldardır. Ümumi olaraq antrotoponimlər müxtəlif səbəblərlə bağlı olub daha çox müəyyən şəxsə, nəslə aidliyi bildirir.

Q.Məşədiyev şəxs adları ilə bağlı olan kənd adları haqqında qeyd edir: “Vaxtilə müəyyən ərazi hər hansı feodal tərəfindən mənimsənilmiş və burada məskunlaşan əhali həmin şəxsin adını toponimik vahid kimi işlətmişdir” [3, s.130] Makrotoponim kimi Ağdam rayonu (Hacıbədəlli kəndi, Alıbəyli kəndi, Ətyeməzli kəndi, Kərimobalı kəndi), Bərdə

Antroponimlərdən əmələ gələn mikrotoponimlər müxtəlif səbəblərdən yarana bilir. Daha çox əhalinin kənd təssərrüfatı fəaliyyəti (əkinçilik, maldarlıq və s) ilə bağlı olaraq meydana gəlir. Bu hal özünü Qarabağ bölgəsində qeydə alınan mikrotoponimlərdə də göstərir.

Göyçay rayonunun toponimlərini tədqiq edən İ.Kərimovanın fikrincə, “Antroponimlər başqa onomastik vahidlərin yaranmasında fəal iştirak etməklə yanaşı, ərazidə getmiş tarixi proseslər haqqında da kifayət qədər əhəmiyyətli məlumatların, faktların toplanması, üzə çıxarılması üçün vasitə rolunu oynayır”[2, s.70] Antroponimlərdən əmələ gələn mikrotoponimlər daha çox əhalinin kənd təsərrüfatında əkinçilik, maldarlıq məşğuliyyəti ilə bağlı olaraq meydana gələn onimlərdir. Məskunlaşan sakinlər öz pay torpaqlarını və ya nəsildən nəslə keçən yerləri adlandırır.

S.Mirmahmudova şəxs adlarından düzəlmiş türkmənşəli oykonimləri 4 qrupa ayırır: “1. Heç bir şəkilçi və yaxud başqa coğrafi termin qəbul etməyən oykonimlər; 2. Şəxs adlarından və yaşayış məntəqələrini bildirən terminlərdən

düzəlmiş oykonimlər; 3.Şəxs adlarından və yerin relyef formalarını bildirən terminlərdən düzəlmiş antroponimlər. 4. Memorial oykonimlər" [4, s.11-12]

Biz də mikrotoponimləri bu şəkildə qruplaşdıra bilərik:

1.**Patronimlərdən düzələn mikrotoponimlər.** Patronimik mikrotoponimlər deyərkən tayfa, nəsil, tirə adlarını ifadə edən onimlər başa düşülür. Bilindiyi kimi, qədim zamanlardan müasir dövrə qədər əhali daha çox kəndlərdə, qəsəbələrdə, məhəllələrdə nəsil olaraq məskunlaşır. Bu isə antropotoponimlərin meydana gəlməsinə şərait yaradır.

Patronimlərdən əmələ gələn mikrotoponimlərə bunları qeyd etmək olar: Baş Qərvənd yolu, Ayaq Qərvənd yaşayış yeri, Papravənd kurqanları, Boyəhmədli kurqanları, Məlulu təpələri, Molla Mustafa oğlu təpəsi, Papravənd daş qutusu nekropolu, Maqsudlu kurqanları, Əhmədoğlu yaşayış yeri, Papravənd bağı, Papravənd qəbiristanlığı, Seyid Mustafalar yaşayış yeri, İsmayılbəytəpə, Şükürbəyli, I və II Yüzbaşılı, 1 saylı Vəlibəytəpə, 2 saylı Vəlibəyli, 3 saylı Vəlibəytəpə, 1 saylı Sultanbud, 2 saylı Sultanbud, 3 saylı Sultanbud, 1 saylı İmamqulubəyli, 2 saylı İmamqulubəyli, 3 saylı İmamqulubəyli, 4 saylı İmamqulubəyli, 5 saylı İmamqulubəyli, 6 saylı İmamqulubəyli, 7 saylı İmamqulubəyli yaşayış yerləri, Qəhrəmanbəyli kurqanı, Malubəyli məhəlləsi, Əhmədağalı, Ağalartəpə, Hacılar, Seyid Mustafalar, Paşabəyli, Kəbləhüseynli yaşayış yerləri, Maqsudlu məhəlləsi, Kərimlitəpə, Yusifcanlı ayrığı, Maqsudlu kurqanları, Səfərli təpələri, Namazlı təpəsi, Gəşəlitəpə, Eyvazlı yaşayış yeri, Zəngişalı kurqanını (Ağdam rayonu); və s.

2.**Posessiv (yiyəlik, aidlik, sahiblik bildirən) mikrotoponimlər:** Posessiv mikrotoponimlər müəyyən ərazinin onun sahibinə məxsus olduğunu bildirir. Yəni bu onimlərin məzmununda yiyəlik, aidlik, sahiblik məzmunu vardır. Posessiv (latınca "possessivus") və ya ktetik forma (qədim yunanca "ktetikos" sözündən olub) geniş mənada sahiblik münasibətini bildirmək üçün istifadə olunan söz və ya qrammatik konstruksiyadır. Bu ciddi mülkiyyət və ya ona bənzər digər münasibət növlərini əhatə edə bilər. "Hər hansı coğrafi obyektin müəyyən şəxsə (ailəyə, nəslə, qəbiləyə, tayfaya, xalqa) məxsus olduğunu göstərən toponim; aidlik, sahiblik məzmunu bildirir" [1, s.609] Dilimizdə mövcud olan posessiv mikrotoponimlər daha çox ikinci və üçüncü növ təyini söz birləşmələri şəklində özünü göstərir. Bu təyini söz birləşmələrinin ikinci tərəfi aidlik, mənsubluq anlayışı ifadə edir.

Ümumi şəkildə posessiv mikrotoponimlər sahib şəxslə ona məxsus olan yer arasında əlaqəni bildirir. Məsələn: Şükürün pəyəsi, Teymurun təpəsi, İsmayılın pəyəsi, Cümşüd bəyin evi, Ərşadın yeri, Bəhrəm bəyin evi, Molla Məhəmmədin yalı, Mir Sədi babanın təpəsi, Qarapirim ocağı, Əhmədbaba piri, Xanməmməd ocağı, Seyid Lazım Ağanın məqbərəsi, Uğurlu bəyin türbəsi, Şeyx Nigari ziyarətgahı, Xanoğlu türbəsi, Seyid Manafın qəbri, Gündoğdu baba piri, Seyid Fuğara ocağı, Seyfəddin ağa ocağı (Ağdam rayonu); və s.

3.Memorial mikrotoponimlər: Bu mikrotoponimlər tarixi şəxsiyyətlərimizin (yazıçı, şair və s.) adından yaranır: Süleyman Sani Axundov küçəsi, Ağamalıoğlu küçəsi, İsmət Qayıbov küçəsi, Qara İlyasov küçəsi, Tofiq İsmayılov küçəsi, Əli Bayramov küçəsi, Ziyəddin Göyüşov küçəsi, İslam Hacıyev küçəsi, Ə.Haqverdiyev küçəsi (Ağdam rayonu);

4.Eklezionim: Qarabağ bölgəsindəki eklezionimlərin linqvistik aspektdən araşdırılmasının olduqca böyük elmi əhəmiyyəti vardır. Eklezionimlər əsasında əmələ gələn mikrotoponimlərin əksər qismi islam dini ilə əlaqədardır. Dini xarakterli sözlər islamdan əvvəl və sonrakı dövrlərdə yaşayan şəxslərin adları ilə əlaqədar olaraq yaranmışdır. Bu onimlərdə şəxsin adı yox, onun dini nöqteyi-nəzərdən titulu, rütbəsi, əqidəsi, dünyagörüşü, inancları əsas götürülür. Bu mikrotoponimlər müqəddəs hesab olunan ziyarətgah, pir, ocaq, türbə adlarıdır. Belə yerlər müxtəlif zaman kəsiyinin məhsulu kimi meydana gəlir. Eklezionimlərin tədqiqi zamanı aşkar olunmuşdur ki, bu toponimik vahidlərin əsasını daha çox antroponimlər təşkil edir. Bu mikrotoponimlərin tərkibində daha çox məscid, pir, ocaq, molla və başqa dini terminlərdən istifadə olunur. " "Ocaq" – "ev" , ata-baba (yaşlı, qoca) yurdu olduğu üçün "pir" – "qoca", "əcdad" kimi mənaları da meydana gəlir" [5, s.126]

İnanclar insan və təbiətin əlaqəsinin nəticəsidir. Bunlar da yer adlarını əmələ gətirir:

4.1.Ocaq sözü əsasında əmələ gələn mikrotoponimlər. Pir, ziyarətgah, müqəddəs yerdir. Məsələn: Güllücə ocağı, Xanməmməd ocağı, Qarapirim ocağı, Nigar nənənin ocağı, Əhməd Əfəndi ocağı, Mir Cəfər ocağı (Ağdam rayonu); Əşrəf ocağı, Topa ocaq, Balışlar ocağı, Abbas ocağı (Ağcabədi rayonu); Cicim ocağı, Dağdağan ocağı, Dəmirov ocağı (Xocavənd rayonu); Cahan ocağı, Qaranın ocağı, (Xocalı rayonu); Ağöylə ocağı, Qazyendirən ocağı, Qayıb ocağı, İbə ocağı, Yel ocağı, Miri ocağı, Soltan Heydər ocağı, Həzi ocağı, Şah ocağı, Şıxməmməd ocağı (Füzuli rayonu).

4.2. Pir sözü əsasında əmələ gələn mikrotoponimlər: Cındırrı pir, Eşq-Abdal piri, Əhmədbaba piri (Ağdam rayonu); Yel piri, Ağoğlan piri, Bəhrəmli piri, (Xocavənd rayonu); Cındırlı pir (Xocalı rayonu); İmam piri, (Füzuli rayonu); Cındırlı pir (Şuşa rayonu); Cındırlı pir,Tükəzban piri (Şuşa rayonu) və s.

4.3. Türbə sözü əsasında əmələ gələn mikrotoponimlər: Xaçındərbətli türbəsi. Türbəd dedikdə məzar, qəbir nəzərdə tutulur. Türbələr böyük, müqəddəs hesab olunan şəxslərin qəbirləri üzərində tikilir. Sonrakı zamanlarda ziyarət olunan məqbərə, mavzoley, bina mənasında işlənir. Məsələn: Xaçındərbətli türbəsi, Qutlu Musaoğlu türbəsi (Ağdam rayonu); Rzaqulu bəy türbəsi (Xocavənd rayonu); Arğalı türbəsi, Babı türbəsi, Qayıb türbəsi, Əhməd Soltan türbəsi, Əhmədalılar türbəsi, Kürdmahmudlu türbəsi, Mirəli türbəsi, Hacı Mirzə Hüseynli türbəsi, Cəlil türbəsi, Şeyx Babı türbəsi, Şeyx İbrahim türbəsi (Füzuli rayonu); Səkkizguşəli türbə, Allah-Allah türbəsi, Bərdə türbəsi, Axsadan baba türbəsi, Əhmədəllər türbəsi, Mirəli türbəsi, Seyid türbəsi (Bərdə rayonu) və s.

4.4. Məscid sözü əsasında əmələ gələn mikrotoponimlər. Məscid daha çox müsəlmanların ziyarət etdikləri ibadət evidir. Məsələn: Ağdam Cümə məscidi (Ağdam rayonu); Sərdərli məscidi, Hacı Ələkbər məscidi, Şah Abbas məscidi (Füzuli rayonu); Böyük Cümə məscidi, Gövhər Ağa məscidi, Malıbəyli məscidi, Məşədi Hüseyn məscidi (Şuşa rayonu); Uğurbəyli məscidi, Bərdə Cümə məscidi, Əmirli kənd məscidi, İmamzadə məscidi (Bərdə rayonu);və s.

Qarabağ ərazisində qeydə alınan antropotoponimləri tərkibinə görə 3 qrupa ayıra bilərik:

1. Ancaq şəxs adları vasitəsilə əmələ gələn mikrotoponimlər
2. Şəxs adları və sözdüzəldici şəkilçilər vasitəsilə əmələ gələn mikrotoponimlər
3. Quruluşca mürəkkəb olan adlar əsasında əmələ gələn mikrotoponimlər.

1.Ancaq şəxs adları vasitəsilə əmələ gələn mikrotoponimlər: Hüseyntəpə, Qaçaytəpə, Səfərli təpələri, Abıştəpə, Sayadtəpə, Həsəntəpə, (Ağdam rayonu); Abışın bağı, Alı təpəsi, Bəhrəmli düzü, Kərəm çalı (Xocavənd rayonu); Nüşabə qülləsi, Seyid türbəsi, İmamzadə məscidi, Nüşabə qalası, İbrahim məscidi, İbrahim qəbiristanlığı, Murad yalı, Mehman göl (Bərdə rayonu); Kamiltəpə, Əşrəf ocağı, Kazım kəhrizi, Əlinin bağı, Həmidə kəhrizi, Hüseyntəpə, və s. (Ağcabədi rayonu); İsa bulağı, Xan evi, Seyid ocağı, Sərqa ocağı, Əli ocağı, Zülfüqar tikdirdiyi karvansara, Mamayı məscidi, Mehmandarovlar məscidi, Heydər türbəsi, və s. (Şuşa rayonu); Aslan qalası (Xocalı rayonu); Cəlil türbəsi, Ələkbər yalı, Həzi çökəyi, Cəlal türbəsi və s. (Füzuli rayonu); Məhərrəmin bağı, Həmzə bulağı, Molla dərəsi, Məşədi bulağı, Heydər bağı, Şirinin meşəsi, Musa dərəsi, Rizvan məscidi, Murad təpəsi, Nərgiztəpə yaşayış yeri, Cəfat piri, Şaqax piri və s. (Xocavənd rayonu); Ələm ocağı (Tərtər rayonu);

2.Şəxs adları və sözdüzəldici şəkilçilər vasitəsilə əmələ gələn mikrotoponimlər: Maqsudlu məhəlləsi, Səfərli yaşayış yeri, Malıbəyli məhəlləsi, Kərimli təpəsi (Ağdam rayonu); Bəhrəmli düzü, Bəhrəmli piri, (Xocavənd rayonu); Seyidli məscidi, Culfalar məscidi, Köçərli məscidi, Ağamirovların mülkü, Qaraşovların mülkü, Seyildi məscidi və s. (Şuşa rayonu);

3.Quruluşca mürəkkəb olan adlar əsasında əmələ gələn mikrotoponimlər: Vəlixan təpə, Gülməmməd təpəsi, Pənah xanın imarəti, Əhməd Əfəndi ocağı, Mir Cəfər ocağı, Mir Sədi babanın təpəsi, Molla Məhəmmədin yalı və s.; (Ağdam rayonu); Ağoğlan piri, Alxan düzü, Alıqulu qışlağı, Daşdəmir dərəsi, Eyvazalılar yataq yeri, Hacı Əlikərəm yatağı, Əlinəzərli bulağı və s. (Xocavənd rayonu); Mirəli türbəsi, Abbasquluxan məhləsi, Rzqulubəy məhləsi, Bəhmən Mirzənin məqbərəsi və s. (Bərdə rayonu); Alıqulu qışlağı, Məşədi Molla Əlinin bağ yeri, M.Ə.Rəsulzadə küçəsi, (Ağcabədi rayonu); Mirfəseh bağı, Həzrət Əli kahası, Məhəmməd Həsən Ağanın imarəti, Qasım ağanın ocağı və s. (Şuşa rayonu); Seyid Cəlal ağanın ocağı, Cahan nənə ocağı (Xocalı rayonu); Həzrəti Cərciz türbəsi, Şeyx Babı türbəsi (Babı türbəsi, Şıxbaba, Şeyx Babı); Mir Əli türbəsi, Şükür bəyin imarəti, Hacı Qiyasəddin məscidi, Hacı Ələkbər məscidi, Mir Əli türbəsi, Cəlil türbəsi, Şeyx İbrahim türbəsi, Sarı baba ocağı, Mirəli türbəsi, Mir Mehdi Xəzani türbəsi, Seyid Əşrəf ocağı, İbə (ibn İbrahim) piri, (Füzuli rayonu); İsaxan çayı, Əlibulaq bulağı, Əhməd bəyin bağı, Qasım bəyin bağı, Daşdəmir dərəsi, Daşdəmir dağı, Hacıkərim kəhrizi, Mir Mehdi Xəzanın türbəsi və s. (Xocavənd rayonu); Mehdi bəy yurdu və s. (Tərtər rayonu);

NƏTİCƏ.

Nəticə olaraq deyə bilərik ki, Qarabağ bölgəsinin araşdırdığımız mikrotoponimləri antroponimlərdən əmələ gəlmişdir. Haqqında məlumat verdiyimiz mikrotoponimlər ilə bağlı olaraq elmi ədəbiyyatda, az da olsa, müəyyən araşdırmalara rast gəlinir. Rayonun toponimik vahidləri dil

mənsubluğuna görə müxtəlifdir. Belə ki, Qarabağ bölgəsində ərəbmənşəli adlar da qeydə alınmışdır. Mikrotoponimlərin leksik-semantik təhlil olunması göstərdi ki, antroponimlər şəxs adlarından, şəxs adları və sözdüzəldici şəkilçilərdən, mürəkkəb quruluşa malik adlardan yarana bilir. Mikrotoponimlər hər bir dilin lüğət tərkibində mühüm rol oynayır. Toponimik leksikanın müəyyən qismini mikrotoponimlər əhatə edir. Onların əhatə dairəsi də olduqca genişdir: məhəllə adları, küçə adları, prospekt adları, dərə adları, təpə adları, düz adları, düzənlik adları, çöl adları, yer adları, yurd adları, çala adları, çökək adları, körpü adları, yaylaq adları, qışlaq adları, bulaq adları, göl adları, yol adları, qəbiristanlıq adları, ocaq adları, pir adları, türbə adları, ziyarətgah adları, yoxuş adları, eniş adları, tala adları, qobu adları, yarğan adları, uçurum adları, mağara adları, qala adları, arx adları, çökək adları, zəmi adları, yamac adları, bağ adları, bostan adları, meşə adları və s. Material toplanılan bölgənin mikrotoponimləri xalqımızın etnik tarixini dərindən öyrənmək üçün əsas mənbə rolunu oynayır. Ona görə də bu onimləri toplayarkən diqqətli olmaq çox vacibdir. Hətta materiallar toplanarkən bölgənin spesifik topoformatları da müəyyən olunmalı və qeydə alınmalıdır.

Summary

A large part of Azerbaijani toponymy is made up of microtoponyms formed from anthroponyms. Thus, toponyms can be used with words that also denote the concept of a person and denote certain groups and groups of people, therefore they are closely related to anthroponyms. The history of the formation of personal names goes back to ancient times. Naming a biological being is of historical nature. An anthroponym is a unit formed from the combination of two Greek words anthropos (human, person, man) and onoma (name). Anthroponyms are groups of words formed in connection with the history, psychology, mythical worldview, profession, art, occupation, etc. of our people. These names arise, develop, and change within a certain time frame.

The system of anthroponyms is a rich source for studying the history of our people. Our language has its own system of anthroponyms. This system is formed on the basis of certain rules and regulations and is of particular importance in the composition of the dictionary. Despite the fact that anthroponyms have undergone certain deformations, they have left deep traces in history. Such names have been enriched as a result of events in society, and have preserved their nationality with the help of ancient language elements. In the research work, microtoponyms formed from anthroponyms were analyzed lexico-semantically, examined from an etymological aspect, their language affiliation was determined, and microtoponyms formed only from personal names, personal names and word-forming suffixes, and anthroponyms with a complex structure were clarified.

ƏDƏBİYYAT SİYAHISI

1. İzahlı dilçilik terminləri lüğəti. Elm nəşriyyatı, Bakı, 2018, 912 s. S 609.
2. Kərimova İ. Göyçay rayonu toponimlərinin linqvistik təhlili. Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiya. Bakı, 2013, 156 s, s 70.

3.Məşədiyev Q. Azərbaycan toponimlərinin tarixi linqvistik təhlili (Qafqaz ərazi və tayfalarının təsviri materialları məcmuəsi (SMOMPK) əsasında. Bakı, Elm və təhsil, 2010, 232 s, s 130.
4.Mirmahmudova S. Ermənistanda türk mənşəli yer adları. Bakı, Yazıçı ədəbi nəşrlər evi, 1995, 72 s. S 11-12.
5.Paşayev A. Türk mənşəli beynəlmiləl onomastik vahidlər (müqayisəli onomastika), Bakı, 2017, 252 s. S 126.

MÜASİR AZƏRBAYCAN DİLİNDƏ ONOMASTİK VAHİD KOMPONENTLİ FRAZEOLOGİZMLƏR VƏ ONLARIN LİNQVİSTİK XÜSUSİYYƏTLƏRİ

Günay Əliyeva
Gəncə Dövlət Universiteti
dissertant
gunay-aliyeva_2019@mail.ru

Frazeologiya istənilən dilin ən zəngin və özünəməxsus sahələrindən biridir. Bu sahə yalnız dilin ifadə vasitəsi olmaqla kifayətlənmir, həm də xalqın dünyagörüşünü, tarixini və mədəni dəyərlərini özündə ehtiva edir. Frazeoloji vahidlərin tərkibində yer alan onomastik komponentlər – şəxs adları, yer adları, mifik və ya ədəbi personaj adları – bu ifadələrin semantik və emosional yükünü daha da artırır. Onomastik vahidlər dilçilikdə antroponimlər (şəxs adları), toponimlər (yer adları), etnonimlər (xalq və millət adları) və digər adlardan ibarət olur. Frazeologizmlərin tərkibində bu cür adlar istifadə olunduqda, ifadənin həm mənası, həm də funksional çalarlığı dəyişir. Məsələn, "Əlini Hacı dayı kimi açmaq" ifadəsində "Hacı dayı" komponenti konkret bir şəxs adından çıxış etsə də, ümumiləşdirilərək səxavətli adam obrazını ifadə edir. Müasir Azərbaycan dilində tərkibində onomastik vahidlər işlənən çoxlu miqdarda frazeologizm olsa da, ingilis dili ilə müqayisədə onların sayı xeyli azdır. Boz məqaləmizin yazılmasında mənbə kimi filologiya elmləri doktorları N. Seyidəliyevin və B. Əhmədovun "Azərbaycan dilinin böyük frazeoloji lüğəti"ni götürdük. Çünki bu lüğət filologiyamızda frazeologiya sahəsində yazılmış son tədqiqat sayıla bilər. Təbii ki bu zaman dilimizdəki onomastik vahid komponentli frazeologizmlərin demək olar ki, hamısının bu lüğətdə toplandığının şahidi oluruq. Lüğətdəki bu tip nümunələrə nəzər salaq:

Adəmdən Xatəmə-dünyanın əvvəlindən axırına kimi. Qurban olduğum peyğəmbərin əğrabasıdır. Adəmdən Hatəmə peyğəmbərin kölgəsində dolanaıb (C.Əlibəyov); Adəmdən Xatəmə görünməyib ki, bir nəfər rəiyyət oğlu bir xanzadənin üzünə ağ olsun (P.Makulu)[3,s.30].

Amerika açmaq– məlum olan şeylərdən danışmaq, yeni bir şeydən danışmaq.Bunları deməklə Amerika açmıram. Bu, Azərbaycan üçün yenilikdir. Dünya bunu çoxdan bilir (Qəzetlərdən) [3,s.112].

Amerika kəşf etmək– Mən indi bu sözlərlə təzə bir Amerika keşf etmirəm, sadəcə keçmişi, gələcəyi olan bir insan kimi ürəyimdən keçənləri deyirəm.(N.Hacıyev). [3,s.112].

Aranda tutdan, dağda qurutdan olmaq–hər şeydən əli çıxmaq, məhrum olmaq. Hərgah iki zonada əkin əksək, kəndlilər demişkən, aranda tutdan, dağda qurutdan olarıq (Ə. Vəliyev) [3,s.124].

Aranı dağa aparmaq, dağı Arana gətirmək–düşüncələrə dalmaq, götür-qoy etmək, ölçüb-biçmək, fikirləşmək. Aranı dağa apardı, dağı Arana gətirdi, fikirləşdi ki, buradan nə cür çıxsın (“Tülkü, tülkü tünbəki”) [2,s.90].

Araza susuz aparıb, susuz gətirmək–Sizin tümünüzü Araza susuz aparıb, susuz da gətirərəm. Bundan zərrə qədər şübhəniz olmasın (H. Abdullayev) [3,s.129].

Badamgöz Fatma demək–tərifləmək. Öləndən sonra hamıya badamgöz Fatma demək köhnə adətdir. Axı onun nəyinə lazım bizim xoş sözlərimiz? (Qəzet materialı) [3,s.179].

Başına Kərbəla müsubəti açmaq– çox incitmək, əzab-əziyyət vermək. Pulu qurtaran kimi kəndə gəlirdi, evdə həşir-tufan qoparırıdı, atanın-ananın, bacıların başına Kərbəla müsibəti açırdı. (M. İbrahimov). [3,s.234].

Onomastik komponentli frazeologizmlər struktur baxımından müxtəlif formalarda təqdim olunur. Bəzi ifadələr sabit söz birləşməsi formasında və cümlə quruluşunda olurlar. Yuxarıda gətirdiyimiz nümunələr birləşmə tipində olanlardır. Bununla belə bəhs olunan lüğətdə təkibində onomastik vahid olan cümlə strukturlu frazeologizmlrə də rast gəlinir. Məsələn, Burda (burada) mənəm Bağdadda kor xəlifə– heç kəslə razılaşmayan və ya heç kimi bəyənməyən, çox lovğa, qanacaqsız adam haqqında [3,s.380]. Özü də ki, danışmaq olmur, durub-oturub deyir ki, burada mənəm, Bağdadda kor Xəlifə (M. Süleymanov). Bu struktur müxtəlifliyi frazeologizmlərin nitqdə sərbəst işləkliyini təmin edir və onları müxtəlif üslubi laylara uyğunlaşdırır. Bu tip frazeoloji vahidlər bir qayda olaraq, məcazi və köçürülmüş mənaya malik olur. Onomastik adlar vasitəsilə ifadəyə əlavə konotasiya və mədəni çalar qatılır. Məsələn, “Fərhad kimi dağ aşmaq” ifadəsi qəhrəmanlıq və fədakarlıq anlamı ilə yüklənmişdir. Həmçinin, bu frazeologizmlər dilin poetik imkanlarını da genişləndirərək bədii ədəbiyyatda və publisistikada xüsusi yer tutur. Onomastik komponentli frazeologizmlər yalnız dil hadisəsi deyil, həm də mədəniyyət daşıyıcısı kimi çıxış edir. Bu ifadələr vasitəsilə tarixi şəxsiyyətlər, xalq inancları, dini-mifoloji anlayışlar yaşadılır və yeni nəsillərə ötürülür. Belə frazeologizmlər xalqın mədəni yaddaşını qorumaq baxımından mühüm rol oynayır. Müasir Azərbaycan dilində onomastik komponentli frazeologizmlər linqvistik və mədəni baxımdan böyük əhəmiyyət kəsb edir. Onlar dili yalnız ünsiyyət vasitəsi deyil, həm də tarix və mədəniyyətin ifadə forması kimi zənginləşdirir. Bu tip ifadələrin öyrənilməsi və tədrisi dilin semantik dərinliyini və kulturoloji potensialını anlamağa kömək edir.

ONOMASTIC COMPONENT PHRASEOLOGISMS IN MODERN AZERBAIJANI AND THEIR LINGUISTIC FEATURES

Abstract:

This article explores the lexical-semantic, structural, and functional features of phraseologisms containing onomastic components in modern Azerbaijani. Onomastic units—such as personal names, geographical names, mythological and literary characters—are integrated into phraseological expressions, enriching them with specific

meanings and emotional-expressive nuances. The article emphasizes the mechanisms of formation of such phraseologisms, their connection with culturally shaped stereotypes in collective memory, and their role in expanding the artistic and aesthetic potential of the language. The research highlights that phraseologisms with onomastic components are predominantly used in colloquial speech, journalistic style, and literary works. These expressions serve as carriers of culture, contributing to the preservation and transmission of national and spiritual values, historical figures, and events through language. It is also noted that these phraseologisms possess diverse syntactic structures and can perform different functions depending on the context in which they are used.

Key words: *phraseologism, onomastic unit, modern Azerbaijani language, language and culture, semantics, stylistics.*

Ədəbiyyat:

1. Bayramov H. Azərbaycan dili frazeologiyasının əsasları. – Bakı: Maarif, 1978.
2. Seyidəliyev N. Azərbaycan dastan və nağıl dilinin frazeologiyası. Bakı, Araz, 2006.- 326 səh.
3. Seyidəliyev N., Əhmədov B. Azərbaycan dilinin böyük frazeoloji lüğəti. – Bakı: Elm və təhsil, 2024.– 1135 s.

NƏSİMİ YARADICILIĞINDA “AYƏT” QURANI TERMİNİ

Xədicə Heydərova
AMEA Nəsimi adına Dilçilik İnstitutu,
Azərbaycan dili tarixi şöbəsinin müdiri
filologiya üzrə fəlsəfə doktoru, dosent
heyderova73@mail.ru

Azərbaycan təsəvvüf ədəbiyyatının görkəmli nümayəndəsi, hürufi əqidəli şair İmadəddin Nəsiminin yaradıcılığı qurani terminlərlə olduqca zəngindir. Bunlardan biri *ayət* (آیت) leksik vahididir. Bu termin Quranda آية şəklində 87 yerdə işlənir. Nəsiminin dilində isə iki mənada işləndiyi müşahidə olunur:

1) Heç kimin inkar edə bilmədiyi nişan, əlamət, işarə.

“*Kövnü-məkandır ayətim, Zatə gedər bidayətim”* [3, I, s. 552].

Şair Adəmin dilindən danışaraq deyir: “Mənim əlamətim varlıqdır. Başlanğıcım isə Zat olan Allahdır”. *Ayət* termininin nişan, əlamət mənasında işlənməsi klassik ədəbiyyatda C.Həqiqidə: *“Hürufi-ayəti səd bar qılmışam təkrar”* [3, s. 71], *“Hurüfi-lövhi-rüxün ayəti-əzim oldu”* [3, s. 105]; Füzulidə: *“Qəm Kərbəla şənində gəlmiş bir ayətdir”* [10, V, s. 201].

Nəsiminin yuxarıdakı beytində *Zat* qurani termindir və bir şeyin mahiyyəti, həqiqəti anlamını daşıyır. Təsəvvüf ədəbiyyatında *zat* – sifətləri olan varlıq mənasını ifadə edərək, Nəsimidə olduğu kimi, çox zaman Allaha nisbət edildiyi müşahidə olunur. Dədə Ömər Rövşənidə (XV əsr) *“Biləndir, bildirəndir mərd sufi, Sifatü zati Allah ətufi”* [1, s. 172]; Məhəmməd Füzulidə *“Ol idi məhrəmi Rəsulullah. Sirri-zatü sifatdən agah”* [10, VI, s. 156] və s.

Ayəti-hüsnün kitabı – insan surətindəki yazı işarələri deməkdir. Hürufi düşüncəyə görə, insanın üzündə Quranın surə və ayələri əks olunmuşdur. Nəsimi bu ideyadan çıxış edərək aşağıdakı beytdə insan surətindəki yazı işarələrini şərh etmək üçün hər hissəsi yüz min fəsildən ibarət bir kitab yazmaq gərəkdiyini söyləyir:

"Gər şərh edərsəm ayəti-hüsnün kitabını
Hər bab içində fəslinə yüz min füsul ola" [7, II, s. 16].

2) Quran surələrində cümlələrdən hər birinin adı. Bu terminin müasir dilimizdə yalnız Quranla bağlı mənası qalmışdır və *ayə* şəklində istifadə olunur. Nəsiminin dilində *ayət* termininin bir çox Quran ifadə və ayələri ilə fars izafətini əmələ gətirdiyi müşahidə olunur: *ayəti-fəthi-bab, ayəti-"inna fətəhna", ayəti-səb'ül-məsani, ayəti-"Taha"vü "Yasin", ayəti-"Turü Sinin", ayəti-"yöhyül-izam və hiyə rəmim"*.

Ayəti-fəthi-bab – kitabı açan ayə deməkdir. *Fəthi-bab* klassik əsərlərdə geniş yayılmış ifadə olsa da, qurani termin deyildir və fars izafətidir. Bu ifadənin tərkibində işlənən ərəb mənşəli *bab* sözü çoxmənalı olub "qapı" və "kitabın bölümü" anlamlarını ifadə edir. *Fəthi-bab* izafəti isə klassik əsərlərdə daha çox "xeyrə açılan qapı" və ya "sirləri açan" anlamlarında işlənmişdir. Məsələn, Qazi Bürhanəddində: *"Oyandı şimdi dilər qıla fəthi-bab gözüm"* [8, s. 139]; Məhəmməd Füzulidə: *"Surətinlə tapdı surət mə'rifət mülkü tamam, Etdi mə'na gəncini miftahi-kilkin fəthi-bab"* [10, II, s. 251].

Amma Nəsiminin *"Ayəti-fəthi-babam, sureyi-Mürsəlatam"* [7, II, s. 88] nümunəsində, kontekstdən çıxış edərək deyə bilərik ki, ikili məna müşahidə olunur: Quranın açılışı olan Fatihə surəsi və sirləri açan əlamət, nişan. Ümumiyyətlə Nəsimi yaradıcılığında iki və daha çox mənanın eyni anda verilməsi xarakterik xüsusiyyətdir. Belə nəticəyə gəlmək olar ki, *fəthi-bab* çoxmənalı divan ədəbiyyatı terminidir.

Ayəti-"inna fətəhna" – "inna fətəhna" ayəsi. "İnna fətəhna" (həqiqətən, biz zəfər bəxş etdik) Fəth surəsinin 1-ci ayəsinin qısaldılmış formasıdır. Ayənin bütöv şəkli belədir: *"(Ya Peyğəmbər!) Həqiqətən Biz sənə açıq-aşkar bir fəth bəxş etdik"* [9, s. 510]. Şair yuxarıda göstərilən beytdə "inna fətəhna" qurani ifadəsini ərəbcə mənasında deyil, ayənin adı kimi istifadə etməklə onu terminləşdirmiş olur. Deməli, burada semantik üsulla terminləşmə baş verir. Klassik əsərlərdə bu qurani ifadənin həm ayə, həm də surə adı kimi nominativləşməsi müşahidə olunur. Məsələn, XIII əsrə aid "Xavərnamə" [5, s. 203], XIV ərs abidəsi Mustafa Zəririn "Fütuhü-ş-Şam" əsərində [12, s. 557] və XIX əsrdə yazılmış "Dərbəndnamələr"də [Dərbənd., s. 54] "inna fətəhna" surə adı kimi göstərilir. Nəsiminin aşkar təsiri ilə yazıb-yaratmış Cahanşah Həqiqi (XV əsr) *"Surətin inna-fətəhnadır, xətin ümmül-kitab, Şol cəhətdən arifin yövmül-hesabıdır yüzün"* [3, s. 57] beytində *inna fətəhna* qurani ifadəsini terminləşdirərək istifadə edir.

Ayəti-"inni-ənəllah" إِنِّي أَنَا اللَّهُ – "Həqiqətən, mən Allaham" ayəsi deməkdir. *"İnni-ənəllah"* ("Həqiqətən, mən Allaham") ifadəsi Qasas surəsinin 30-cu ayəsindən götürülmüşdür: *"(Musa) odun yanına gəlib çatdıqda vadinin sağ tərəfində olan mübarək yerdəki ağacdan belə bir nida gəldi: "Ya Musa! Aləmlərin Rəbbi olan Allah mənəm!*" [9, s. 388]. Nəsimi *"inni-ənəllah"* xitabını

öz şeirlərində semantik yolla terminləşdirərək istifadə edir: gah ayənin adı kimi – *"Ayəti "inni-ənəllah"əm, bu narin nuriyəm"* [11, s. 178], gah "xəmriyyə" şeir üslubuna[4] keçərək aşiqləri ekstaz hala salan ilahi xitab badəsi kimi – "Saqiyi-inni-ənəllah cür'əsi" [7, II, s. 24], gah da ifadənin komponentlərindən birini ixtisara salaraq ilahi odun adı olaraq istifadə edir – *"Ənəllahın odundan kim, yanağın şəm'i yandırdı"* [6, II, s. 257].

Lakin bütün bunlarla yanaşı, Nəsimi bu ifadəni həqiqi mənasında da işlədir: *"Musiyə söylədi "ənəllah" – nar"* [7, II, s. 239]. Orta əsr klassik əsərlərdə məhz bu məna müşahidə olunur: C.Həqiqidə *"Şəcərdə "inni ənəllah" söylədi Xaliq"* [3, s. 105], "Şeyx Səfi təzkirəsi"ndə *"Çün gəlür "inni ənəllah"un səsi ağacdən"* [13, s. 437]; Şirazın "Gülşəni Raz" əsərində *"İrə səm'inə «inni ənəllah»"* [14, s. 184] və s.

Ayəti-Tahavü Yasin – Taha və Yasin ayəsi. Taha və Yasin surə adlarıdır. Yasin sözündəki ya (يا) xitab bildirir. Hürufilikdə *sin* (س) Məhəmməd peyğəmbərdir.

"Dilbəra, şəmsüzzühadır ayəti-rüxsarınız,
Ayəti-tahavü yasin surəti-didarınız" [6, II, s. 68].

Ayəti-Turü Sinin – Muminun surəsinin 20-ci ayəsindən iqtibas edilmişdir: *"Və (Sizin üçün) Sina dağından çıxan bir ağac da (yaratdıq ki), o, həm yağ, həm də yeyənlər üçün (çörəyin üstünə yaxılan) bir şirə (yavanlıq) yetirir"* [9, s. 342].

"Tə'vil eylə ayəti-Turü Sinin" [7, II, s. 294].

Ayəti-yöhyül-izam və hiyə rəmim (آيت يحيي الْعظام وَهي رمِيم) – *"Çürümüşkən sümükləri kim dirildəcək?"* ayəsi. *Yöhyül-izam və hiyə rəmim* Yasin surəsinin 78-ci ayəsindən iqtibas edilmişdir: *"Öz yaradılışını unudub: "Çürümüş sümükləri kim dirildə bilər?!" – deyə, hələ Bizə bir məsəl də çəkdi"* [9, s. 444].

Görün bu çeşmeyi-heyvanləbi ki, şə'nində,
Gəlibdir ayəti-yöhyülizamü və hiyə-rəmim" [7, II, s. 93].

Nəsimi burada *ayəti-yöhyülizamü və hiyə-rəmim* deyərkən Yasin surəsinin 78-ci ayəsinə xatırlatma və ya adı olaraq işlədir.

Beləliklə, gəldiyimiz nəticə əsasında deyə bilərik ki, Nəsimi yaradıcılığında *ayət* (آيت) termini Nəsiminin dilində iki məna ifadə edir: 1) nişan, əlamət. 2) Quran surələrində cümlələrdən hər birinin adı. Nəsiminin dilində *ayət* termininin bir çox qurani ifadə və ayələrlə fars izafətini əmələ gətirdiyi müşahidə olunur: *ayəti-fəthi-bab, ayəti-"inna fətəhna", Ayəti-səb'ül-məsani, Ayəti-"Taha"vü "Yasin", ayəti-"Turü Sinin", ayəti-"yöhyül-izam və hiyə rəmim".* Bu birləşmələrdə birinci tərəf olan *ayət* termini ikinci tərəfi terminləşdirmək, nominativləşdirmək rolunu oynayır.

Ədəbiyyat siyahısı

1. Azadə Mustayeva. Dədə Ömər Rövşəni əlyazmaları üzərində araşdırmalar. (2 cilddə). I cild. (elmi-tənqidi mətn). Bakı, Nurlan 2003. 477 səh.

2. Qəhrəmanov, Cahangir (1973). İmadəddin Nəsimi. Elmi-tənqidi mətnin tərtibi və müqəddimə Cahangir Qəhrəmanovundur. 3 cildlik. Əski əlifba ilə. Bakı, "Elm" nəşriyyatı. I cild. 655 səh.

3. Cahanşah Həqiqi. Şeirlər, Bakı, "Şərq-Qərb", 2006, 152 səh.

[4] Ərəb ədəbiyyatında "şərab" mövzusuna həsr olunan şeirlər.

4. Dərbəndnamələr. Bakı: Nurlan, 2010.
5. Dini-qəhrəmanlıq dastanı "Xavərnamə". Tərtib edən, transfoneliterasiya, nəşrə hazırlayan, müqəddimə və lüğətin müəllifi: Aybəniz Mustafa qızı Rəhimova. Bakı:, "Elm və təhsil", 2017, 530 səh.
6. İmadəddin Nəsimi. Seçilmiş əsərləri. İki cilddə. I cild. Bakı: Lider nəşriyyat, 2004.
7. İmadəddin Nəsimi. Seçilmiş əsərləri. İki cilddə. II cild. Bakı: Lider nəşriyyatı, 2004.
8. Qazi Bürhanəddin. Divan. Bakı, "Öndər nəşriyyat'', 2005, 728 səh.
9. Quran-kərim və Azərbaycan dilinə tərcüməsi. Yenidən işlənmiş XVI nəşr. Ərəb dilindən tərcümə üdənlər: Z.M.Bünyadov, V.M.Məmmədəliyev. "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi, Bakı, 2014, 1248 səh.
10.Məhəmməd Füzuli. Əsərləri. Altı cilddə. V cild. Bakı: Şərq-Qərb, 2005
11.Mövlanə Seyid İmadəddin Nəsimi Əbülfəzl. İraq divanı. Tərtibçi: Qəzənfər Paşayev. Redaktor, lüğət və şərhlər – Məmmədəli Əsgərov. Bakı: 1987, 240 səh. PDF.
12.Mustafa Zərir. Fütuhüş-Şam (Şamın fəthi). Mətnin transfoneliterasiyası. Əlyazmanın mətnini transfoneliterasiya edib nəşrə hazırlayan, ön sözün müəllifi, izahlar və lüğətin tərtibçisi: Vahidə Cəfərzadə. Bakı, "Zərdabi Nəşr" MMC, 2022, 1200 səh.
13.Şeyx Səfi təzkirəsi («Səfvətüs-səfa»nın XVI əsr türk tərcüməsi). Tərtib edəni: Möhsün Nağısoylu. Bakı: Nurlan, 2006, 932 s. https://bit.ly/45azycG
14.Şirazinin «Gülşəni-raz» tərcüməsi. Filoloji-tekstoloji araşdırma, mətnin transfoneliterasiyası: Möhsün Nağısoylu. Bakı: «Elm və təhsilw, 2011. – 380 səh.

The Quranic term "ayat" in Nasimi's work

The works of the prominent representative of Azerbaijani Sufi literature, the poet of the Hurufi faith Imadeddin Nasimi are extremely rich in Koranic terms. One of them is the lexical unit *ayat* (آیت). This term is used in the Koran as an ayah 87 times. In the language of Nasimi, it is noted that it is used in two meanings: 1) a sign, an omen. 2) The name of each sentence in the suras of the Koran. It is noted that in the language of Nasimi, the term "ayat" forms the Persian izafat with many Koranic expressions: *ayəti-fəthi-bab, ayəti-"inna fətəhna", Ayəti-səb'ül-məsani, Ayəti-"Taha"vü "Yasin", ayəti-"Turü Sinin", ayəti-"yöhyül-izam və hiyə rəmim".*

Keywords: verse, Quran, surah, Nasimi, term

AZƏRBAYCAN TOPONİMLƏRİ YUNAN MƏNBƏLƏRİNDƏ

Ülkər Mirzəyeva
Azərbaycan Milli Elmlər Akademiyası
Nəsimi adına Dilçilik İnstitutu

Azərbaycan ərazisi tarixin qədim dövrlərinə işıq tutan zəngin onomastik vahidlərə malikdir. Bu toponimlər, hidronimlər, oronimlər, etnonimlər bugün bizlər üçün sadəcə ad kimi görünsə də, antik tarixi qaynaqlarda bu sözlərin hər biri qədim Azərbaycan sakinlərinin kimliyini, qonşularını, onlarla iqtisadi-ticari, siyasi-hərbi əlaqələrini, qısaca dövrün mənzərəsini canlandıran nümunə kimi diqqəti cəlb edir. Bu məsələdə ən qədim tarixi faktlar isə yunan qaynaqlarıdır. Qədim yunan mənbələrində təkcə yunan xalqının tarixi deyil, onlarla qonşuluqda olan, bu və ya digər şəkildə onlarla hərbi-siyasi-ticari əlaqələrin olduğu xalqların da tarixini öyrənmək mümkündür. Bu qaynaqlara Azərbaycanşünaslıq aspektindən yanaşdıqda, çoxsaylı antroponim, toponim, hidronim, etnonim, teonim, oronim və oykonimin qədim yunan qaynaqlarında öz əksini tapdığını görmək mümkündür. Strabonun, Klavdi Ptolemeyin, Homerin, Plutarxın, Miletli Hekateyin, Herodotun, Homerin, Ksenofonun və sair qədim yunan müəlliflərinin əsərlərində Azərbaycanın bir çox antroponim, etnonim, toponim, hidronim və oronimlərinin adları çəkilmişdir. Ölkəmizin antik dövrə aid olan toponimləri daha çox türk dünyasının qüdrətli, nüfuzlu, cəngavər hökmdarları, xaqanları, sərkərdələrinin adları və onların başçılıq etdiyi tayfa və qəbilələrin adı əsasında formalaşmışdır. Ümumiyyətlə, antik yunan mənbələrində Azərbaycan ərazisi ilə bağlı çoxsaylı yer adları işlənmişdir ki, onların böyük əksəriyyəti türk mənşəli tayfa və qəbilə adları əsasında formalaşmışdır. Muğan, Muğanlı, Biçənək, Qurqar, Qarqar, Qəbələ, Kəngərli, Çıraqlı, Gödəkli, Dondarlı, Zod, Şəki, Şamaxı və s. toponimlərin mənşəyi eyniadlı etnonimlərlə bağlıdır. Eramızdan əvvəl VI-V əsrlərdə yaşamış Miletli Hekatey əsərində muk və dondar tayfaları ilə yanaşı, Araz və Hirkan dənizi hidronimlərini də qeyd etmişdir. Bu baxımdan Herodot "Coğrafiya" əsərində skut, sak, kimmer tayfaları, Kaspi dənizi, Midiya, Atropatena, Albaniya dövlətləri haqqında zəngin məlumat vermişdir. Antik yunan müəllifi Strabonun "Coğrafiya" əsəri isə Qafqaz Albaniyası, Atropotenanın ərazisi və onların etnik tərkibi haqqında məlumatların əldə edilməsi üçün ciddi mənbə sayılır. O, bu əsərində Qafqaz Albaniyası əhalisinin 26 dildə danışdığını göstərmiş və alban, gel, leq, qarqar, sirak, sak, massaget, kaspi və sair tayfa adlarını çəkmişdir. Bununla yanaşı, Albaniyadakı Kür çayı, Araz çayı, Kaspi vilayəti, Kaspi / Hurkan dənizi, Qoqar yurdu və sair hidronim və toponimlərini qeydə almışdır. Roma tarixçisi Dion Kassinin 80 cilddə olan "Roma Tarixi" əsəri albanlar və atropatenalıların Roma müdaxiləsinə qarşı mübarizəsini işıqlandıran məlumatları mühüm əhəmiyyət kəsb edir. Türkmənşəli leksik vahidlərdə qədim yunan dilinin fonetik tərkibindən asılı olaraq bu dilin təbiətinə uyğunlaşma prosesi getmişdir. Antik mənbədə mühafizə olunmuş onomastik vahidlər yunan dilinin qrammatik qaydalarına uyğun şəkildə yazıya alındıqlarına görə yəni, adların sonuna hal şəkilçilərinin əlavə edilməsi, samitlərin qoşalaşdırılması,

türkmənşəli onomastik vahidlərin antik dilin qaydasına uyğun olaraq, müəyyənlik artiklı və cins göstəricisi ilə işlənməsi, xüsusi adların tərkibində olan saitlərin bu dilin dialektlərinin təsiri ilə fərqli saitlə yazılması, metateza, həmçinin daralma hadisəsinin baş verməsi, qədim yunan dialektlərinin təsiri ilə türkmənşəli adların əvvəlində olan saitlərin sərt və yumşaq tələffüzü, xüsusi adlarda işlənən diftonqların, qoşa samitlərin həmin dilin qaydasına uyğun olaraq, fərqli şəkildə tələffüz edilməsi türkmənşəli onomastik vahidlərin yazılış və tələffüz formalarına təsir etmişdir. Ona görə də bu toponimlər leksik vahid kimi dildə həmin dilin inkişaf tarixi ilə və həmçinin ekstralinqvistik amillərlə əlaqədar olaraq, fonetik və qrammatik cəhətdən zamanla dəyişikliyə uğramış şəkildə bu günümüzə gəlib çatmışdır. Bu toponimlər ekstralinqvistik təsirlərə məruz qalmasına baxmayaraq, onlar xalqın etnik təfəkkürünü, dilini, milli mənsubiyyətini özündə qoruyub saxlamışdır. Tarixi Azərbaycan torpaqlarının bir hissəsində mövcud olmuş qədim dövlətlərdən biri də Atropatenadır. Albaniyada yaşamış türkdilli tayfalardan qarqar, şirak, peçeneq tayfalarının bir qismi Atropatenada da məskunlaşmışlar. Azərbaycan xoroniminin etimologiyası mövzusunda bir sıra araşdırma aparan tədqiqatçılar bu xoronimi *"atəşpərəstlər yurdu", "odu mühafizə edən"* kimi təhlil edərək, bu ölkə adının qədim yunan mənbələrində qeyd olunan Midiya satrapı Atropatın adı əsasında yarandığını qeyd edirlər. Azərbaycan sözü qədim mənbələrdə Atropatena, Aturpatakan, Andarpatkanu/Andarpatakan Adorbiqan, Adarbiqan, Adirbican, Adərbaycan şəkillərində işlənmişdir. M.Kaşğarinin "Divan"a əlavə etdiyi xəritədə bu ad Adzerbadkan şəklindədir. A.Axundov bu barədə yazır: *"Respublikamızın adı olan Azərbaycan toponimi yer adları içərisində ən çox tədqiqat obyekti olan sözlərdəndir. İndiyədək bu yer adı "odlar ölkəsi","od allahı ölkəsi", "atəşpərəstlərin yeri", "Atropat ölkəsi", "Şimal küləyi əsən ölkə" və s. mənaları bildirən söz kimi izah edilmişdir"* [1, s.77]. V.Aslanov Azərbaycan sözündə az hissəsini kas tayfa adı ilə bağlayır və mənasının odla bağlılığını Zərdüştlükdən çox-çox əvvəlki dövrlərə aid olduğunu qeyd etmişdir [2, s.20]. Ə.Dəmirçizadə isə Azərbaycan adı ilə əlaqələndirilən Atropatın əslində xüsusi bir ad olmadığını qeyd etmişdir. Müəllif bu barədə yazır: *"Azərbaycan" sözünün bu şəkildə təşəkkülü Midiya dövlətinin Haxamaniş sülaləsindən sonra yenidən bərpa edilməsi, böyük və kiçik adlanan midiyaların əmələ gəlməsi dövrü ilə əlaqədardır. Məhz buna görə də, bəzi tarixçilər bu adı həmin dövrdə Midiyada valilik edən Atrapın adı ilə əlaqələndirmişlər. Fikrimizcə, bu ad, yəni "Atrap" adı əslində xüsusi bir ad deyildir və Midiya padşahlarının adları kimi, bu da ümumi təsviri bir ad, daha doğrusu rütbə bildirən bir sözdür, müəyyən ictimai məzmunlu bir ləqəbdir"* [4, s.14]. Strabon isə Azərbaycanın qədim dövlətlərindən biri olan Atropatenanın dolğun şəkildə tarixi - coğrafi arayışlarını "Coğrafiya" əsərinin XI kitabında yazır: *"ἡ δε Μηδια διχα διῄρηται: καλουσι δε την μεν μεγαλην, ἧς μητροπολις τα Ἐκβατανα, μεγαλη πολις και τὸ βασιλειον ἔχουσα της Μηδων ἀρχης. ἡ δ' ἑτερα μερις εστιν ἡ Ατροπάτιος Μηδια"* [8, s.302]. *(Midiya iki hissəyə bölünür. Onun bir hissəsi Böyük Midiya adlanır, onun paytaxtı Midiya imperiyasının kral iqamətgahını özündə birləşdirən böyük şəhər olan Ekbatanadır Digər hissəsi isə adını komandir Atropatdan almış Atropat Midiyasıdır).* Göründüyü kimi Ə. Dəmirçizadədən fərqli olaraq Strabon *rütbə*

bildirən bir söz kimi yox, Atropat Midiyası haqqında məlumat verir. Strabonun əsərində, həmçinin digər yunan müəllifləri olan Polibinin və Arrianın "Anabasis"ində bu ölkənin adı "η Ατροπατηνη" [he atropatene] kimi xatırlanır. Bu toponim antik mənbədə adı çəkilən "Ατροπατ" [atropat] şəxs adından və yunan mənşəli "-ηνη" [ene] şəkilçisindən ibarətdir. Bu yer adı qədim yunan dilində qadın cinsli ismin birinci növ hallanmasında "-ηνη" [ene], ηνης [enes], ηνῆ [enei], νην [nen], ηνη [ene] məkan, yer anlayışı bildirən müxtəlif hal şəkilçiləri ilə işlənmişdir.

Q.Qeybullayev bu xüsusda yazır: *"Atropat adı qədim yunan və latın dilində yazılış formasıdır. Atarpatakan və Azərbaycan adlarından görünür ki, Atropat şəxs adının əsl forması Atarpad, yaxud Adarpat idi"* [7, s.159]. Fikrimizcə, Atropat adındakı dəyişiklik qədim yunan dilindəki metateza hadisəsi ilə əlaqədardır. Çünki yunan dilində metateza hadisəsi daha çox qısa saitlə sonor samitin yerinin dəyişməsi nəticəsində baş verir. Bu dildə bəzən saitlə sonor samitin xüsusilə də ρ [r] və λ [l] samitinin yerdəyişməsi hadisəsi baş verir. Məsələn, antik yunan dilinin ion-attik dialektində metateza hadisəsi baş vermiş θρασος [trasos] yaxud θαρσος [tarsos]-(cəsarət), κρατοσ [kratos] yaxud καρτοσ [kartos]- (güc) və sair sözləri buna misal göstərmək olar. Bu qaydaya uyğun olaraq, Aturpat/Atorpat/Atarpat xüsusi adında da qədim yunan dilinin təsiri ilə metateza hadisəsi baş verərək, antik müəlliflərin əsərlərində Atropat şəklində qeyd olunmuşdur. Azərbaycan torpaqlarının ayrılmaz hissəsi olan Qafqaz Albaniyası ən qədim zamanlardan bəri Azərbaycan xalqının yaranmasında, təşəkkülündə iştirak edən müxtəlif etnosların, tayfaların məskunlaşdığı ərazidə yaranmışdır. Albaniya dövləti və Albaniyada məşkunlaşan alban etnosu haqqında daha geniş şəkildə məlumatı yunan tarixçi və coğrafiyaşünası Strabon 17 cildlik "Coğrafiya" əsərinin 11-ci cildində vermişdir. Əsərdə "**ἡ Ἀλβᾱνί̓ᾱ** [he albania] şəklində qeyd olunan bu xüsusi ad toponim deyil, etnotoponimdir. Bu ad iki komponentdən "Αλβαν" [Alban] etnonimindən və antik yunan dilində "ölkəsi" mənasını ifadə edən ί̓ᾱ [ia] şəkilçisindən ibarətdir. N.Əsgərov qeyd edir ki, alban\\alpan onimi etnonim kimi igidlər, qəhrəmanlar kimi, toponim kimi isə hündür yer, uca ərazi kimi qəbul edilməlidir [5, s.48]. Q.Kazımov Alban etnotoponimlərinin çoxunun fonetik dəyişikliklərlə Qəbələ və Göyçay arasında "Alvan" dərəsində, Cənubi Azərbaycanın Əhər mahalında "Alvan" kəndində, Təbriz yaxınlığında "Alvanaq" kəndində, Kolatağ çayının Xaçınçaya töküldüyü yerdə "Ağvan" istehkamında; Zəngəzurda "Ağvanlı" kəndində, Şuşa yaxınlığında "Ağvan" xarabalığında və sair yerlərdə qaldığını qeyd edir. [6, s.357]. Aydın olur ki, Alban etnonimi öz izlərini oykonim, oronim, hidronimlərdə qoruyub saxlamışdır. **Klavdi Ptolemey "**Coğrafiya dərsliyi" əsərinin birinci cildində Qafqaz Albaniyasının hüdudlarını göstərməklə yanaşı, bu ölkənin bir çox şəhər, kənd, iri yaşayış məskənləri və çaylarının da coğrafi təsvirini vermişdir. Məlumdur ki, Albaniyanın paytaxtı isə əvvəlcə Qəbələ, sonra isə Bərdə şəhəri olmuşdur. Azərbaycanın ən qədim şəhərlərindən biri olan Qəbələ Klavdi Ptolemeyin əsərində Midiyanın şəhərlərindən biri kimi "Γαβάλη" [qabale], Albaniya dövlətinin ən iri yaşayış məskənlərindən biri kimi "Χαβάλα" [kabala] şəklində qeyd olunmuşdur. Azərbaycanda şəhərsalma mədəniyyətinin ən qədim sənətkarlıq, mədəni və inzibati mərkəzlərindən biri Şamaxı şəhəridir.

Klavdi Ptolemey "Coğrafiya" əsərinin V kitabının XI fəslində adı çəkilən Albaniyanın 29 şəhərindən biri kimi "Μαμεχία"-nı [mamekia] qeyd etmişdir. A.Bakıxanov da Ptolomeyə əsaslanaraq, Şamaxı toponimini türkmənşəli Kam və ya Kamak tayfası ilə əlaqələndirir [3, s.17].

Beləliklə, qədim yunan mənbələri əsasında aparılan araşdırmalardan məlum olur ki, türkmənşəli etnonimlərin yaranma tarixi və mənşəyi eramızdan əvvəlki dövrlərə söykənir. Herodotun, Strabonun, Homerin, Klavdi Ptolemeyin, Ksenofonun, Homerin və sair antik müəlliflərin əsərlərində işlənən etnotoponimlər antik dilin dialektlərinin təsiri ilə fonetik və qrammatik cəhətdən dəyişikliyə uğramasına baxmayaraq, öz izlərini tarixi torpaqlarımızda qoruyub saxlamışdır.

Ədəbiyyat

1. Axundov, A .Torpağın köksündə tarixin izləri /A. Axundov. –Bakı: – 1983.-77s.

2. Aslanov, V. Azərbaycan dilinin tarixinə dair tədqiqlər[2 cilddə]/ I cild. / V. Aslanov. –Bakı: – Elm nəşriyyatı. –155s .

3. Bakıxanov, A. Gülüstani İrəm / A. Bakıxanov. – Bakı: Azərbaycan SSR Elmlər Akademiyası, –1951. –302 s.

4. Dəmirçizadə, Ə .50 söz / Ə. Dəmirçizadə . –Bakı, –38 s.

5. Əsgərov, N.Ə. Azərbaycan çay adlarının tarixi–linqvistik təhlili / N.Əsgərov. –Bakı: Elm və təhsil, – 2013. – 575 s.

6. Kazımov, Q. Azərbaycan dilinin tarixi. Ənqədimdövrlərdən XIII əsrəqədər / Q. Kazımov. –Bakı: Təhsilnəşriyyatı, –2003.

7. Qeybullayev, Q. Azərbaycan türklərinin təşəkkülü tarixindən/ Q.Qeybullayev. –Bakı: Azərnəşr, –1994. –248 s.

8. Strabo.The geography of Strabo. With an English translation by Horace Leonard Jones, Ph.D., LL.D. In eight volumes volume V London: William Heinemann Ltd Cambridge, Massachuets Harvard University press. –1961–562 p

AZERBAİJANİ TOPONYMS IN ANCIENT GREEK SOURCES

Summary

This article is about appeal onomastic units used in ancient Greek. This work tells about investigation of toponyms, ethnotoponyms mentioned in ancient greek sources. The origin of etnonym, its geographical development, destruction, or transformation to other qualities, in other words, all history of ethnonym is related to the history of ethnos in one way or another. The works of ancient Greek authors contain many etnonym, toponym, anthroponym, teonim. This also shows that archaic contents of the onomological lexicon of the Azerbaijani language were used in the works of ancient Greek authors.

ANAR ƏSƏRLƏRİNDƏ BƏZİ KTEMATONİMLƏRİN ÜSLUBİ XÜSUSİYYƏTLƏRİ

Püstəxanım Babayeva
Bakı Slavyan Universiteti, doktorant
pbabayeva93@gmail.com

Bədii ədəbiyyatda və folklor nümunələrində onomastik vahidlər – yəni şəxs, məkan, əşya və digər xüsusi adlar – təkcə adlandırma funksiyasını daşımır. Bu adlar eyni zamanda mətnin emosional dərinliyini, estetik təsir gücünü və simvolik qatlarını formalaşdırır. Nağıllarda, dastanlarda, əfsanələrdə işlənən xüsusi adlar oxucuya həm mənəvi, həm də tarixi kontekst təqdim edir. Məsələn, "Ağ qoç və qara qoç" əsərində yer alan Məlik Məhəmməd, Burla, Beyrək kimi adlar sadəcə personajlar deyil – onlar qəhrəmanlıq, sevgi və əfsanəvi keçmişlə bağlı mənalar daşıyan simvollara çevrilir. Onomastik vahidlər yalnız bədii üslubda deyil, eyni zamanda dilin leksik sistemində fundamental yer tutur. Hər nə qədər xüsusi və ümumi adlar arasında bölgü olsa da, bu vahidlər kontekstdən asılı olaraq müxtəlif üslubi funksiyalar qazana bilər. Yəni, bir ad həm neytral informasiya verə, həm də tarixi, mədəni və emosional yüklə çıxış edə bilər. Məsələn, Beyrək adı konkret bir obrazın adı olsa da, onunla yanaşı qəhrəmanlıq, igidlik, türk dünyası yaddaşı da çağrış etdirilir. Bu baxımdan, onomastik vahidlər bədii mətnlərdə yalnız dil vahidi kimi deyil, semantik və estetik qatların açarı kimi çıxış edir. Onlar vasitəsilə yazıçı mətni daha canlı, təsirli və çoxqatlı edir, oxucunun düşüncə və duyğularına birbaşa təsir göstərir. M.Qorbanevskiy qeyd edir ki, xüsusi adlar bədii əsərlərin ayrılmaz komponentlərindən biridir və yazıçının obraz yaratma üsullarından biri kimi çıxış edir. Müəllifin seçdiyi hər bir ad, əsərin əsas ideyasına və məqsədinə uyğun olmalı, eyni zamanda müəyyən üslubi çalarlara malik olmalıdır. Bu səbəbdən də, bədii ədəbiyyatda istifadə olunan bütün xüsusi adlar mütləq şəkildə "danışan ad" funksiyasını daşımır [4, s.4].

Bədii mətnlərdə xüsusi isimlərin funksiyası daha geniş və çoxşaxəlidir: onlar obrazların fərdi xüsusiyyətlərini və xarakterik cizgilərini önə çıxarmaq üçün vacib vasitə kimi çıxış edir. Məsələn, Anarın əsərlərində işlənən antroponimlər təkcə personajların kimliyini müəyyənləşdirmir, eyni zamanda onların sosial mövqelərini və daxili keyfiyyətlərini də əks etdirir. Bu barədə M. Adilov yazır: "Yazıçı Anarın *Sizi deyib gəlmişəm* (Bakı, 1984) kitabının adına diqqət yetirin. Bu ad təsadüfi seçilmədiyi kimi, oradakı Xəbərçi Xədicə, Lül Qəmbər, Soobrazim Natroixov, Çaxiryan, Kindzmarauli, Şaltay Baltayev, Atdı-yatdı, Batdıqaldıyev, Hayıl Mayılov ("Məlumat"), Gülməşəgər kəndi, "Qırmızı pambıq" kolxozu, Vəli Vəliyev, Yalan Palanov, Dedi Qoduyev, Boşboğazov ("Gülməşəkər kəndinin sabahı") kimi xüsusi adlar da müəllifin əsas ideyası ilə vəhdət təşkil edir" [1, s.11]. Anarın yaradıcılığında diqqət çəkən üslubi adlardan biri də Novruz Bayramlı adıdır. Məsələn: *"Burdan alışdırılan məşəli Bakıya ağ atlı oğlan Novruz Bayramlı yetirəcək"* [s.346]. Bu ad yalnız bir şəxsi tanıtmaqla

kifayətlənmir, həm də Novruz bayramının simvolikası ilə bağlı dərin mədəni məna daşıyır. "Ağ atlı oğlan" obrazı isə xalq ədəbiyyatında, xüsusilə nağıl və dastanlarda xeyirxahlığın və qəhrəmanlığın simvolu kimi qəbul olunur. Beləliklə, müəllif Novruz bayramının bahar, yenilənmə və ümid rəmzi kimi anlamlarını qəhrəman obrazına yükləməklə milli-mədəni konteksti gücləndirir. Bu cür adlar və obrazlar vasitəsilə əsərdə milli kolorit formalaşır və oxucuya emosional, simvolik mesajlar daha dolğun şəkildə çatdırılır. Anarın əsərlərində yer alan ktematonimlər sadəcə adlar deyil, keçmişlə bu gün, mədəniyyətlə fərdi yaddaş arasında qurulan körpülərdir. O, bu adlarla oxucunu zamanlar və məkanlar arasında səyahətə çıxarır, fərqli dövrləri, müxtəlif mədəniyyətləri bir araya gətirərək mədəni kollaj yaradır. Məsələn *Qurani-Kərim, Şahaya, Sazan dəniz travayı, Piri Rəis xəritəsi, Qıpçaq şərabı, Səbail qəsri, Şeyx Səfi xalçası, Qaravəlli, Kilimarası, Şəbih, Zorxana, Yeddi gözəl və s.* Anarın əsərlərində işlənən ktematonimlər – yəni məkan və obyekt adları – onun üslubunun əsas özəlliklərindən biridir. Bu adlar sadəcə ad olaraq təqdim edilmir; onlar çoxqatlı mənalar, mədəni çağırışlar və simvolik yüklərlə bədii mətnin strukturuna daxil edilir. Gəlin bu dəfə muzey, universitet və muğam adları üzərindən Anarın üslubunda bu ktematonimlərin necə funksionallaşdığına nəzər salaq: *Şah İsmayıl Xətai Muzeyi, Ziya Bünyadov adına Ordu Muzeyi*, *Hacı Zeynalabdin Çağdaş Sənət Muzeyi* və digərləri Anarın mətnlərində sadəcə ziyarət edilən məkandan daha artıq bir şeydir. Bunlar tarixi təfəkkürün canlı daşıyıcıları, şəxsiyyət mərkəzli xatirə institutları kimi təqdim olunur. Bu adlar vasitəsilə Anar tarixi şəxsiyyətlərin mirasını vurğulayır, oxucunu kollektiv yaddaşla təmasa dəvət edir, mətndə statik zaman hissini pozur, keçmişi indinin bir hissəsi kimi təqdim edir. Anarın mətnlərində yer alan ktematonimlər sadəcə coğrafi və mədəni göstəricilər deyil – bunlar milli yaddaşın, tarixin, mifin və fərdi təxəyyülün qovuşduğu məkansal və simvolik dayaq nöqtələridir. O, abidə və heykəl adlarını istifadə etməklə oxucunu həm tarixi düşüncəyə, həm də emosional təcrübəyə yönəldir. Məsələn, *Xocalı anıtı* yalnız bir faciənin xatırlanması deyil, kollektiv yaddaşın mərkəzinə çevrilən bir səssiz fəryaddır. Dirəniş abidəsi və Zəfər Tağı isə məğlubiyyətdən qələbəyə aparan yolun bədii nişanələridir. Sultan Toğrul, Alp Arslan, Məlik şah kimi heykəllər yalnız tarixi şəxsiyyətləri deyil, dövrlərin xarakterini təmsil edir. Nağıl qəhrəmanları – Cırtdan, Göyçək Fatma, Ovçu Pirim – real tarixin sərtliyinə qarşı duran xalq təxəyyülünün yumşaq gücüdür. Onlar Anarın mətni içində uşaq təbəssümünü, nostaljini və dərin mənəvi qatları oyadır. Xoruz baba və Qaraqaş kimi adlar isə nağıl simvolikasını ironiya ilə birləşdirərək mətndə həm uşaqcasına saf, həm də yetkin oxucuya ünvanlanmış çoxqatlı mənalar yaradır. Bulvar və bağlar – *Səməd Vurğun bağı, Xəzər bulvarı, Aşıqlar bulvarı* – mətndə sakitlik və poeziya ilə assosiasiya olunur. Bunlar yaşanmış anların, duyğuların və yaradıcılığın rəmzinə çevrilir. Qaraca oğlan bulvarı və Qaraqoyunlular bulvarı kimi adlar həm folklorla, həm də tarixi ilə oxucunu bir daha yaddaşa qaytarır. Bu tip adların Anarın mətnlərində yeri təkcə təsvir yox, simvolik və intertekstual qatlar yaradan açarlardır. Onlar vasitəsilə müəllif oxucunu keçmişə, mədəniyyətlərarası dialoqa və kollektiv kimlik axtarışı yönləndirir.

STYLISTIC FEATURES OF SOME CTEMATONYMS IN ANAR'S WORKS

Abstract

The ctematonyms used in Anar's works are an inseparable part of his literary style and creative philosophy. These names are not merely geographical or nominal references; they also carry the thematic and symbolic load of the narratives. Through ctematonyms, Anar preserves and promotes Azerbaijan's national and spiritual values, as well as its historical and cultural heritage. The ctematonyms in his works create a national atmosphere and transport the reader into a familiar cultural setting. Often, these names serve a symbolic function, emphasizing the main idea of the work. They also reinforce the realism of Anar's narrative technique. The use of specific place and personal names creates the impression that the events are drawn from real life, thereby drawing the reader more deeply into the world of the text. By employing ctematonyms, Anar seeks to reveal the inner world of his characters and their struggles with society and themselves.

Keywords: *Anar, works, stylistic features, ctematonyms* etc.

ƏDƏBİYYAT SİYAHISI

1. Adilov, M. Azərbaycan onomastikası / M. Adilov, A.Paşayev – Bakı: ADU, – 1984. – 88 s.
2. Anar, Seçilmiş əsərləri/ A. Bakı: Lider, –2004. –416 s.
3. Anar, Seçilmiş əsərləri/ A. Bakı: Nurlan, –2003. – c.6. –436 s
4. Горбаневский, М.В. Ономастика в художественной литературе / М.В.Горбаневский. – Москва: Издательство Российского Университета Дружбы Народов, – 1988. – 88 с.

FOLKLOR ONOMASTIKASININ LİNQVOKULTUROLOJİ XÜSUSİYYƏTLƏRİ

Rafiq Məmmədov
Bakı Slavyan Universiteti, dissertant
Rafiqmammadov63@gmail.com

Dil yalnız ünsiyyət vasitəsi deyil, həm də bir xalqın tarixi, mədəniyyəti, dünyagörüşü və mənəvi dəyərlər sistemini əks etdirən sosial-mədəni fenomendir. Onomastika – adların mənşəyini, quruluşunu və funksiyasını öyrənən elm sahəsi – bu baxımdan xüsusi əhəmiyyət kəsb edir. Xüsusilə, folklor mətnlərindəki onomastik vahidlərini həm dilçilik, həm də mədəniyyətşünaslıq baxımından tədqiq olunmağa böyük ehtiyac duyulur. Bu məqalədə folklor onomastikasının linqvokulturoloji aspektləri, yəni adların xalqın mədəni kodlarını necə daşıdığı və ötürdüyü məsələləri araşdırılır.

Folklor – xalqın yaddaşında nəsildən-nəslə ötürülən mədəniyyət nümunələrinin məcmusudur. Folklor nümunələrində rast gəlinən adlar – istər şəxs adları, istərsə də toponimlər və ya mifoloji varlıqların adları olsun – yalnız

formal dil vahidləri kimi deyil, həm də xalqın tarixi təcrübəsinin, dini dünyagörüşünün və mənəvi dəyərlərinin daşıyıcısı kimi çıxış edir.

Folklor onomastikasında adlar təkcə identifikasiya funksiyası daşımır, həm də semantik və simvolik məna yüklərinə malikdir. Bu adlar vasitəsilə personajların xarakteri, sosial mövqeyi, cəmiyyətdəki rolu və hadisələrə münasibəti haqqında bilgilər əldə olunur. Məsələn, "Div" adlandırması birbaşa olaraq qorxunc və dağıdıcı qüvvəni simvolizə edir, halbuki "Koroğlu" xalq qəhrəmanlığı və ədalət uğrunda mübarizənin simvoludur. Bu baxımdan onomastik vahidlər həm linqvistik, həm də mədəni semantika baxımından ikiqat yük daşıyır.

Adlar vasitəsilə xalqın milli-mədəni kimliyi ifadə olunur. Toponimlər bir regionun tarixi və etnik tərkibi barədə məlumat verir. Mifoloji adlar isə xalqın dini və mifoloji təsəvvürlərinin izlərini qoruyur. Məsələn, "Qaf dağları" ifadəsi yalnız coğrafi məkan anlamında deyil, həm də mifoloji və epik simvol kimi çıxış edir. Bu adların təhlili xalqın öz tarixi yaddaşını necə qoruyub saxladığını göstərir. Linqvokulturologiya dil və mədəniyyətin qarşılıqlı əlaqəsini öyrənən sahədir. Bu elmi yanaşmaya əsaslanaraq demək olar ki, folklor onomastikası bu iki sistemin kəsişdiyi məqamları açıq şəkildə ortaya qoyur. Adlar, həm semantik, həm fonetik, həm də mədəni aspektlərdə müxtəlif təbəqələrə malikdir. Onların təhlili yalnız dilçilik baxımından deyil, həm də mədəni kontekstlərdə aparıldıqda daha geniş və dərin məna spektri ortaya çıxır. Folklor onomastikası birbaşa xalqın mədəniyyəti ilə bağlıdır. Hər bir xalqın mədəniyyəti, mədəni dəyərləri dildə, xüsusilə də xalq danışıq dilinin güzgüsü olan folklorda reallaşır. "Sözlər məna mənbəyi, məna əlaqələrinin səciyyəsinə , öz ictimai vəziyyət və vəzifələrinə görə iki böyük qrupa: ümumi və xüsusi sözlər qrupuna ayrılır. Belə bir bölgü hələ antik filologiyada var idi. Birinci qrupa daxil olanlara qədim yunanlar onomata küria, romalılar nomina propria, ikinci qrupa daxil olanlara isə yunanlar proshqorial, romalılar appellativa deyirdilər" [1,s.318]. Linqvokulturologiya gənc elm sahələrindən olsa da, bu yeni elm sahəsinin təməlini təşkil edən əsas amillər haqqında daha öncəki ədəbiyyatlarda məlumat verilmişdir. Xalqın mədəniyyətinin, kulturologiyasının, adət-ənənsinin, məişətinin dil vasitəsilə öyrənilməsi fikrinin rüşeymləri bir xeyli illər əvvələ gedib çıxır. Linqvokulturologiyanın bir elm sahəsi kimi əsasını qoyanlardan ilk növbədə V. A. Maslovanın adını çəkmək olar [3, s.110]. R. Həbiblinin fikrincə, bu sahə dil və mədəniyyət əlaqələrinin yeni formalarının proqnozlaşdırılması üçün böyük potensiala malikdir. Onun tədqiqat obyekti mədəni informasiyanın ötürücüsü kimi dilin və bu mədəniyyəti yaradan insanın qarşılıqlı əlaqəsidir. Mədəniyyət fenomen kimi dilə münasibət bəsləyir. Milli mentallıq əlamətlərinə, onomastik leksikada, daha çox rast gəlinir. Linqvokulturologiyanı mədəniyyətlərarası kommunikasiya ilə sıx bağlıdır.

Linqvokulturologiya, "xalqın dildə əks olunmuş və təzahür etmiş mədəni" hadisələrini tədqiq edir [3, s.56]. Sivilizasiyaların, mədəniyyətlərin milli identikliyinin qorunub saxlanılır. Cəmiyyətdə, mədəniyyətdə xüsusiləşmə və unifikasiya müşahidə olunaraq aktuallıq kəsb edir. Dünyada kommunikativ proseslərin böyük qismi mədəniyyətlərarası ünsiyyətinə aiddir. "…məhz mədəniyyətlərarası kommunikasiya mədəniyyətlər arasındakı fərqlərə

əsaslanaraq, mədəniyyət normaları arasındakı fərqləri aradan qaldırmağa kömək edən dəyərlər sistemini işləyib hazırlayır" [2, s.8]. "Linqvokulturoloji aspektdə açar sözlər dünyanın mənzərəsini bədii şəkildə yaradır və bu zaman dünyagörüşlərdə qlobal dəyişikliklər baş versə belə dəyişilməz qalır. Belə ki, onlar insanın daha ümumi təsəvvürlər sistemi ilə birbaşa əlaqəlidir"[4, s.222].

Dünyanın bir çox ölkələrində əsrlər boyu yaşayıb-yaradan, dünya mədəniyyətinə böyük töhfələr verən, türklərin folklorunda onların çoxəsrlik mədəniyyəti qorunub saxlanılır. Vaxtilə çox böyük ərazidə yaşayan və əsrlər boyu türk mədəniyyəti və tarixinin qalıqları sübut edir ki, xalqın böyüklüyü, mənəvi zənginliyi Azərbaycan-Qarabağ folklorunda, bu folklorun zəngin janrlarında yaşayır. Xüsusilə, toy və yas nəğmələri , mövsüm nəğmələri, xalq oyunlarında əks olunur. Folklor onomastikası, xalqın düşüncə tərzini, mənəvi dəyərlərini, tarixi yaddaşını və mədəni kodlarını özündə daşıyan zəngin bir sahədir. Bu adlar sadəcə termin və ya isim funksiyası daşımır, həm də mədəniyyətin daşıyıcısı kimi çıxış edir. Folklor onomastikasının linqvokulturoloji təhlili, dil və mədəniyyət arasındakı qarşılıqlı əlaqənin dərindən anlaşılması üçün mühüm bir açardır. Adlar vasitəsilə xalqın kimliyini, inanclarını və estetik düşüncə sistemini anlamaq mümkündür. Bu səbəbdən folklor onomastikası həm dilçilik, həm də mədəniyyətşünaslıq üçün aktual tədqiqat sahəsidir.

LINGUOCULTURAL FEATURES OF FOLKLORIC ONOMASTICS

Abstract:

This article explores the linguocultural features of folkloric onomastics. Onomastics—the study of the origin, structure, and functions of names—occupies a significant place in folklore. The personal names, place names, mythological beings' names, and other onomastic units found in folklore texts are not merely linguistic elements; they are deeply connected to a nation's history, worldview, religious beliefs, and moral values. The article emphasizes that folkloric onomastics serves as a bearer of national and cultural identity. Through onomastic units, cultural codes, social relations, traditions, and religious perceptions of a people are transmitted from generation to generation. In folklore, names not only carry symbolic meanings but also help define characters' personalities, social status, and attitudes toward events. Furthermore, the article provides an analysis of various onomastic elements from a linguocultural perspective, demonstrating that such names are important materials for studying the traces of culture embedded in language.

Key words: folklore, onomastics, linguoculture, cultural code, personal names, place names, mythological names, folk culture, language and culture relationship.

ƏDƏBİYYAT:

1. Axundov A. Seçilmiş əsərlər 2 c. Bakı: Şərq-Qərb, 2005
2. Həbibli R.Y.Toponimlər linqvokulturoloji fenomenlər kimi.// Bakı Universitetinin Xəbərləri. №1, 2012, Humanitar elmlər seriyası. s. 5-11
3. Маслова В.А. Лингвокультурология. М.: Академия, 2001, 208с.

4. Чикина Е.Е. Выявление национально-культурной специфики фразеологизмов: современные подходы. http://www.russian.slavica.org/article5704.html

ONOMASTİK VAHİDLƏRDƏ KONVERSİYA PROSESİ

Validə Abbasbəyli
AMEA Nəsimi adına Dilçilik İnstitutu, dissertant
abbaslivalide97@gmail.com

Dil daim inkişaf və dəyişmə prosesində olan canlı sistemdir. Bu inkişaf prosesi müxtəlif mexanizmlər və yollar vasitəsilə baş verir. Azərbaycan dilinə məxsus hər bir onomastik vahid dilimizin tələb və qanunlarına uyğun yaranır və milli dil əlamətlərini özündə aydın şəkildə əks etdirir. Buna görə də onomastik vahidlərin yaranma yollarının öyrənilməsi dilin bir sıra problemlərinin həllinə xidmət edə bilər [1. s. 353]. Onlardan biri də **konversiya** – başqa sözlə, bir sözün heç bir morfoloji dəyişiklik olmadan başqa bir nitq hissəsinə keçməsidir. Bildiyimiz kimi, dildə müxtəlif sözyaratma prosesləri reallaşır. Bu proseslərdən biri də konversiya prosesidir. Konversiya prosesi daha intensiv halda flektiv dillərdə görülsə də, Azərbaycan dilində də bu proses vasitəsilə yeni sözlərin, dil vahidlərinin yaranmasının şahidi oluruq. Konversiya ümumilikdə dilin leksik-semantik zənginliyini və funksional çevikliyini artıran məhsuldar proseslərdən biridir. Bu proses **onomastik vahidlər** – yəni adlar sistemi daxilində də özünü göstərməkdədir. Məqalənin məqsədi onomastik sistemdə konversiya prosesinin əsas cəhətlərini, mexanizmini və funksionallığını araşdırmaqdır.

Konversiya (lat. *conversio* – çevrilmə) dilçilikdə bir sözün formal dəyişiklik olmadan funksional olaraq yeni nitq hissəsinə keçməsidir. Lakin konversiya ilə bağlı daha maraqlı hallar onomastik sistemdə meydana çıxır – məsələn, şəxs adlarının və ya yer adlarının ümumi isimlərə çevrilməsi və ya əks proseslər. S.Orucova konversiyanın əsasən flektiv dillərə xas olduğunu bildiriir. Lakin alim daha sonra qeyd edir ki, Azərbaycan dilində də konversiya hadisəsinə rast gəlinir [2. s. 58]. Konversiya onomastik vahidlərin nitqdə müxtəlif məqsədlərlə istifadə olunması zamanı ortaya çıxır. Konversiya onomastik vahidlərdə müxtəlif formalarda təzahür edir:

Sifətlərin ismə keçməsi. Məsələn, dilimizdə “nadir, adil, yaxşı, comərd, güllü, xoşbəxt, və s sifətlər vardır ki, onlar konversiya prosesi zamanı isim nitq hissəsinə keçərək onomastik vahid kimi, antroponim kimi dildə reallaşırlar. Bədii əsərdən nüumələrə nəzər salaq: “Adil hər gün 9-a 15 dəqiiqə qalmış işə gedər, mən isə bazara gedib ayın-oyun alır və biş-düş edərdirm(.İ. Əfəndiyev “Körpüsalanlar”, s. 147) Yaxud: “O, əsl Məcnundur” – burada "Məcnun" şəxs adı olsa da, “aşiq insan” mənasında ümumi isim kimi işlənir. Azərbaycan dilində onomastik vahidlərin konversiyası tez-tez müşahidə olunur. Məsələn: *Leyli-Məcnun əcəmdə çoxdur / Ətrakdə ol fəsanə yoxdur*. (M.Füzuli “Leyli və

Məcnun", s. 40). "Məcnun" sözü ərəbcə mənşəlidir və əsas mənası "dəli", "ağlını itirmiş", "aşiqlikdən dəli olmuş" deməkdir. Bu söz xüsusilə məşhur "Leyli və Məcnun" dastanı ilə əlaqələndirilir. Orada Məcnun öz sevgisinə, Leyliyə olan dərindən və sarsıdıcı eşqinə görə ağlını itirir, cəmiyyət tərəfindən "məcnun" – yəni dəli adlandırılır. Ədəbiyyatda və poeziyada "məcnun" sözü çox vaxt dərin, saf və çılğın sevgini təmsil edən bir obraz kimi işlədilir. Belə bir ifadə var: *"Məcnun tək sevən"*, yəni sevgi yolunda hər şeyə dözən, özünü unudan aşiq. "Nizami ordu" ifadəsində nizami sifətdir. Lakin konversiya prosesi nəticəsində ismə keçmiş Dahi Azərbaycan şairi Nizami Gəncəvinin təxəllüsü kimi dilimizdə işlənməkdədir. "Nizami" sözü ərəbcə "nizām" (نِظَام) sözündən gəlir. "Nizām" sözünün mənası "qayda", "sistem", "nizam-intizam", "düzən" deməkdir. Ona "-i" şəkilçisi əlavə olunanda "nizamla bağlı olan", "intizamlı", "qaydalı", "sistemli" anlamı verir. Yəni "Nizami" tərcümədə "nizamlı", "qaydalı", "intizamlı" şəxs deməkdir.

C.Cabbarlının "Almaz" pyesindəki surətlərin birinin adı Yaxşıdır. "*A l m a z. Olmaya, ay qız, öz ərinçin darıxırsan. Doğrudan, ay Yaxşı, o kimi öldürmüşdür?*" (C.Cabbarlı "Almaz", s. 197). Bildiyimiz kimi , yaxşı sifətdir. Lakin konversiya nəticəsəində bu sifətdən Yaxşı antroponimi yaranmışdır. Digər nümunələrə nəzər salaq: " *Amma indi bir aydır əfqanlar Hüseyn xanı əsir ediblər, Nadir də azadə gəzir, bir adam da cürət etmir ki, bir söz desin*". (N.Nərimanov "Nadir şah" , s. 201). "Nadir bir insan idi" cümləsində "Nadir" həm şəxs adı kimi, həm də "nadir" sifəti kimi işlənə bilər. Konversiya nəticəsində: Onomastik vahidlər metaforik və metonimik məna qazanır; Sözlər kontekstdən asılı olaraq yeni funksiyalar daşıyır; Dilin üslubi imkanları artır; Bədii ədəbiyyatda, mətbuatda və gündəlik nitqdə daha təsirli və simvolik ifadələr yaranır. Araşdırmalar göstərir ki, konversiya prosesi onomastik vahidlərdə dilin təbii inkişafını və semantik zənginliyini təmin edən əsas mexanizmlərdən biridir. Bu proses nəticəsində dil daha çevik, ifadəli və simvolik olur. Azərbaycan dilində də onomastik konversiya aktiv və məhsuldar şəkildə mövcuddur və müxtəlif nitq sahələrində istifadə edilir. Bu da dilin həm funksional imkanlarını, həm də mədəni-estetik yükünü artırır.

THE PROCESS OF CONVERSION IN ONOMASTIC UNITS

Abstract

This article explores the main characteristics and mechanisms of the conversion process in onomastic units, i.e., the system of names. Conversion (lexico-syntactic shift) refers to the transition of a word from one part of speech to another without any morphological change, and it plays an important role in the development of language. This phenomenon is evident within the onomastic system, particularly in the transformation of proper names—such as personal names and toponyms—into common nouns and vice versa. The article analyzes the historical and functional aspects of conversion, its application across various linguistic levels (lexical, semantic, and syntactic), and its communicative functions. Research findings show that conversion enables onomastic units to acquire new meanings, demonstrate functional flexibility depending on the context, and contribute to the dynamism of the language. Analyses of examples

confirm that conversion is also an active and productive process in Azerbaijani onomastics.

Key words: *onomastic units, conversion, lexico-semantic shift, personal names, toponyms, parts of speech, language development, functional flexibility, language and context, Azerbaijani language.*

ƏDƏBİYYAT:

1. Qurbanov A. Azərbaycan onomalogiyasının əsasları. II cild (2 cilddə). Bakı, 2019. 432 səh.

2. Orucova S. Dildə konversiya hadisəsi.–Bakı: Elm və təhsil, 2018, – 169s.

QƏRBİ AZƏRBAYCANDA TÜRKMƏNŞƏLİ ZOOTOPONİMLƏRİN ETİMOLOJİ-SEMANTİK MƏNZƏRƏSİ

Saffet Alp Yılmaz
Azərbaycan Milli Elmlər Akademiyası
Nəsimi adına Dilçilik İnstitutu
E-posta: saffetalp@gmail.com

Giriş

Qafqaz əsrlər boyu türklərin hakimiyyəti altında olsa da, müxtəlif dil ailələrindən olan bir çox etnik qrupların dillərinin birlikdə danışıldığı bir bölgədir. Qafqazın dil müxtəlifliyi o qədər böyükdür ki; Keçmişdə "Dillər dağı", "Tibilələr qapısı" adlanırdı. Müxtəlif dillərdə danışan insanların bir yerdə yaşadığı hər bir bölgədə olduğu kimi, Qafqazda da ümumi ünsiyyət dillərinə ehtiyac var idi. Bu vəziyyətə Lingua franca da deyilir**. Lingua franca** hərfi mənada "ticarət dili" deməkdir və çoxmillətli, çoxdilli və ya beynəlxalq mühitlərdə istifadə olunan "ümumi ünsiyyət dili" deməkdir. Bu çoxdilli mühitlərdə cəmiyyətin dilinin lingua franca olacağı müəyyən şərtlər var. Bu vəziyyətə misal olaraq keçmişdə türklərin Şimali Qafqazda yaşadığı vəziyyəti göstərmək olar: "Dünyanın dil baxımından ən qarışıq bölgələrindən biri olan Şimali Qafqazda ortaq ünsiyyət dili olmadan ictimai həyatı davam etdirmək demək olar ki, mümkün deyil. Bu problemin keçmişdə türkcənin Azərbaycan və kumuk ləhcələrindən lingua franca kimi istifadə edilməsi ilə həll olunduğu görünür. Türkcənin bu mövqeyə yüksəlməsinə hərbi-siyasi şəraitin formalaşması, iqtisadi-mədəni şəraitin təsiri nəticəsində nail olunub (Peler, 19)."

Şimali Qafqaza ilk dəfə 16-cı əsrin əvvəllərində qədəm qoyan ruslar zaman keçdikcə bölgədəki təsirlərini artırmış və XVIII əsrdən etibarən bölgədə ekspansionist siyasət yürütməyə başlamışlar. Bu prosesdə rusların hərbi və siyasi strategiyaları onların Qafqazdakı yerli xalqlar və liderlərlə münasibətlərinə böyük təsir göstərmişdir (Yıldız, 2017: 431).

Rusların Qafqaza marağı strateji və iqtisadi səbəblərə əsaslanırdı. Qara dənizə çıxış əldə etmək, Osmanlı İmperiyası və İrana qarşı müdafiə xəttinin yaradılması baxımından bölgəyə nəzarəti vacib hesab edirdilər. Bundan əlavə, bölgənin zəngin təbii sərvətləri də ruslar üçün cəlbedici sayılırdı. (Bingöl, 2013: 137)

Ruslar bölgədə güclərini artırmağa başlayanda türklərin təsirini qırmağa cəhdlər edirdilər. Bu məqsədlə ermənilər bölgəyə sistemli şəkildə yerləşdirilmişdi. 1935-ci ildən başlayaraq 1971-ci ilə qədər olan 36 illik müddət ərzində verilən müxtəlif fərmanlarla bugünkü Ermənistanı əhatə edən torpaqlarda ermənilər türk və türk məskənlərinin adlarını dəyişdirmişlər (Aslan, 1993: 41; Türkmen, 2018: 287).

Tarixi qeydlərdə indiki Ermənistanın, yəni tarixi Qərbi Azərbaycan torpaqlarının da yer adlarına rast gəlinir. Bu yer adlarının təhlili ilə bağlı araşdırmalar bölgənin Rusiya tərəfindən işğalı ilə başlanmışdır. Şopen, I. (1852) - Rusiya İmperiyasının Birləşməsi Dövründə Erməni Quberniyasının Vəziyyətinin Tarixi Yaddaşı / Qan, K.F. (1909) - Xəzər dənizinin coğrafi yer adlarının adlandırılması deyimi kimi tədqiqatlar bu vəziyyətin ilk nümunələridir (Mirmahmudova, 1995: 6).

İncələmə: Tarixi Qərbi Azərbaycan torpaqlarında türk toponimlərinin tədqiqi zamanı bəzi toponimlərin heyvan adları ilə əmələ gəldiyi görülmüşdür. Zootoponimlər heyvanlarla əlaqəli yer adlarıdır. Bu cür yer adları coğrafi və ya tarixi kontekstdə istifadə oluna bilər, heyvanların adını daşıyan yerləri təsvir etmək üçün istifadə olunur. Məsələn, balıqlı 'göl kənarında balıqların çox olduğu şəhər' və ya ratlı 'çöl siçanlarının çox olduğu şəhər' kimi yer adları zootoponimlərə nümunədir. Bu cür adlar bir yerin və ya bölgənin coğrafi xüsusiyyətlərini, ya da tarixi hadisələrini ifadə etmək üçün istifadə edilsə də, bu cür adlandırmada həyat tərzi, yerli əfsanələr və mifologiyalar da təsir göstərir. Bölgədəki bəzi zootoponimlər də etnoponim kimi meydana çıxır. Məsələn, Qaraqoyunlu, Dəvəli, Baraxlı kimi yer adlarını sadalaya bilərik. Ümumiyyətlə, Qərbi Azərbaycan torpaqlarında türkcə heyvan adları ilə əmələ gələn zootoponimlər öyrənilmişdir. Lakin regionda zootoponimlərin sıxlığına görə bütün nümunələri bura daxil etmək mümkün deyil. Rastlaşdığımız bu vəziyyət bölgənin tarixən türk vətəni olduğunu göstərir.

Zootoponimlər təkcə yaşayış məntəqəsinin adını deyil, həm də bölgənin coğrafi, iqtisadi, mədəni və mifoloji quruluşunu əks etdirən mühüm ipuçları daşıyır. Bu kontekstdə Qərbi Azərbaycandakı türk zootoponimləri bölgə türklərinin həyat tərzini, inanc sistemlərini və münasibətlərini anlamaqda böyük dəyərə malikdir.

Alapars. İrəvanın Yeni Bəyazid qəzasında, indiki Razdan (Axta) rayonunun tərkibində kənddir. Rayon mərkəzindən 18 km cənub-qərbdə, Razdan (Zəngi) çayının sahilində yerləşir. 1829-1830-cu illər arasında İranın Hoy və Maku; Türkiyənin Van şəhərindən ermənilər buraya köçüblər. 1829-cu ildə İrandan kəndə 83 nəfər erməni gətirildi. 1831-ci ildə kənddə 182 Azərbaycan türkü yaşayırdı. 1840-1850-ci illərdə Azərbaycan türkləri öz tarixi-etnik torpaqlarından zorla çıxarılaraq kənd ermənilərin yaşayış məntəqəsinə çevrilib. İndi kənddə ermənilər yaşayır. Bu yer adı rəng mənasını verən ala sözündəndir, ‘bir neçə rəngin qarışığından əmələ gələn rəng, qarışıq rəng; “Qəhvəyi ilə qırmızı arasında rəng” sözləri ilə yırtıcı heyvan olan bəbir mənasını bildirən pars adının birləşməsindən əmələ gəlir: (Mirmahmudova, 1995: 28).

Ayğırgöl. İrəvanın indiki Eçmiejin (Üçkilisə) quberniyasında göl və kənd adıdır. Sərdarabad (Oktemberyan) yolunun üstündə Ayğırgöllə yanaşı yerləşdiyindən kəndin adı Ayğırgöldən götürülmüşdür. Sovet Ermənistanının 25.01.1978-ci il tarixli fərmanı ilə adı Aknalıç olaraq dəyişdirilmişdir (Mirmahmudova, 1995: 25). Ayğırgöl adı Ayqır 'damazlıq yetkin at' (ADİL I, 181) və göl sözlərinin birləşməsindən əmələ gəlib.

Baraxlı. Tavuş vilayətinin şimal-şərqində, indiki Barana (Noemberyan) rayon mərkəzindən 30 km şimalda, Tona (Debet) çayının sahilində yerləşir. Tarixən burada ancaq Azərbaycan türkləri yaşayıb. Bura 1930-cu illərdə yaşayış məntəqəsi kimi ləğv edilmiş və Azərbaycan türkləri zorla deportasiya edilmişdir. Barak sözü Oğuzların Barak tayfasının adıdır. Baraxlı "Barak tayfasına mənsub yer" deməkdir. Köhnə türk dilində barak uzun, qalın və qıvrım saçlı heyvanlar üçün istifadə olunur. Kaşğarlı Mahmud, DLT-də barak sözü "çox tüklü it" mənasındadır; O, "baraqlıg kişi/er" ifadəsini də "barak soyundan iti olan şəxs" mənasında qeyd edir. Klauson deyir ki, sözün ilkin mənası "uzun saçlı it"-dir; bəzi çağdaş ləhcələrdə 'əsl mənasında və bəzən daha çox başqa heyvanlar, xalçalar və s. mənasında. O, əlavə edir ki, 'tüklü, uzun saçlı' mənasında əşyalar üçün də işlənir (Mirmahmudova, 1995: 360).

Böyük Qaraqoyunlu. İrəvanın Yeni Bəyəzid mahalının Vardenis (Basarkeçər) rayonuna aid kənddir. Basarkeçer rayonundan 12 km cənub-şərqdə yerləşir. Kəndin digər adı Yellicedir. Kənddə 1831-ci ildə 379, 1873-cü ildə 408, 1886-cı ildə 591, 1897-ci ildə 447, 1908-ci ildə 505, 1914-cü ildə 655, 1916-cı ildə 516 nəfərin yaşadığı müəyyən edilmişdir. Ermənistanda sovetlər qurulduqdan sonra sağ qalan Azərbaycan türkləri öz kəndlərinə qayıda bildilər. 1922-ci ildə 392 nəfər, 1926-cı ildə 374 nəfər, 1931-ci ildə 488 nəfər (415, s. 27, 111), 1939-cu ildə 562 nəfər, 1959-cu ildə 746 nəfər, 1907-ci ildə 1901 nəfər, Orada 1407 nəfər yaşayırdı. Amma 1988-ci ilin noyabrında Azərbaycan türkləri Ermənistan dövləti tərəfindən sürgün edildi. Hazırda bölgədə ermənilər yaşayır. Yer adı türk tayfa adı Qara Qoyunlu əsasında yaranmışdır. "Böyük" fərqləndirici sözdür. Sovet Ermənistanının 03.01.1935-ci il tarixli fərmanı ilə kəndin adı dəyişdirilərək Əzizli; Ermənistan prezidentinin 19.01.1991-ci il tarixli fərmanı ilə yenidən Norabak adlandırılmışdır (Mirmahmudova, 1995: 71). Bundan başqa, Ermənistanın verdiyi müxtəlif fərmanlarda bölgədə geniş işlənən kənd və şəhər adları olan Qaraqoyunlu, Aşağı Qaraqoyunlu, Yuxarı Qaraqoyunlu kimi zootoponimlər dəyişdirilib.

Ceyranlı. İrəvanın Şərur-Dərələyəz qəzasında, indiki Paşalı (Əzizbəyov, Vayk) rayonu ərazisində kənd adıdır. Kənddə yalnız Azərbaycan türkləri yaşayıb: 1873-cü ildə 91 nəfər, 1886-cı ildə 84 nəfər, 1897-ci ildə 92 nəfər, 1904-cü ildə 123 nəfər, 1914-cü ildə 135 nəfər, 1916-cı ildə 150 nəfər kənd əhalisi qeydə alınıb. Kənd 1920-ci ildə dağıdılıb. Hazırda kənd xarabalığa çevrilmişdir. Toponim Azərbaycan dilində heyvan mənasını verən ceyran sözünə -lı şəkilçisi əlavə edilməklə əmələ gəlmişdir. (Mirmahmudova, 1995: 313)

Danagirməz. İrəvanın indiki Abaran rayonundan 7 km şimal-şərqdə, Alagöz dağının ətəklərində yerləşən kənddir. Türkiyənin müxtəlif bölgələrindən ermənilər bu bölgəyə köçüblər. Kənddə ermənilərdən başqa 1905-ci ildə 387, 1914-cü ildə isə 474 Azərbaycan türkü yaşayıb. Kənddə yaşayan Azərbaycan türkləri 1918-ci ildə erməni hücumlarına, qırğınlarla məruz qalaraq sürgün ediliblər. Kənd tamamilə erməni məskəni idi. Toponim "bir-iki yaş arası inək buzovu" mənasını verən "dana" sözünün "girmək" felinin qeyri-qəti gələcək zamanın inkar forması olan "girməz" sözü ilə birləşməsindən əmələ gəlib. Erm. SSR AS RH-nin 15.07.1946-cı il tarixli qərarı ilə Hovit, 21.10.1967-ci il tarixli qərarı ilə isə Nigavan adlandırılmışdır. (Mirmahmudova, 1995: 122-123)

Donuzgirən. İrəvanın Zəngibasar (Masis) rayonunda qəsəbədir. Rayon mərkəzindən 4 km şimal-qərbdə, Zəngi çayının sol sahilində yerləşir. 1918-ci ildə

erməni hücumlarına məruz qalan kəndlilər deportasiya edilmiş və yalnız Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra öz evlərinə qayıda bilmişlər. Kənddə 1922-ci ildə 399, 1926-cı ildə 493, 1931-ci ildə 518, 1987-ci ildə isə 2050 Azərbaycan türkü yaşayıb. 1988-ci ilin noyabr-dekabr aylarında kənd sakinləri Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından qovulmuşlar. İndi erməni məskəni kimi istifadə olunur. "Donuz" heyvan adına "girmək" feli əlavə edilməklə əmələ gəlmişdir (Mirmahmudova, 1995: 134-135).

Maldaş. Zəngəzurun Gorus rayonunda rast gəlinən toponimlərdən biridir. "İri buynuzlu heyvan, mal-qara, qoyun" mənasını verən "mal" sözü ilə "dağ, daş, qaya" mənasını verən "daş" sözlərinin birləşməsindən əmələ gəlmiş zootoponimdir. Ümumiyyətlə, rayonun dağlıq relyefi olduğundan "dağ" və "daş" komponentləri ilə çoxlu coğrafi adlar mövcuddur. Məsələn: Daşbaşı, Saldaş, Qızıldaş, Bəkdaş, Bəydağ, Daşnov, Əmrahdaşı, Daşağırən, Daşkənd, Daşlı, Daşlıqa və s. Yer adlarını Azərbaycan xalqının etnoqrafiyasına aid toponim kimi də göstərmək olar.

Maralzami. Zəngəzurun indiki Meğri rayonunun tərkibinə daxil olan Ləhvaz kəndi rayon mərkəzindən 6 km şimal-qərbdə, Meğri çayının sol sahilində yerləşir. Kənd 1908-ci ildə erməni vandalizminə məruz qalmış, sovet hakimiyyəti dövründən sonra kənd əhalisi öz tarixi-etnik torpaqlarına qayıtmışdır. 1988-ci ildə kənd sakinləri ermənilər tərəfindən tarixi-etnik torpaqlarından qovulmuşlar. Maralzami toponimi bitki, torpaq mənasını verən zəmi sözü ilə maral sözünün birləşməsindən ibarət mürəkkəb quruluşlu toponimdir (Rüstəmli, 2016: 135). Maral sözü Azərbaycan türkcəsində "dişi maral, maral, xallı maral" mənasındadır (ADİL III, 2006: 290). Maral sözü monqol dilindən türk ləhcələrinə "dişi maral: ceyran, maral növü" kimi keçmişdir (Lessing, 2003: 826b).

Ördəkli. İrəvanın Yeni Bəyəzid qəzasında, indi Sevan rayonunun tərkibində kənddir. Göyçə gölünün sahilində yerləşir. Kənddə tarixən 241 Azərbaycan türkü yaşayıb. İran və Türkiyədən gətirilən ermənilər burada da yerləşdirilib. 1897-ci ildə kənddə ermənilərlə yanaşı 22 Azərbaycan türkü də yaşayırdı. 20-ci əsrin əvvəllərində 1905-1906-cı illərdə Ermənistan-Azərbaycan münaqişəsi nəticəsində azərbaycanlılar öz tarixi-etnik torpaqlarından qovulmuşlar. İndi kənddə ancaq ermənilər yaşayır. Toponim türk tayfalarından biri olan qızılbaşlara mənsub olan ördək etnotopiyası əsasında yaradılmışdır. Erm. SSR AS RH-nin 26.04.1946-cı il tarixli fərmanı ilə kəndin adı dəyişdirilərək Lçaşen (Kölkənd) qoyulmuşdur.

Dəvəli.İrəvanın Vedi qəzasında kənd adıdır. Şəhər mərkəzindən 14 km aralıda, Vedibasar çayından axan kanalın yanında yerləşir. Burada yalnız Azərbaycan türkləri yaşasa da, 1828-ci il Türkmənçay müqaviləsinə əsasən İranın Maku və Salmas şəhərlərinə tabe olan Aslanık, Dirişik və Zevaqyuq kəndlərindən gətirilən ermənilər 1828-ci ildə Dəvəlidə yerləşdirilib, 1922-ci ildə Azərbaycan türkləri kənddən qovulub. Yer adı Qacar nəslinə bağlı sülalə adı olan dəvə etnoniminə əsaslanan etnoponim və zootoponimdir. Ermənistan SSR AS RH-nin 03.01.1935-ci il tarixli fərmanı ilə kəndin adı dəyişdirilərək Ararat qoyulmuşdur.[5]

[5] **Dəvəqılıcı**: Ermənistanın Loru-Pəmbək rayonunda, indi Kalinino vilayətində dağ adı. Rayonun Cücəkənd kəndi hüdudlarında yerləşir. "Dağ aşırımı, yüksək dağ aşırımı" mənasını verən qılıç və "sıldırım, iti, sıldırım" mənasını verən qılıc sözlərinin birləşməsindən düzəlib. Dağ keçidi dəvənin donqarına bənzədiyi üçün belə adlandırılıb. **Dəvə yatağı:** İrəvan qubernatorluğunun Aleksandropol rayonunun indiki Hamamlı (Spitak) rayonunda yaylağın adıdır. Rayonun Qızılörən kəndində yerləşir.

Qurdqulaq. İrəvan quberniyasının Şərur-Dərələyəz rayonunda, indi Keşişkənd (Yeğaqnadzor) rayonunda kəndin adıdır. Arpaçayın sol qolu olan Qurdqulaq çayının sahilində, şəhər mərkəzindən 4-5 km aralıda yerləşir. Kənddə yalnız Azərbaycan türkləri yaşayıb: 1873-cü ildə 336 nəfər, 1886-cı ildə 379 nəfər, 1897-ci ildə 470 nəfər, 1904-cü ildə 690 nəfər, 1914-cü ildə 760 nəfər, 1916-cı ildə 581 nəfər yaşayıb. Sonralar ermənileşdirilən kəndə yerli əhalisi olan azərbaycanlılar Sovet Ermənistanı qurulduqdan sonra qayıda bildi. 1922-ci ildə 64 azərbaycanlı, 248 erməni, 1931-ci ildə isə 66 azərbaycanlı və 301 erməni (Mirmahmudova, 1995: 415, s. 92-93, 162-163) olmuşdur. Kənd sonralar tamamilə erməni yaşayış məntəqəsinə çevrildi. Erm. SSR AS RH-nin 10.11.1946-cı il tarixli qərarı ilə onun adı dəyişdirilərək Boloraberd (Qurd qalası) adlandırılmışdır.[6]

Quzugüdən. İrəvan quberniyasının Eçmiədzin qəzasında, indi Serdarabad (Oktemberyan) rayonunda kənddir. Rayon mərkəzindən 9 km cənub-şərqdə, Araz çayının sahilində yerləşir. Kəndin ilkin qədim adı Kuzugüdəndir. 1728-ci ildə tərtib edilmiş "İrəvan quberniyasının müxtəsər dəftəri"ndə kəndin adı Kuzugüdənli kimi qeyd olunur və "Kəndin əhalisinin Mürsəlli camaatından olduğu" göstərilir. 1828-ci il Türkmənçay müqaviləsindən sonra Azərbaycan türkləri öz tarixi-etnik torpaqlarından qovulmuş, 1828-1830-cu illərdə Muş və Türkiyənin digər bölgələrindən ermənilər yerləşdirilmişdir. Toponim əfşar tayfasına mənsub tayfa adı kimi qeyd olunur. Erm. SSR AS RH-nin 19.04.1950-ci il tarixli qərarı ilə adı Haygeşad qoyulmuşdur.

Keçili. Zəngilan rayonundakı yer adlarından biri də Keçilidir. XIX əsrə aid rəsmi sənədlərdə Keçililər Zəngəzur mahalında Kəngərli tayfasına bağlı tayfalardan biri kimi qeyd edilir. Keçili tayfasının adı 1816-cı ilə aid mənbələrdə qeyd olunur. Bu etnotoponimdən əmələ gələn yer adı Keçi heyvan adı ilə işlək şəkilçilərindən biri olan -li törəmə şəkilçisinin birləşməsindən əmələ gəlir (Мурзаев, 1984: 69).

Təkəli. İrəvanın Yeni Bəyəzid rayonunda, indi Akta (Razdan) rayonunda kənddir. Rayon mərkəzindən 20 km şimal-qərbdə, Mişana çayının sol qolunda, Maymaq dağının ətəyində yerləşir. 1918-ci ildə Azərbaycan türkləri ermənilər tərəfindən etnik təmizləməyə məruz qalıb. Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra sağ qalan azərbaycanlılar öz kəndlərinə qayıda bildilər. Kənddə 1922-ci ildə 248 nəfər, 1926-cı ildə 302 nəfər, 1931-ci ildə 416 nəfər, 1987-ci ildə 1000-ə yaxın Azərbaycan türkü yaşamışdır. 1988-ci ildə Azərbaycan türkləri Ermənistan dövləti tərəfindən kütləvi qırğınlarla öz tarixi torpaqlarından zorla qovulub. Kənd indi erməni yaşayış məntəqəsinə çevrilib. Qızılbaş toponimi türk tayfasına mənsub Təkəli etnonimi əsasında yaradılmışdır. Qəbilənin adı da tək qeyd olunur. Quruluş baxımından sadə toponimdir. Ermənistan prezidentinin 19.04.1991-ci il tarixli fərmanı ilə kəndin adı dəyişdirilərək Artavaz qoyulmuşdur.

Nəticə

Tarix boyu Qafqaz bir çox türk boylarının əsas məskunlaşdığı və hökmranlıq etdiyi ərazilərdəndir. Bu bölgənin strateji və mədəni əhəmiyyəti müxtəlif dövrlərdə hakimiyyət uğrunda mübarizəyə səbəb olmuşdur. Müxtəlif dövrlərdə Rusiya çarlığı Anadolu və İranın müxtəlif bölgələrindən ermənilər İrəvan xanlığı və Qarabağ xanlığı

Yerin adı dəvə adı ilə Azərbaycan türkcəsində "heyvanların payız-qışda sığındığı yer" mənasını verən yat sözünün birləşməsindən yaranmışdır.

[6] **Qurd dağı:** İrəvanın Aleksandropol quberniyasının indiki Hamamlı (Spitak) rayonunda dağ. Rayonun Kürsalı kəndindən şərqdə yerləşir. Bu yer adı canavarların çoxluğuna görə verilmişdir.

və onların ətraf ərazilərində yerləşdirməyə başladı. Bu prosesdə türk əhalisi sistemli şəkildə soyqırıma və sürgünə məruz qalmış, bölgə əhalisinin demoqrafik quruluşu və türklərin izləri silinməyə çalışılmışdır. Tarixi və mədəni soyqırımın ən böyük nümunələrindən biri Sovet Ermənistanında türk yer adlarının erməni yer adlarına çevirməsidir. Türk heyvan adlarına əsaslanan yer adları bölgənin ilkin sahibləri olan türklərin etnoqrafik və mədəni xüsusiyyətlərini əks etdirir. Lakin bu yer adlarının dəyişdirilməsi cəhdi təkcə adların itirilməsinə deyil, həm də bölgədəki türk mədəni irsinin yox olmasına səbəb olmuşdur. Bu araşdırma yer adlarının tarixi kontekstini araşdıraraq keçmişin izlərini ortaya çıxarmaq və bu kontekstdə unudulmuş mədəni irsi xatırlatmaq məqsədi daşıyır. Hətta son dövrlərdə bir çox hüquqi qaydaları pozaraq Ermənistanın ermənileşdirilməsi layihəsi çərçivəsində türkcə yer adları dəyişdirilib və ya məhv edilib. Ancaq jurnallarda, xəritələrdə və tədqiqatlarda bu barədə ətraflı məlumat verilmişdir. Etnoqrafik baxımdan bölgədə məskunlaşan türklərin həyat tərzi bölgədəki kənd, şəhər, qəsəbə və şəhər adlarında öz əksini tapmışdır. Bu zootoponimlərdən başqa yaşayış məntəqələrindən kənarda zirvə, təpə, yamac, dağ, dağ silsiləsi, dağlıq ərazilər, çaylar, çaylar, çaylar, yamaclar, yamaclar, təpələr, yamaclar, təpələr və mağaralar kimi yerlərə çoxlu heyvan adları verilmişdir.

Azerbaijan Turkic Zoo Toponyms İn Western Azerbaijan

Abstract*: The Caucasus has been the homeland and domain of many Turkic tribes from the past to the present. As a region, sometimes as a whole, a part of it remained under the control of the Turks. As a result of developments after the 1828-1829 Turkish-Russian War and Russian-Iranian War, Tsarist Russia gradually settled Armenians in the region (Erivan and Karabakh). Tsarist Russians have systematically migrated Armenians to the region since the Erivan Khanate period. Before and during the Soviet period, the Turks in the region were gradually withdrawn from the region by being subjected to genocide and migration. Before, during and after the Soviet Union, Turkish place names were replaced with Armenian place names by various decrees. Therefore, in the study, based on the names of the place names before they were changed, the place names established with Turkic animal names in Western Azerbaijan will be examined in detail.*

Key Words: *Azerbaijan Turkic, Place names, Caucasus.*

Ədəbiyyat

1. Azərbaycan Dilinin İzahlı Lüğəti, ADİL . Orucov, Ə. (2006). Cilt: I-IV, Bakı: Şərq- Qərb.
2. Aslan, Y. (1993). "Ermenistan'da Dünkü ve Bugünkü Yer İsimleri", *Atatürk Dergisi,* 1/6. S. 41-52.
3. Axundov, A. (2007). Azərbaycan Dilinin Dialektoloji Lüğəti, Bakı: Şərq-Qərb.
4. Bingöl, O. (2013). Tarihsel Süreçte Rusya'nın Kuzey Kafkasya'yı Kontrol Stratejilerinde Gelinen Aşama: Başarısızlık Ve Terör, Karadeniz Araştırmaları • Bahar 2013 • Sayı 37 • s.137-158
5. Clauson, S. Gerard (1972). An Etymological Dictionary of Pre-Thirteenth-Century Turkish, At the Clarendon Press, Oxford.
6. İlhan, S. (1999). Kafkasya'nın Gelişen Jeopolitiği, Ankara: TKAE.

7. Mirmahmudova, S. (1995). Ermənistanda Türk Mənşəli Yer Adları, «Yazıçı» Ədəbi Nəşrlər Evi,.1995. 72 Səh.
8. Peler, G. Y. (2013). Kafkasya'da Türk Lehçelerinin Fonksiyonları, *Karadeniz Araştırmaları,* Sayı 36, 163-188.
9. Türkmen, Ç. (2018). "Tarihî Süreçte Göçler ve Yer Adları Değişiklikleriyle Kafkasya'da Bir Ermeni Yurdu Tesis Edilmesi Meselesi", *VAKANÜVİS-Uluslararası Tarih Araştırmaları Dergisi,* Yıl/Vol. 3, Sayı/No. 1.
10. Yıldız, Y. (2017). 18. Yüzyılda Rusya'nın Kuzey Kafkaska'yı Hristiyanlaştırma Politikası, Tarihin Peşinde -Uluslararası Tarih ve Sosyal Araştırmalar Dergisi, Sayı 18 s. 429-451.
11. Аймиратов О. Тюркские этнонимы. Нукус, 1986.
12. Армянская ССР административно-территиальное деление. Ереван: Айстан, 1971, 274 стр.
13. Бузанд Ф. История Армения. Ереван, 1953, 276 стр
14. Географические названия (Сборник статей. Отв.ред. Э.М.Мурзаев и В.А.Никонов). Москва, 1984, 183 стр.
15. Географические названия (Сборник статей. Отв.ред. Э.М.Мурзаев и В.А.Никонов). Москва, 19229, 183 стр.
16. Историческая география Азербайджана. Баку, «Ельм», 1987

VI BÖLMƏ
NƏZƏRİ VƏ TƏTBİQİ DİLÇİLİK

GENERATİV QRAMMATİKA NƏZƏRİYYƏSİNİN NOAM XOMSKİ POSTULATLARI

Qismət Cəfərov
Bakı Dövlət Universiteti, Bakı
qismet.c@mail.ru

N.Xomski Amerika deskriptivizminin tanınmış nümayəndəsi, funksional araşdırmalara meyilli tədqiqatçı Z.Hərrisin yetirməsi olmuş və ilk tədqiqatlarında formal təsvir metodu olan deskriptivizmə (daha çox dilçilik, eyni zamanda psixoloji etnoqrafik cərəyan kimi də xarakterizə olunur) maraq göstərmişdir. Yeri gəlmişkən, N.Xomski "Linqvistik nəzəriyyənin məntiqi strukturu" əsərində deskriptiv (təsviri) dilçiliyin (və mahiyyət etibarilə metodun) məşğul olduğu problemləri göstərir: *"Bir tərəfdən, deskriptiv dilçi konkret dillər üçün qrammatika qurmaqla, eyni zamanda o, bu qrammatikaların hər birinin nümunəsi olduğu ümumi dil quruluşu nəzəriyyəsini təqdim etməklə maraqlanır. Nəhayət, o, tədqiqatlarının nəticələrini əsaslandırmaq və təsdiqləmək, həmçinin qurduğu qrammatikaların müəyyən mənada düzgün olduğunu göstərmək problem ilə də məşğul olmalıdır"* [2, s. 101] .

N.Xomski məhz ingilis dilinin (sələflərindən gələn ənənəni pozaraq Amerika hindu dillərinin deyil!) nümunəsində onu da bildirirdi ki, bir dili öyrənməklə biz ümumən insan dilinin mahiyyətini öyrənə bilərik. Əlbəttə, hər hansı bir dilin əsasında ümumən dilin mahiyyəti, daxili quruluşu (sistem-strukturu), sözün geniş mənasında sosial təbiəti barədə mühakimə yürütmək mümkündür. Çünki dillər bir-birindən istər mənşəyinə, istər tipologiyasına, istərsə də ekstralinqvistik xarakterinə görə nə qədər fərqlənsə də, hər bir dil ayrı-ayrılıqda bizim ümumən dil haqqındakı təsəvvürümüzü müəyyən etməkdədir.

N.Xomski tərəfindən irəli sürülən törədici qrammatika nəzəriyyəsi dilin yaradıcı xarakterini və sintaktik strukturların insan təfəkküründün fərdi yaradıcılıq aktı olduğunu vurğulamış, bu strukturların qrammatikanın törəmə xüsusiyyətləri olduğunu qeyd etmişdir. Bu yanaşma XVII əsrdə – Kartezian dövründə dilin yaradıcı bir vasitə kimi nəzərdən keçirilməsi ilə sıx bağlıdır. Belə ki, dilin bu cür qiymətləndirilməsi, insanın hər an yeni cümlələr qurma qabiliyyətinə malik olduğunu və bunun da fərdi yaradıcılığın bir göstəricisi olduğunu ifadə edir.

N.Xomski insanın yeni bir fikir ifadə etmək istədiyi zaman orijinal və kreativ cümlələr yaratdığını irəli sürmüşdür. Bu mülahizə qrammatika nəzəriyyəsinə yeni bir baxış bucağı qazandırmış və onu inkişaf etdirməklə sintaksisə xüsusi diqqət ayırmışdır. N.Xomskiyə qədər sintaksis qrammatikanın əsas tədqiqat obyektlərindən biri kimi ön planda olmasa da, onun araşdırmaları

bu sahəni qrammatika və insan dilinin öyrənilməsi üçün əsas istiqamətə çevirmişdir.

"Por- Royal qrammatikası" dilçilik tarixində rasional və universal yanaşmanın əsaslı bir ifadəsi kimi qəbul olunur. Bu qrammatika dilə rasional bir perspektivdən yanaşaraq onun əsas xüsusiyyətlərinin ağıldan və məntiqdən qaynaqlandığını vurğulamışdır. Belə ki, bu qrammatika dilin və nitqin mistik mənbələrdən deyil, rasional təfəkkürün məhsulu olduğunu iddia edir.

Bu yanaşmaya görə, cümlə strukturunun formalaşması ağıla əsaslanır və təfəkkürlə sıx əlaqəlidir. Təfəkkür isə mistik və ya qeyri-müəyyən deyil, əksinə, realist və məntiqi qaydalara əsaslanır. "Por-Royal qrammatikası" bu ideyanı ortaya qoyaraq dilin universal və rasional bir sistem olduğu fikrini irəli sürmüşdür ki, bu iki əsas prinsip – rasionallıq və universallıq Por-Royal qrammatistlərinin ən böyük nailiyyəti hesab olunur.

"Por-Royal qrammatikası" müqayisəli-tarixi dilçilik yanaşmasının təsiri ilə müəyyən qədər unudulsa da, onun əsas ideyaları - dilin rasional və universal bir fenomen olduğu fikri müasir dilçilikdə yenidən ön plana çıxmışdır. Deməyə hər cür əsas var ki, "Por-Royal qrammatikası" həm rasional qrammatika ənənəsinin mühüm bir mərhələsi, həm də müasir dilçilik nəzəriyyələrinin ilham mənbəyi kimi böyük əhəmiyyətə malikdir. Təsadüfi deyil ki, N.Xomski universal qrammatika nəzəriyyəsi ilə bu irsə retrospektiv bir baxış təqdim edərək tədqiqatlarında Por-Royal qrammatikasının rasional və universal yanaşmalarını yenidən gündəmə gətirmiş və bu istiqamətdə yeni tədqiqatlara yol açmışdır.

N.Xomski Por-Royal qrammatikasına istinad edərək qeyd etmişdir ki, insan dilini elmi əsaslarla öyrənmək üçün sintaktik strukturları araşdırmaq zəruridir. Çünki bu strukturlar dilin insana verilmiş sxemlər əsasında formalaşan yaradıcılıq qabiliyyətinin ifadəsidir.

Bu yanaşma XVII əsrin rasionalist filosoflarının insan düşüncəsinin yaradıcı təbiəti ilə bağlı baxışlarına əsaslanır. Nəticə etibarilə, sintaktik tədqiqatlara N.Xomskinin marağı ilə qrammatikaya münasibətdə dil linqvistikası (daxili dilçilik) nitq linqvistikasına (xarici dilçiliyə) güzəştdə gedir ki, bu da antroposentrik (praqmatik) paradiqmanın müasir elmdə, o cümlədən də dilçilikdə qazandığı çox böyük nüfuzla bağlıdır.

Beləliklə, N.Xomski sələflərindən fərqli olaraq nitqə riyazi, aydın, təbiətşünaslıq texnikası tətbiq etməklə "ruhun riyaziyyatı"nı aydınlaşdırmağa çalışır. Əslində, görkəmli dil mühəndisi kimi N.Xomskinin axtarışları nitq → dil → təfəkkür istiqamətində irəliləyərək dilə realist düşüncə aktı kimi elmlərarası miqyas nümayiş etdirir. "Noam Xomski" kitabında C.Layonz göstərir ki, *"... hazırda dilçilər, psixoloqlar və filosoflar arasında maraqların əhəmiyyətli dərəcədə yaxınlaşması müşahidə olunur. Lakin bu yaxınlaşma "muxtar" dilçiliyin inkişafı nəticəsində baş vermişdir; və məhz dilçilik (xüsusən də Xomskinin işi) bu üç elmin ittifaqı üçün ilham mənbəyi olmuşdur"* [3, s.13].

Con Layonz "Dil və dilçilik" əsərində yazır: *"Blumfilddən heç də az olmayaraq Xomski dili təbiət elmlərinin verdiyi anlayışlar və fərziyyələr çərçivəsində öyrənmək istəyir. Buna baxmayaraq, Xomski generativizmi ilə həm Blumfild, həm də post-Blumfild strukturalizm arasında əhəmiyyətli fərqlər var"* [4, s.231]. Həmin fərqlərdən birinin linqvistik universalilərə münasibət ilə

bağlılığına diqqəti çəkən C.Layonz Sössürdən sonrakı strukturalistlərin əksəriyətinin, eləcə də Blumfild və tərəfdarlarının dillərin struktur müxtəlifliyinə maraq göstərdiyi halda, generativistlərin dillərin ortaq cəhətləri ilə maraqlandıqlarını qeyd edir. Və əlavə edir ki, *"... genarativizm universal qrammatikanın köhnə ənənəsinə qayıdışı təmsil edir – buna misal olaraq, 1660-cı ildə Por-Royal qrammatikası və həm Blumfild, həm də Sössür tərəfindən spekulyativ və qeyri-elmi olaraq qınanılan XVIII əsrin çoxlu sayda dil traktatları nümunə kimi göstərilmişdir"* [4, s. 232]. Görkəmli dilçi onu da bildirir ki, N.Xomskinin sələfləri dilin əsas xassələrini məntiqin və ya reallığın ümumbəşəri hesab etdikləri kateqoriyalardan çıxarmağa meyilli olduqları halda, o, dilin belə hesab edilə bilməyən universal xüsusiyyətlərindən daha çox təsirlənir. Həmçinin N.Xomski dillərin formal xüsusiyyətlərinə və onların təsvirinin tələb etdiyi qaydaların təbiətinə daha çox əhəmiyyət verir.

Məna məsələsi N.Xomskinin nitq aktları nəzəriyyəçiləri ilə polemikalarının əsas mövzusuna çevrilir. N.Xomski "Dil haqqında mülahizələr" kitabında yazır ki, *"Serl mənim "istifadə və strukturların bir-birini ... təsir etmədiyini" "arbitrar olaraq qəbul etdiyimi" və bu "bir az qəribə yanaşmanın" mənanın nəzəriyyəsinin qurulmasına mane olduğunu, hətta "nitq aktlarının tədqiqinə qarşı döyüş apardığımı" irəli sürür. Bu yanaşma ənənəvi semantika problemlərinə yol açan çıxış yolunu təklif edən nitq aktları nəzəriyyəsini təklif edir. O, "dil və ünsiyyət, məna və nitq aktları arasında vacib əlaqəni görməməyin" Xomski nəzəriyyəsinin ən böyük "çatışmazlığı" olduğunu bildirir"* [1, s. 150] .

N.Xomski məsələyə aydınlıq gətirərək (və Serlin etirazlarına cavab olaraq) göstərir ki, *"mənim nitq aktları nəzəriyyəsinə qarşı irəli sürdüyüm etirazlar indiyə qədər inkişaf etdirildiyi şəkildə əsasən bunlardır: bu, uğurlu ünsiyyətin təhlilinə kömək edə bilər və ifadələrin semantik xüsusiyyətləri haqqında maraqlı tapıntılara yol açmışdır, lakin "dil mənası" kimi anlayışları əhatə edən konseptual məkanın orbitasından qaçmaq üçün heç bir yol təqdim etmir. Belə bir müdaxilə olmadan,nəzəriyyə sadəcə olaraq mənanın yanlış ifadələrini bildirir"* [1, s. 151].

Və N.Xomski belə bir nəticəyə gəlir ki, *"mərkəzi problemlər hələ də həll olunmadığına və əlavə olaraq, bu problemləri necə həll etmək barədə heç bir fikir olmadığına görə, görünür ki, Serl, Stravson və digərləri ünsiyyət-niyyət və nitq aktları nəzəriyyəsi ilə bağlı iddialarında uyğun olmayan bir şəkildə irəliləyiblər"* [1, s. 151].

N.Xomskinin "yeni dilçilik nəzəriyyəsi" yalnız qarşısında açılan perspektivlərin genişliyi deyil, həm də onlar barədə ən mükəmməl baxışlar sistemi işləyib hazırlamaq əzmi nümayiş etdirir ki, bu baxımdan onun dil haqqındakı elmdə, demək olar ki, hələ də ciddi rəqibi görünmür.

Abstract

The article analyzes in detail N. Chomsky's linguistic theory, especially the concept of generative grammar. Based on descriptivism, he explained language as a creative product of human thought and highlighted the main role of syntax in grammar. According to Chomsky, when expressing a new idea, a person creates original sentences, which forms a different methodological approach to his attitude to language. The article shows the presentation of

universal grammar as both a theory of language invariants and a biologically based concept. He evaluates concrete grammars as the realization of universal grammar in terms of parameters. The article also discusses the semantic disputes that arose between Chomsky and speech act theorists, especially Searle. Chomsky advocates the study of language in the context of natural sciences, and an approach to the issue of meaning within a more limited theoretical framework. As a result, Chomsky opens a new stage in the scientific study of language.

Keywords: N.Chomsky, universal grammar, speech acts, language, nature

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Chomsky ,N.A. Reflection on language/ Chomsky N.A. — New York: Pantheon Books, —1975, — 269 p.
2. Chomsky, N.A. Logical Structure of Linguistics Theory/ Chomsky N.A. — New York: Springer US, — 1975, — 592 p.
3. Layons, J. Noam Chomsky/ Layonz C. — New York, The Viking Press, —1970, — 143 p.
4. Lyons, J. Language and Linguistics: An introduction / Lyons J. — Cambridge: Cambridge University Press, — 1981, — 356 p.

İDEOLOJİ METAFOR ANLAYIŞININ FUNKSİONAL ƏSASLARI

Səmra Həsənzadə
Bakı Dövlət Universiteti
smrhesenzade1999@gmail.com

M.Halidey qrammatik metafor anlayışını təqdim etdikdən sonra əvvəlcə (sonralar fərqləndirilmiş funksiyalarına uyğun olaraq mətn metaforlarından danışılır) onun iki növünü fərqləndirir:

1) ideoloji metaforlar (və yaxud keçid metaforları);
2) şəxsiyyətlərarası (buraya mood (əhval-ruhiyyət) və modallıq daxildir).

İdeoloji metaforlar, yaxud xarakterik xüsusiyyətinə görə keçid metaforlarında "konqruent və uyğun olmayan formalar arasındakı qrammatik variasiya keçid konfiqurasiyalarına aiddir və bu konfiqurasiyaların funksional strukturu baxımından təhlil edilə bilər. Uyğun olmayan ifadənin metaforik mahiyyətini ortaya çıxarmaq üçün o, ekvivalent konqruent reallaşma ilə müqayisə edilir" [4, s.5].

M.Halidey ideoloji metaforları izah etmək üçün *"Merry saw something wonderful"* konfiqurasiyasına qayıdır və hesab edir ki, onun yerinə biz *"Mary came upon a wonderful sight"* və ya *"a wonderful sight met Mary's eyes"* sintaktik quruluşlarından istifadə edə bilərik. Və yazır ki, "bunların hamısı eyni qeyri-linqvistik vəziyyətin mümkün varinatlarıdır. Onlar sinonim deyillər: fərqli ifadə formalarının hamısı ümumi mənaya əlavə təsir edir. Lakin onlar potensial olaraq birgə təqdim oluna bilirlər və bu baxımdan ideoloji xarakterli metaforik varinatlar toplusunu təşkil edirlər" [1, s.322].

Məsələnin təfərrüatına varmaq üçün ingilis dilindən daha bir neçə nümunə gətirən dilçi belə bir fikri müdafiə edir ki, "bunların hamısı mənşəyi etibarilə məcazi olsa da, termini istifadə etdiyimiz mənada hər biri öz-özlüyündə təbiidir" [1, s.324]. *"We had supper there"* demək daha təbii səslənir (uyğunsuz forma olmasına baxmayaraq) nəinki *"we ate there in the evening".* Və belə bir nəticəyə gəlir ki, "görünür, həm şifahi, həm də yazılı diskursun əksər növlərində biz bu iki ifrat arasında bir yerdə fəaliyyət göstərməyə meyilli oluruq. Tamamilə konqruent olan ifadə bir az cansız səslənəcək, halbuki tamamilə uyğun olmayan (metaforik – S.H.) ifadə çox vaxt süni və uydurma təsiri bağışlayır" [1, s.324]. Bununla belə, hər iki forma arasında açıq-aydın sərhəd yaratmaq mümkün deyil. Məlumdur ki, "hər bir dilin tarixinin çox hissəsi demetaforizasiya tarixidir: metafor kimi başlayan ifadələrin tədricən metaforik xarakterini itirməsi" [1, s.327]. Biz bu prosesə daha çox söz səviyyəsində (leksik metaforlarda) rast gəlsək də, qrammatikada da bu kimi hallar mövcuddur. M.Hallidey buna nümunə olaraq ingilis dilindən *"have a bath", "do a dance", "make a mistake"* kimi ifadələr göstərərək yazır ki, "burada feil sadəcə olaraq hansısa bir prosesin baş verdiyini göstərir və zaman, inkar və s. kimi qrammatik kateqoriyaları daşıyır, prosesin özü isə "range" kimi fəaliyyət göstərən nominal qrup kimi kodlaşdırılır. Bütün bu ifadələr toplusu əslində uyğun olmayan formalardır" [1, s.327]. Göründüyü kimi, bu kimi ifadələr o qədər geniş yayılıb ki, zaman keçdikcə artıq sistemin tərkibində konqruent forma kimi çıxış edirlər, yəni müəyyən bir mətni təhlil edərkən onları metaforik xarakteri nəzərə alınmır. Buna baxmayaraq, dildə konqruent formalar mövcuddur və nəzəri baxımdan uyğun olmayan formalarla (onlar standart hala çevrilmiş olsa belə) oppozisiya yaradır.

Qrammatik metaforla bağlı (xüsusilə, ideoloji metafor) diqqət çəkən məqamlardan biri də onun şifahi və yazılı dildə istifadə olunması məsələsidir. M.Halidey müəyyən edir ki, mətnin qrammatikasında metaforların mövqeyi onun şifahi, yoxsa yazılı olmasından əhəmiyyətli dərəcədə asılıdır. Ən azından ona görə ki, "danışıq və yazı metaforik ifadələrdən istifadə baxımından xeyli fərqlənir. Ona görə ki, şifahi və yazılı nitq, adətən, fərqli növ mürəkkəblik nümayiş etdirir" [1, s.327]. Və metafor anlayışını mürəkkəb bir fenomen kimi xarakterizə edən dilçi hesab edir ki, daha az metaforik ifadə tərzi maksimal dərəcədə sadədir. Daha sonra yazılı və şifahi dilə aid mürəkkəbliyi bir-birindən fərqləndirən funksionalist göstərir ki, "yazılı dilin mürəkkəbliyi leksik mürəkkəblikdir; yazılı dil çox vaxt nisbətən sadə qrammatik quruluşla müşayiət olunan yüksək leksik sıxlığa (yəni hər bir bənddə daha çox leksik elementə malikdir və leksik elementlər daha yüksək məlumat məzmununa malikdir) əldə edir. Şifahi dilin mürəkkəbliyi qrammatik mürəkkəblikdir; şifahi dil mürəkkəb asılılıq strukturlarını (yəni həm bəndlərdən, həm də ifadələrdən ibarət mürəkkəb parataksis və hipotaksis strukturları) qurur, çox vaxt nisbətən sadə söz seçimi ilə müşayiət olunur. Metaforik "mürəkkəblik" adətən yazılı dilə aiddir" [1, s.330]. Göstərilən şəraiti ideoloji metaforların meydana gəldiyi konteks kimi nəzərdən keçirən M.Halidey irsinin tədqiqatçısı M. Taverniers belə bir nəticəyə gəlir ki, "yazılı dil şifahi danışıqdan daha çox ideoloji metaforlara malikdir. Bu mürəkkəblik növlərindəki daha ümumi fərqlə əlaqələndirilir: yazılı dil "leksik

cəhətdən sıx", danışıq dili isə "qrammatik cəhətdən mürəkkəbdir". Yazılı dildə müxtəlif leksik mənalar çox vaxt bir nominal qrupa "toplanır" [4, s.7]. Göstərilən müddəalardan belə nəticəyə gəlmək olar ki, M. Hallidey qrammatik metaforu dilin funksional imkanlarını genişləndirən, konqruent (tipik) və uyğun olmayan (metaforik) ifadə formaları arasında olan variasiya kimi təqdim edir. Bu variasiya ən çox ideoloji metaforlar səviyyəsində müşahidə olunur və əsasən proses tipi, keçid funksiyaları və ifadə quruluşu arasında uyğunluq və ya uyğunsuzluqla müəyyən olunur. Və o da müəyyən olunur ki, yazılı dil leksik baxımdan sıx və metaforik ifadələrə daha açıqdır, şifahi dil isə qrammatik cəhətdən mürəkkəbdir. Bu da onu deməyə əsas verir ki, ideoloji metaforlar əsasən yazılı diskursda meydana çıxır və dilin qrammatik strukturunun məqsədyönlü şəkildə dəyişdirilməsi ilə formalaşır.

Abstract

This article analyzes the interrelation of the structural and functional aspects of language and the concept of grammatical metaphor in the context of M.Halliday's theory of systemic-functional linguistics. Halliday distinguishes three main functions of language - ideational, interpersonal and textual functions, showing that language should be studied not only in its structural, but also in its functional aspect. The article explains the ideological and interpersonal types of grammatical metaphor, and this concept is explained on the basis of congruent and incongruent forms of expression. Based on Halliday's ideas, the author emphasizes that everyday language users use both ordinary and metaphorical expressions. At the same time, the systematization of some metaphorical expressions over time and their acceptance as congruent forms is also discussed. The article presents important theoretical information on the analysis of language within the framework of functional linguistics.

Key words: grammatical metaphor, function, structure, ideological metaphor, M.Hallidey

Ədəbiyyat

1. Halliday M.A.K. An Introduction to Functional Grammar, London: Edward Arnold, 1985, 387 p.

2. Halliday M.A.K. An Introduction to Functional Grammar, 3rd edition, New York: Oxford University Press, 2004, 689 pg.

3. Halliday M.A.K. Language Structure and Language Function. In Lyons, J., Ed., New Horizons in Linguistics, Penguin, Harmondsworth, 1970, p. 140-165.

4. Taverniers M. "Grammatical metaphor in SFL: A historiography of the introduction and initial study of the term". In: Simon-Vandenbergen, Anne-Marie; Miriam Taverniers & Louise Ravelli (eds.) Grammatical Metaphor: Views from systemic functional linguistics. (Current Issues in Linguistic Theory, 236.) Amsterdam: Benjamins, 2003, p.5-33.

DİLÇİLİKDƏ ELMİ PARADİQMA DƏYİŞİKLİKLƏRİ

Vəfa Allahverdiyeva
Bakı Slavyan Universiteti

Geniş metodoloji mənada "paradiqma" anlayışı amerikalı fizik və filosof Tomas Kun (1922 – 1996) tərəfindən 1962-ci ildə nəşr edilmiş və 1970-ci ildə genişləndirilmiş variantda oxucuya təqdim edilmiş "Elmi inqilabların strukturu" adlı əsərində təqdim edilmişdir [5]. O vaxtdan bəri bu əsər elmin inkişafının müzakirəsində fundamental xarakter almışdır. Elmi paradiqma, Kunun tərifinə görə, elmi cəmiyyətdə müəyyən bir tarixi dövrdə üstünlük təşkil edən problemlərin qoyulması və onların həlli yollarının, tədqiqat metodlarının ilkin konseptual modelidir. "Elmi paradiqma" anlayışının şərhi ona işarə edir ki, bu zaman müəyyən bir problemin necə həll edilməli olduğu modeldən bəhs olunur. Elmi paradiqmalarda dəyişiklik o zaman baş verir ki, verilmiş elmi biliklər sisteminin əsas problemləri ilə onların həlli üçün işlənib hazırlanmış metodlar arasında uyğunluq pozulur.

T.Kun iddia edir ki, elmdə iki paradiqmanın dinc yanaşı mövcud olması son dərəcə nadir haldır, çünki fundamental yeniliklər istər-istəməz əvvəlki ümumi qəbul edilmiş münasibətləri məhv edir. Bu mənada T. Kun normal elmlə (*normal science*) fundamental yenilikləri və ya ekstraordinar elmi (*extraordinary science*) qarşı-qarşıya qoyur. Normal elm dedikdə, o, bir və ya bir neçə keçmiş elmi nailiyyətlərə möhkəm əsaslanan tədqiqatı – müəyyən bir elmi ictimaiyyət tərəfindən bir müddət öz praktikası üçün əsas kimi qəbul edilmiş nailiyyətləri nəzərdə tutur. Bir qayda olaraq, bu nailiyyətlər klassik əsərlərdə və dərsliklərdə öz əksini tapır və beləliklə, onlar sonrakı nəsillər üçün problemlərin və tədqiqat metodlarının qanuniliyini müəyyən edir. Bu problem və tədqiqat metodlarının toplusu da elmi tədqiqat modellərini təşkil edir. Bu cür davamlılıq elmi fəaliyyətin mövcud paradiqma çərçivəsində qurulmasını, kəşflərin müəyyən edilmiş fundamental prinsiplərlə ziddiyyət təşkil etməməsini təmin edir. Normal elmin məqsədi, T. Kuna görə, yeni hadisələri proqnozlaşdırmaq və ya yeni nəzəriyyələr yaratmaq deyil. Əksinə elə hadisələr öyrənilir ki, onların mövcudluğunu paradiqma öncədən nəzərdə tutmuş olur. Ekstraordinar elm və qeyri-ənənəvi tədqiqat ondan başlayır ki, məlum qayda və prosedurlar vasitəsilə hansısa problemi uzun müddət həll etmək artıq mümkün olmur. Bu cür metodoloji cəhətdən çıxılmaz nöqtələri və ya məqamları təyin etmək üçün T. Kun *anomaly* (anomaliya) terminindən istifadə edir: Anomaliya artıq tədqiqat sirlərindən biri olmaqdan çıxaraq genişləndikdə, bu zaman böhrana və ekstraordinar elmə keçid başlayır. Anomaliya getdikcə daha çox mütəxəssis tərəfindən tanınır. Əgər onun heç bir çözümü, həlli tapılmazsa, bir çoxları üçün o, fənn daxilində tədqiqat predmetinə çevrilir. Nəticədə yeni münasibətlər sistemi və elmi tədqiqatların yeni əsası formalaşır.

T. Kun yeni paradiqmaya keçidin əlamətlərini sadalayır: "Alternativ mühakimələrin kəskin artması, yeni yolları sınamaq istəyi, narazılığın aydın

ifadəsi, fəlsəfəyə müraciət və əsas postulatlar haqqında mübahisələr – bütün bunlar normal elmdən ekstraordinar elmə keçid vəziyyətinin əlamətləridir" [5, s.91]. Qeyd etmək vacibdir ki, T. Kun üçün elmi biliklərin prinsipcə yeni səviyyəsinə çatmaq topluluq effektinin nəticəsi deyil: "Əsərdə elmi inqilablar köhnə paradiqmanın tamamilə və ya qismən ona uyğun gəlməyən yenisi ilə sıxışdırıldığı zaman toplu olmayan inkişaf epizodları kimi qəbul edilir" [5, s.92]. Beləliklə, T.Kunun fikrincə, elmi paradiqma müəyyən dövrdə elmin inkişafını müəyyən edən və sonradan elmi tədqiqat üçün yeni prinsip və göstərişlərlə əvəzlənən elmi problemlərin qoyulması üçün müddəalar və modellər kompleksidir.

Polşalı tədqiqatçı A. Kikleviç linqvistik paradiqmaları alternativ, bir-biri ilə rəqabət aparan dil profilləşdirmə növləri və xüsusən də dil işarəsi kimi şərh edir. Alim hesab edir ki, dilin, onun əsas xüsusiyyətlərinin və təsvir olunan aspektlərinin özünəməxsus şəkildə dərk edilməsi hər bir linqvistik paradiqmaya xas olan əlamətdir.

Düşünürük ki, dilin bu cür spesifik şəkildə anlaşılmasını paradiqmanın müxtəlif elementləri arasında əlaqələri müəyyən edən qnoseoloji konsepsiya adlandırmaq olar. E. S. Kubryakova paradiqmanın arxitektonikası haqqında yazır və onda qarşılıqlı ziddiyyət təşkil etməməli olan bir-biri ilə əlaqəli üç bəndi müəyyən edir: münasibətlərin ilkin şərtləri (münasibətlər, dil haqqında artıq mövcud olan məlumatlar; cəmiyyət üçün elmin məqsəd və vəzifələri haqqında fikirlər); predmet-idraki (bilavasitə təhlil sahəsi: obyektlər, vahidlər, təhlil istiqaməti); prosedur (seçilmiş metodlar sahəsi). Paradiqma dəyişikliklərini müzakirə edərkən tədqiqatçılar razılaşırlar ki, ideyalar, metodlar və çox vaxt tədqiqat sahələri dəyişir, lakin dilçilik tədqiqatlarında metodoloji dəyişikliklərin xarakteri ilə bağlı fikirləri isə müxtəlif olur. Bir sıra dilçilər dilçilikdə faktiki olaraq baş verən paradiqma dəyişikliyini tanıyırlar. Beləliklə, R. M. Frumkina 40 il ərzində (XX əsrin 50-ci illərindən 90-cı illərinə qədər) dilçilik paradiqmasının demək olar ki, tam dəyişməsi haqqında yazır ki, linqvistik tədqiqat predmetinin qurulması üsulları dəyişib. Xüsusi modelləri saymasaq, ümumi prinsiplərin və tədqiqat metodlarının seçilməsinə yanaşmanın özü köklü şəkildə dəyişdi. Linqvistik təsvirin bir neçə bir-biri ilə rəqabət aparan metadilləri ortaya çıxdı. Tədqiqatçı belə dəyişikliklərin nəticələrindən birini XIX əsrin sonlarının dilçiliyindən fərqli olaraq müasir dilçiliyin çoxpredmetliliyi adlandırır. V. M. Alpatov dilçiliyi digər empirik elmlərlə müqayisə edərək qeyd edir ki, digər elmlərdə əsrlər boyu onların predmeti, vəzifələri və məqsədləri haqqında təsəvvürlər dəyişib, dilçilik isə dilin dərk edilməsində, dilin əsas öyrənilən sahələrini (o cümlədən fonetika, morfologiya, sintaksis) müəyyən etməkdə, bir çox əsas anlayış və terminlərin istifadəsində sabitlik ilə xarakterizə olunur. "Dil haqqında elmin artıq çoxdan dilin öyrədilməsi və dil normalarının qorunması kimi praktiki ehtiyaclara xidmət etmədiyini və dilçiliyin ilk növbədə özlüyündə təcrübədən asılı olmayan "saf" bir elm kimi inkişaf etdiyini etiraf edərək, V. M. Alpatov, əminliklə qeyd edir ki, yeni vəzifələrin ortaya çıxması köhnələri ləğv etmir. Antik dövrə və orta əsrlərə aid müasir konsepsiyalardan nümunələr göstərən və ya ənənəvi yanaşmalara aydınlıq gətirən alim belə qənaətə gəlir ki, dil haqqında elmin inkişafı qədim ənənənin davamlı inkişafına

əsaslanır. Eyni zamanda, köhnə paradiqmalar elmin periferiyasına qədər geriləsə də, mövcud olmaqda davam edir və yeni paradiqmalar bir vaxtlar nəzərdən keçirilmiş məsələləri çox vaxt yenidən daha yüksək səviyyədə qaldırır" [1, s.16].

Bir çox dilçilərin fikrincə, dilçilikdə ilk həqiqi elmi paradiqma XIX əsrin əvvəllərində meydana çıxıb, ona görə də paradiqma anlayışı yalnız XIX – XX əsrlərin və sonrakı əsrlərin dilçiliyinə şamil edilir. Ənənəvi olaraq üç elmi paradiqma fərqləndirilir: müqayisəli-tarixi, sistem-struktur və antroposentrik.

Paradiqmaların bu təsnifatı ona görə əlverişlidir ki, bu təsnifat onların aktuallığını xronoloji ardıcıllıqla əks etdirir və paradiqmaların adları onların əsas metodoloji prinsiplərinə işarə edir.

Müqayisəli-tarixi paradiqma dilçilikdə ilk paradiqma olmuşdur. Əsas metod kimi müqayisəli-tarixi metoddan istifadə edilmişdir. Müqayisəli-tarixi metod dilin öyrənilməsi üçün ilk xüsusi metod idi. XVIII əsrin sonu – XIX əsrin birinci yarısının müqayisəli tarixi dilçiliyi qohum dillər arasında əlaqələr yaratmağa, onların zaman və məkanda təkamülünü təsvir etməyə çalışırdı. Bütün XIX əsr bu paradiqma üzrə fəaliyyət göstərdi. Müqayisəli-tarixi dilçilik çoxşaxəli müasir elmi paradiqma çərçivəsində itməmiş və fəaliyyət göstərməkdə davam edir.

Sistem-struktur paradiqma XX əsrin 20-ci illərində meydana çıxır. Sistem-struktur paradiqmada diqqət obyektə, əşyaya, ada yönəldilmişdi, buna görə də "söz" diqqət mərkəzində idi. Bu paradiqmanın formalaşması Ferdinand de Sössürün ideyaları ilə əlaqələndirilir. Bu zaman dilçilərin əsas diqqəti dil sistemlərinin özəlliklərinə, onların vahid və səviyyələrinin xüsusiyyətlərinə, müxtəlif dil sistemlərinin təşkilində ümumi və fərqli cəhətlərə yönəldilir.

XX əsrin ikinci yarısında dilçilikdə generativizmi əvəz edən müasir elmi bilik paradiqmasını səciyyələndirən müxtəlif müəlliflər onu fərqli adlandırırlar: funksional, formal-funksional, kommunikativ, koqnitiv, kommunikativ-koqnitiv, koqnitiv-kommunikativ, koqnitiv-diskursiv, kommunikativ-fəaliyyət və s. Yuxarıdakı tərifl ərdən göründüyü kimi, onların demək olar ki, hamısına bir neçə komponent daxildir ki, bu da dili öyrənmək üçün istifadə olunan yanaşmaların çoxluğunu göstərir.

Dilçiliyin müasir paradiqması inteqral paradiqmadır. O, dilçiliyin müxtəlif sahələrinin qarşılıqlı əlaqəsini nəzərə alaraq hərtərəfli fənlərarası tədqiqata əsaslanır. Linqvistik biliyin koqnitiv-diskursiv paradiqması (E. S. Kubryakova) ümumi inteqral modelin aktuallaşdırılmış variantı, xüsusi halı, yəni inteqral dilçiliyin modellərindən biri kimi qəbul edilə bilər. Bütövlükdə dilçiliyin optimal inteqral modeli və xüsusən də mətnin inteqral modeli istiqamətində axtarışlar linqvistik biliklərinin inteqral paradiqması çərçivəsində müasir dilçilik tədqiqatlarının perspektivli sahəsidir. Müasir elmi paradiqmanın mahiyyəti məsələsi çoxyönlü olması səbəbindən mürəkkəbdir.

Birincisi, müasir dilçilikdə dilin sistem-struktur formasiya kimi başa düşülməsi qorunub saxlanılır. İkincisi, deskriptivizmdən generativizmə keçid müşahidə olunur. Generativ dilçiliyin nümayəndələri dil sistemindən istifadənin müxtəlif imkanlarını müəyyən edən dilin generativ gücünü aşkara çıxartmağa çalışırlar. Üçüncüsü, müasir linqvistik paradiqmanın müəyyənedici xüsusiyyəti kimi bir tərəfdən antroposentrizmi, yəni insan amilinə doğru istiqamətlənməni,

digər tərəfdən isə ekstralinqvistik (dildənkənar) amillərin danışan şəxsə təsirini qeyd edə bilərik. Bu paradiqma çərçivəsində dilçilikdə linqvokulturologiya, psixolinqvistika, kommunikativ dilçilik, koqnitiv dilçilik, diskursiv dilçilik, praqmalinqvistika, sosiolinqvistika, semiotika və s. kimi istiqamətlər inkişaf etdirilir. Antroposentrik paradiqmada, V. A. Maslovaya görə, tədqiqatçı maraqları obyektdən idrak subyektinə keçir, dildə insan və insanda isə dil təhlil edilir [6, 57]. Bu paradiqma çərçivəsində ortaya çıxan əsas istiqamətlər koqnitiv dilçilik və linqvokulturologiya hesab olunur. Bu aspektlər bir-biri ilə sıx bağlıdır, lakin onların hər birinin öz spesifikliyi, öz obyekti və onun təhlil metodları var.

Koqnitiv dilçilik idrak mexanizmlərinin informasiyanın təmsil olunmasında və çevrilməsində oynadığı rolu, linqvokulturologiya isə xalqın dilində mədəni hadisələrin necə əks olunduğunu öyrənir. Koqnitiv dilçilikdə əsas olan bilik kateqoriyası, bilik növləri və onların linqvistik ifadə üsulları problemidir, çünki biliyin qeyd edilməsi, saxlanması, emalı və ötürülməsinin əsas vasitəsi dildir. Koqnitiv istiqamət dil tədqiqatında yeganə "istinad nöqtəsi" deyil, o, kommunikativ, kulturoloji, sosial, struktur və s. kimi bir çox mümkün istiqamətlərdən biridir və onlar yalnız birlikdə götürülərək dilin adekvat təsvirini və izahını verə bilərlər. Hal-hazırda yeni ümumi dil nəzəriyyəsi olduğunu iddia edən koqnitiv dilçilik çərçivəsində çoxsaylı linqvistik tədqiqatlar aparılır.

Linqvokulturologiyanın vəzifələri təkcə dil və mədəniyyətin qarşılıqlı əlaqəsinin öyrənilməsi ilə deyil, həm də mədəniyyət və təfəkkürün dildə əks olunması ilə əlaqələndirilir. Linqvokulturologiyanın əsas tədqiqat obyektləri xalqın dünyagörüşü, təfəkkür, mədəni dəyərlər və onların dildə əks olunmasıdır. Linqvokulturologiya böyük nəzəri əhəmiyyətə malik olmaqla yanaşı, uğurlu mədəniyyətlərarası ünsiyyətin təmin edilməsi baxımından kommunikativ-praqmatik aspektdə çox faydalı olan gənc, lakin perspektivli bir elmdir.

Beləliklə, paradiqma anlayışı müasir dilçilikdə bir-birinə uyğun gəlməyən konsepsiyalar mənasında deyil də, dilin öyrənilməsinin həm nəzəri baxışlarını, həm də onlarla bağlı metodları əhatə edən az-çox aktuallaşan üsullar mənasında istifadə olunur.

Abstract

SCIENTIFIC PARADIGM CHANGES IN LINGUISTICS

The presented article examines the reasons for the replacement of scientific paradigms in modern linguistics. A scientific paradigm is an initial conceptual model of the formulation of problems and their solutions, research methods, which prevail in a certain historical period in the scientific community. The interpretation of the concept of "scientific paradigm" indicates that in this case we are talking about a model of how a certain problem should be solved. A change in scientific paradigms occurs when the correspondence between the main problems of a given system of scientific knowledge and the methods developed for their solution is violated.

ƏDƏBİYYAT

1. Алпатов В. М. Об антропоцентричном и системоцентричном подходах к языку // Вопросы языкознания.1993, № 3, С.15-18.

2. Кун Т. Структура научных революций // Актуальные проблемы современной лингвистики: учебное пособие / составитель Л. Н. Чурилина. М.: Флинта: Наука, 2008, С.17-41.

3. Маслова В. А. Введение в когнитивную лингвистику. М.: Флинта, Наука, 2007, 796 с.

ÇOXMƏNALILIĞIN MƏDƏNİ-SOSİAL AMİLLƏRİ

İlhamə Xanəliyeva
Odlar Yurdu Universitetinin dissertantı
il-ashka@hotmail.com

Dilin əsas xüsusiyyətlərindən biri onun daim inkişafda və dəyişiklikdə olmasıdır. Bu inkişaf prosesi zamanı sözlər təkcə yeni forma və funksiyalar qazanmır, həm də məzmun baxımından zənginləşir. Bu zənginləşmənin əsas yollarından biri çoxmənalılıq – yəni polisemiyadır. Çoxmənalılıq, bir sözün bir neçə mənaya malik olması halıdır və bu, həm dilin daxili qanunauyğunluqları, həm də dilin istifadə olunduğu sosial və mədəni mühitlə sıx bağlıdır.

Çoxmənalılıq (polisemiya), bir leksik vahidin bir neçə, bir-birinə yaxın və ya fərqli semantik məna daşıması halıdır. Bu fenomen dilin iqtisadi və funksional xüsusiyyətlərini əks etdirir. Polisemik sözlər, dilin dinamik və çevik quruluşunu göstərir və ünsiyyət zamanı məna dərinliyi yaradır.

Məsələn, "baş" sözü həm bədən üzvü (fiziki anlam), həm rəhbərlik (idarəedici), həm də bir şeyin əvvəli (struktur baxımından) mənalarını ifadə edə bilər. Bu çoxmənalılıq həm linqvistik, həm də kontekstual faktorların təsiri ilə formalaşır.

Dil – mədəniyyətin daşıyıcısı və ifadə vasitəsidir. Mədəniyyət dəyişdikcə, dil də bu dəyişikliklərə uyğunlaşır. Mədəni proseslər, insanların dünyagörüşünü, təfəkkür tərzini və yaşam tərzini dəyişdirdikcə, dil vahidləri də yeni semantik yüklər qazanır.

Məsələn, texnologiyanın və sosial media mədəniyyətinin inkişafı nəticəsində "divar" ("wall") sözü yalnız fiziki məna daşımır, həm də sosial şəbəkələrdə istifadəçi profillərinin bir hissəsi kimi yeni məna qazanmışdır. Beləliklə, mədəniyyətin dəyişməsi və yenilənməsi, sözlərin məna sahəsini genişləndirir və çoxmənalılığa səbəb olur.

Cəmiyyətin inkişafı, sosial münasibətlərin dəyişməsi və yeni ictimai rolların yaranması da dilə və onun semantik strukturlarına təsirsiz ötüşmür. Sosial faktorlar – sinfi fərqlər, peşə sahələri, yaş qrupları və sosial statusa görə sözlərin müxtəlif mənalarda işlənməsinə səbəb olur. Məsələn, "şəbəkə" (network) sözü texnoloji sahədə kompüter əlaqəsini ifadə etdiyi halda, sosial elmlərdə insanlararası münasibətlər sistemini təsvir edir. Bu terminoloji genişlənmə sosial həyatın müxtəlif sahələrinin dilə olan təsirini göstərir. Bir sözün hansı mənada istifadə olunduğunu anlamaq üçün kontekst əsas meyardır.

Kontekstual yanaşma, sözlərin mədəni və sosial məna daşıyıcıları olduğunu və onların yalnız real ünsiyyət mühitində tam başa düşülə biləcəyini irəli sürür. Bu baxımdan, çoxmənalılığın anlaşılması üçün yalnız leksik analiz kifayət deyil – istifadə mühiti, danışanın niyyəti, auditoriya və sosial-mədəni fon da nəzərə alınmalıdır. Kontekstin dəyişməsi ilə sözün mənası da dəyişə bilər. Ekstralinqvistik amillər birbaşa mədəniyyətlə, dinlə, etnoqrafiya ilə bağlıdır. Çoxmənalılıq bədii əsərin əsas sütununu təşkil edir. İstənilən bədii nəsr və nəzm əsəri çoxmənalı sözlərlə zəngindir. Lakin çoxmənalı sözlərin heç də hamısı ekstralinqvistik mahiyyət daşımır. İstər Azərbaycan, istərsə də ingilis dillərindəki çoxmənalı sözlərin ekstralinqvistik xüsusiyyətləri demək olar ki, eyni tematik qrupları əhatə edir: dini, mədəniyyət, kulinariya, adət-ənənə, etnoqrafiya və s.

Dörd bir yanı duman aldı,
Quşlar avaza gəlmədi.
Qəriblikdən sərxoş düşdüm,
Ruhum namaza gəlmədi. [3, s.20].

Azərbaycan dilindəki "gəlmək" leksik vahidi çoxmənalı sözdür. Burada "namaza gəlmək" İslam dilini bağlı ekstralinqvistik amilləri özündə hifz edir. "Azərbaycan dilinin izahlı lüğəti"ndə "gəlmək" leksik vahidinin 29 məna növü yer almışdır [2, s.197]. "*Namaza gəlmək*" ifadəsi də onlardan biridir.

Azərbaycan dilində "göydən üç alma düşdü" ifadəsi vardır. Nağılların bu sonluqla bitməsi yalnız Azərbaycan folkloruna xasdır. Buradakı "düşmək" leksik vahidi çoxmənalıdır. Bədii mətndə bu ifadəyə intensiv şəkildə rast gəlinir:

Heç nə, heç nə dəyişməyib.
Göydən üç alma düşməyib...
Nothing, nothing changed in this world
Even three apples did not fall from the sky…[3, s.45]

İfadənin ingilis dilinə tərcüməsi tamamilə hərfi mahiyyət daşıyır. Burada işlənən "düşmək" leksik vahidinin çoxmənalılıq xüsusiyyətlərinə nəzər yetirək. "Düşmək" leksik vahidinin 43 məna növü "Azərbaycan dilinin izahlı dilçilik lüğəti"ndə yer almışdır. Sadəcə "düşmək" feilinin bütün məna çalarlarını əsərdə verməyə ehtiyac duumuruq [1,s.70].

Ağlama Yanıq Kərəmi,
Qalmaz belə, qalmaz dünya! [3, s.138].

Nümunəsində işlənmiş "Yanıq Kərəm" ifadəsi birbaşa xalqın folkloru ilə bağlıdır. Yanıq Kərəm "Əsli və Kərəm" dastanının qəhrəmanıdır. Xalqın minillik dastan və folklor yaradıcılığının məhsuludur. Kərəm xalqın milli təfəkküründə o qədər böyük yer tutmuş qəhrəman olub ki, onun adı ilə bağlı milli saz havası mövcuddur. Nümunədəki "q*almaq*" feili çoxmənalıdır. "Azərbaycan dilinin izahlı lüğəti"ndə "qalmaq" feilinin 17 çoxmənalı çaları mövcuddur. Çoxmənalılıq – dilin semantik gücünün və elastikliyinin göstəricisidir. Bu fenomenin formalaşmasında təkcə dilin daxili inkişaf mexanizmləri deyil, həm də mədəni-sosial faktorlar mühüm rol oynayır. Mədəniyyətin və cəmiyyətin dinamikası, sözlərin məna spektrini genişləndirir, onları yeni semantik sahələrə yönəldir. Bu səbəbdən çoxmənalılıq yalnız dilçilik

baxımından deyil, həm də linqvokulturologiya və sosiolinqvistika sahələrində tədqiq olunmalı mühüm bir mövzudur.

CULTURAL AND SOCIAL FACTORS OF POLYSEMY

Abstract

This article explores the role of cultural and social factors in the emergence and development of polysemy. In the natural process of language evolution, the acquisition of multiple meanings by words is not solely driven by internal linguistic rules but is also closely connected to the cultural and social needs of society. Culture and social environment stimulate the emergence of new semantic nuances in words, as language constantly adapts to the changing realities of human life.

The article highlights that the same lexical unit can carry different shades of meaning across various social groups, regions, and cultural contexts. In particular, cultural values, traditions, religious beliefs, and social relationship systems can contribute to the semantic expansion or change in meaning of words. In this sense, polysemy functions not only as a linguistic phenomenon but also as a mirror reflecting society and culture as a whole.

Additionally, the article emphasizes that the specific meaning a word acquires is directly influenced by the way it is used within a particular cultural and social context. This underscores the significance of contextualism and a pragmatic approach in understanding meaning.

Key words: *polysemy, polysemous words, cultural factors, social factors, semantics, context, language and culture, lexical meanings, contextualism.*

ƏDƏBİYYAT:

1. Abbasbəyli, E. Azərbaycan ədəbiyyatının fransız dilinə tərcüməsinin müasir vəziyyəti və qarşıya çıxan tərcümə problemləri./ Azling 2022 Azərbaycan dili və müasir dilçilik problemlər, perespektivlər və çağırışlar" Beynəlxalq elmi konfransın materialları. –s. 64-84

2. Azərbaycan dilinin izahlı lüğəti: [4 cilddə] /Red.Ə.Orucov. –Bakı: Şərq-Qərb, –c.3, –2006, –s.197

3. Fəxri, Z. Şeirlər (Poems)./ Z.Fəxri. Bakı: – Azərbaycan Tərcümə Mərkəzi, – 2018. –s.45

DİL SƏRİŞTƏSİNİN QİYMƏTLƏNDİRİLMƏSİNDƏ SÜNİ İNTELLEKTİN ƏHƏMİYYƏTİ

Sayalı Quliyeva
AMEA Nəsimi adına Dilçilik İnstitutu
Dissertant
msayali@mail.ru

Giriş. İnsanlar arasında sosial münasibətlərin qurulması və inkişafı dil vasitəsilə reallaşır. Dil insanların ünsiyyəti üçün yaradılmış sözlər sistemidir [1]. Ünsiyyətin qurulmasında ən vacib şərtlərdən biri dil bacarıqlarıdır. Dil bacarıqları insanların öz fikirlərini və duyğularını aydın şəkildə ifadə etmələrini təmin edir. Bunun nəticəsində insanlar özlərini daha yaxşı ifadə edə və qarşılıqlı əlaqələrini inkişaf etdirə bilərlər. Dilin səlis istifadəsi həmçinin şəxsiyyətin daha yaxşı formalaşmasına və özünəinamın artmasına səbəb olur. Bu baxımdan dil səriştəliliyinin hansı səviyyədə olduğunu müəyyən etmək vacibdir. Aparılan tədqiqatlar göstərir ki, dil biliklərinə yiyələnmək və dil səriştəliliyinin qiymətləndirilməsi üçün müxtəlif metod və vasitələr mövcuddur, onlar arasından ən optimal üsulun seçilməsi isə böyük əhəmiyyət kəsb edir.

İnformasiya və Kommunikasiya Texnologiyalarının (İKT) sürətli inkişafı bir sıra sahələrdə olduğu kimi, təhsil və xüsusilə dil biliklərinin qiymətləndirilməsində inqilabi dəyişikliklərə səbəb olmuşdur. Ənənəvi qiymətləndirmə metodlarından fərqli olaraq, İKT vasitələri təhsil prosesini dinamik, fərdiləşdirilmiş və daha səmərəli edir. Bu tətbiqlərin dil səriştəliliyinin qiymətləndirilməsindəki rolu xüsusilə əhəmiyyətlidir. Dil səriştəliliyinin qiymətləndirilməsinə İKT vasitələrinin tətbiqi dedikdə avtomatlaşdırılmış qiymətləndirilmə nəzərdə tutulur. Avtomatlaşdırılmış qiymətləndirilmə insan müdaxiləsi olmadan, kompüter alqoritmləri və süni intellekt texnologiyaları (Duolingo, Babbel, Google Speech-to-Text, Grammarly və s.) vasitəsilə dil bacarıqlarının (oxuma, yazma, danışma, dinləmə) avtomatik şəkildə təhlili və qiymətləndirilməsi prosesidir. Rəqəmsal cəmiyyətin inkişafı ayrı-ayrı fərdlərin dil bilikləri haqqında verilənlər bazasının (mətn və audio məlumatların) formalaşmasını təmin edir və bu da öz növbəsində süni intellekt vasitəsilə dil səriştəliliyinin qiymətləndirilməsi üçün əlverişli imkanlar yaradır.

Tədqiqatın əsas məqsədi süni intellektin dil öyrənmə proseslərinə necə təsir etdiyini və bu texnologiyanın dil səriştəliliyinin qiymətləndirilməsi sahəsindəki potensialını və qarşılaşdığı çətinlikləri müəyyən etməkdir. Bu sahədə aparılan tədqiqatlar araşdırılarkən dilin öyrənilməsi və qiymətləndirilməsi kimi məsələlərdə süni intelektin yaratdığı çətinliklər qeyd olunsa da, onun fərdin dil biliklərinin qiymətləndirilməsi üçün verdiyi imkanlar daha əhəmiyyətlidir. Süni intellektin dil səriştəliliyinin təhlilində və qiymətləndirilməsində rolunun gündən-günə artması, onun daha da təkmilləşdirilməsi bu sahədə daha çox araşdırmaların aparılmasına zəmin yaradır.

1. Dil səriştəliliyinin əhəmiyyəti

Dil səriştəsi dil biliklərini, diskurs səriştəni və sosiolinqvistik səriştəni özündə birləşdirir. Dil səriştəsi dedikdə dil biliyi və eyni zamanda dildən düzgün istifadə bacarığı nəzərdə tutulur [2]. Dil istifadəçisinin dil səriştəsi yalnız onun fonetik, qrammatik, semantik bilikləri deyil, həmçinin fərdin dil və yazı işarələri haqqında bilik və bacarıqları ilə də əlaqəli olur. Belə ki, dil səriştəsi insanın sosial, şəxsi və peşəkar həyatında uğur əldə etməsinə, başqaları ilə əlaqə qurmasına və bir-birini başa düşməsinə imkan verir. Dil səriştəliliyinin əhəmiyyətini şəxsi ünsiyyət və münasibətlərin qurulmasında, elm sahəsində akademik uğurun qazanılmasında, peşəkar həyatda karyeranın inkişafında, sosial əlaqələrin və mədəniyyətlərarası münasibətlərin qurulmasında müşahidə edə bilərik.

Dil səriştəliliyi çoxşaxəli bir anlayışdır və onun əsas komponentləri *qrammatik bacarıqları* - dilin strukturunu başa düşmək və düzgün istifadə etmək, *lüğət ehtiyatı* - söz bazasının olması və mənasına görə sözlərin düzgün yerində istifadəsi, *danışıq bacarığı* - şifahi şəkildə səlis və düzgün ünsiyyət qurmaq, *yazı bacarığı* - düzgün yazı strukturunu və üslubunu nəzərə almaq, *dinləmə bacarığı* - qarşı tərəfin fikirlərini anlamaq və buna uyğun cavab verməkdir. Onu da qeyd edək ki, dil səriştəliliyi təbii qabiliyyət olmayıb, öyrənilə və daha da inkişaf etdirilə bilər. Tədqiqatlar göstərir ki, dil bacarıqlarının inkişafı üçün müxtəlif metod mövcuddur və elmi ədəbiyyatlarda onların müqayisəli təhlili aparılmışdır [3]. Dil səriştəliliyinin qiymətləndirilməsi üçün mövcud metodlar həm ənənəvi, həm də müasir (texnologiyaya əsaslanan) yanaşmaları əhatə edir [4]. Aparılan tədqiqatlar göstərir ki, dil biliklərinə yiyələnmək və dil səriştəliliyini daha da inkişaf etdirmək üçün ənənəvi metodlarla müqayisədə zamanın tələbinə cavab verən müasir texnologiyanın tətbiqi daha məqsədəuyğundur.

1.1. Müasir qiymətləndirmə metodları: Süni intellekt (Sİ)

İKT dil biliklərinin qiymətləndirilməsi prosesində bir sıra imkanlar yaratmışdır. Ənənəvi üsullardan fərqli olaraq, İKT əsaslı qiymətləndirmə metodları, tələbənin dil biliklərini daha dəqiq və effektiv şəkildə ölçməyə imkan yaradır. Son dövrlərdə süni intellekt (Sİ) texnologiyalarının rolu əhəmiyyətli dərəcədə artmışdır. Süni intellekt - insan beyninin məntiqi təfəkkürünü və qərarvermə qabiliyyətini kompüter sistemləri vasitəsilə simulyasiya edən texnologiyadır [5]. Bu texnologiyalar dil öyrənmə və dil səriştəliliyinin qiymətləndirməsində də geniş istifadə olunur. Süni intellekt texnologiyaları fərdin mövcud dil biliklərini, onun öyrənmə sürətini və xüsusi ehtiyaclarını analiz edərək fərdi tədris planı formalaşdırır. Belə fərdi yanaşma sayəsində öyrənən şəxs ən məhsuldar üsullarla dil bacarıqlarını inkişaf etdirə bilir. Bu qeyd olunanlar isə internet mühitində hər bir şəxsin fərdi dil korpusunun yaranması ilə əlaqədardır. Belə ki, bir şəxsin yazdığı, danışdığı və ya istifadə etdiyi dil nümunələrini (mətnlərin, audio yazıları, danışıqları və s.-ni) toplanaraq verilənlər bazası əmələ gətirir. Toplanmış verilənlər bazası əsasında formalaşmış fərdi dil korpusu hər bir şəxsin dil səriştəliliyinin inkişaf səviyyəsini müəyyən etməyə, dildən istifadə zamanı edilən səhvlərin təhlilini aparmağa və dil səviyyəsinin qiymətləndirilməsini təmin edir.

2. Süni intellekt ilə ənənəvi metodların müqayisəli təhlili.

Ənənəvi metodlar insan tərəfindən idarə olunan, müəyyən qaydalara və təcrübəyə əsaslanan üsullardır. Belə ki, ənənəvi metodlar daha çox müəllim yönümlüdür, müəyyən qaydalar əsasında qurulduğundan daha sabitdir, qiymətləndirmə zamanı da çox şəxsi təcrübəyə və aparılan müşahidələrə əsaslanır. Süni intellekt isə fərdin dil bacarıqlarını süni intellekt alqoritmləri vasitəsilə öyrənir, təhlil edir, müəyyən qərarlar verir, verilənlərə əsaslandığı üçün daha uyğunlaşmış olur, davamlı işləyə bilir və zamanla təkmilləşir.

Aparılan araşdırmalar göstərir ki, dil biliklərinin qiymətləndirilməsində süni intellekt texnologiyalarının tətbiqinə fərqli yanaşmalar mövcuddur. Bəzi ədəbiyyatlarda dil səriştəliliyinin qiymətləndirilməsində Sİ texnologiyalarının tətbiqinin böyük imkanlar yaratdığı və dil öyrənmə prosesində effektiv şəkildə istifadəsi, tələbələrin dil bacarıqlarını inkişaf etdirmək üçün əhəmiyyətli bir vasitə olduğu qeyd olunur [6; 7]. Bunun əksinə olaraq, M.Ali qeyd etdiyi kimi, dil öyrənmə prosesində insan intellektinin əhəmiyyəti xüsusi vurğulanır. Tədqiqatda qeyd olunur ki, dil öyrənmə prosesi, insanın mürəkkəb koqnitiv və sosial qabiliyyətlərini tələb edir və bu kompüterlər tərəfindən tam təkrarlana bilməz. Yang və Kyun (2022) tərəfindən aparılan tədqiqatda isə fəaliyyət nəzəriyyəsi çərçivəsində süni intellektin dil öyrənilməsindəki rolu və təsiri ətraflı şəkildə araşdırılmışdır. Onlar müəllimlərin və tələbələrin Sİ ilə qarşılıqlı əlaqələrinin öyrənmə prosesindəki əhəmiyyətini vurğulayır və gələcək tədqiqatlar üçün istiqamətlər təklif edirlər [9] .

Süni intellekt texnologiyalarının dil səriştəliliyinə tətbiqi ilə bağlı fikir ayrılıqlarının olması onun üstün cəhətləri ilə yanaşı, müəyyən çatışmazlıqların olmasından irəli gəlir.

- ***Sİ texnologiyalarının üstünlükləri*** kimi obyektivlik və qərəzsizlik, sürətli nəticənin əldə olunması və vaxta qənaət, davamlılıq, kütləvi tətbiq imkanı (scaleability), müxtəlif bacarıqların kompleks qiymətləndirilməsi və əlçatanlılıq onun əsas üstünlükləri kimi qeyd oluna bilər.
- ***Sİ texnologiyalarının məhdudiyyətləri*** isə yaradıcı və kontekstual düşüncənin qiymətləndirilməsində çətinliyin olması, dialekt və aksentlərə qarşı qeyri-dəqiqlik, mədəni kontekstin nəzərə alınmaması, qeyri-şəffaf qiymətləndirmə meyarlarının olması, texniki problemlər və texnoloji asılılıq, emosional və sosial bacarıqların qiymətləndirilməsinin qeyri-mümkünlüyü süni intelekt vasitələrinin çatışmazlığı kimi qiymətləndirilə bilər.

Nəticə. Rəqəmsal cəmiyyətin formalaşması, sosial-mədəni əlaqələrin genişlənməsi bir çox sahələrdə olduğu kimi, dil səriştəliliyinə yiyələnməkdə də innovativ metodların tətbiqini zəruri edir. Aparılan tədqiqatlar göstərir ki, süni intellekt vasitələrinin dil səriştəliliyinin təhlilində və qiymətləndirilməsində tətbiqi həm dil öyrənənlərə, həm də onu tədris edənlərə daha effektiv və fərdiləşdirilmiş tədris imkanları yaradır. Süni intellekt dil öyrənənlərin dil bacarıqlarını inkişaf etdirməklə yanaşı, həm də öyrənmə tempini izləyir, zəif tərəfləri aşkar edir və buna uyğun dərs proqramları təqdim edir. Bu tətbiqlər, həmçinin dil öyrənmə prosesini daha maraqlı və interaktiv edərək istifadəçilərin motivasiyasını artırır. Nəticə olaraq, İKT-nin dil biliklərinin qiymətləndirilməsində həm müsbət, həm də mənfi tərəfləri ilə yanaşı, çoxsaylı imkanlar təqdim etdiyini qeyd edə bilərik. Gələcəkdə bu texnologiyaların daha

geniş tətbiqi ilə dil öyrənmə və qiymətləndirmə sahəsindəki inqilabi dəyişikliklərin olması üçün araşdırmaların davam etdirilməsi zəruridir.

Abstract: In a globalized world, language proficiency has emerged as a pivotal factor influencing an individual's development, integration into society, and success in various social and professional environments. The cultivation of language knowledge has been demonstrated to facilitate enhanced connectivity among individuals across diverse cultural and social contexts. This capacity for interconnectedness has been shown to reinforce global cooperation, thereby contributing to the effective navigation of global environments by individuals. The present study analyzes innovative methods employed in the development and assessment of language competence. It is evident that the rapid advancements in technology have had a profound impact on diverse facets of human existence. A close examination reveals that significant transformations are occurring, particularly within the domains of education and the language learning process. These modifications are predominantly underpinned by advancements in Artificial Intelligence (AI) technologies. In the contemporary context, the imperative for objective, flexible, and effective language proficiency assessment is paramount. The integration of artificial intelligence within this domain is precipitating novel opportunities. Therefore, while certain challenges posed by artificial intelligence in domains such as language learning and assessment have been identified, the development of artificial intelligence has been assessed as a transformative innovation in the fields of language learning and assessment.

Keywords: language competence, automated assessment, methods, ICT, AI tools

Ədəbiyyat

1. Paul, R. (1994). A brief history of English. Cambridge University Press. 181 p.

2. Spitzberg, B.H. (1988). Communication competence: Measures of perceived effectiveness. In: C. Tardy (ed.), A handbook for the study of human communication. Norwood, NJ: Ablex; 67-105.

3. Nataliia S. Ivasiv, Mariya S. Kozolup, Olena V. Oleniuk, Nataliia V. Rubel and Nataliya Y. Skiba. (2020). Current Methods for Assessing the Level of Foreign Language Proficiency of University Students, International Journal of Learning, Teaching and Educational Research Vol. 19, No. 10, pp. 304-322.

4. Seshagiri H., Kota Sai Krishna. (2020). Assessing Language Proficiency: The Role of Standardized Tests vs. Alternative Assessment Methods. International Journal of Early Childhood Special Education (INT-JECSE) DOI: 10.48047/intjecse/v12i2.201224 ISSN: 1308-5581 Vol 12, Issue 02.

5. https://www.ibm.com/think/topics/artificial-intelligence

6. Chen, X., Zou, D., Cheng, G., et al. (2021). Artificial Intelligence-Assisted Personalized Language Learning: Systematic Review and Co-Citation Analysis. In Proceedings of the 2021 International Conference on Advanced Learning Technologies (ICALT); Tartu, Estonia, 12-15 July 2021. pp.241-245.

7. Ahmadi, D. M. R. (2018). The use of technology in English language learning: A literature review. International Journal of Research in English Education, 3(2), pp.115-125.

8. Ali, M. (2018). The Human Intelligence vs. Artificial Intelligence: Issues and Challenges in Computer AssistedLanguage Learning. International Journal of EnglishLinguistics, vol.8, No 5.

9. Yang, H., Kyun, S. (2022). The Current Research Trend of Artificial Intelligence in Language Learning: A Systematic Empirical Literature Review from an Activity Theory Perspective. Australasian Journal of Educational Technology, 38(5), 180–210

PAREMİYALARDA SAYLARIN MİFOPOETİK ANLAMI

Nuray Nurizadə
AMEA Nəsimi adına Dilçilik İnstitutu

Say bildirən sözlər dünyanın mifopoetik modelinin inikasında əsas komponentlərdən sayılır. Dünya xalqlarının mifopoetik ənənənələrində ən çox rast gəlinən elementlərdən biri məhz saylardır.

"Say- kəmiyyət" konsepti insan idrakında qədim simvolika ilə yanaşı, mifoloji-sakral təfəkkürün izlərini yaşadır. Dünyanın kəmiyyət anlamlı söz və ifadələrlə dərk olunması xüsusi mistik anlam daşıyır. Çünki qədim insanlar say və kəmiyyət bildirən ilk sözlərdən istifadə edərkən onların mistikliyinə inanmışlar. Say və kəmiyyət bildirən ilk sözlər antik simvolikanın, ilkin mifoloji düşüncənin izlərini, yəni reliktini yaşadır.

"Kəmiyyət" konseptinin həm mifoloji, həm də linqvistik mahiyyətində sakrallıq, qədim simvolika və antik numerologiyanın konseptual analizi dayanır. Say bildirən sözlərin mistik anlamı haqqında qədim mifologiyada və antik dilçilikdə kifayət qədər zəngin məlumatlar vardır. İlkin mifoloji təfəkkürdə müşahidə olunan dualizmin mahiyyətində məhz "say-kəmiyyət" konsepti dayanır. "Kəmiyyət" konseptinin reprezentasiyasında fərqli idrak üsulları çıxış edir. Saylar dünyanın ümumi mənzərəsini təqdim etmək üçün ən ideal simvolik elementlərdən olmuşdur. Onların sakrallıq baxımından qədim mədəniyyətlərdə aparıcı yer tutması məhz bununla bağlıdır. Qədim çin mədəniyyətində saylarla bağlı fəlsəfi təlim yaranmışdı. Həmin fəlsəfi təlimə görə hesab olunurdu ki, saylar (çincə "şu") əşyalar haqqında bilgilər verir və saylarla əşyaları birbirindən ayırmaq olmaz [9, s. 10]. Hər bir konseptin tədqiqində mifoloji faktlar, yəni mifopoetika ilkin etnokulturoloji təfəkkürün izlərini, yəni reliktini daşıyır. Say bildirən söz və rəqəmlər mifoloji təfəkkürdə dünyanın və həyatın şifrələnmiş kodları kimi çıxış edir. Qədim türk mifologiyasında sayların sakral modellərindən mifoloq Seyfəddin Rzasoy bəhs edir [5,].

Folklorşünas alim Ramazan Qafarlı mifik təfəkkürdə kəmiyyət anlayışının təhlilini vermişdir. O, bildirir ki, "*Azərbaycan folklorunun epik ənənəsində, xüsusilə miflərdə, əfsanələrdə və nağıllarda müxtəlif rəqəmlərdən geniş istifadə*

olunur. Bədii mətnlərin poetik strukturunda bu rəqəmlər semantik-stilistik mahiyyət daşıyır. Ayrı-ayrı rəqəmlərin işlənmə dairəsi və funksiyası isə olduqca müxtəlifdir. Rəqəm – mifopoetik sistemlərdə ən geniş yayılmış işarələr toplusudur və keyfiyyət-kəmiyyət, zaman-məkan-miqdar daşıyıcısı kimi çıxış edir. İnsan özü də işarə-təsvir üsullarından biri kimi xüsusi say kodunun ən mühüm elementinə çevrilir. Başqa sözlə, mifoloji modellərdə bəşər övladının dünyaya gəlməsi başqa dünya elementləri ilə müqayisədə müxtəlif rəqəmlərlə qeyd edilir" [2, s.510]. Bu fikirlər sübut edir ki, kəmiyyət məzmunlu paremiyalarda semiotik funksiya çox güclüdür. Çünki tarixən insan təfəkküründə saylarla bağlı simvolika, sakral anlamlar daha çox yaranmışdır.

Ramazan Qafarlı digər bir əsərində "mifoloji dünya modelinin" kəmiyyət strukturundan bəhs edir. Onun fikrincə, "*mifologiyada saylar dünyanın yalnız kəmiyyət baxımından qavranma vasitəsi deyildir. Mifoloji çağ insanı dünyanı rəqəmlər vasitəsi ilə yalnız dərk etməmiş, həm də təsvir edərək «modelləşdirmişdir». Başqa sözlə, rəqəmlərin mifoloji dünya modelinin qurulmasında son dərəcə böyük və müstəsna rolu olmuşdur. Kəmiyyət (say) insanın dünya anlamında faydalandığı vacib abstrakt anlayışlardan biridir.* [3, c.1, s.376-377].

Müasir koqnitiv dilçilik psixolinqvistikanın müstəqil bir sahəsi kimi inkişaf etməkdədir. Yəni psixologiya ilə, məntiqlə, idrakla bağlı olan koqnitiv dilçiliyin öz metod və üsulları mövcuddur. Konsept isə koqnitiv dilçiliyin əsas anlayışlarından biridir. Bu konsept çoxçalarlı və əhatəli konseptlərdən biri hesab olunur. Rəqəm və sözlərlə, söz birləşməsi və cümlələr şəklində ifadə oluna bilən kəmiyyət anlayışı istər semantik sahə, yəni funksional dilçilik baxımından, istərsə də etnokulturoloji baxımdan önəm daşıyır. Kəmiyyət bildirən sözlərin diskretlik mahiyyəti də mövcuddur. Təklik və cəmlik anlayışı bütün dillərdə müşahidə olunur. İkilik sayı mifologiyada daha çox xeyir və şəri, işıq və qaranlığı, dualizmi, dixotomiyanı ifadə etmişdir. M.Qıpçaq qeyd edir ki, "*kəmiyyət kateqoriyasının "təklik-cəmlik" korrelyasiyası bütün türk dillərinə xasdır. Bir sıra dillərdən fərqli olaraq (məsələn, bantu dillərindən) türk dillərində təkliyi bildirmək üçün xüsusi formantlardan istifadə edilmir"* [4, s.390]. Mifologiyada *iki* sayı yeraltı və yerüstü dünyanı, dində isə cənnət və cəhənnəmi simvolizə edir.

Məlumdur ki, bəzi saylar müxtəlif xalqların etnik təfəkküründə uğurlu və uğursuzluq əlamətləri kimi çıxış edir. Məsələn, "*13 nəhs, uğursuz rəqəmdir"* ifadəsi əksər xalqların dilində işlənməkdədir. Azərbaycanlı mentalitetində *on üç* sayının uğursuzluq rəmzi olması xalqımızın ən qədim dini dünyagörüşü ilə bağlıdır. Ona görə də dilimizdə *nəhs gətirdi* idiomu var. Avropa xalqlarının mental təfəkküründə də *on üç* sayı uğursuz hesab olunur. Deməli, bəzi saylar müxtəlifsistemli dillərdə analoji simvolika ifadə edir. Bu fakt da insan təfəkküründə sayların universal mahiyyətli olduğunu bir daha sübut edir.

Say simvolikasının dünyanın kosmoqonik modellərinin dərk edilməsində xüsusi önəmi var. Paremiyaların mifopoetik strukturunda kəmiyyət ifadə edən sözlər "xüsusi çəkiyə" malikdir. Rəqəmlərlə onların ifadə etdiyi anlamın mistik mahiyyətini açan elm sahəsi numerologiya adlanır. Numerologiya rəqəmlərin insan həyatındakı mistik təsirini öyrənir. Hələ qədim dönəmlərdə astrologiya ilə bağlı ilkin insan təfəkküründə numerologiyanın önəmi böyük idi. Eyni zamanda,

arifmetika, geometriya, astronomiya elmlərində rəqəmlərin mistikası haqqında zəngin məlumatlar var. Bu qədim faktlar da ilkin mifoloji düşüncədə, qədim folklor mətnlərində "say-kəmiyyət" konseptinin nə qədər əhəmiyyətli yer tutduğunu sübut edir.

Paremiyalara ümumi folklor kontekstindən baxmaq lazımdır. Paremiyaların dilini folklor dili aspektindən araşdırmaq daha önəmlidir. Mifologiyada dualizm xeyir və şər qüvvələri obrazlaşdırır, onların struktur-semantik mahiyyətini üzə çıxarır. Dünyanın mifoloji obrazlar sistemində ikilik, yəni dualizmlə bağlı kifayət qədər obrazlar mövcuddur. Həmin dualistik mifoloji obrazlar bir-birinin əksində duran mifik qüvvələr kimi çıxış edir. Onlar əks mövqelərdə dayanır. Məsələn, Altay türklərinin mifologiyasında Erlik və Ülgen tanrısı var. Qədim hind mifologiyasında yeraltı dünyanın Allahları və yerüstü dünyanın Allahları mövcuddur [6, s.*408-409]*.

Azərbaycan nağıllarında *"yeddi gün", yeddi gecə", "üç gün, üç gecə"* ifadələri daha tez-tez müşahidə olunur. Bu da səbəbsiz deyil, çünki *yeddi* sayı türk mifoloji təfəkküründə ən sakral rəqəmlərdən biri sayılır. "*Atalar üçdən deyib"* məsəli təsadüfi yaranmayıb. Rus dilində onun qarşılığı, yəni ekvivalenti belədir: "*Бог любит троицу"*. Üç sayı tarixən mistik-sakral anlamı ilə dünya xalqlarının etnotəfəkküründə ən mühüm yerlərdən birini tutur. Triada anlayışı bir çox xalqların etnoqrafiyalarında və linqvokulturologiyalarında əsas simvollardan biri kimi çıxış edir. Xristianlıqda müqəddəs üçlük (Святая Троица) anlayışı mövcuddur. Rus dilindəki "*Бог един, но в трех Лицах"* ifadəsi Ata, Müqəddəs Ruh və Oğul üçlüyünü simvolizə edir. Vaxtilə yunan filosofu Platon üç sayı ilə dünyanın mahiyyətini izah edirdi. Antik fəlsəfədə üç sayının kult kimi dərk olunması müşahidə olunur. Xristianlıq dininin müqəddəs kitabı olan "Bibliya"da 7, 3 və 9 sayları müqəddəs hesab olunur. Ona görə də bu saylar xristianlıq dininə sitayiş edən xalqların, o cümlədən rus xalqının folklor nümunələrində önəmli yer tutur. Sayların sakramentallığı ilə milli-mədəni spesifikliyi ifadə edən stereotiplər ifadə olunur. Belə stereotiplər, xüsusilə paremioloji vahidlərin timsalında daha çox nəzərə çarpır. Onlar arxaik semantikanı, arxaik dövrün izlərini yaşadan mifopoetik konsepsiyaları, sakral-smivolik anlamları mühafizə edərək dünyanın dil mənzərəsinin təqdimatında koqnitiv model kimi çıxış edir.

Dünya xalqlarının mifopoetikasında dünyanın ikili və yaxud üçlü kosmik model şəklində təqdimatı çox səciyyəvidir. Bütün bunlar isə heç də təsadüfi deyil. Məsələn, dünya xalqlarının mifologiyasında geniş yayılmış dünya ağacı mifinə görə kosmos üçlü sistemi kimi təqdim olunur. Dünya mifoloji sistemində horizontal və vertikal olmaqla ikili kosmik model təqdim olunur. Məsələn, dünya xalqlarının əksəriyyətinin mifologiyasında müşahidə olunan "Dünya ağacı" mifində bu süjeti görmək mümkündür. "Say, kəmiyyət" konseptini ifadə edən paremiyalarda variantlılıq əsas xüsusiyyətlərdəndir. Məsələn: *"Sən saydığını qoy dursun, Murad, gör Usta Kərim nə sayır – Sən say öz saydığını, gör bir fələk nə sayır – Sən saydığın qalsın, gör fələk nə sayır – Sən saydığını qoy dursun, gör fələk nə sayır – Sən saydığını say, gör fələk nə sayır" – Sən saydığını say, fələk gör nə saydıracaq* . Bu paremiyada say kəlməsi "tale, qədər" anlamını ifadə edir. *Qismətdən artıq yemək olmaz – Qismətdən çox yemək olmur*

– *Qismətdən artıq götürmək olmaz* [1, s.982 – 983]. Eynilə bu paremiyada da "tale, bəxt" anlamı ifadə olunur.

Nəticə olaraq, qeyd etmək istəyirik ki, arxaik etnokultiurologiyanın reliktini yaşadan magik saylar müasir dönəmdə də insan psixologiyası üçün önəmli faktorlara çevrilmişdir.

Ədəbiyyat siyahısı:

1. Həmidov, İ. Azərbaycan dilinin frazeologiya lüğəti / İ.Həmidov, M.Qocayev, R.Məmmədova. – Bakı: Teas Press, – 2020. – 1560 s.

2. Qafarlı, R. Mif və nağıl. (Epik ənənədə janrlararası əlaqə). – Bakı: ADPU, – 2002, – 448s.

3. Qafarlı, R. Mifologiya. Mifogenez: rekonstruksiya, struktur, poetika. (6 cilddə) və nağıl. – Bakı: Elm və təhsil, c.1., – 2015, – 454 s.

4. Qıpçaq, M.D. Kəmiyyət anlayışının dildə ifadəsi (tarixi-tipoloji tədqiqat) / M.D.Novruzov. – Bakı: Elm, – 2000. – 453 s.

5. Rzasoy, S. Oğuz mifologiyası. – Bakı: Nurlan,– 2009. – 363 s.

6. Иванов, Вяч.Вс. Дуалистические мифы *// Мифы народов мира: Энциклопедия. – М., 1980. Т. 1. – с.408-409.*

MYTHOPOETIC MEANING OF NUMBERS IN PAREMIAS

The article discusses the mythopoetic functions of numbers and quantity-expressing words in paremiological units. The study explores the mythological roots of numbers that reflect the ethnospecific character of various peoples around the world. In mythology, dualism represents the opposition of good and evil forces and reveals their structural-semantic essence. Numerous representations of duality exist in the system of mythological imagery of the world. These dualistic mythological images act as opposing mythical forces, standing in contrast to one another. Linguistic units expressing the concept of "number and quantity" in proverbs possess strong cognitive potential. They convey the cosmic view of the world in a sacramental manner. The semantic models presented in proverbs with numerical and quantitative content have the capacity to reflect the linguistic worldview in a complex and comprehensive way.

Keywords: *proverb, mythopoetic, number, quantity, meaning, function*

DİALOJİ NİTQİN LİNQVİSTİK XÜSUSİYYƏTLƏRİ

Nağıyeva Nigar
AMEA Nəsimi adına Dilçilik İnstitutu
dissertant
nagiyevanigar8@gmail.com

XX əsrin son rübü dilçiliyinin inkişafında qeyri-rəsmi danışıq nitqinin xüsusiyyətlərinin nəzəri öyrənilməsini əhatə edən dilçiliyin müstəqil bir bölməsi

kimi "danışıq dillərinin" meydana çıxması ilə əlamətdar oldu. Keçən dövr ərzində müxtəlif dillərin materiallarından istifadə edərək şifahi dialoji nitqin problemlərinə dair çox sayda əsərlər ortaya çıxsa da, alimlərin danışıq nitqinin xüsusiyyətlərinin öyrənilməsinə maraq yenə də davam etməkdədir.

Dialoq insan ünsiyyətinin universal təbii forması kimi bir-biri ilə struktur, semantik və funksional baxımdan əlaqəli olan tamamlayıcı qeydlər toplusudur. Bu cür nitq istehsalı dilçilər tərəfindən "dili sosial kontekstdə işlədildiyi şəxsi və sosial münasibətlər (adətlər, məcburi qaydalar, ünsiyyət yolları) şəbəkəsinə daxil olduğu formada, düşünülmüş, üstünlük verilən insan davranış normaları" kimi qəbul edilir və diskurs fenomeni kimi təhlil olunur [1, s.102].

Əgər ənənəvi normativ qrammatika "normalaşdırılmış" nitqin müəyyən qanunlarını təsvir edirsə, əsas diqqəti dinləyicinin mümkün cavab reaksiyalarını nəzərə almadan qavramasına və anlamasına yönəldirsə, funksional-kommunikativ yanaşmaya əsaslanan dialoji nitqin qrammatikası dili özünün həqiqi, təbii funksiyasında, insanlar arasında ünsiyyət vasitəsi kimi fəaliyyətində təqdim edir.

Dialoji nitq dünyanın bütün dillərinə xas olan şifahi ünsiyyətin ən qədim və universal formasıdır. Dilçilik ədəbiyyatında dialoji nitq situasiyası, iki və ya daha çox ünsiyyətçinin olması ilə müşayiət olunan, obyektiv aləmin hadisə və situasiyalarını əks etdirmə prosesinin sürəti və aniliyi, faktlara fərdi münasibət bildirməkdə danışanların fəaliyyəti, emosional reaksiyaların bolluğu və şəxsi diqqəti ilə xarakterizə olunan nitq fəaliyyətinin xüsusi növü kimi şərh olunur.

Dialoji nitq ünsiyyətinin ən çox istifadə olunan forması kimi digər nitq formalarından ilk növbədə təbiiliyi ilə fərqlənir. L.Şerbanın ideyası bu baxımdan diqqətə layiqdir: "Monoloq böyük ölçüdə süni dil formasıdır, dil öz həqiqi varlığını yalnız dialoqda göstərir" [2, s.3-4].

Dialoqun xüsusiliyi və onun quruluşunun mürəkkəbliyi tədqiqat zamanı nəzərə alınmalı olan bir sıra amillərin, yəni danışanın və dinləyicinin spesifik psixi vəziyyətinin qarşılıqlı əlaqəsi, həmçinin müəyyən edilmiş norma və nitq davranış qaydaları ilə müəyyən edilir. "Danışıq nitqi, ilk növbədə, situativ nitqdir... söhbət zamanı həmsöhbətlər nə qədər mürəkkəb fikirlər söyləsələr də, hər zaman söhbətin apardığı situasiyaya arxalanacaqlar" [3, s.92]. Dialoji nitqdə sual-cavab forması əsas rol oynayır. Bu nitq forması əsasən iki və daha çox şəxsin iştirakı şəraitində baş verir. Burada danışan və yaxud yazan, daha doğrusu, fikri ifadə edən şəxs əvvəlcə daxilən öz-özünə düşünür, sonra isə xarici nitqə keçir, demək istədiyini sözlə ifadə edir [4, s.121].

Normal şəraitdə dialoji nitqi forma baxımından əsasən kortəbii, yarı şüurlu proses kimi xarakterizə etmək olar. F. Leyzingerin fikrincə, "dialoqlar çox vaxt bütünlüklə stereotipik suallara stereotipik cavablardan ibarətdir"; "Bir çox suallar, artıq hazır cavab nümunələri olan stimuldan başqa bir şey deyil" [5, s.155]. Oxşar fikri həmçinin, E.M.Rozenbaum qeyd edərək yazır ki, "dialoji nitqin xüsusiliyi... ifadələrin xüsusi sintaktik tərtibatında və nitq klişelərinin mövcudluğunda özünü göstərir" [6, s.5]. Bu, sual formasının model kimi sabitlənmiş cavab formasını əvvəlcədən müəyyən etməsinə əsaslanır ki, modelin özünü təkrarlamağa ehtiyac yoxdur, buna görə də təbii cavaba yalnız sualın verildiyi cümlə üzvü daxildir. Dialoq, çox vaxt müstəqil olmayan bir neçə

mətnin birləşməsindən alınan xüsusi növ hesab olunur. Tələb olunan məzmun açıq şifahi ifadə ilə nitq seqmentlərində olan mənadan və nəzərdə tutulan mənadan ibarətdir.

Məlumat mübadiləsinin digər yolları arasında ən sadə və elementar olanı iştirakçıların alternativ bəyanatları ilə baş tutan dialoqdur. Burada həmsöhbətlərin replikaları, bir qayda olaraq, kifayət qədər qısa zamanda bir-birini əvəz edir və bir-birini əmələ gətirir. Bu, onlar arasında sıx semantik və struktur əlaqəyə gətirib çıxarır. Dialoqda meydana çıxan substantiv tərəf həmsöhbətlər arasında bölünür və eyni zamanda söhbətin mövzusu ilə birləşir. Müəyyən məlumatlar iki nəfərin səyi nəticəsində formalaşır. Dialoqun əhatə dairəsi və sərhədləri məsələsi böyük əhəmiyyət kəsb edir. Lakin dialoq tədqiqatlarında bu məsələ ya nəzərə alınmır, ya da elə bir şəkildə həll olunur ki, dialoji nitq axınının bölünməsi üçün yeganə meyarlar yalnız iki amil kimi təqdim edilir: həmsöhbətlərin eyniliyi və ünsiyyət prosesinin fasiləsizliyi.

Bu meyarlara əsaslanaraq, dialoq həmsöhbətlər arasında ünsiyyət məhsulu kimi görünür. Gördüyümüz kimi, dialoq istədiyimiz qədər böyük həcmli ola bilər, lakin onun əsasını minimum olaraq iki replikadan ibarət olan əlaqə təşkil edir: stimul olan replika və həmsöhbətin reaksiyasını ehtiva edən replika. Belə bir əlaqəni "özək, hüceyrə və dialoq minimumu" adlandırmaq olar [7, s.199]. Yaxın semantik-sintaktik vəhdət təşkil edən bu cüt replikalarda ikinci replika birinci replikadan tam asılı vəziyyətdə olur. İstər semantik, istərsə də formal baxımdan müstəqil olmayaraq, əvvəlki replika ilə sıx bağlıdır və onsuz anlaşılmazdır.

Kommunikativ akt iştirakçılarının ən kiçik, nisbətən müstəqil nitq vahidi dilçilikdə dialoji birlik adını almışdır. L.M.Mixaylovanın fikrincə, dialoji birlik iki və ya daha çox kommunikant tərəfindən yaradılmış, kommunikativ niyyətlə müəyyən edilmiş və məntiqi-semantik, həmçinin qrammatik, leksik, prosodik (tam və ya qismən) tamlıqla ifadə olunan kommunikativ bütövü olan monotematik dialoq vahididir [8, s.152].

Nəticə etibarı ilə dialoji birlik, dialoji nitqin qurulduğu nümunə və modellərə görə replikaların vahid struktur-semantik bütövdə birləşdirilməsinin formalarına aiddir. Onlar adətən mənaca yaxından əlaqəli olan iki cümlə ilə doldurulur. Buradakı hər bir əvvəlki qeyd növbətinin məzmununa və strukturuna təsir edir və çox vaxt sonrakılar da öz növbəsində əvvəlkilərin məzmununu müəyyən edir. Beləliklə, dialoji nitqin bu və ya digər seqmentinin semantik tamlığı yalnız vəhdətdə üzə çıxır. Dialoji birliyin növü əsasən danışanın niyyəti, onun hər hansı fakt və məlumatı çatdırmaq və ya hadisə haqqında lazımi məlumatı əldə etmək, bəyanat vermək və ya hərəkətə təşviq etmək məqsədi ilə müəyyən edilir. Q.V.Kolşanski hesab edir ki, natiqin niyyəti (digər ekstralinqvistik amillərlə birlikdə) "nitq aktının yaranması üçün başlanğıc nöqtəsi kimi xidmət edir" [9, s.13]. Lakin dialoji nitq qarşılıqlı xarakter daşıdığından və iki istiqamətliliyi ilə səciyyələndiyindən, dialoji birlik replikalarının yaranma və fəaliyyət mexanizmini tam açmaq üçün həm danışanın, həm də dinləyicinin şüurunda mövcud olan hədəf təyinatını nəzərə almaq lazımdır. Beləliklə, dialoji birliyin funksional-semantik növünün müəyyən edilməsi danışanın niyyəti və həmsöhbətin reaksiyası nəzərə alınmaqla

aparılmalıdır. Natiqin hədəf təyini dedikdə, insanın dildən ünsiyyət vasitəsi kimi istifadə edərək, obyektiv reallıq faktları və onlara münasibəti haqqında məlumatın ən adekvat və ifadəli ötürülməsi məqsədi ilə linqvistik vasitələri seçməsi və onlardan istifadə etməsi başa düşülür. Eyni şeyi cavab replikaları haqqında da söyləmək olar, o fərqlə ki, sonuncular onları yaradan stimul replikalardan daha geniş çeşidli struktur-funksional tiplərlə xarakterizə olunur. Üstəlik, cavab replikaları dialoji birliyin modelləşdirilməsində, onun sərhədlərinin müəyyən edilməsində və dialoq quruluşunun kommunikativ tamlığını ifadə etməkdə mühüm rol oynayır. Dialoqun funksional-semantik növlərinin struktur-kommunikativ tərkibinə uyğun müxtəlifliyi ilə əhatə olunmasına baxmayaraq, professor V.V.Buzarov, yalnız üç ənənəvi kommunikativ cümlə növü ilə deyil, həm də dialoji ünsiyyətdən kənarda rast gəlinməyən digər növlərlə ifadə olunan müxtəlif funksional-semantik ifadə növlərinin – qeydlərin xüsusi dəstinin ən dolğun təhlilini təqdim edir. V.V.Buzarov dialoji birlikdə cümlələrin kommunikativ növlərinin birləşdirilməsinin mümkün variantlarını nəzərdən keçirməklə yanaşı, onların dialoji birlikdə yaranmasının proqnozlaşdırıla bilinməsi mövqeyindən cavab replikalarının ehtimal xassələrinə diqqəti cəlb edir [10, s.21].

Dialoqun yaranması və inkişafını şərtləndirən amillərdən danışarkən qeyd etmək lazımdır ki, dialoq ünsiyyəti vasitəsilə natiq fəaliyyət aktında hansısa bir əsas vəzifəni həll etməyə çalışır. Bu vəzifə fəaliyyət aktının müəyyən situasiya şərtlərinin nəticəsidir. Dialoqun bir nitq situasiyası əsasında yaranmasından və ya situasiya şərtlərinə iki və ya daha çox əlaqəli nitq situasiyasının daxil olmasından asılı olaraq, sonuncusu ünsiyyət aktının vəzifəsini həll etməyə xidmət edir və bütün əvvəlkilər yalnız bunun üçün lazımi şərtləri hazırlayır. L.M. Mixaylov bir neçə dialoji birliyin birləşməsindən ibarət olan dialoq bütövünü əhatə edən makromətn təşkil edən replikaları vurğulayır [11, s.8]. Nitq situasiyasının şərtləri formalaşmadığından həmsöhbət son vəzifəni qarşısına dərhal qoya bilmir: danışan ilk növbədə qarşısındakı həmsöhbətin bu məsələni həll etməyə qadir olduğuna əmin olmalıdır.

Təbii nitqdə dialoji birliyi təşkil edən cavab ifadələri (xüsusən də ən çox rast gəlinən təsdiq və inkar cavab ifadələri) struktur linqvistik asılılıq çərçivəsindən kənara çıxa bilər. Cavablar leksik, qrammatik, situasitiv, kommunikativ və intonasiya cəhətlərindən tam və ya qismən asılı olduqda, standart formaların mövcudluğu ilə yanaşı, cavabların tərkibində sual və yanaşı cavablardan struktur asılılığı aşkar etməyən qeyri-standart formalar da meydana çıxır. Bu halda, dialoji birlik haqqında struktura görə deyil, məzmuna görə danışmaq mümkündür.

Nəticə etibarı ilə, dialoji birlik "belə struktur və/yaxud semantik əlaqədə olan hər hansı replika toplusu kimi başa düşülə bilər ki, burada əvvəlki replika determinant kimi çıxış edir və sonrakıların hər biri bir tərəfdən özündən əvvəlki ilə şərtlənir, digər tərəfdən isə ondan sonrakını müəyyən edir; sonuncu qeyd yalnız şərtləndirilir". L.S.Markinanın yanaşmasına əsasən, dörd hissədən ibarət dialoji birliklərdə, sonuncu replikadan başqa, hər bir replika növbətisini stimullaşdırır və qarşılıqlı dialoqun inkişafını təmin edir [12, s.5].

R.Yakobsonun qeyd etdiyi kimi, diskurs adətən ifadələrin mübadiləsini təmsil edir ki, bu da təbii olaraq dialoji nitq forması kimi başa düşülür [13, s.301]. Birbaşa dialoji ünsiyyətdə ekstralinqvistik ünsiyyət vasitələrinin rolu xüsusilə artır: üz ifadələri, jestlər, prosodiya. İntonasiya ifadəsi komponentlərin sırasını təyin edərək, söz və ifadələrin mənalarını dəyişdirir. Konkret kommunikativ situasiya dialoqun intonasiya təşkilini müəyyən edir.

Dialoji nitq sürətli tempi və təkrarlanması ilə xarakterizə olunur. Sətirlər bir-birini əvəz edir. Əvvəlki ifadəyə əsaslanaraq ən böyük kommunikativ dəyərə malik olanı ifadə etmək istəyi, həmçinin cavab haqqında düşünməyə vaxtın olmaması bir sıra əlaqəli replikaların struktur və semantik asılılığını müəyyənləşdirir. Elliptik cümlələrdən tez-tez istifadə olunur, əvvəlki fikrin qısalığına və uyğunluğuna baxmayaraq, yeni bir fikir ifadə edilir. Hazırlıqsız nitq və sürətli temp klişelərin, şablonabənzər dialoji nitqin və hazır cümlələrin istifadəsini şərtləndirir. Nəticədə, dialoji nitq, qarşılıqlı əlaqə və dinamik ünsiyyətin təmin edilməsi baxımından daha təbii və effektiv bir ünsiyyət formasıdır.

Ədəbiyyat

1. Крамш, К. Дискурс и культура в обучении иностранному языку (доклад). ИЯШ. 1990. № 3. с. 100-103.

2. Щерба, Л.В. Восточно-лужицкое наречие. Петроград, 1915, Т. I. 387 с.

3. Будагов, Р.А. Литературные языки и языковые стили. М.: Высшая школа, 1967.375 с.

4. Məmmədli, N.B. Azərbaycan dili və nitq mədəniyyəti. Bakı. Elm və təhsil. 2021, 448 s.

5. Лейзингер, Ф. Элементы преподавания иностранных языков. Вопросы методики обучения иностранным языкам за рубежом. М.: Просвещение, 1978. с. 154-190.

6. Розенбаум, Е.М. Основы обучения диалогической речи на языковом факультете педагогических вузов. М.: Высшая школа, 1975. 126 с.

7. Кожин, А.Н., Крылова О.А., Одинцов В.В. Функциональные типы русской речи. М.: Высшая школа, 1982. 223 с.

8. Михайлов, Л.М. Коммуникативная грамматика немецкого языка. М.: Высшая школа, 1994. 256 с.

9. Колшанский, Г.В. Лингвокоммуникативные аспекты речевого общения. ИЯШ. 1985. № 1.

10. Бузаров, В.В. Круговорот диалогической речи или взаимодействие грамматики говорящего и грамматики слушающего. Изд-во Ставропольского гос. ун-та, 2001. 168 с.

11. Михайлов, Л.М. Грамматика немецкой диалогической речи. М.: Высшая школа, 1986. 110 с.

12. Маркина, Л.С. Конструктивный анализ четырехчленного диалогического единства (на материале англ. яз.): лекция. Изд-во Ленинградского гос. пед. ин-та, 1973. 39 с.

13. Якобсон, Р. Избранные работы. М.: Прогресс, 1985. 454 с.

LINGUISTIC FEATURES OF DIALOGIC SPEECH

Summary

Dialogic speech remains the most fundamental and interactive form of human communication. The linguistic features of dialogic speech include short, clear, and often emotionally charged sentences. It thrives on spontaneity, context dependence, and structured exchange, allowing for fluid and meaningful interactions. Given the increasing relevance of oral communication in today's interconnected world, the study of dialogue continues to hold significant importance in both linguistic research and practical applications.

Keywords: dialogue, linguistic, interlocutor, communication.

A. MİTSKEVİÇİN "ŞƏRQ ÇİÇƏKLƏRİNİN" DİLİ HAQQINDA

Bahar Qədirova
doktorant
Bakı Slavyan Universiteti

Hər bir söz ustadının fərdi üslubunu onun mövcud dilin resurslarından təkrarsız yararlanma tərzi ilə xarakterizə edirlər. Məlum olduğu kimi, bədii mətnin başlıca parametrlərindən biri onun təsvir olunan gerçəkliklə, milli-mədəni təsəvvürlərlə, habelə müəllif şəxsiyyətinin mövcud zamanla şərtlənməsidir. Əlbəttə, dillərin və mədəniyyətlərin semantik, semiotik doğmalığı olduğu halda bu vəziyyət mətnin ümumi meyarlarla təhlilinə imkan verir. Məşhur rus dilçisi L.N.Murzin fərqli dil və mədəniyyət fenomenləri haqqında mövcud ziddiyətləri tənqidi şəkildə təsvir edərək yazır ki, "kulturoloqlar mədəniyyəti dildən tamamilə asılı olmayan fenomen kimi görürdülər, linqvistlər isə belə hesab edirlər ki, dili öyrənərkən onun kulturoloji tərəfini əhəmiyyətsiz bir şey kimi kənara qoymaq olar. Yalnız mədəniyyətlərarası və dillərarası əlaqələrin öyrənilməsi sahəsində elmlərin inkişafı ilə həmin elmləri yaxınlaşdırmaq imkanı yaranmışdır. Belə ki, insan dil və mədəniyyət arasında əlaqələndirici həlqə rolunu oynayır" [6, s.32].

Ancaq qeyd etməliyik ki, dillər və mədəniyyətlər arasında semiotik, habelə milli və sosial faktorlar doğmalığı olmayanda bu məsələ nəzərə çarpacaq dərəcədə mürəkkəbləşir. Mədəniyyətlərin, yaxud dillərin fərqli kodları onların arasında yaradıcı insanın əlaqələndirici missiyasını çətinləşdirir. Şübhə yox ki, bu mürəkkəb missiyanı hər kəs yerinə yetirə bilməz. Bunu yalnız xüsusi istedada, müvafiq filoloji imkanlara və əlbətdə ki, yaradıcı istəyə, sevgiyə malik insanlar edə bilərlər. Bədii yaradıcılıqda dil və mədəniyyətin üzvi bütövlüyündən, mədəniyyətlərarası və dillərarası faktlardan danışarkən, istər-istəməz Polşa ədəbiyyatının görkəmli nümayəndəsi Adam Mitskeviçin çoxcəhətli yaradıcılıq prinsipləri yada düşür. Avropalı və rus tədqiqatçılarından bəziləri şairin Şərqə olan aludəliyinə və onun bu yerlərə həsr etdiyi məzmun və

mövzu rəngarəngiliyi ilə seçilən çoxsaylı yaradıcılıq nümunələrini yarızarafat "Mitskeviçin qəzəlləri" adlandırırlar. Bu da təbiidir. Yaradıcalıq həyatının əhəmiyyətli hissəsini Şərqin qədim sənət abidələrindən "Avestanın", orta əsrlər ərəb poeziyasının qüdrətli nümayəndələri Şanfari (bəzi mənbələrdə Şanfara), Əl-Mütənabbi və digərlərinin ömür yoluna, habelə orta əsrlər türklərin həyat tərzinə Qərb ədəbiyyatı üçün ənənəvi olmayan qəsidə janrında qiymətli əsərlər həsr etmişdir.

A.Mitskeviç həmişə olduğu kimi, hadisələrin cərəyan etdiyi mühitlə harmoniya təşkil edən poetik atmosfer yaratmağa çalışmışdır. Bu məqsədlə o ənənəvi Şərq poeziyasına xas olan obrazlı ifadələrdən, poetik fiqurlardan, rəngarəng metaforalardan, obrazlı paralelizmlərdən istifadə edirdi:

Darmo rumak arabski wyprzedzić mię żąda,
Kark jego leci w poręcz z garbami wielbłąda.
Młody mój orszak zna się dobrze ze strzałami,
Jak guślarz, co je miesza, gdy lud wróżbą mami.
"AlMotenabbi" [9]

Mütəxəssislərin haqlı qənaətinə görə Şərq mövzusunda yazmış digər avropalı və rus şairləri ilə müqayisədə A.Mitskeviç öz əsərlərində bir çox hallarda Şərq poeziyasına xas olan obrazlı ifadələrdən, poetizmlədən istifadə edirdi. Şairin tədqiqatçılarının haqlı rəyinə görə orientalist müəllif bu cür bədii təsvir vasitələri ilə sanki "özünü Şərqin oğlu" kimi təqdim etməyə çalışırdı. Adam Mitskeviç psixoloji romantizmin qüdrətli nümayəndəsi kimi, təbiət elementlərini poetik libasda canlandırmaq məharəti nümayiş etdirərək, bəzən onları personifikasiya etməklə oxucuda Şərq poetizmlərinin polyak dilində tamamilə təbii səslənməsi təsəvvürü yaradır:

"Gdzie orły dróg nie wiedzą, kończy się chmur jazda,
Minąłem grom drzemiący w kolebce z obłoków,
Aż tam, gdzie nad mój turban była tylko gwiazda.
To Czatyrdah!"
"Widok gór ze stepów kozłowa" [3, s.33]

Bədii ədəbiyyatı özünün koqnitiv gücünə, həyat hadisələrini əhatə etmək imkanına görə incəsənətin ən zəngin növlərindən biri hesab etmək olar. Bu sənətin dolğunluğu həm də ondadır ki, o mənsub olduğu xalqın mövcudluğunun başlıca göstəricisi olan milli dilin bütün imkanlarını özündə cəmləşdirmişdir. Ancaq bu imkanların dinamik inkişafi təkcə doğma dilin potensiyalı ilə deyil, həm də qeyri dillər və mədəniyyətlərlə qarşılıqlı əlaqələr hesabına başa gəlir.

Mitskeviçin lirikasındakı təşbihlər, epitetlər sanki Şərq poeziyasında əsrlər boyu obrazlaşmış poetik "atributlarla" ifadə olunur. Müəllif həmin təsvir vasitələri ilə yerli mühitin koloritini saxlamağa çalışmışdır:

Serce waleczne, szabla, z której ognie biją,
I łuk żółty wielblądzią krzywiący się szyją;
Przy którym pas bogaty, suta frędzla pływa,
Majdan gładko ciosany i tęga cięciwa,
Co tak żałośnie jęczy, gdy z niej grot wyleci,
Jako matka wydarte ścigająca dzieci.
"Szanfary" kasyda z arabskiego» [8]

Əsl sənətkar qeyri xalqların haqqında əsər yazarkən doğma dilin fonetik, leksik, frazeoloji vahidlərindən, qrammatik xüsusiyyətlərindən özünəməxsus səviyyədə istifadə edərək birinci dilin daşıyıcılarının mədəniyyəti haqqında müyyən təsəvvür yaratmağa çalışır. Bunu Mitskeviç daha çox poetik elementlərin yenidən yaradılması zamanı nümayiş etdirmişdir. Əsas və köməkçi, müstəqim və qeyri-müstəqim sözləri, məcazlar sistemini və lüğət tərkibinin leksik-üslubi laylarını fikir və düşüncənin ifadəsinə istiqamətləndirir. Nə qədər çətin olsa da, müəllif yüksək yaradıcılıq məharəti sayəsində ikinci dilin ifadə gözəlliyinə, obrazlılıq spesifikasına sadiq qalmağa çalışır.

Orientalist şair Şərq lirikasına xas olan tərzdə insan ömrünün qısalığını **bülbül** və **gülün** həyatı ilə müqayisə edərək bəşər övladına demək istəyir ki, əsrlər keçsə də bu qısa ömrü dəyərlə yaşamış yaxşı insanların xatirəsini heç vaxt unutmayın:

Lecz ich **bulbul** zabłyśnie — i wnet oko zmruży,
Wnet znikną w ziemi liście, w sercach pamięć róży.
A nasze lądy zimnem dochowują łonem
Pamięć istot straconych przed lat milijonem: “Wschód i Północ” [2, s.177]

A.Mitskeviç özünün digər əsərlərində də anoloji kövrək efekti yaratmaq məqsədi ilə daha geniş məna və rəng kontraslarını tətbiq etməklə oxucuda gəncliyin bir daha geriyə qayıtmayacağı haqda qüssəli ovqat yaradır: səhra günəşində çöhrələr, yanaqlar qaralır, ancaq ağarmış saçlar bir daha qaralmayacaqdır:

Słońce nam poczerniło oblicza i czoła,
Siwym włosom czarności przywrócić nie zdoła. “AlMotenabbi” [9]

M.Qorki deyirdi ki, “söz fikrin libasıdır”, ancaq bu libasın estetik görünüşü ilə onun əks etdirdiyi məzmunun ifadə tutumu bir-birinə tam mütənasib olmalıdır. Şərq xalqlarının folkloruna yaxından bələd olan polyak şairi öz şeirlərində poetik janrların bütün növlərində qulaq oxşayan gözəl ahəng yaradan uğurlu təkrirləri yerli-yerində məharətlə işlətmişdir:

Już płynie w suchym morzu koń mój i rozcina
Sypkie bałwany piersiami delfina.
Coraz chyżej. coraz chyżej,
Już po wierzchu żwir zamiata; “Farys”[2, s.248]

Şairin işlətdiyi ilk baxışda bu son dərəcə təbii və eyni zamanda aid olduğu obyekin dolğun, canlı təsvirini verən bu bədii təsvir vasitəsi müəllifin poetik yaradıcılıq məharətinin əyani nümunəsidir. Poetik mətnlərin xarakterik üslub özəlliklərini ustalıqla nümayiş etdirən şair poetik janrın bütün estetik keyfiyyətlərini ortaya qoymağa çalışmışdır. Nəzərə almaq lazımdır ki, belə parametrlərlə “bədii mətnə estetik-məlumatlandırıcı və kommunikativ akt kimi” baxılır. Başqa sözlə desək, belə məqamlar “məişət həyatının deyil, ədəbi-bədii hadisə kimi” qəbul edilməlidir [1, s.327]:

A włos mój brudu pełny, nie znający woni,
Kołtunami przylegał do niemytej skroni.

Łono pustyni, co się bez końca rozszerza,
Tak twarde i tak nagie jako grzbiet puklerza,
Nieraz całe bosymi przemierzyłem stopy;
"Szanfary" kasyda z arabskiego [8]

Şairin işlətdiyi məcazlar, təşbihlər, epitetlər və s. poetik fiqurlar onun Şərq xalqlarının poetik duyumuna yetərincə bələd olmasından xəbər verir. Belə təsvir vasitələrindən müəllif "Şanfari", "Faris", "Reniqat", "Əl Mütənabbi" kimi qəsidələrində bol-bol istifadə etməklə həmin janrların ənənəvi təsvir üslubuna sadiq qalmaq istəmişdir. Romantik şair ərəb süvarisinin gərilmiş yayının **"əyrisini dəvənin boynuna"**, yaxud ox çıxdığı an **"yayın qəmli səsini isə, körpəsi əlindən alınmış ananın iniltisinə"** bənzətməsi ilə oxucuda o dövrün bir növ canlı obrazını yaratmışdır:

Serce waleczne, szabla, z której ognie biją,
I łuk żółty wielblądzią krzywiący się szyją;
Przy którym pas bogaty, suta frędzla pływa,
Majdan gładko ciosany i tęga cięciwa,
Co tak żałośnie jęczy, gdy z niej grot wyleci,
Jako matka wydarte ścigająca dzieci
„Szanfary" kasyda z arabskiego [8]

Əsərləri dünyanın əksər xalqlarının dillərinə tərcümə olunmuş bu böyük sənətkar bütövlükdə, çoxdilli oxucularının yaddaşında bu qədim və ecazkar diyarın mədəniyyət tarixi haqda müəyyən təsəvvürlər yaratmışdır. Tanınmış slovak tərcüməşünası A.Popoviç yazır ki, belə əsərlərin tərcüməsi və bütovlükdə qeyri-dil mühitində təbliği müəyyən mənada həmin mədəniyyətlər arasında müxalifliklə (oppozisiya) müşayət olunur ki, bunu da "məkanlararası faktor" adlandırmaq olar [7,s.131]. Bir sözlə, müəllif öz əsərlərində bu obyektiv mədəniyyətlərarası maneələri müəyyən mənada aşa bilmişdir. O əsas diqqətini təsvir olunan milli-mədəni mühitin xarakterik xüsusiyyətləri ilə öz oxucularını nəinki tanış etmiş, həm də bədii təsvir vasitələri ilə onların mümkün qədər estetik zövqünü oxşamağa nail olmuşdur. Əlbəttə, bütün bunlar təsvir olunan dövrün ictimai-siyasi, maddi-mədəni, habelə bədii-estetik elementlərinin müəllif tərəfindən yetərincə dəyərləndirməsi onun fərdi yaradıcılıq tələbatı, müvafiq intellektual imkanları və onun bu diyara olan sonsuz sevgisi ilə şərtlənə bilər.

Summary

The article talks about the poetic features of the language of a number of works written by Adam Mitskevich on the subject of the East. In the research process, attention is paid to the characteristic various figurative expressions, colorful metaphors and other numerous poeticisms in the language of some of the series of works called "Oriental Flowers" of the author. The article notes the deeply aesthetic figurativeness and their skillful euphonic style of expression in the language of only a few odes of the poet from a series of works of various genres as the object of research. Against the background of these examples brought during the analysis, it is emphasized that Mitskevich is well acquainted with the poetic traditions of the Eastern peoples and skillfully uses them.

Ədəbiyyat siyahısı

1. Adilov, M.İ, Verdiyeva Z.N, Ağayeva F.M. İzahlı dilçilik terminləri / M.İ.Adilov. - Bakı: Maarif, -1989
2. Adam Mickiewicz, Dziela, t. I i II, Warszawa, 1949
3. Adam Mickiewicz, Dzieła poetyckie, Czytelnik Warszawa, 1983
4. Митскевич. Сонеты. Л.»Наука» 1976
5. Жирмунский В.М. Гете в русской литературе. Ленинград , »Наука», Ленинградское отделение. 1982.
6. Мурзин Л.Н. Язык, текст и культура.\\Человек–текст-культура. Екатеринбург. 1994.
7. Попович А.Проблемы художественного перевода.М “Высшая школа»1980.
8. https://literat.ug.edu.pl/amwiersz/0052.htm
9. https://pl.wikisource.org/wiki/Kasyda_(Almotenabbi,_1929)

TƏRCÜMƏ DİSKURSU VƏ EKVİVALENTLİK ANLAYIŞI

Tairə Axundova
AMEA Nəsimi adına Dilçilik İnstitutu, doktorant
akhundova.t@mail.ru

Tərcümənin digər dil vasitəçiliyindən fərqlənən xüsusiyyəti ondan ibarətdir ki, tərcümə orijinalın tam əvəzlənməsi məqsədi ilə həyata keçirilir və tərcüməni qəbul edən hədəf kütlə onu tamamilə orijinal mətnə bərabər hesab edir. Eyni zamanda, açıq şəkildə görünür ki, tərcümənin orijinala mütləq uyğunluğu əldə edilə bilməz və bu, dilarası kommunikasiyanı həyata keçirməyə heç bir maneə yaratmır.

Uyğunluğun olmaması nəticəsində orijinal və tərcümə arasındakı əlaqəni ifadə etmək üçün “ekvivalentlik” termini tətbiq edilmişdir ki, bu da məzmunun ümumiliyini, yəni orijinal ilə tərcümə arasındakı yaxınlığı ifadə edir. Bu mətnlər arasında maksimum uyğunluğun əhəmiyyəti açıq şəkildə görünən olduğundan, ekvivalentlik adətən tərcümənin əsas əlaməti və mövcudluğunun şərti kimi qəbul edilir. Bundan üç nəticə çıxır. Birincisi, ekvivalentlik şərti tərcümə anlayışının öz tərifinə daxil edilməlidir. İkincisi, “ekvivalentlik” anlayışı qiymətləndirici xarakter alır. Yalnız ekvivalent olan tərcümə “yaxşı” və ya “düzgün” tərcümə kimi qəbul edilir. Üçüncüsü, tərcümənin şərti ekvivalentlik olduğuna görə, əsas məsələ bu şərtin müəyyənləşdirilməsi, yəni tərcümə ekvivalentliyinin nədən ibarət olduğunu və tərcümə zamanı mütləq qorunmalı olan məqamların nələr olduğunu göstərməkdən ibarətdir. Bu son suala cavab axtarışında müasir tərcümə nəzəriyyəsində “ekvivalent” anlayışının müəyyənləşdirilməsinə dair üç əsas yanaşma mövcuddur. Bu günə qədər tərcümə nəzəriyyəsində aparıcı mövqe dilçilik yanaşmalarına məxsus olmuşdur ki, burada əsas fikir dillərin tərcümədə əsas rol oynadığına əsaslanır. Bu yanaşma ilə tərcüməçinin vəzifəsi orijinal mətni mümkün qədər dəqiq və tam şəkildə tərcümə dilinə keçirməkdən ibarətdir. Bəzi tərcümə tərifləri̇ndə

ekvivalentlik anlayışı faktiki olaraq eyniliklə əvəz olunur və qeyd edilir ki, tərcümə orijinalın məzmununu tam şəkildə qoruyub saxlamalıdır. Məsələn, A. V. Fedorov "ekvivalentlik" əvəzinə "tam dəyərli tərcümə" terminindən istifadə edərək bildirir ki, bu tamlıq "orijinalın məna baxımından hərtərəfli ötürülməsini" nəzərdə tutur [4].

Lakin bu tezis müşahidə olunan faktlarla təsdiqlənmir və bu fikri müdafiə edənlər çoxsaylı istisnalara müraciət etmək məcburiyyətində qalırlar ki, bu da əslində ilkin təriflə ziddiyyət təşkil edir. Məsələn, Barxudarov qeyd edir ki, dəyişməzlikdən yalnız nisbətən danışmaq olar, tərcümə zamanı itkilər qaçılmazdır, yəni orijinal mətnin ifadə etdiyi mənaların tam ötürülməsi mümkün deyil. Bundan L.S. Barxudarov belə bir nəticə çıxarır ki, "tərcümə mətni heç vaxt orijinal mətnin tam və mütləq ekvivalentini təşkil edə bilməz" [5]. Belə bir yanaşma tərcümə üçün, ümumiyyətlə, mümkün olmadığını irəli sürən, "tərcümə olunmazlıq nəzəriyyəsi" adlanan yanaşmanın yaranmasına səbəb olmuşdur. Şübhəsiz ki, hər bir dilin lüğət tərkibi və qrammatik quruluşunun, mədəniyyət fərqlərini nəzərə almasaq belə, özünəməxsusluğu, orijinal və tərcümə mətnlərinin tam şəkildə eyniliyinin mümkün olmadığını iddia etməyə əsas verir. Lakin tərcümənin, ümumiyyətlə, mümkün olmadığını iddia etmək olduqca mübahisəli məsələdir.

Tərcümə ekvivalentliyi probleminin həlli üçün ikinci yanaşma orijinal məzmununda müəyyən invariyant (dəyişməz) bir hissəni müəyyənləşdirmək cəhdindən ibarətdir. Bu hissənin qorunması tərcümənin ekvivalentliyinə nail olmaq üçün zəruri və kifayət qədər hesab olunur. Ən çox hallarda belə bir invariyant kimi ya orijinal mətnin funksiyası, ya da mətnin təsvir etdiyi situasiya (reallıq) götürülür. Başqa sözlə, əgər tərcümə eyni funksiyanı yerinə yetirirsə və ya eyni reallığı təsvir edirsə, deməli, o, ekvivalentdir. Lakin orijinalın hansı hissəsi əsas götürülürsə-götürülsün, həmişə elə real tərcümələr tapılır ki, həmin hissə qorunmur, amma buna baxmayaraq, onlar uğurla linqvistik ünsiyyət yaradır. Və əksinə, elə tərcümələr var ki, həmin hissəni qoruyur, lakin orijinala ekvivalent olmaq funksiyasını yerinə yetirə bilmir. Bu halda biz xoşagəlməz bir seçim qarşısında qalırıq: ya belə tərcümələrin tərcümə adlandırılmaq hüququnu inkar etməliyik, ya da etiraf etməliyik ki, bu məzmun hissəsinin invariyantlığı tərcümə üçün mütləq şərt deyil. Tərcümə ekvivalentliyinin müəyyənləşdirilməsində üçüncü yanaşma — empirik yanaşma — V. N. Komissarovun əsərlərində öz əksini tapmışdır. Bu yanaşmanın mahiyyəti ondan ibarətdir ki, tərcümə ilə orijinal arasında ümumiliyin nədən ibarət olduğu barədə nəzəri suallara cavab axtarmaqdansa, çoxsaylı real tərcümələri və onların orijinallarını müqayisə etmək və onların ekvivalentliyinin nəyə əsaslandığını müəyyən etmək lazımdır. Belə bir təhlil nəticəsində V.N. Komissarov belə nəticəyə gəlmişdir ki, müxtəlif tərcümələrin orijinala olan mənaca yaxınlıq dərəcəsi eyni deyil və onların ekvivalentliyi orijinal məzmununun müxtəlif hissələrinin qorunmasına əsaslanır [1].

V. N. Komissarov "Tərcümə nəzəriyyəsi (dilçilik aspektləri)" adlı kitabında tərcümə zamanı orijinal və tərcümə arasında müvafiq səviyyələr üzrə ekvivalentlik münasibətlərinin formalaşdığını bildirən ekvivalentlik səviyyələri nəzəriyyəsini irəli sürmüşdür. O, orijinal və tərcümənin məzmun planında beş

əsas səviyyəni ayırd etmişdir. Hər bir mətn müəyyən kommunikativ funksiyanı yerinə yetirir: hər hansı faktları bildirir, emosiyaları ifadə edir, danışanlar arasında əlaqə yaradır, dinləyicidən reaksiya və ya hərəkət tələb edir və s. Kommunikasiya prosesində bu cür məqsədin mövcudluğu ötürülən mesajların ümumi xarakterini və onların dil formasını müəyyənləşdirir. Birinci tip ekvivalentlik orijinal məzmunun yalnız həmin hissəsinin – yəni kommunikasiya aktında mətnin ümumi nitq funksiyasını göstərən və kommunikasiya məqsədini təşkil edən hissəsinin – qorunmasından ibarətdir. Belə tərcümələr o hallarda edilir ki, orijinal məzmunun daha ətraflı şəkildə ötürülməsi ya mümkün olmur, ya da bu cür ötürmə tərcümənin oxucusunda yanlış nəticələrə, fərqli assosiasiyalara səbəb olur və bu da kommunikasiya məqsədinin düzgün çatdırılmasına mane olur. Bu tip orijinal və tərcümələr arasındakı münasibətlər üçün xarakterik cəhətlər bunlardır: leksik tərkib və sintaktik quruluşun uyğun gəlməməsi; orijinal və tərcümə arasında semantik parafraz və ya sintaktik transformasiya əlaqələrinin qurulmasının mümkün olmaması; orijinal və tərcümə mesajları arasında "eyni şeydən bəhs edir" deyə biləcək real və ya məntiqi əlaqələrin olmaması; ekvivalent hesab edilən bütün digər tərcümələrlə müqayisədə orijinal və tərcümə arasında məzmun baxımından ən az ümumilik.

Bu tip ekvivalentlikdə orijinal və tərcümə arasında ümumi məzmun yalnız kommunikasiya məqsədini deyil, həm də eyni dil xarici vəziyyəti – yəni ifadə olunan obyektlər və obyektlər arasındakı əlaqələr sistemini – əks etdirir. Hər bir mətn nəyinsə haqqında məlumat verir və real və ya təsəvvür olunan bir situasiya ilə əlaqəlidir. Mətnin kommunikativ funksiyası yalnız situasiya-əsaslı mesaj vasitəsilə həyata keçirilə bilər. Orijinal məzmunun daha tam şəkildə təkrar edilməsi orijinalın bütün məna elementlərinin ötürülməsi demək deyil.

Belə tərcümələrdə eyni situasiyaya işarənin qorunması, orijinal ilə tərcümə arasında əhəmiyyətli struktur-semantik fərqlər müşahidə edilməyi mümkündür. Bir situasiya müxtəlif cəhətlərindən və fərqli elementlərin birləşməsi ilə təsvir oluna bilər. Bu isə müxtəlif formalarda ifadə edilmiş situasiyaların eyniləşdirilməsini mümkün və zəruri edir. Dildə müəyyən situasiyaları təsvir edən, leksik vasitələri tamamilə fərqli olsa da, danışanlar tərəfindən sinonim kimi qəbul edilən ifadələr meydana gəlir. İnsanlar müxtəlif yollarla təsvir olunmuş situasiyaların eyni olduğunu dərk edə bilirlər.

İkinci tip ekvivalentlik üçün xarakterik olan, situasiyanın təsvir formasının dəyişməsi ilə onun eyniliyinin orijinal və tərcümədə tanınmasıdır. Burada fərqli dillərdəki mətnlərin semantik baxımdan eyniləşdirilməsinin əsasında dil ilə dilxarici reallıq arasında mövcud olan ümumbəşəri əlaqələr dayanır [3, s. 50].

Bu tip tərcümələrin mənaca orijinala yaxınlığı, istifadə olunan dil vasitələrinin məna baxımından bənzərliyi əsasında deyil. Belə tərcümələrdə orijinalın çoxsaylı söz və sintaktik quruluşları tərcümədə birbaşa qarşılıq tapmır. Buna görə də bu tip orijinal və tərcümə arasında: leksik tərkib və sintaktik quruluşun uyğun gəlməməsi; semantik parafraz və sintaktik transformasiya əlaqələrinin qurulmasının mümkün olmaması; kommunikasiya məqsədinin qorunması; eyni situasiyaya işarənin saxlanılması kimi xüsusiyyətlər müşahidə olunur. Bu tip ekvivalentlik üzrə orijinal və tərcümələrin müqayisəsi aşağıdakı xüsusiyyətləri üzə çıxarır: leksik tərkib və sintaktik quruluşda paralellik yoxdur;

orijinal və tərcümə strukturları arasında sintaktik transformasiya əlaqəsi qurmaq mümkün deyil; kommunikasiya məqsədi və eyni situasiyanın identifikasiyası tərcümədə qorunur; orijinalda situasiyanın təsvirində istifadə olunan ümumi anlayışlar tərcümədə də saxlanılır.

Bu nəticə orijinalın mesajının tərcümədə semantik parafraz yolu ilə ifadə olunması ilə – yəni əsas anlayışların ümumiliyinin ortaya çıxarılması ilə – təsdiqlənir. Situasiyanın təsvir olunma üsulunun saxlanılması eyni situasiyaya işarəni nəzərdə tutur, təsvir olunan situasiyaların eyniləşdirilməsi isə bu yolla orijinalın kommunikasiya məqsədinin də ötürüldüyünü göstərir. Əsas anlayışların ümumiliyi, situasiyanın həm orijinalda, həm də tərcümədə eyni xüsusiyyətləri ilə təsvir olunması halında, mesajın strukturunun qorunması deməkdir.

Beləliklə, onu deyə bilərik ki, tərcümə diskursu birbaşa ekvivalentlik anlayışı ilə sıx bağlıdır. Tərcümə diskursunda cümlələrin, leksik vahidlərin ekvivalentliyi əsas kimi götürülür. Təbii ki, müxtəlif dillərdən tərcümədə funksional tərcümə özünü doğrultmur. Bu zaman ekvivalentlik anlayışından və onun müxtəlif növlərindən istifadə olunur.

TRANSLATION DISCOURSE AND THE CONCEPT OF EQUIVALENCE

This article analyzes the theoretical and practical aspects of the concept of equivalence within the framework of translation discourse. It explores the role and significance of equivalence in the context of the main goal of translation — to convey the original text in another language as fully and adequately as possible. The article emphasizes that translation, unlike other types of linguistic mediation, serves as a full-fledged substitute for the original and is perceived by the reader as equivalent to the source text. However, it is noted that achieving absolute equivalence is impossible, and for this reason, the concept of "equivalence," meaning the semantic closeness between the source and the translated text, is introduced as a key term. The authors highlight the importance of ensuring equivalence not only at the linguistic level but also at the discourse level, and they analyze the translator's strategic approaches within this framework.

Keywords: translation discourse, equivalence, source text, semantic closeness, translation theory.

ƏDƏBİYYAT:

1. Комиссаров В.Н. Теория перевода (лингвистические аспекты). - М., 1990.

2. Латышев. Л. К. Перевод: проблемы теории, практики и методики преподавания. - М., 1988.

3. Николаиди О.В. // Понятие древности и эквивалентности при переводе различных торговых аннотаций с английского языка на русский «Научный Вестник» №1. - 2002

4. Федоров А. В. Основы общей теории перевода (Лингвистические проблемы)
https://samlib.ru/w/wagapow_a_s/osnowyobshejteoriiperewoda2002.shtml

5. Бархударов Л. С. Язык и перевод (Вопросы общей и частной теории перевода). М., «Междунар. отношения», 1975. 240 с.

SOSİAL-MƏDƏNİ REALİLƏRİN LİNQVİSTİK XÜSUSİYYƏTLƏRİNƏ DAİR

Səbinə Mehrəliyeva
Azərbaycan Universiteti, dissertant
sabina.mehraliyeva.89@mail.ru

Dünyada kommunikativ proseslərin böyük hissəsi mədəniyyətlərarası ünsiyyətin payına düşür. Məhz buna görə də dil və mədəniyyət, mədəniyyətlərarası kommunikasiya, linqvokulturologiya məsələlərinə tədqiqatçıların marağı getdikcə artır. Dil və mədəniyyət ayrılmaz bir varlıqlardır. Dil və mədəniyyət arasındakı sıx əlaqə sosioloq, psixoloq və kulturoloqların araşdırmaları ilə dəfələrlə təsdiqlənmişdir. Hər hansı bir dildə danışan xalqın həyatını və tarixini öyrənmək xalqın həyatı və tarixini, onun maddi və mənəvi mədəniyyətini öyrənmək deməkdir. Realilər həm də linqvokulturologiyanın tədqiqat obyektidir.

"*Reali-1. Xarici dilçiliyin (ekstralinqivistikanın) öyrəndiyi müxtəlif ictimai, siyasi, etnoqrafik, psixoloji və s. amillər; 2. Sözün nominativ mənası üçün əsas maddi mədəniyyət əşyaları*" [7, s.627] .

Dilçilikdə realilərlə bağlı geniş tədqiqatı bolqar dilçisi Sergey Vlaxov və Sider Florin aparmışdır. "*Realilər müəyyən bir coğrafi ərazinin, xaqlın, ölkənin, tayfanın maddi həyatını, ictimai-tarixi cəhətlərini özündə əks etdirən obyektlərin adlarını ifadə edən sözlərdir və bu səbəbdən özündə əks etdirən obyektlərin adlarını ifadə edən sözlərdir. Bu səbəbdən realilər milli lokal və tarixi kolorit ehtiva edir və digər dillərdə qarşılığı yoxdur*" [8, s.7] .

İ.S Turgenevin " Xor və Kalınıç " hekayəsində işlənilən "izba", "verst"," votçina" nümunələri buna yaxşı misal ola bilər.

1.Калиныч пел довольно приятно и поигрывал на балалайке. Хорь слушал, слушал его, загибал вдруг голову набок и начинал подтягивать жалобным голосом. Особенно любил он песню: «Доля ты моя, доля!» Федя не упускал случая подтрунить над отцом. «Чего, старик, разжалобился?» Но Хорь подпирал щеку рукой, закрывал глаза и продолжал жаловаться на свою долю… Зато в другое время не было человека деятельнее его: вечно над чем-нибудь копается – телегу чинит, забор подпирает, сбрую пересматривает. Особенной чистоты он, однако, не придерживался и на мои замечания отвечал мне однажды, что «надо-де избе жильем пахнуть». – Посмотри-ка, – возразил я ему, – как у Калиныча на пасеке чисто. – Пчелы бы жить не стали, батюшка, – сказал он со вздохом. «А что, – спросил он меня в другой раз, – у тебя своя вотчинаесть?» – «Есть». – «Далеко отсюда?» – «Верст сто». – «Что же ты, батюшка, живешь в своей

вотчине?» – «Живу». – «А больше, чай, ружьем пробавляешься?» – «Признаться, да». – «И хорошо, батюшка, делаешь; стреляй себе на здоровье тетеревов, да старосту меняй почаще»(»…(Иван Сергеевич Тургенев . "Хорь и Калиныч" Записки охотника.).

İ.S.Turgenevin dilində "verst","votçina"," izba" rus milli həyatını, onun milli koloritini ifadə edən tarixi , coğrafi və ictimai realilərdir.

Dilçilikdə reali ilə bərabər "ekvivalentiz leksika, ekzotik sözlər, lakunlar terminləri" də işlənir. Müəyyən tədqiqatlarda onlar hamısı bir qrupda öyrənilir və ya arasında fərqli nüanslar tədqiq olunur. Lakin bizim fikrimizcə, terminlərin hamısını *reali* adı altında öyrənmək daha məqsədəuyğundur.

Hər bir xalq üçün olduğu kimi ingilis və Azərbaycan xalqları üçün də dil yalnız işarələr sistemi yox, həm də ünsiyyət vasitəsidir. Dil etnosun ümumi xarakterini özünəməxsus şəkildə əks etdirən bir amildir.

Realilər birbaşa dil və mədəniyyətlə bağlıdır. Millət və onun mədəniyyəti dilə özünəməxsus boyalar, çalarlar bəxş edir. Dil mədəniyyəti sosial-kulturoloji amilləri özündə hifz edib gələcək nəsillərə çatdırır. Dil cəmiyyətlə, xalqla sıx əlaqədədir. "*Kulturoloji amil olaraq adət-ənənələrin, bayramların dilə təsirində realilər xüsusi rol oynayır. İngilis dilinin realiləri nəinki ingilis dilinin regional variantlarının formalaşmasına təsir göstərib, eləcə də Azərbaycan dilinə də onların keçməsi ingilis ədəbiyyatının tərcüməsinin nəticəsidir"* [1,s.18] .

V. Fon Humboldtun təbirincə desək, dil xalqın ruhudur. Bu "ruhla" bağlı olan ən maraqlı dil vahidi isə məhz realilərdər. Realilərin xalqın dillərin milli xüsusiyyətlərini müəyyənləşdirməkdə rolu əvəzsizdir.

İlina S. qeyd edir ki, "*...elə sözlər (və ya söz birləşmələri) reali adlanır ki, onlar bir xalqın həyatı(mədəniyyəti, məişəti, sosial və tarixi inkişafı) üçün səciyyəvi olan obyektlərin adını ifadə etsin və digər xalq üçün yad olsun*" [9,s.119].

Alman dilçiləri bu terminləri "realium", "realien", "realienlexem" adlandırırlar. Realium və ya realien deyərkən hər hansı bir mədəniyyət əşyası, məfhum və ya hadisə, realienlexem deyərkən isə bu əşya, hadisə və ya məfhumu adlandıran sözləri nəzərdə tuturlar.

Azərbaycan dilçiliyində də bu məsələ ilə bağlı araşdırmalar aparılmış, realilər əsasən məişət leksikası adı altında öyrənilmişdir [4, s.77].

E. Allahverdiyeva realilərin tərifini bu şəkildə vermişdir: " *...realiyalar iki dilin leksik səviyyədə tutuşdurulmasında, yaxud dildən digərinə tərcümə prosesində müəyyənləşdirilir. Bir xalqın dilində işlənən, həmin xalqın maddi-mədəniyyətinə, məişətinə, coğrafi mühitinə, ictimai-tarixi xüsusiyyətlərinə aid əşyaların adını bildirən konkret , başqa bir dildə işlənməyən, tərcüməsi izah tələb edən sözlər, obyekt dilə münasibətdə mənbə dildə olan realiyalardır*" [2, s.71].

N. Xudiyev realilər haqqında yazır: "*...hər xalqın özünəməxsus milli adət ənənələri, milli məişət tərzi mövcuddur. Bu milli özünəməxsusluq həmin xalqı digər xalqlardan, etnik qruplardan fərqləndirir*" [5, s.49].

Q. Bayramov realilər haqqında yazır: "*Məxəz dildə bu qismə daxil olan sözlər elə məfhum və situasiyaları bildirir ki, onlar hədəf dildə yoxdur. Bu*

sözlərin əksəriyyəti məxəz dildə danışan xalqın maddi və mənəvi mədəniyyəti ilə bağlıdır" [3, s.52].

A.Quliyeva ingilis dilindəki realilər və onların tərcümə yollarından bəhs edərkən bu təsnifatı təqdim etmişdir: "*1. Başqa dildə danışan insanların praktik nitqində mövcud olmayan predmet, əşya anlayışı, situasiya bildirən söz, yaxud realilərdir; 2. Zahiri linqvistika və tərcüməşünaslıqda, məsələn, hər hansı ölkənin dövlət quruluşu, hər hansı xalqın tarixi və mədəniyyəti, konkret dilin daşıyıcısı olan dil əlaqələri nəticəsində bu dildə öz əksini tapmış müxtəlif çeşidli faktorların öyrənilməsi; 3.Sözün normativ mənası üçün əsas kimi xidmət edən maddi mədəniyyət əşyaları; 4. Həyat və məişətin milli-spesifik xüsusiyyətlərini bildirən sözlər; 5.Orijinal mətində realizə olunan mədəni kod elementləri*" [6, s.32].

Hər hansı bir xarici dili öyrənmə prosesində də realilərin mənimsənilməsinin böyük rolu vardır. Realilər əslində bir xalqın həyatı üçün doğma, digər xalq üçün yad olan dil vahidləridir.

Reali sözü latın dilindən (realis, realia) alınmışdır, "əşyavi, həqiqi" semantikasını daşıyır. Realilər xalqın tarix, mədəniyyət, məişətini səciyyələndirən və digər xalqların dilində olmayan əşya, hadisə, məfhumların adını bildirən söz və birləşmələrdir.

Realilərin maraqlı bir xüsusiyyəti də ondan ibarətdir ki, biz realilərin böyük əksəriyyətinin yaranma tarixini bilirik. Dilin leksikası cəmiyyət həyatı, tarixi hadisələrlə sıx şəkildə bağlı olduğu üçün cəmiyyətdə və tarixdə baş vermiş hadisə və proseslər leksikada əks olunur.

"*... dil həmin insan kollektivinin məfhumlar sistemini inikas etdirərək təfəkkürlə sıx şəkildə əlaqədardır. Buna görə də bu və ya digər xarici xalqın dilini öyrəndikdə, biz onun vasitəsilə gerçəkliyi qavramaqla təşəkkül tapmış məfhumlar sistemini öyrənirik*" [10, s.12].

Realilərin tədqiqi birbaşa linqvokulturologiya ilə əlaqədardır. Realilər daha çox linqvokulturologiyanın tədqiqat obyekti sayılır.

Məcazlaşmış realilər tarixi koloritin canlı şəkildə qorunub saxlanıldığı əsas linqvistik mənbələrdən biridir:

*Осенью вальдшнепы часто держатся в старинных липовых садах. Таких садов у нас в Орловской губернии довольно много. Прадеды наши, при выборе места для жительства, непременно отбивали десятины две хорошей земли под фруктовый сад с липовыми аллеями. Лет через пятьдесят, много семьдесят, эти усадьбы, «**дворянские гнезда»,** понемногу исчезали с лица земли; дома сгнивали или продавались на своз, каменные службы превращались в груды развалин, яблони вымирали и шли на дрова, заборы и плетни истреблялись. Одни липы по-прежнему росли себе на славу и теперь, окруженные распаханными полями, гласят нашему ветреному племени о«прежде почивших отцах и братиях». Прекрасное дерево – такая старая липа… Ее щадит даже безжалостный топор русского мужика. Лист на ней мелкий, могучие сучья широко раскинулись во все стороны, вечная тень под ними*.**(Иван Сергеевич Тургенев .** "Мой сосед Радилов".**Записки охотника).**

«Дворянские гнезда» nümunəsində "Дворянин» İ.S.Turgenev dövründəRus həyatında ictimai-siyasi təbəqənin daşıyıcısı olmuşdur; bu onun həqiqiqi mənasıdır.Lakin yuxarıda verilən nümunədə isə (***«Дворянские гнезда») "Zadəgan yuvası"*** metaforikləşmiş realidir.

Abstract:

This article explores the linguistic features through which socio-cultural realities are expressed in language. Socio-cultural realities are concepts that reflect a nation's way of life, traditions, values, and worldview, and they are embedded in the lexical and semantic layers of language. The paper analyzes how these realities are integrated into language and examines the linguistic means used to express them—such as words, phrases, metaphors, and terms. The article also addresses the challenges and adaptation issues that arise in translating socio-cultural realities across different languages and cultures. The research shows that language is not only a means of communication but also a carrier of a nation's socio-cultural identity. In this context, studying the linguistic manifestations of socio-cultural realities allows for a deeper understanding of language as well as intercultural communication.

Key words: socio-cultural realities, language and culture, linguistic features, lexical semantics, intercultural communication, translation challenges, functions of language, national identity.

ƏDƏBİYYAT

1. Ağabəyli, V. Mifologiya, ingilis dilinin Amerika və Kanada variantlarının zənginləşməsində linqvokultoroloji amil kimi // – Bakı: AMEA Nəsimi adına Dilçilik İnstitutu, Dilçilik İnstitutunun əsərləri, – 2014. № 1, – s. 3-9.

2. Allahverdiyeva, E.M. Bədii tərcümənin linqvistik problemləri / E.M.Allahverdiyeva. – Bakı: Maarif, – 1997. – 199 s.

3. Bayramov, Q. Tərcümə sənəti / Q.Bayramov. – Bakı: OKA Ofset nəşr., –2008. – 218 s.

4. Cəfərov, S. Müasir Azərbaycan dili (Leksika): [II cilddə] / S.Cəfərov. – Bakı: Şərq- Qərb, – c.2. – 2007. – 215 s.

5. Xudiyev, N.M. Azərbaycan ədəbi dilinin təşəkkülü. Dərslik. / N.M.Xudiyev. – Bakı: ADPU, – 1991. – 149 s.

6. Quliyeva, A. İngilisizmlər və tərcümə / A.Quliyeva. – Bakı: Nurlan, – 2008. – 92 s.

7. Sadıqova, S., Hüseynova N., Abdullayeva İ., Novruzova S., Həsənli-Qəribova Ş. İzahlı dilçilik terminləri lüğəti / S.Sadıqova, N.Hüseynova, İ.Abdullayeva [və b.]. – Bakı: Elm nəşriyyatı, –2018. – 912 s.

8. Влахов, С., Флорин, С. Непереводимое в переводе. Реалии // Вкн.: Мастерство перевода. – Москва: Сов.писатель, –1970, –с.432-456.

9. Илъина, С.Ю. Проблемы профессионально педагогической направленности в предование / С.Ю. Илъина. – Москва: Наука, – 1978. – 119 с.

10.Щерба, Л.В. Актуальные вопросы методики преподавания иностранных языков / Л.В. Щерба. – Москва: Наука, – 1947, – 128 с.

SİYASİ DİSKURSDA PARALELİZMLƏR

Günay Təhməzova
Bakı Slavyan Universiteti
dissertant
tehmezovagunay@mail.ru

Müasir siyasi diskursun linqvistik təhlili natiqin ixtiyarında olan və onun siyasi ideyalarını reallaşdırmaq naminə kütləvi şüurun idarə olunması üçün istifadə etdiyi bütün dil resurslarının öyrənilməsini nəzərdə tutur. Linqvistik ədəbiyyatda siyasi diskurs nəzəriyyəsinin əsasları 20-ci əsrin ortalarında sosial fikrin linqvistik cəhətdən öyrənilməsi ilə məşğul olan Oksford və Kembric məktəblərinin nümayəndələri tərəfindən qoyulmuşdur. Bu sahədə xüsusi əməyi olan T.A.Van Deyk siyasi diskursun təhlilinə "aktuallaşdırılmış mətn" nöqteyi-nəzərindən yanaşaraq bildirir ki, siyasi ünsiyyətin müəyyən tematik və üslub xüsusiyyətlərlə səciyyələnməsinə baxmayaraq, konteksti olmadan siyasi diskursu müəyyən etmək mümkün deyil [3, s.87].

Dilçilkdə parallelilk və parallelizm terminləri sinonim olaraq işlədilir.

Paralellik nitqdə və ya yazıda eyni olan sözlər, ifadələr və hətta cümlələrdən istifadə edərək bir neçə fikri və ya əksinə fikir ayrılığını vurğulamaq üçün istifadə olunan dil vasitəsidir. Ümumiyyətlə, paralelizmlər dildə mövcud olan dörd struktur təkrar növləri olan fonetik, leksik, morfoloji və sinatktik təkar növləri əsasında formalaşır. Fonetik təkrarlar eyni sait və ya samit səsin təkrarlanmasına əsaslanır.Digər təkrar növləri ilə müqayisədə daha az tədqiq olunan morfoloji təkrarlar eyni morfemlərin təkrarını nəzərdə tutulur. Sintaktik təkrarlarar dilçilkdə bəzən sintaktik paralellik kimi də qeyd olunur . Sintaktik paralellelizmlər isə sintaktik elementlərin bir-birini eyni sturktur formada təkrarlaması nəticəsində yaranır.Bu struktur eynilik özünü mətnin məzmun komponentində də göstərir.

N.İ.Formanskaya sintaktik paralelizm terminini "struktur paralellizm" termini ilə ifadə edərək bu üslubi vasitəni bütövlükdə sintaktik modelin təkrarı kimi nəzərdən keçirir. O, həmçinin qeyd edir ki, sintaktik paralelizmlər əsasında qurulan cümlələr həm nəqli, həm sual, həm əmr, həm də nida cümlələri şəklində ola bilir [4, s.210].

G. Kuka görə, paralellik "bağlılıq bildirən bir vasitədir", bu zaman bir cümlə və ya cümlənin müəyyən bir hissəsi formaca digər cümləni və ya cümlə hissəsini təkrarlayır. Kuk əlavə edir ki, paralellik ədəbi və siyasi diskursda tez-tez istifadə olunan bir üsuldur.O,qeyd edir ki, formaların oxşarlığı eyni zamanda məna oxşarlığını göstərir ki, bu da öz növbəsində oxucu və dinləyiciyə məlumatın daha dəqiq şərh edilməsinə xidmət edir [1,s.90].

Paralelizmlərlə siyasi çıxışlar arasındakı əlaqə ondan ibarətdir ki, onların vasitəsilə dil siyasi məqsədlərə çatmaq üçün siyasətçilər tərəfindən istifadə olunan bir mənbəyə çevrilir və tamaşaçının diqqətini səslənən hər bir fikrə yönəltməyə məcbur edir. Bununla da siyasətçinin siyasi təbliğat effektinə nail olması reallaşır.

Məhz parallelizmlərin köməyi ilə siyasi natiqlər cümlələrin simmetriyasını və həcmini artıraraq çatdırılan fikrin eyni dərəsədə vacib olduğunu vurğulayır .Siyasi diskursda paralellizmləri tədqiqi ilə məşğul olan Rohampton Universitetinin alimləri Ceyson Cons və Cin Stilvel Peki bildirirlər ki, nitqin daha da yaddaqalan olmasına xidmət edən parallel nitq nümunələri vasitəsilə nitqə simmetriya və ritm hissi əlavə olunur və bununla da oxşar strukturlar silsiləsində bir neçə fikri ifadə etmək mümkün olur. Alimlər həmçinin qeyd edirlər ki, dinləyicilərin fikrini daha qabarıq siyasi məqamlara yönəltmək və ötürülən siyasi mesajın müəyyən hissəsinin nitqin qalan hissəsindən fərqləndirmək üçün parallel nitq nümünələri siaysətçilərin ən yaxşı seçimi olaraq qəbul edilir. Dilçilikdə paralelizmin iki əsas növü vardır: leksik və sintaktik paralelizmlər. Leksik paralelizm eyni və ya oxşar söz və ifadələrin təkrarlanması ilə meydana gəlir.

Sintaktik paralelizm cümlələrin və ya frazaların strukturunun təkrarlanmasıdır. Sintaktik paralelizm bir neçə cümlənin və ya frazanın eyni və ya oxşar sintaktik quruluşda olmasını ifadə edir.

Paralelizm, həm də semantik paralelizm olaraq bilinən bir formaya malikdir, burada eyni məna daşıyan müxtəlif ifadələr və ya cümlələr təkrarlanır. Leksik paralelizm, eyni məna daşıyan sözlərin və ifadələrin müxtəlif cümlələrdə və ya frazalarda təkrarlanması ilə əlaqədardır. Sintaktik paralelizm isə eyni və ya oxşar quruluşların istifadəsini nəzərdə tutur. Hər iki növ paralelizm siyasi diskursda təsirli bir üsul olaraq çıxış edir, çünki onlar auditoriyanın diqqətini cəlb edir, emosional və məntiqi təsir yaradır, və mövzunun əhəmiyyətini vurğulayır [2,s.67].

Müasir Azərbaycan və ingilisdilli siyasi diskursda leksik və sintaktik paralelizmlərin istifadəsi, siyasi mesajların aydın şəkildə çatdırılmasına və ideoloji təsirin gücləndirilməsinə xidmət edir. Bu paralel struktur və təkrarlamalar auditoriyanın diqqətini cəlb edir, eyni zamanda onların psixoloji və emosional vəziyyətini formalaşdırır. Siyasi liderlər və kommunikasiyanın digər iştirakçıları üçün paralelizmlər, siyasi məqsədləri yerinə yetirmək, ideyalarını mənalı və təsirli şəkildə auditoriyaya çatdırmaq üçün əvəzolunmaz bir alət olur. Bu səbəbdən, siyasi diskursun dilində paralel struktur və təkrarlamaların istifadəsi, təkcə dilin quruluşunu deyil, həm də siyasətin təməl prinsiplərini və ideoloji mesajlarını formalaşdırır. Sintaktik paralelləri müəyyən etmək üçün başlıca olaraq üç məqama diqqət yetirmək lazımdır: cümlənin müəyyən üzvlərinin və ya hissələrinin paralel komponentlər şəklində bir-birini tamamlaması, bir-birinə uyğun olan bu komponentlər arasında qrammatik və tematik bağlılıq, həmçinin struktur-semantik bağlılığa malik bu ifadələrin eyni ardıcıllıqda yerləşməsi. Sintaktik paralellizmlər ideoloji təsir gücünə malik olduğundan siyasətcilər auditoriyanı ələ almaq, adresatın emosiya və şüuruna təsir etmək və qarşıya qoyulmuş məqsədə çatmaq üçün bu üslubi vasitəyə hər zaman müraciət edirlər.

PARALLELISMS IN POLITICAL DISCOURSE

Abstract

Political discourse is one of the main tools for presenting political ideas, power structures, and ideologies to society. It is also an effective means of

communication used by politicians and other public figures to convey their thoughts and positions to a broad audience. Language plays a significant role in politics, especially in political speech, not only as a vehicle for transmitting information but also as a means of creating emotional, psychological, and ideological impact.

In political discourse—particularly in the speeches of presidents—parallelisms and repetitions are commonly encountered. In linguistics, the term *parallelism* refers to the repetition or correspondence of structures and forms across various levels of language (e.g., lexical, syntactic, semantic). Parallelism is primarily a stylistic device consisting of the repeated use of similar structures or forms in speech or text.

The purpose of parallelism is to make the emphasized idea or message clearer, more memorable, and more impactful through the use of repeated structures. Parallelism involves the use of identical or similar structures within the elements that make up the structure of language. This can take the form of repeated sentence structures as well as the repetition of words and expressions.

Key words: parallelism, political, discourse, lexical, syntactic, president, English, Azerbaijani

ƏDƏBİYYAT:

1. Cook, G. Discourse, Oxford: Oxford University Press. (An introduction to the basic principles of early DA and its relevance to language teachers.),– 1989, –230 p.
2. Cuddon, J.A. Dictionary of literary terms and literary theory. London: Penguin Books.–1992.
3. Дейк ван Т.А. Язык. Познание. Коммуникация. – М.: Прогресс, 1989. – 312 с
4. Формановская Н.И. Стилистика сложного предложения. М.: Русский язык, 1978, с. 240.

ETİMOLOJİ LÜĞƏTLƏRİN TƏRTİBİ PRİNSİPLƏRİ

Nuranə Hüseynova
Nəsimi adına Dilçilik İnstitutunun dissertantı
nuranateacher@gmail.com

Etimologiyanın ən sıx bağlı olduğu sahələrdən biri də leksikoqrafiyadır. Çünki etimoloji lüğətlərin tərtibi bu sahədə ən prioritet vəzifələrdən biri sayılır. Digər tərəfdən, etimoloji lüğətlərin tərtibi prinsipləri ümumi leksikoqrafiya nəzəriyyəsi aspektindən nəzərdən keçirilməlidir. Etimologiya ilə bağlı problematik məsələlərdən biri məhz etimoloji lüğətlərin necə tərtib olunması məsələsidir. Əlbəttə, lüğətlərin tərtibi, lüğət məqaləsi leksikoqrafiyanın ortaq məsələlərindəndir. Ancaq hər bir lüğətin özünəməxsus tərtib qaydaları və nəzəri

prinsipləri mövcuddur. Etimoloji lüğət, hər şeydən öncə, hər bir dilin ən qədim leksik qatını ehtiva etməlidir. Çünki məhz kök leksik lay hər bir dilin retrospektiv cəhətdən təşəkkül tarixini inikas etdirir. Hind-Avropa dillərinə aid ilkin etimoloji lüğətlər hələ orta əsrlərdə çap olunmuşdu. XVII əsrdə Menaj adlı fransız qrammatisti fransız dilinin ilk etimoloji lüğətini tərtib etmişdi. Müəllifi Dits olan beş cildlik "Roman dillərinin etimoloji lüğəti" 1853 və 1858-ci illərdə nəşr olunmuşdu [9, s.286]. Deməli, hələ XIX əsrdə hind-Avropa dilçiliyində etimoloji lüğətlərin tərtibi sahəsində böyük təcrübə əldə edilmişdi. İndiyə qədər müxtəlif dillərin ya qısa etimoloji lüğəti, ya tarixi-etimoloji lüğəti, ya da ki müqayisəli-etimoloji lüğəti çap olunmuşdur. Eyni zamanda, bəzi dillərə aid kök sözlər lüğəti var. Həmin lüğətin tərtibi də müasir dilçilik üçün aktuallıq kəsb edir. Bu lüğətlər həmçinin öz strukturuna görə də fərqlənir. Yəni elə lüğət var ki, həmin etimoloji lüğətin materialları yalnız bir dili əhatə edir, ancaq elə etimoloji lüğətlər də var ki, həmin lüğətlərdə bütöv bir dil ailəsinin leksik materialı ehtiva olunur. Məsələn, türk dillərinin 7 cildlik etimoloji lüğəti, J.Pokornunun müəllifi olduğu hind-Avropa dillərinin etimoloji lüğəti, O.N.Trubaçevin rəhbərliyi və redaktəsi ilə nəşr olunan slavyan dillərinin etimoloji lüğəti də bu tiplidir. Osetin etimoloqu V.İ.Abayevin etimoloji lüğətin tərtibi prinsipləri ilə bağlı qiymətli nəzəri müddəaları var. V.İ.Abayev etimologiyaya tarixi leksikologiyanın tərkib hissəsi kimi baxır. O, tarixi lüğətlə etimoloji lüğəti fərqləndirərək yazır ki, "*tarixi lüğətdə sözün digər sözlərlə genetik əlaqəsi deyil, onun tarixi hədəf kimi götürülür. Tarixi lüğət çoxəsrlik, qədim yazılı qaynaqlara üstünlük verir. Etimoloji lüğətdə isə, əksinə, araşdırılan sözün digər qohum sözlərlə genetik əlaqəsi müəyyənləşdirilir"* [3, s.546-547]. Vaxtilə sovet türkologiyasında türk dillərinin etimoloji lüğətinin tərtibi prinsipləri ilə bağlı müxtəlif fikirlər irəli sürülmüş, bu mövzuda elmi məqalələr yazılmışdır. İndiyə qədər tərtib olunmuş etimoloji lüğətlərin bir qismində yalnız faktların sadalanmış, söz köklərinin müqayisəsinə üstünlük verilmişdir. Ancaq bəzi etimoloji lüğətlərdə isə etimonun və ya arxetipin bərpası da göstərilir. Fikrimizcə, ikinci tip etimoloji lüğətlər daha məqbul sayıla bilər. Çünki etimoloji lüğətlərdə ilkin söz kökünün bərpası və yaxud da ilkin formanın verilməsi həmin lüğətin təyinatına və nəzəri prinsiplərinə tam uyğun gəlir. Qeyd edək ki, etimoloji lüğətlər tərtib olunarkən həmin lüğətin əks etdirdiyi dilin mənsub olduğu xalqın etnoqrafiyası, fokloru nəzərə alınmalı, ilk növbədə, həmin dilin tarixi dialektologiyasına önəm verilməlidir. Çünki etnoqrafiyada və dialektologiyada tədqiq olunan dilin qədim leksikası haqqında zəngin məlumatlar öz əksini tapır. Məlumdur ki, dialekt və şivələr qədim dil faktlarını daha çox qoruyur, mühafizə edir. Məsələn, müasir Azərbaycan ədəbi dilində arxaikləşən onlarla söz var ki, onlar dialekt və şivələrimizdə mühafizə olunmuşdur. Alman dilçisi Maksimilian Fasmerin rus dilinin etimoloji lüğətində 20 minə yaxın sözün izahı verilmişdir. M.Fasmerin etimoloji lüğətində əsas çatışmayan cəhətlərdən biri odur ki, bu lüğətdə əsasən sözün alındığı dil göstərilir və daha çox rus dilindəki alınma sözlər verilir, ilkin məna və ikin forma bərpa olunmur. Məsələn, o, türk fin-uqor və monqol dillərində işlənən *aray* "bataqlıq" sözünün rus dilinə keçdiyini göstərir və etimoloji şərh kimi verilən məlumat bitir [7, c.1, s.82]. Halbuki M.Fasmerin dördcildlik etimoloji lüğəti indiyə qədər tərtib olunmuş rus dilinin etimoloji

lüğətləri içərisində xüsusi yer tutur. Yəni linqvistikada etimoloji lüğətlərə yanaşma prinsipləri fərqlidir. İndiyə qədər bu lüğətdəki nöqsanlarla bağlı E.V.Sevortyan, O.N.Trubaçev və digərlərinin tənqidi fikirləri olmuşdur. Bəzi izahlarına görə hətta M.Fasmerin lüğəti ensiklopedik və yaxud da izahlı lüğət təsiri bağışlayır. Halbuki onun lüğətində rus dilinin leksikasının zəngin materiallarından uğurla istifadə olunmuşdur. Bununla yanaşı, həmin lüğətdə verilən məlumatlar daha çox rus dilində işlənən alınma sözlərin mənbə dilini müəyyənləşdirmək təəssüratı yaradır. Yəni böyük bir zəhmətin nəticəsi olan M.Fasmerin etimoloji lüğəti haqqında gəldiyimiz nəticələr, təəssüf ki, etimoloji lüğətlərin əsas prinsiplərinə tam cavab vermir. Etimoloji lüğətlərdə izah olunan sözlərin sayı çox fərqlidir. Məsələn, Q.A.İlinskinin müəllifi olduğu slavyan dillərinin etimoloji lüğətində 5000 söz izah olunmuşdur [6, s.92]. Bu fakt da onu göstərir ki, etimoloji lüğətlərdə fərqli statistikalar müşahidə olunur. Etimoloji lüğətlərdə söz sayı çox olduqca həmin lüğətin leksik bazası da zəngin olur. Qeyd edək ki, etimologiya həm qlottoqoniya, həm də qlottogenez problemləri ilə sıx bağlıdır. Hər iki sahə dilin mənşəyini, dilin tarixi inkişafını öyrənir. Buna görə də etimoloji lüğətlərdə sözlərin bərpa olunan etimon və yaxud da arxetipləri dilin qədim dövrünü, bəzən isə hətta yazıya qədərki dövrünü əks etdirməlidir. Qeyd edək ki, etimoloji lüğətlərdə lüğət məqaləsi əsas məsələlərdən biridir. Yəni etimoloji lüğətlərdə verilən lüğət məqaləsinin məzmunu və təhlili digər lüğətlərdən bir qədər fərqlidir. Ona görə də hər bir etimoloq etimoloji lüğət tərtib edərkən lüğət məqaləsinin forma və məzmununa xüsusi önəm verməlidir. Etimoloji lüğət yazmaq və yaxud da tərtib etmək heç də asan deyil, böyük zəhmət tələb edən bir işdir. Çünki bu lüğəti tərtib edəcək şəxs dil tarıxinə, dialektologiyaya dərindən bələd olmalı, fonoloji və morfonoloji prosesləri dərindən bilməli, ilk növbədə isə, etimologiyanın nəzəri-metodoloji konsepsiyaları ilə tanış olmalıdır. Etimoloji lüğətlərdə əsas məqamlardan bir orijinal etimoloji şərhlərin verilməsi prinsipidir. Əsaslandırılmış arqumentlər, analoji materialların müqayisəsi nəticəsində etimonların bərpa edilməsi, fonetik, morfoloji və semantik prinsiplər əsasında paraformaların və ilkin semantikaların bərpası etimoloji şərhlərin orijinallığını əsaslandıran amillərdəndir. Etimoloji lüğətlər öz spesifikasına görə fərqləndiyi üçün onlarda verilən lüğət məqaləsi çox zaman *etimoloji məqalə* adlanır. Etimologiya sahəsində böyük təcrübəyə malik olan O.N.Trubaçev qeyd edir ki, "*F.Mikloşiç və E.Berneker tərəfindən tərtib olunmuş "Slavyan dillərinin etimoloji lüğəti"ndə çatışmayan cəhətlərdən biri bu lüğətin nəzəri cəhətdən çatışmazlığıdır"* [5, s.58]. Deməli, O.N.Trubaçev etimoloji lüğətlərin tərtibində onların nəzəri-metodoloji cəhətdən hazırlanmasını əsas amillərdən biri kimi qiymətləndirir.Bəzi dilçilik ədəbiyyatlarında etimoloji sözlükləri *retrospektiv lüğətlər* də adlandırırlar. Çünki bu tip lüğətlərdə dilin tarixinə ekskurs edilir, tarixiliyə daha çox önəm verilir. Bunsuz etimoloji lüğət tərtib oluna bilməz. Maraqlıdır ki, M.Staçovski etimoloji lüğətləri forma və məzmununa görə iki növə ayırır: retrospektiv və prospektiv lüğətlər [2, s.67]. O.N.Trubaçev yazırdı ki, "*etimoloji araşdırmalar üçün ən ideal şərtlərdən birincisi tədqiqata cəlb edilən dilin yaxşı səviyyədə etimoloji lüğətinin olmasıdır, sonrakı şərtlər isə ətraflı tarixi və dialektoloji lüğətlərin olması və sözün coğrafiyası haqqında tam materialların olmasıdır*" [5, s.25]. Etimologiya

sahəsində möhürünü vurmuş bir alimin etimoloji lüğəti bu cür yüksək dəyərləndirməsi səbəbsiz deyil. Çünki etimoloji materialları özündə ehtiva edən lüğət tədqiqatçı üçün hazır mənbədir. Etimoloji lüğətlər mənsub olduğu dilin tarixi söz bazasını mükəmməl şəkildə əks etdirməyə qabil olmalı, dilin tarixi keçmişini, xalqın etnotəfəkkürünü və etnologiyasını əks etdirmək gücünə sahib olmalıdır. Hər bir etimoloq və yaxud da leksikoqraf etimoloji lüğəti hazırlayarkən etimologiyanın nəzəri-metodoloji müddəalarına dərindən bələd olmalı, səthi şərhlərdən "qaçmalı", etimologiyanın fonoloji, morfoloji və semantik qanunauyğunluqlarına əməl etməlidir. Bir sözlə, etimoloji lüğət dilin və xalqın gerçək tarixini əks etdirmək gücünə malik olmalıdır.

Ədəbiyyat

1. Axundov, A. Dil və ədəbiyyat: [2 cilddə] / – Bakı: – c.1. – 2003. –660 s.
2. Stachowski, M. Etimoloji / M.Stachowski. – Ankara: Türk Kültürünü Araştırmalar Enstitüsü, – 2011. –118 s.
3. Абаев, В.И. Избранные труды. Общее и сравнительное языкознание: [в 2 томах] / В.И.Абаев. – Владикавказ: Ир, – т.2.– 1995. – 724 с.
4. Трубачев, О.Н. Принципы построение этимологические словаря славянских языков // – Москва: Вопросы языкознание, –1957. №5, – с.58-72.
5. Трубачев, О.Н. Труды по этимологии: [в 2 томах] // О.Н.Трубачев. –Москва: Языки славянской культуры, – т.1. – 2004. – 800 с.
6. Трубачев, О.Н. Этимологические словаря славянских языков Г.А.Ильинского // – Москва: Вопросы языкознание,– 1957. №6,– с.91-97.
7. Фасмер, М. Этимологический словарь русского языка: [в 4 томах] / М.Фасмер. – Москва: Прогресс, – т.1. –1986. – 576 с.
8. Халидов, А.И. К вопросу о принципах составления этимологических словарей // – Praha: Sciences of Europe, Philological Sciences, – 2017. №13, – с.53-59.
9. Шухардт, Г. Избранные статьи по языкознанию / Г.Шухардт. – Москва: Издательство Иностранной Литературы, –1950.

PARSELYASİYA ÇOXASPEKTLİ POLİFUNKSİONAL VƏ ASSİMMETRİK-SİNTAKTİK HADİSƏ KİMİ

Leyla Piriyeva
Gəncə Dövlət Üniversiteti
night_lp@mail.ru

Bir sintaktik hadisə olaraq parselyasiya çoxplanlı və çoxcəhətlidir. Parselyat konstruksiyalar mətndə funksional xüsusiyyətlərə malikdir.

Mətndə parsellərə bölünmüş cümlələr müstəqil frazalardan ibarət olub assimetrik sıra yaradır. Cümlənin bu sırasının intonasiya cəhətdən üzvlənməsi ritmik-melodik keyfiyyət əmələ gətirir. Həmin hadisə mətndə nə zaman meydana çıxırsa, cümlə intonasiya və mövqe cəhətdən parçalanır, ayrı-ayrı üzvlərə (sözforma və söz birləşmələri şəklində) bölünür, nəticədə son element müstəqil söyləmlər arasında intonasiya konturlarını və informasiya yükünü təyin edir.

Mətndə müşahidə olunan parselyasiya hadisəsi belə bir fakta əsaslanır ki, struktur-semantik bütöv təşkil edə bilən cümlələr qoşan (bazis) və qoşulan (parselyat) tərəf olmaqla iki hissəyə bölünür. Ayrılan parselyatlar əsas (bazis) cümlədən qoparılmış, yaxud çıxarılmış müəyyən parçadan və oradakı fikri, bir üzvü izah edən, aydınlaşdıran vahidlərdən ibarət olur və quruluş-məna cəhətdən bir-birinə bağlanır.Parselyasiya nitq şəraitində adi danışıq mətnlərinin təzahürü kimi meydana çıxır. Ona görə ki, danışıq dili ən yığcam dildir. Şifahi mətnlərdə bu dil hadisəsinə məruz qalan cümlələrin sayı çoxdur. Buna baxmayaraq, yazılı mətnlərdə bu struktura nadir hallarda rast gəlirik.

Parselyasiya mətnin xüsusi üzvlənməsidir. Belə ki, bir cümlə mətndə bir neçə müstəqil cümlə şəklinə düşə bilir. Parselləşmiş konstruksiyalar baza (baş, əsas) və parselyat hissələrdən ibarətdir. Baza hissəsi- əsas, dayaq quruluşdur, söyləmlər struktur və məna tamlığına malikdir. Cümlənin asılı olmayan quruluşu müstəqil frazaya və parselyata bölünür [1].

Parselyasiya aktiv-dinamik sintaksisin obyektidir. Mətndə aktuallaşma prosesi zamanı bu hadisə öz təsirini bu və ya digər dərəcədə göstərir. Bu hadisənin mətn şəraitində rolu çoxdur. Fikrin, ideyanın obrazlığını, emosionallığını, ekspressivliyini, informativliyini, şübhəsiz, təmin edir, rema biçimində işlənən fikri aktuallaşdırmaqla cümlələr arası əlaqə əmələ gətirir, tematik proqressiyaya səbəb olur. Cümlənin aktual üzvlənməsi məsələsini yaxşı səviyyədə izah edən akad. K.Abdullayev hadisə nəticəsində söyləmlərin əsas hissədən kənara çıxmasını üslubi fakt sayır "funksional sintaksisin əsas tədqiqat obyektlərindən biri olan aktual üzvlənmə, prinsip etibarilə, cümləyə yalnız onun ənənəvi quruluşundan çıxış edib, qiymət vermir, bu istiqamətdəki tədqiq cümlə quruluşunun sərhədlərindən kənara çıxır. Bu kənara çıxma istiqamətləri müxtəlifdir. İnformasiyanı verən və informasiyanı qəbul edən arasındakı münasibətlərdən başlayaraq cümlələrin nitq prosesində qonşu cümlə sərhədlərinə nüfuz etməyə qədər olan çox geniş psixoloji-məntiqi və funksional-qrammatik məqamlar bura aid edilə bilər" [2].

Parselyasiya ilk dəfə quruluş baxımdan öz təsnifatını tapır. Parsel quruluş ümumi dilçilikdə bir neçə cəhətdən, bir neçə prinsip üzrə bölgülərə ayrılır. Bunların bir qismi ümumi xarakter daşıyır, hər cür quruluş əlamətlərinə malik olan bölünmüş konstruksiyaları əhatə edir, bir qismi isə tərkibin iki hissəsinə görə təsnif olunur. Lakin bütün bu təsnif prinsipləri ümumilikdə struktur-semantik xüsusiyyətə əsaslanır, yəni bütün durumlarda əsasən parselyat quruluşun struktur-semantik və kommunikativ-funksional tərəfləri nəzərə alınır.

Parselyativ quruluş üzrə O.K. Korkoşkanın təsnifi bütün növ cümlələri əhatə edir. O, parselyasiyanı aşağıdakı kimi təsnif edir:

1) sadə cümlənin struktur hüdudları- ayrıca ikinci dərəcəli üzvlər (təyin, tamamlıq, zərflik, predikativ). Bu hadisə demək olar ki, sintaktik model və əlaqələri qəti şəkildə pozur, qoşulma əlaqəsinə yol açır. Parselyat və baza strukturu intonasiyaya görə əvəzlənir, yenidən təşkil edilir, yerini dəyişir.

2) eynicinsli cümlənin yaxud mürəkkəb cümlənin struktur sərhədləri. Parselyat hissə bağlayıcı yaxud modal sözlə başlanır, parselyat siqnalı kimi çıxış edir, hər bir müstəqil cümlə ayrı-ayrılıqda statusu kimi müəyyənləşir. Parselyatla baza strukturu arasındakı əlaqə, münasibət burada mütləqdir.

3) parselyat baza strukturunun elementləri ilə uyğunlaşa bilmir. Beləliklə, əsas cümlə, demək olar ki, müstəqilliyini itirir, qoşulan hissə adlanır.

O.K.Karkoşko parselyasiyanı əsas semantik əlamətlərinə görə də müəyyən bölgülərə ayırır. O, bu xüsusda dörd əlaməti göstərir:

1) parselyatın uzaqlıq, mətndən kənarlaşdırılmış dərəcəsi;

2) mətndə parselyatın mövqe əlaməti, rolu;

3) parselyatın yayılma, genişləndirmə və intişar dərəcəsi; parselyatın bu növü bədii və publisistik əsərlərdə son dərəcə geniş yayılmışdır;

4) eyni konstruksiya hüdudunda parselyatın sırası, kəmiyyəti.

Beləliklə, O.K.Korkoşko rus və alman dilçiliyində parselyativ konstruksiyaları 4 əlamətə əsasən təsnif etmişdir: 1) mətndən uzaqlaşdırılmış, kənarlaşdırılmış parselyatın dərəcəsi (tabe edilmiş söz, kontakt yerləşmə, distant yerləşmə, abzas və perodunların yerləşməsi və s. 2) mövqe əlaməti (postpozisiya, prepozisiya), 3) genişləndirilmiş parselyatın dərəcəsi (genişlənmə, genişlənməmə), 4) parselyatın kəmiyyəti (birhəlqəli, birhissəli, ikihəlqəli, ikihissəli, çoxhissəli, çoxhəlqəli) [3].

Parselyasiya məsəsləsinin düzgün təsnifi digər mühüm problemlərə də aydınlıq gətirdi: 1) mətndəki cümlənin strukturunun son həddə çatması; cümlənin içərisindən ikinci dərəcəli üzvlərin sona keçirilməsi. Bu zaman sintaktik əlaqələr (tabelilik, tabesizlik, qoşulma əlaqələri) pozulur. Necə deyərlər, parselyat hissə baza strukturundan qopub ayrılaraq ayrıca vahid təşkil edir, intonasiya konturları dəyişir. 2) mətndə həmcins üzvlər yaxud mürəkkəb cümlə son həddə çatır. 3) parselyat hissə baza strukturuna aid olmur [4].

İngilis və Azərbaycan dilləri mətnləri üçün parselyasiya konstruksiyaların komponentlərinin qrammatik parçalanma (hissələrə ayrılma) modelinin müxtəlif dərəcədə xarakterik cəhətidir. İngilis dilində parsellərin hissələridən hər biri formal-qrammatik tərkibin bütövlüyü ilə xarakterikdir. İngilis dilindən fərqli olaraq Azərbaycan dili mətnlərində parselyatlı cümlələr

bir çox durumlarda struktur etibarı ilə sadələşməyə meyil göstərir. Sadələşmə əlbəttə, bir cümlənin parçalanması əsasında mümkün olur.

Parselyasiya mətnin üslub rəngini, effektini yüksəldir. Parselyasiya olunmuş yaxud olunmamış konstruksiyalar bir-birilə üslubi variantlar təşkil edir.

İstifadə edilmiş ədəbiyyat

1.Ванников, Ю.В. Синтаксис речи и синтаксические особенности русской речи / Ю.В. Ванников. – Москва: Наука, – 1979. – с. 231.

2.Abdullayev, K.M. Azərbaycan dili sintaksisinin nəzəri problemləri / K.M.Abdullayev. –Bakı: MTM-İnnovation, –2016. – 279 s.

3. Каркошко, О.П. Парцелляция: структура, семантика, функция (на материале русского и немецков языков):// автореф.дисс.канд.фил.наук. / – Майков, – 2001. – 88-98.

4. Богослов, Ю.В. Парцелляция в русском и французском языках: структурные и семантико-синтаксические особенности / Ю.В. Богослов. – Москва, – 2003. – с

Parcelation as a multifaceted, multifunctional and asymmetrical-syntactic phenomenon

In recent years, a large number of topics have been identified in Azerbaijani linguistics for the study of languages with different systems, and the number of such studies is also increasing. Experts specifically approach the study of national and foreign languages in a comparative-typological direction, as well as the study of problems of theoretical expressive syntax. The phenomenon of parcellation is also considered one of the theoretical problems of expressive syntax. The study of the phenomenon of parcellation based on the rich materials of languages with different systems is one of the most important issues in linguistics. However, the means that play a major role in the formation of individual parcel types, the interaction between the main clause and the subordinate clause, the classification of subordinate parcel constructions from various perspectives, as well as issues related to all of these, should be clarified in a typological sense, by comparing the two languages, as a result of deeper and more extensive research.

Key words: parcellation constructions, asymmetric order, information potential, syntactic structure, text structure, parcellation classification

VII BÖLMƏ
MÜQAYİSƏLİ TİPOLOJİ DİLÇİLİK

MÜXTƏLİFSİSTEMLİ DİLLƏRDƏ ZİDD SEMANTİKA DAŞIYAN "DOST" VƏ "DÜŞMƏN" KONSEPTLƏRİ VƏ ONLARIN DİLDƏ FUNKSİONALLAŞMA ÜSULLARI

Əfsanə Baxşəliyeva
Bakı Slavyan Universitetinin dissertantı
afsana.baxsaliyeva@bk.ru

Dil yalnız ünsiyyət vasitəsi deyil, həm də insan düşüncəsinin və mədəniyyətinin güzgüsüdür. Dilin semantik sistemində bəzi anlayışlar ziddiyyətli cütlüklər formasında təqdim olunur. Bu cütlüklərdən biri də "dost" və "düşmən" anlayışlarıdır. Bu sözlər yalnız leksik səviyyədə antonimiya deyil, həm də dərin psixoloji, sosial və mədəni yüklə müşayiət olunan konseptlərdir. Müxtəlif sistemli dillərdə bu anlayışların necə ifadə olunduğu, hansı semantik çalarlarla yükləndiyi və dil daxilində necə funksionallaşdığı aktual və maraqlı bir tədqiqat obyektidir.

"Dost" və "düşmən" anlayışları insan münasibətlərinin fundamental təzahürləridir. "Dost" anlayışı yaxınlıq, etimad, birlik və mənəvi dəstək kimi mənalarla, "düşmən" isə təhdid, qarşıdurma, nifrət və ayrılıq semantikası ilə assosiasiya olunur. Bu anlayışlar, fərqli dillərdə yalnız sözlərin sinonim və antonim sistemlərində deyil, həm də ifadə vasitələrində, bədii dillilikdə, frazeologiyada və metaforik strukturlarda öz əksini tapır.

Azərbaycan dilində "dost" anlayışı həm şəxsi münasibətlər səviyyəsində, həm də mənəvi-ideoloji anlamda işlədilir: *"dost başa baxar, düşmən ayağa"*, *"dost dar gündə tanınar"*. Bu deyimlərdə dost anlayışı sadiqlik və dəstək simvoludur. "Düşmən" isə daha çox gizli və ya açıq təhlükə daşıyan obraz kimi çıxış edir.

İngilis dilində *friend* və *enemy* sözləri də bənzər şəkildə işlədilir, lakin bu sözlərin bəzən ironik və ya genişlənmiş anlamlarda işlənməsi mümkündür: *"Keep your friends close, but your enemies closer."* Bu cür ifadələrdə "düşmən" anlayışı artıq sadəcə neqativ yox, həm də strateji baxımdan qiymətləndirilən bir fiqura çevrilir.

Bu misallar göstərir ki, müxtəlif sistemli dillərdə bu anlayışların həm semantik sərhədləri, həm də funksional imkanları bir-birindən fərqlənir.

"Dost" və "düşmən" anlayışlarının dildə funksionallaşması bir neçə səviyyədə baş verir:

Leksik səviyyə: Hər iki konsept birbaşa leksik vahidlər vasitəsilə ifadə olunur və sinonimlər/antonimlər sistemi ilə zənginləşir (məs., dost – sirdaş, yoldaş; düşmən – rəqib, qarşı tərəf).

Frazeoloji vahidlər: Bu anlayışlar xalq deyimlərində, atalar sözlərində və frazeoloji ifadələrdə geniş yer tutur. Məsələn, *"Dost dar gündə tanınar"*, *"Düşmən gülər, içi yanar"*.

İnsan oğlu dünyanı, ətraf aləmi, yaşadığı tayfanın, qəbilənin, cəmiyyətin üzvlərini, yaxın və uzaq qonşularını dost və düşmən deyə iki yerə ayırmış və bu anlayışlara olan münasibətini frazeoloji birləşmələrdə verballaşdırmışdır. N.Ç.Vəliyeva yazır: "*Xalq şüuru, xalq həyatı ilə yoğrulmuş, dövrlərin süzgəcindən süzülüb gələn, büllurlaşmış fikirlər toplusu olan frazeologizmlər, atalar sözü və zərb məsəllərin semantik inkişafı nəzərə alınmasa, onları bəzən başa düşmək, şərh etmək çətinlik törədir*" [5, s.98]. İngilis və Azərbaycan dilindəki frazeologizmlər hər iki xalqın tarixindəki mühüm hadisələri mühafizə edir. Əslində frazeologiya konseptlər sisteminin ifadəçisi olan bir elm sahəsidir.

Müasir Azərbaycan və ingilis dillərində tərkibində "*friend, company, enemy, foe; dost, dostluq, yoldaş, yağı"* komponentli sabit birləşmələrə rast gəlinir. Məsələn, *a friend at\in court* – mötəbər; *to be friendly to smth.* – bir şeyi bəyənmək, təqdir etmək, müdafiə etmək; *bosom(sworn) friend* – ürək dostu, səmimi dost; *fair weather friend* – vəfasız dost, naxələf dost; *gentleman friend* – dost, kavaler; *a friend of God* – mömin adam; *to friend smb/ in distress* – bir kəsə çətin gündə kömək etmək; *to receive smb/ in a friendly manner* – bir kəsi mehribanlıqla qəbul etmək; *to kiss and be friends* – barışmaq; *keep company with someone* – yoldas olmaq; *make friends* – dost olmaq; *part company(with someone)* – dostluğa son vermək; *strike up a friendship* – dostluq qurmaq; *dostluq binasını qoymaq* (yavaş-yavaş dostlaşmaq, dost olmaq), *dost başa baxar, düşmən ayağa* və s. Bəzən ingilis dilindəki "dost" və "düşmən" konseptli frazeologizmlərin tərkibində *dost, düşmən, yoldaş*, *friend, enemy, foe* leksik vahidlərinə rast gəlməsək də, ümumilikdə frazeologizmin özü "dost" və "düşmən" konseptlərini ifadə edir. Məsələn, ingilis dilində "dost" konseptini ifadə edən, lakin tərkibində "dost" leksik vahidi işlənməyən sabit ifadələr: "*pal around (with someone); run around with someone\\go around with someone olmaq; hit it off (with someone); hall-fellow-well-met; drop someone; turn against someone or something; no love lost(between someone and someone else)"*[1].

İngilis və Azərbaycan dillərində "dost" və "düşmən" konseptini ifadə edən atalar sözləri dildə xüsusi bir lay təşkil edir. Bu ifadələr, dilin ən qədim qatlarına aiddir, artıq unudulmuş, xalqın yaddaşından silinmiş inanc, inam və adət-ənənələrlə bağlı olur. İngilis və Azərbaycan dillərindəki atalar sözləri xalqın adi həyatı ilə, adət-ənənəsi, inamlar və etiqadları ilə əlaqəlidir. Bu tip sabit ifadələr Azərbaycan və ingilis xalqlarının tarixi ilə bağlıdır və bunların əksəriyyətini məcazi mənada işlənilmiş konstruksiyalar təşkil edir. Hər iki dildəki atalar sözlərinin sırasında isə Bibliyadan və Qurandan gəlmə atalar sözləri birinci yerdə durur. "*Atalar sözü sadə kəlam deyil. O, xalqın fikrini təmsil edir. Onda xalqın məfkurəsi öz əksini tapmışdır. Hər hansı bir təsadüfi kəlam atalar sözü ola bilməz, yalnız çox insanların həyat tərzi ilə uyğunlaşan, xalqın fikrini ifadə edən atalar sözləri və məsəllər əsrlər boyu yaşaya bilər*" [2, s.23].

İngilis və Azərbaycan dillərindəki atalar sözləri arasında semantik bənzərlik həddindən artıqdır. "*...dünyanın müxtəlif xalqlarında insanların həyatının obyektiv qanunauyğun şəraiti ilə əlaqədar olan bir sıra ümumi anlayışlar mövcuddur. Məlum olduğu üzrə xalq ən yaxşı mənəvi keyfiyyətləri – vəfalı, vicdanlı olmağı, əməksevərliyi, dostluq və yoldaşlığı, cəsarəti və təvazökarlığı təqdir etdiyi halda insanın qəbahətlərinə, yalançılığa, boşboğazlığa, oğurluğa, axmaqlıq və qorxaqlığa öz nifrətini bildirir*" [3, s.62].Azərbaycan dilindəki paremiyalarda da hər iki komponent üz-üzə qoyulur: *Düşmənlə yaşamaqdansa, dostun yanında ölmək daha yaxşıdır* – sadiq dostun yanında həyatını itirmək düşmən yaxınlığında yaşamaqdan üstündür. Dost onun uğrunda şərəflə ölməyə layiq olan insandır. İngilis dilindəki bəzi atalar sözlərində "dostdan faydalanma və mənfəət güdmək" kimi mövzular da yer alır: *Short debts make long friends (Qısa müddətdə qaytarılan borc - daha uzun müddətli dostluq təmin edər).* "*Mədəniyyət bəşər cəmiyyəti tərəfindən yaradılan ikinci bir dünyadır. Mədəniyyət bütün dövrlər üçün qüvvədə olan ümumtarixi kateqoriyadır*"[4,s.109]. "Dost" və "düşmən" anlayışları dillərin və mədəniyyətlərin semantik sistemində əsas ziddiyyətli konseptlərdən biridir. Onların müxtəlif dillərdə ifadəsi və funksionallaşma üsulları, həm dilin struktur xüsusiyyətləri, həm də cəmiyyətin mədəni dəyərləri ilə bağlıdır. Bu konseptlərin frazeoloji, metaforik və pragmatik səviyyələrdə işlənməsi göstərir ki, dil sadəcə informativ vasitə deyil, həm də mədəni kodların daşıyıcısıdır.

Abstract:

This article explores how the semantically opposite concepts of "friend" and "enemy" are functionalized in languages of different systems. The notions of "friend" and "enemy" represent more than just lexical opposites; they are also culturally, psychologically, and ideologically charged concepts. In various languages, the semantic boundaries, connotative nuances, and usages of these concepts are shaped by diverse cultural and historical experiences.The article demonstrates that these opposing concepts manifest across multiple levels of language—such as phraseology, proverbs, literary devices, and everyday speech. The words "friend" and "enemy" function in different languages through synonyms, antonyms, metaphorical structures, and semantic transformations. Moreover, the emotional weight, ironic use, and political contextualization of these concepts in certain languages are comparatively analyzed.The findings indicate that the functional diversity of the "friend" and "enemy" concepts in language is closely linked not only to the structural features of the languages themselves but also to the value systems of the cultures they represent.

Key words: friend, enemy, semantic opposition, language and culture, conceptual analysis, functionalization, phraseology, antonymy, metaphor, multiculturalism.

ƏDƏBİYYAT

1. Cambridge Dictionary Англо-русский словарь: [electronic resource] / https:// dictionary. cambridge. org/ ru/ % D1% 81% D0% BB% D0% BE% D0% B2% D0% B0% D1% 80% D1% 8C/% D0% B0% D0% BD% D0% B3%

D0% BB% D0%BE%D1%80%D1%83%D1%81%D1%81%D0%BA%D0%B8%D0%B9/

2. Cəfərov, S. Müasir Azərbaycan dilinin leksikologiyası / S.Cəfərov. – Bakı: Maarif, – 1988.

3. Əlizadə, Z. Azərbaycan atalar sözlərinin həyatı / Z.Əlizadə. – Bakı: Yazıçı, – 1985.

4. Hüseynov, İ. Kulturologiya tarixi / İ.Hüseynov, T.Əfəndiyev. – Bakı: Mars, NPF, – 2012.

5. Vəliyeva, N.Ç. Azərbaycanca-ingiliscə-rusca frazeoloji lüğət: [2 cilddə] / N.Ç.Vəliyeva. – Bakı: Azərnəşr, – 2010. c.2.

AZƏRBAYCAN VƏ MÜASİR YUNAN DİLİNDƏ BƏNZƏR VƏ YA EYNİ MƏNA KƏSB EDƏN SABİT SÖZ BİRLƏŞMƏLƏRİ

Pərvin İsgəndərova
Bakı Slavyan Universiteti
doktorant

Sabit söz birləşmələri dili zənginləşdirən və ona müxtəif məna çalarları qatan ifadələrdir. Bu söz birləşmələri şifahi nitqdə daha geniş istifadə olunur. Sabit söz birləşməsi anlayışı Sabit birləşmə ifadəsinin tərkib hissəsi olsa da, bu terminlər bir-birinə ekvivalent hesab olunmur. Sabit birləşmə daha geniş məna həcminə malik olan bir anlayışı ifadə edir. [1]

Frazeoji söz birləşmələri gündəlik həyatın ən ümumi hadisələrini, hərəkətlərini və dəyərlərini əks etdirir. Yunan dilçiliyində bu ifadələr «παγωμένες φρασεις» (donmuş ifadələr) və ya «φρασεολογικές μονάδες» (frazeoloji vahidlər), Azərbaycan dilində isə frazeoloji və ya sabit söz birləşmələri şəkildə ifadə olunur. Bu ifadələrə xas olan xüsusiyyət kimi sabitlik olduğu üçün buraya həm Azərbaycan dilində, həm də yunan dilində atalar sözləri, məsəllər, məcazi mənada işlənilən obrazlı ifadələr aid edilir. "Frazeologiya" termini iki əsas məna daşıyır: biri dilin frazeologizmləri ilə məşğul olan dilçilik sahəsini ifadə etmək üçün, ikincisi isə bir dilin bütün frazeologizmlərini ifadə etmək üçün. [2] Frazeoloji vahidlər bir icmanın mədəniyyətini və tarixini əks etdirir, dil öyrənən tələbələrin lüğət ehtiyatını, ünsiyyət bacarıqlarını zənginləşdirir. Bundan əlavə, frazeoloji vahidlərin öyrənilməsi gündəlik dil ünsiyyətində rast gəlinən metaforik ifadələri effektiv şəkildə anlamağa və şərh etməyə kömək edir. Papazaxariu, Fterniati, Arxakis və Tsaminin fikrinə görə, idiomların öyrənilməsi, onları anlamaqla yanaşı, həm də real ünsiyyət vəziyyətlərində idiomları yaratmaq və istifadə etmək bacarıqlarını inkişaf etdirməyə imkan verir. [7;23] Azərbaycan və yunan dillərində oxşar sabit söz birləşmələrində olan ortaq xüsusiyyətlər, əsasən türk və yunan xalqlarının bir regionda – Balkan regionunda yerləşməsi və tarix boyu bir-biri ilə sıx əlaqədə olması ilə əlaqədardır. Azərbaycan və türk dillərinin də bir millət kimi bənzər mədəniyyətə sahib olması əlaqədardır. Türk dili linqvokulturoloji baxımdan bu iki dil arasında körpü rolunu oynayır. Məsələn, türk dilində: döyülmək mənasında

istifadə olunan "dayaq yemək" ifadəsi «τρώει ξυλό» (çubuq yeyir) kimi yunan dilində ifadə olunur.

Bu kimi frazeoloji ifadələrə bir neçə nümunə verə bilərik:

«βάζει μπελά στο κεφάλι του» - Türk dilində- "Başını belaya sokmak" – Yəni, özünə problem axtarmaq, bəlaya salmaq. Bunu da qeyd etmək yerinə düşər ki, «μπελάς» (oxunuşu: "belas") türk dilindən yunan dilinə keçmiş sözlərdəndir. «Από το στόμα σου και στου θεού τα αυτί» -"Sənin ağzından Allahın qulağına". Bu ifadə dilimizdə "Allah ağzından eşitsin" olaraq istifadə olunur. «δεν πιστεύει στ' αυτιά του» -"Qulaqlarına inanmır" – Məlumat və ya hadisəyə duyulan təəccüb hissini ifadə etmək üçün istifadə olunur. Eyni şəkildə, bu ifadəyə Azərbaycan dilində də rast gəlmək mümkündür. «Γίνομαι πετσί και κόκκαλο» -"Bir dəri bir sümük olmaq" «ανοίγω την καρδιά μου» -"Ürəyini açmaq"- Bir insana ürəyini açmaq, yəni sirrlərini və hisslərini paylaşmaq. Bu ifadəyə həm də dilimizdə rast gələ bilərik.

Sabitlik xüsusiyyəti ilə sıx bağlı olan leksikallaşdırma xüsusiyyəti, yəni frazeoloji vahidlərin lüğətin genişlənmiş sintaktik formaları kimi, "leksikləşmiş strukturlar" kimi verilməsi sistemdə "hazır sintaktik strukturlar" kimi mövcud olmasıdır.[6] Onların leksik strukturunun möhkəmlənməsi – koqnitiv səviyyədə – onların vahid polileksik vahidlər kimi yadda saxlanılmasına gətirib çıxarır, bu da hər dəfə nitqin elementləri kimi yaradılmır, lakin danışanın ixtiyarında hazır vahidlər kimi olur. Bu o deməkdir ki, sabit söz birləşmələrindən istifadə zamanı danışan tərəfindən yaradılan dil formalarından fərqli olaraq, nitq prosesində qurulmur, lakin "leksik sistemin digər üzvləri ilə olan paradiqmatik əlaqələrinə əsasən hazır sintaktik vahidlər kimi seçilir" [6].Yunan dilinin sabit ifadələrini tarixi baxımdan araşdıraraq, onların hələ Homer dövründən mövcud olduğunu müəyyən etmək mümkündür. Həmçinin, Bizans dövrünə aid mətnlərdə və dini mətnlərdə də bu günkü ifadələrə rast gəlinir. Ümumiyyətlə qeyd edə bilərik ki, xarici dillər və xüsusən də qonşu dillər bir dilin sabit ifadələrinə təsir göstərə bilər. Lakin eyni və ya oxşar sabit ifadələrin mövcudluğu mütləq dillər arasında əlaqələrin göstəricisi deyil. Buna görə də hər tədqiqat zamanı yalnız müəyyən bir spesifik ifadə və ya ifadələrdən danışa bilərik və bu da həmin bu ifadələrin hər bir dildə mövcudluğunun geniş tədqiqatına əsaslanmalıdır.

Summary

"Phraseological units are word combinations that add various shades of meaning to language and enhance expressiveness. These include combinations where the words individually have different meanings, but together convey a specific meaning. This is sometimes called «παγωμένες φρασεις» (frozen phrases) in Greek. This indicates that they express a fixed meaning within a specific context. Furthermore, similar fixed word combinations and proverbs in Turkish and Greek, and the similarities in Turkic languages, mean that the Turkish language and culture play a special bridging role between Greek and Azerbaijani."

Keywords: Fixed word-combinations, phraseologisms, stereotyped expressions

Ədəbiyyat

1. Adilov M.İ., Yusifov G.N. Sabit söz birləşmələri. Müəllimlər üçün vəsait. Azərbaycan dilində. Bakı: Elm, 2019, – 160 s.

2. Xioti Aleksandra., "Müasir Yunan Dilində Sabit İfadələr:Tarixi Ölçüsü, Təsnifatı Və Stereotipiklik"mövzusu üzrə Doktorluq dissertasiyası, Saloniki Aristotel Universiteti

3. İraklis Millas, Yunan və Türk dillərində atalar sözləri və ümumi söz və ifadələr.

5. Maria-Androniki Travlou., "Yunan dilinin tədrisi üzrə kurikulumlarda və dərsliklərdə frazeologiyanın qiymətləndirilməsi C2" mövzusu üzrə Magistr dissertasiyası, Kapodistrii adına Afina Milli Universiteti

6. 00_master_document_Goutsos.pdf

7. https://www.academia.edu

8. chrome-extension://efaidnbmnnnibpcajpcglclefindmkaj/https://hellanicus-api.lib.aegean.gr/server/api/core/bitstreams/bfeeab52-afa3-46fa-8dfd-10ff71a12fe3/content

ÇIXIŞDA EMOSİONAL TƏSİR VASİTƏSİ KİMİ NİTQ HİSSƏLƏRİ

Əsmər Cəfərli
Sumqayıt Dövlət Universiteti
doktorant

Giriş: Nitq dilçilik və psixologiya elmlərinin qarşılıqlı fəaliyyəti nəticəsində formalaşır. Belə ki, dilçilik dilin qanunauyğunlarını öyrənirsə, `psixologiya dildə istifadə olunan sözlərin psixoloji təsirini və ya danışarkən natiqin keçirdiyi affekt hallarını (həyəcan, sevinc, kədər, qorxu və s) öyrənir. Natiq nitqində elə sözlər və ya ifadələr seçir ki, auditoriyaya lazımi hissləri ötürə bilsin. Bu baxımdan sözlər nitqin emosional kodu rolunu oynayır. Müasir dilçiliyin əsasını qoyan dilçilərdən biri olan Ferdinand de Sössürün də qeyd etdiyi kimi, dil və nitq fərqli anlayışlar kimi özünü göstərir. Daha sonra L.V. Şerbanın təqdim etdiyi üç mərhələli model — dil materialı (mətnlər), dil sistemi (lüğətlər, qrammatika) və dil fəaliyyəti (danışıq və anlama nitqi) — dilin həm fərdi, həm də ictimai funksiyalarını izah etməyə imkan verir. Bu model sonradan Zinder və Andreyev tərəfindən genişləndirilmiş və dil, nitq, nitq aktı və nitq materialı olmaqla dörd əsas kateqoriyadan ibarət yeni bir çərçivəyə çevrilmişdir. [6, s.15]. Zinder və Andreyevin yanaşması doğrudan da, dilin praktik tətbiqini daha sistemli şəkildə izah etməyə şərait yaradır. Lakin qeyd etmək lazımdır ki, bu modellərdə nitq aktı yalnız bir proses kimi dəyərləndirilir. Bu da nəzəriyyənin bəzi məhdudiyyətlərinə səbəb olur. Əslində, nitq aktı həm də fəaliyyət yönümlü, psixoloji motivasiyaya əsaslanan bir proses kimi nəzərdən keçirilməlidir. Bu çərçivədə "nitq qabiliyyəti" anlayışının nəzərə alınmaması həmin modelin zəif cəhətlərindən biri kimi qiymətləndirilə bilər.Bu baxımdan A.A. Leontyevin yanaşması daha kompleks və funksionaldır. O, nitq fəaliyyətini yalnız ünsiyyət vasitəsi kimi deyil, həm də daxili düşüncənin və mənəvi vəziyyətin ifadəsi kimi izah edərək, onu motivləşdirilmiş, məqsədyönlü psixoloji fəaliyyət kimi qiymətləndirir. Leontyevin bu baxışı nitq prosesinə daha geniş,

çoxqatlı yanaşmanı mümkün edir və nitqin yalnız sosial deyil, həm də şəxsi-psixoloji təzahürlərini nəzərə almağa imkan yaradır.

Təfəkkürdə formalaşan hər bir anlayış mütləq şəkildə dil vasitəsilə – yəni sözlərlə – adlandırılır. Adlandırma prosesi isə anlamanın ilkin şərtidir. Sözlər təfəkkürdə yaranan ideyaların, ətraf aləmdə mövcud olan anlayış və predmetlərin adlandırılması üçün istifadə olunan xüsusi semantik koddur. Yəni, hər bir söz, əslində, insanın təfəkkür fəaliyyətinin məhsuludur. Bu fikri dəstəkləyən Mayıl Əsgərov qeyd edir ki, "*söz düşüncə və dərketmənin vasitəsi yox, nəticəsidir; yəni, nitqin əsas mənbəyi söz deyil, strukturlaşdırılmış fikir formasıdır"* [3, s. 165].Söz sadəcə fikri,emosiyaları ifadə edən kodlardır. Lev Vıqotski də sözün həm nitq, həm də təfəkkür funksiyasını özündə birləşdirdiyini vurğulayır. Onun fikrincə, insan beynində yaranan fikir yalnız söz vasitəsilə tamamlanır və ifadə olunur. Həqiqətən də, insanın əqli fəaliyyətində formalaşan anlayışlar yalnız sözlərlə konkret məna qazanır və bu şəkildə kommunikasiya müstəvisinə keçə bilir. Məlumat mübadiləsi nitq prosesi vasitəsilə həyata keçirilir. Nitq yalnız danışanın fikrini səsləndirməsi deyil, eyni zamanda, dinləyicinin bu fikri qəbul edib onu emal etməsidir. Başqa sözlə, anlama və dərketmə yalnız verbal vasitələrin iştirakı ilə tamamlanır. Nitqdə istifadə olunan sözlər, ifadələr, üslub xüsusiyyətləri auditoriyada həm emosional reaksiya doğurur, həm də anlamanı və mənimsəməni stimullaşdırır.Bu yanaşmanı dəstəkləyən nümunə kimi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 10 dekabr 2020-ci il tarixində keçirilmiş Zəfər paradında səsləndirdiyi nitqə müraciət edə bilərik.

1. İsimlərin konseptual və emosional yükü

Prezident İlham Əliyevin 10 dekabr 2020-ci il tarixli Zəfər paradındakı nitqində istifadə olunan isimlər yalnız məlumatverici funksiyanı yerinə yetirmir, həm də milli-mənəvi dəyərlərin daşıyıcısı kimi çıxış edir. Bu isimlər vasitəsilə nitq konseptual sahələr yaradır və dinləyicidə güclü emosional təsir doğurur. İsmayıl Kazımovun fikrincə, "*isimlər yalnız dil vahidi deyil, həm də konseptual dərinliyə malik semantik elementlərdir və konkret situasiyalarla əlaqələndirilərək geniş mənalar qazanır: "İsim bir nitq hissəsi kimi verbal konseptuallaşma sırasında xüsusi yeri tutaraq, xüsusi konseptolma statusuna malikdir"* [4, s.19].

Nitqdə zəfər, nailiyyət, ədalət kimi pozitiv çalarlı isimlər dinləyicidə milli qürur, sevinc və kollektiv uğur duyğusu yaradır. Bu sözlərin tez-tez təkrarlanması (zəfər – 7 dəfə, qələbə – 5 dəfə) əsas ideyanın – müharibədə qazanılmış uğurun vurğulanmasına xidmət edir. İşğal, düşmən, soyqırımı kimi neqativ yüklü leksik vahidlər isə keçmişdə yaşanan ağrılı tarixi hadisələri xatırladaraq mübarizə ruhunun gücləndirilməsinə yönəlir.

2. Sifətlərin emosional fon yaratmadakı rolu

Prezident İlham Əliyevin Zəfər paradındakı nitqində sifətlər mühüm emosional və psixoloji fon yaradan dil vasitələri kimi çıxış edir. Bu sifətlər vasitəsilə nitqdə emosional dəyərləndirmə həyata keçirilir və dinləyicinin hadisələrə münasibəti formalaşdırılır. Nitqdə işlənən *əziz, tarixi, şanlı, şərəfli, müzəffər* kimi sifətlər qələbə ilə bağlı hadisələri yüksək dəyərləndirməklə dinləyicidə qürur, fəxr və vətənpərvərlik hissləri oyadır. Bu ifadələr ümummilli

əhəmiyyət daşıyan məqamları vurğulayır və nitqin emosional təsir gücünü artırır. Xüsusilə *şanlı qələbə, müzəffər ordumuz, şərəfli yol* kimi birləşmələr ictimai şüurun yönləndirilməsi və tarixi hadisələrin pozitiv çalarlarla təqdim olunmasına xidmət edir. Digər tərəfdən*, mənfur, təxribatçı, zərərli* kimi mənfi yüklü sifətlər düşmən obrazının qəsbkarlığını və törətdiyi vəhşiliklərin dərəcəsini vurğulayır. Bu cür sifətlər vasitəsilə ictimai yaddaşda düşmən obrazı neqativ formada möhkəmləndirilir və milli birliyin əhəmiyyətinə işarə edilir. Nitqdən nümunə: *"Mənfur düşmən işğal edilmiş bütün torpaqları yerlə-yeksan edib."* Bu cümlədə *mənfur* sifəti yalnız düşməni xarakterizə etmir, həm də dinləyicidə qəzəb və nifrət hissləri oyadaraq emosional reaksiya formalaşdırır. Beləliklə, sifətlər vasitəsilə nitqin emosional fonu formalaşır və məzmun psixoloji təsir gücü qazanır.

3.Nitqin emosional dinamikasında feillərin rolu

Nitq yalnız tarixi faktların təqdimatı deyil, həm də geniş ritorik təsir gücünə malik emosional və ideoloji mətn kimi diqqət çəkir. Bu nitqdə istifadə olunan nitq hissələri, xüsusilə feil, əvəzlik həm ifadə gücünü artırmaq, həm də auditoriyada milli qürur hissini oyatmaq məqsədinə xidmət edir. Çıxışda emosional təsir yaratmaq üçün, xüsusilə, feillər mühüm rol oynayır. Məsələn, *azad etdik, məhv etdik, qovduq, qələbə çaldıq* kimi feillər, həm hərəkət dinamikasını vurğulayır, həm də dinləyicidə fəxarət və qalibiyyət duyğusunu gücləndirir. Bu tip feillər ictimai yaddaşda bu qələbənin emosional təsirini dərinləşdirir. *Vuruşurdu, qaldırdı, döyüşdü* kimi feillər konkret hərəkətləri təsvir etməklə cəsarət və qətiyyət nümayiş etdirir. *Gücləndirirdik, toplayırdıq, səfərbər edirdik* kimi formalar isə milli birlik və qələbə ruhunun təbliğində mühüm vasitə rolunu oynayır. Nitqdə bəzi feillərin statistik təhlili bu təsiri daha da aydın göstərir: Qazanmaq – 6 dəfə, azad etmək – 17 dəfə, vuruşmaq – mübarizə və qəhrəmanlıq obrazını formalaşdırır.

Nitqdə feilin zaman formalarının istifadəsi emosional təsiri gücləndirir: Keçmiş zaman (qazanmışdıq, yaratdıq, göstərdik) – tarixi uğurları və kollektiv yaddaşı, indiki zaman (bərpa edirik, müdafiə edirik) – prosesin davamlılığını və aktuallığını, gələcək zaman (qovacağıq, başa vurmalıyıq) – motivasiya verir və gələcəyə inam hisslərini fromalaşdırır.

4.Nitqdə əvəzliklərin emosional rolu:

Əvəzliklər isə nitqin subyektivliyini artıraraq, kollektiv kimliyi və birliyi ön plana çıxarır. *Biz, bizim, özümüz* kimi əvəzliklər vasitəsilə Prezident nitqdə fərdi qələbəni yox, ümummilli zəfəri vurğulayır. Bu əvəzliklərin istifadəsi auditoriyanın özünü bu qələbənin bir hissəsi kimi hiss etməsinə şərait yaradır. Nitqdə 64 dəfə *biz(bizim)* əvəzliyi işlədilir. Bu təkrarın yaratdığı təsirlər aşağıdakı kimi qruplaşdırıla bilər:

Birlik mesajı – xalqla Prezidentin həmrəyliyini vurğulayır
Motivasiya və inam – gələcəyə yönəlmiş ortaq məqsədlər formalaşdırır
Mübarizə və əzm – hərbi və siyasi qələbəni kollektiv səylə əlaqələndirir
Sevinc – qələbə bayramını kollektiv şəkildə qeyd etməyi ifadə edir
Qəzəb və nifrət – ədalətin bərpasına yönəlmiş emosional təzyiq yaradır
Tarixə bağlılıq – Qarabağın Azərbaycan tarixinə məxsusluğunu təsdiqləyir

Nəticə: Beləliklə, aparılmış tədqiqat nəticəsində aşağıdakı nəticələr əldə olunmuşdur

1.İsimlər konseptual məzmunun formalaşdırılmasında mühüm rol oynayır. Zəfər, qələbə, düşmən kimi sözlərin təkrar istifadəsi nitqin əsas ideyasını və məzmun yükünü ön plana çıxararaq dinləyicinin diqqətini həmin konseptlərə yönəldir.

2.Sifətlər auditoriyada müəyyən emosional rezonans doğurur. Müsbət mənalı sifətlər (məsələn, şanlı, şərəfli, əziz) qürur və sevinc hisslərini oyadarkən, mənfi çalarlı sifətlər ("mənfur" və s.) isə nifrət və qəzəb kimi emosiyaları gücləndirir.

3.Feillərin seçimi və onların daşıdığı emosional yük nitqin təsir gücünü artıran əsas vasitələrdəndir. Birinci şəxsin cəm formasında işlədilən feillər (məsələn, qovduq, məhv etdik) kollektiv kimliyi və milli həmrəyliyi ifadə etməklə yanaşı, auditoriyada düşmənə qarşı qəzəb və dirəniş əzmini möhkəmləndirir.

4.Biz əvəzliyinin təkrarı vasitəsilə birlik, ortaq mübarizə ruhu, qürur, tarixi irsə bağlılıq və milli əzm ideyaları vurğulanır. Bu əvəzlik həm emosional təsir, həm də ideoloji yönləndirmə baxımından mühüm funksiyaya malikdir.

Summary: The article investigates the functional potential of parts of speech as means of emotional impact in public speech. The main object of the study is the speech delivered by the President of the Republic of Azerbaijan, Supreme Commander-in-Chief Ilham Aliyev, during the Victory Parade held on December 10, 2020. Based on the analysis of the structure and language of the speech, the mechanisms of its emotional impact on the audience and the linguistic means used to achieve this effect are examined. The emotional codes of the speech are analyzed at the semantic level, and the conceptual layers of meaning expressed within the framework of the concept are identified. The concept-forming function of nouns, the role of adjectives in creating emotional background, the dynamic nature of verbs, and the ability of pronouns to convey ideas such as unity, shared struggle, pride, attachment to historical heritage, and national determination are analyzed through concrete examples.

Summary: The article investigates the functional potential of parts of speech as means of emotional impact in public speech. The main object of the study is the speech delivered by the President of the Republic of Azerbaijan, Supreme Commander-in-Chief Ilham Aliyev, during the Victory Parade held on December 10, 2020. Based on the analysis of the structure and language of the speech, the mechanisms of its emotional impact on the audience and the linguistic means used to achieve this effect are examined. The emotional codes of the speech are analyzed at the semantic level, and the conceptual layers of meaning expressed within the framework of the concept are identified. The concept-forming function of nouns, the role of adjectives in creating emotional background, the dynamic nature of verbs, and the ability of pronouns to convey ideas such as unity, shared struggle, pride, attachment to historical heritage, and national determination are analyzed through concrete examples.

Ədəbiyyat

1. Əliyev İ. Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradında nitqi (10 dekabr 2020). https://president.az/az/articles/view/48793

2. Axutina T.V. Porojdenie i vospriyatie rechi i teksta. Rossiyskaya psikholingvistika: itogi i perspektivy (1966–2021) Moskva, 2021,625 s.

3. Əsgərov M**.** Linqvo-psixoloji vəhdət nəzəriyyəsi**.** Elm və Təhsil. Bakı, 2015.

4. Kazımov İ. Müasir Azərbaycan dili leksikasının koqnitiv və linqvokulturoloji əsasları Azərbaycan dili və ədəbiyyatın tədrisi. 2021, № 3 (269), 10–29

5. Leontyev A.A. Osnovı psixolinqvistiki**.** Moskva: Smısl, 1997, 287 s.

6. Leontyev A.A. Dil, nitq, nitq fəaliyyətləri**.** Moskva: "Prosveşeniye", 1969.

7. Lakoff G., Johnson M. Metaphors we live by. Chicago: University of Chicago Press, 1981.

AZƏRBAYCAN (NAXÇIVAN FOLKLOR NÜMUNƏLƏRİ ƏSASINDA) VƏ İNGİLİS DİLLƏRİNDƏ TAPMACA CÜMLƏ STRUKTURU

Gülvira Abbasova
AMEA Naxçıvan Bölməsi

Məlum olduğu kimi, şifahi xalq ədəbiyyatının ən qədim və dəyərli janrlarından olan tapmacalar ağızdan-ağıza keçmiş, bəzi müəyyən dəyişikliklərə məruz qalmış, məzmun və formasını qismən dəyişərək günümüzədək gəlib çatmışdır. Şifahi xalq ədəbiyyatının tapmaca janrı ifadə və ya vəznindən asılı olmayaraq, dinləyicini fikirləşməyə məcbur edir. Həmçinin, az sözlə çox fikir ifadə etmə bacarığı edən tapmacalar adi sözlə deyil, uyumlu, ahəndar sözlərlə deyilməlidir. İstənilən xalqın folkloruna nəzər yetirdikdə və onu dərindən araşdırdıqda, tapmacalarda həmin xalqın adət-ənənələri, milli-mənəvi dəyərləri məharətlə ifadə olunduğuna şahidlik edirik. Hazırda, Naxçıvan və ingilis tapmacalarının frazeoloji və sintaktik xüsusiyyətlərinin araşdırılması aktual məsələdir.

Məqsəd və intonasiyasına görə cümlə növləri içərisindən ən geniş yayılanı nəqli cümlələrdir. Nəqli cümlələr haqqında Q. Kazımov yazır: Obyektiv gerçəkliyin, xəyali aləmin, bu və ya digər faktı, hadisəsi barədə məlumat verən adi təsviri cümlələrə nəqli cümlə deyilir. Nəqli cümlələr söz sırası və intonasiyanın köməyilə formalaşır. Şübhəsiz, bu söz sırası sabit deyildir. Canlı danışıq dilində, bədii əsərlərdə bu qayda pozula bilir [4, s. 88].

Aşağıda qeyd olunan nümunələrdən aydın görmək olar ki, folklor nümunələri arasında nəqli cümlə formasında olan tapmacalar geniş yayılmışdır.

Azərbaycan dilində (Naxçıvan folklor örnəkləri əsasında):

Qara toyuq qapıda yatar. (süpürgə) [5, s. 295].

Qara oğlanı qulağından asırlar. (qazan) [6, s. 217].

Toxumsuz bitər, dünyaya yetər. (tor) [6, s. 209].

İngilis dilində:

I'm a metal cup but not for drinking. I have dimples, but I'm not a golf ball. I protect you from sharp things, but I'm not armor. (thimble) [11].

Soft and white, I cover your bed, in fields I grow, my fibers are spread from shirts to sheets, I'm woven with care (cotton) [11].

I have a thumb and four fingers but am not a hand (glove) [9].

Tapmacanın bədii təsir gücünü artıraraq onu daha maraqlı və cəlbedici etmək üçün nəqli cümlə ilə ifadə olunan tapmacalarda bəzən inversiya hadisəsi baş verir. Belə tapmacaların söz sırasını bərpa etməyə çalışsaq tapmacalıq xüsusiyyəti itər, ilk baxışda mənasız ifadələr yaranmış olar. Məsələn:

Azərbaycan dilində (Naxçıvan folklor örnəkləri əsasında):

Özü on ikidir,
Yeri edən ikidir.
Fırlanmaz tərsinə,
İki dəfə atdırsan, görərsən olar nə. (saatın əqrəbləri) [5, s. 297].

Safdır inci kimi
Onsuz yaşamağ olmaz.
Odur yaşadan səni. (su) [7, s. 292].

İngilis folklorunda:

This is something in your kitchen, meat, milk and yogurt it does hold, the reason you put them in this, is because it helps keep them cold (Refrigerator) [10].

Rests all summer. flies all winter.-Sleigh [2, s. 50].

Müqayisə etdiyimiz dillərdə əmr cümləsi əsasında formalaşan tapmacalar çox olmasa da bəzi nümunələrə rast gəlinir. Aşağıdakı tapmacalara diqqət yetirək:

Azərbaycan dilində (Naxçıvan folklor örnəkləri əsasında):

Qabığı yaşıl, içi sarı, gəl tap bunu, qoca qarı. (yemiş) [7, s. 288].

Sənə hamıdan əziz kimdir
Əgər ki, bilirsən,
İncitmə onu, xoş dindir. (valideyn) [7, s. 292].

Tap tapış, yerə yapış. (xalça) [5, s. 297].

İngilis folklorunda:

If you drop me I'm sure to crack, but give me a smile and I'll always smile back. (mirror).

Take off my skin, I will not cry but you will. (onion) [12].

Give me food and I will live, give me water and I will die, what am I? (Fire) [3, s. 15].

Naxçıvan tapmacalarında maraqlı məqamlardan biri də budur ki, onlar bir bənddən ibarət bayatı şəklində olur və tərkibində nəqli, sual və ya əmr cümlələrindən birinə rast gəlinir. Məs:

Əzizinəm, buz bağlar,
Qışda çaylar buz bağlar,
Deyin görək o nədi?
O içində buz bağlar. (soyuducu) [7, s. 287].

Əziziyəm o başdan,
Mən deyirəm bu başdan,
Heç kəs ayıra bilmədi,
O nədir qardaşı ayırdı qardaşdan? (ölüm, əcəl) [7, s. 289].

Əzizim, mən çoxusu,
Yəqin bilir çoxusu,
Aşıq bir bağa çıxdı,
Azı quru, çoxu su. (yer kürəsi) [1, s. 124].

Əzizim qara nədi?
Qaş üstə qara nədi?
Gönü göy, əti qırmızı,
Sümüyü, de görüm, qara nədi (qatır) [8, s. 228].

Qeyd edək ki, apardığımız araşdırmalar zamanı ingilis dilində bu xüsusiyyətə malik tapmacalara rast gəlinmədi.

Dilçilik ədəbiyyatlarında bir şeyi dəqiqləşdirmək və ya yeni məlumat almaq məqsədilə sual cümlələrinin işlədildiyi göstərilmişdir [4, s. 90]. Maraqlıdır ki, qarşılaşdırılan dillərdə işlənən tapmacaların bir çoxu sintaktik baxımdan sual cümlələri əsasında qurulmuşdur. Ən qədim dövrlərdən günümüzə çatan tapmaca növlərindən biri də sual-cavab formasında olanlardır. Hər iki dildə xüsusi sual cümlələrinin yaranmasında sual əvəzlikləri və sual zərfləri əsas rol oynayır. Sual sözlərinin həm əvvəldə, həm də sonda işlənməsi mümkündür. İngilis dilində sual formasında olan tapmacalarda geniş rast gəlinəni *but* bağlayıcısı ilə bağlanan sintaktik konstruksiyalardır. Naxçıvan tapmacalarında tabeli mürəkkəb cümlə növlərini əmələ gətirən konstruksiyalarda "o nədir ki", "o hansı (heyvandır, meyvədir və s.) ki" kimi ifadələr işlənir. İngilis tapmacalarında isə "What am I?", "What is it?" kimi sadə sual cümləsi ilə bitən konstruksiyalar daha geniş işləkdir. Belə tapmacaların əsas xüsusiyyəti budur ki, onların konstruksiyası sadə cümlə formasındır. Hər iki dildəki tapmacalarda oxşarlıq ondan ibarətdir ki, tapılmalı olan predmet sual əvəzliyi arxasında "gizlənir", sual əvəzliyi cümlədə mübtədanı əvəzləyir, amma subyekti adlandırmır, xəbər qrupu isə predmetin səciyyəsini özündə birləşdirir.

Azərbaycan dilində (Naxçıvan folklor örnəkləri əsasında):

Hansı meyvədi ki,
Kallıxda da şirin.
Yetkinliyhdə də şirin. (Uşax) [6, s. 218].
Gündə eşidilər səsi
O hansı məkandır ki,
Yüzdən çoxdur pilləsi. (Məkkənin minarəsi) [7, s. 291].
Bacası, tüstüsü yox,
O hansı məkandır ki,
Soyuqdur, istisi yox. (qəbir) [7, s. 292].
Boyun şənbədir, yadımıza düşən nədir?
Odsuz, susuz bitən nədir? (bal) [7, s. 291].

İki kürküm var,
On qardaşa çatar
Bını kim tapar? (əlcək) [6, s. 219].

İngilis dilində:

What has two hands and a face, but no arms or legs? (a clock) [9].
What starts with a T, ends with a T, and has T in it? (a teapot) [12].
What has hands, but can't clap? (a clock) [12].
What has many teeth but cannot bite? (a comb) [10].
What invention lets you look right through a wall? (window) [11].

Yekun olaraq qeyd etmək lazımdır ki, tarixən janrca qədim olan tapmacaların linqvistik xüsusiyyətlərinin araşdırılması istiqamətində müəyyən təqdiqatlar aparılmışdır. Fikrimizcə müxtəlifsistemli dillərdə istər tapmacaların, istərsə də digər folklor nümunələrinin tədqiqata cəlb olunması həm folklor, həm də dilçilik baxımından mühüm nəticələrin əldə olunmasına səbəb ola bilər.

This article investigates syntactic features of Nakhchivan and English riddles, which are created in the form of dialogue unlike other genres. For this reason, it is important to research, types of sentences according to types of communication in riddles in details. Riddles in the form of narrative sentences are more widespread among folklore samples when examining the sentence structure of both Nakhchivan and English riddles.

Key words: sentence, riddle, folklore, Nakhchivan, English.

Ədəbiyyat

1. Azərbaycan folklor antologiyası, XXIII kitab (Naxçıvan örnəkləri), 2-ci cild, Bakı, "Elm və Təhsil" nəşriyyatı, 2012, 332 s.
2. Elli Köngäs Maranda. The Logic of Riddles. Radcliffe Institute, Harvard University.1971, 62 s.
3. Əliyeva E. Azərbaycan və ingilis dillərində tapmacaların linqvistik təhlili. Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün Avtoreferat. 2011, 28 s.
4. Kazımov Q. Müasir Azərbaycan dili. Sintaksis. Bakı: "Təhsil", 2007, 496s.
5. Naxçıvan folkloru antologiyası I cild. Naxçıvan "Əcəmi" NPB, 2010, 506 s.
6. Naxçıvan folkloru antologiyası II cild. Naxçıvan "Əcəmi" NPB,2011, 488 s.
7. Naxçıvan folkloru antologiyası III cild. Naxçıvan "Əcəmi" NPB,2012, 560 s.
9. Şərur folklor örnəkləri. I kitab. Bakı, "Elm və təhsil", 2016. 348 s.
10. https://riddles-for-kids.org
11. https://www.riddlesandanswers.com
12. https://www.riddlewot.com
13. https://www.scribd.com/document/457136361/English-Riddles

VIII BÖLMƏ
HİND-AVROPA DİLLƏRİ

QLOBAL DİL KİMİ İNGİLİS DİLİNİN DÜNYA DİLLƏRİNƏ TƏSİRİ

Firuzə Kərimova
AMEA Nəsimi adına Dilçilik İnstitutu, doktorant
filologiya üzrə fəlsəfə doktoru
k.firuza@mail.ru

Müasir dövrdə dil sadəcə ünsiyyət vasitəsi olmaqdan çıxaraq, siyasi, iqtisadi və mədəni gücün simvoluna çevrilmişdir. Bu kontekstdə ingilis dili dünya miqyasında ən geniş yayılmış və qəbul edilmiş qlobal dil statusunu qazanmışdır. Onun bu qədər təsirli və yayılmış olması digər dünya dilləri üzərində həm müsbət, həm də mənfi izlər buraxmaqdadır.

İngilis dilinin qlobal səviyyədə bu qədər yayılmasının əsas səbəblərindən biri tarixi və siyasi amillərlə bağlıdır. Britaniya imperiyasının keçmişdəki genişmiqyaslı müstəmləkə siyasəti, sonrakı dövrlərdə ABŞ-ın iqtisadi və texnoloji liderliyə yüksəlməsi ilə bu dil bir çox sahələrdə aparıcı ünsiyyət vasitəsinə çevrilmişdir. Hazırda ingilis dili BMT, Aİ və digər beynəlxalq təşkilatların rəsmi dillərindən biridir və bir çox ölkədə ikinci dil kimi tədris olunur.

İngilis dilinin qlobal statusu digər dillərin leksikasına və qrammatikasına birbaşa təsir edir. *leksik təsir*: Bir çox dillər, xüsusilə texnologiya, internet, moda və elm sahələrində ingilis dilindən alınma sözlərlə zənginləşmişdir.

qrammatik və sintaktik təsir: Bəzi dillər ünsiyyət formalarını və cümlə quruluşlarını ingilis dilinə uyğunlaşdırmağa başlayır. Bu isə dilin təbii inkişafına müdaxilə edə bilər [4].

dil siyasətinə təsiri: Bəzi ölkələrdə rəsmi sənədlərdə, ali təhsildə və kütləvi informasiya vasitələrində ingilis dilinə üstünlük verilməsi yerli dillərin zəifləməsinə səbəb ola bilər.

İngilis dilinin yayılması, bir tərəfdən, insanlara qlobal informasiya məkanına çıxış, elmi ədəbiyyatdan istifadə və beynəlxalq əməkdaşlıq imkanları verir. Digər tərəfdən, bu proses mədəni identiklik və dil müxtəlifliyinə təhlükə yarada bilər. Xüsusilə azsaylı xalqların dilləri assimilyasiya təhlükəsi ilə üz-üzə qalır.

İngilis dili müasir dövrün qlobal dili olaraq dünya dilləri ilə dinamik və qarşılıqlı əlaqədədir. Bu prosesdən yaranan təsirləri düzgün idarə etmək üçün dil siyasəti, təhsil sistemi və mədəni təşəbbüslər balanslı şəkildə aparılmalıdır. Beləliklə, həm ingilis dilinin faydalarından istifadə etmək, həm də yerli dillərin və mədəniyyətlərin qorunmasını təmin etmək mümkündür.

Dil insanlığın inkişafında, keçmişdə ideyaların yayılmasında mühüm rol oynayıb və gələcəkdə onun daha da əhəmiyyətli bir rol oynayacağı gözlənilir.

Beləliklə, dillərin öyrənilməsi insanlıq üçün son dərəcə vacibdir və insanlığın yetkinlik və ya universal şüur mərhələsinə keçidinin təmin olunmasına lazımi diqqət yetirilməlidir.

Hazırda insanlıq 6809 canlı dil və təxminən 100 ölü dil istifadə edir ki, bu da sosial qarşılıqlı əlaqəni asanlaşdırır. XXI əsrdə ünsiyyət kütləvi informasiya vasitələrinin, kompüterlərin və mobil telefonların geniş yayılması sayəsində əhəmiyyətli dərəcədə yaxşılaşıb. İnternet sürətlə bizim ünsiyyət ehtiyacımızı, həmçinin mühüm işgüzar sazişlər və danışıqlar aparmaq üçün ən üstün informasiya bazasına çevrilib.

İngilis dili qlobal dil olaraq hazırda yerli dillər və mədəniyyətlərlə münaqişə vəziyyətindədir. Yeni "linqvistik hücumlar" bizə xəbərdarlıq edir ki, heç bir dil tam olaraq digərinə müqavimət göstərə bilməz.

Təxminən bir milyard insan dünyada ingilis dilini doğma və ya ikinci dil kimi istifadə edir. İngilis dilinin rəsmi və ya yarımrəsmi dil olaraq istifadəsi 70-dən çox ölkədə yayılıb və 20-dən çox dövlətdə çox mühüm rol oynayır. 1400 milyondan çox insan ingilis dilini həyatlarının müxtəlif sahələrində istifadə edir.

İngilis dilinin qlobal dil kimi inkişafı ilə yanaşı, biz dünya dili statusunu qazanmalı bir dilin bəzi xüsusiyyətlərini öyrənməliyik. Mənşəyindən asılı olmayaraq, o, hər kəsin ehtiyaclarını qarşılayacaq praktiki və faydalı bir dil olmalıdır. Əvvəlcə britaniyalıların dili olan ingilis dili, hazırda çoxsaylı növlərə malikdir, bunlara Amerika, Afrika, hind və Avstraliya ingiliscəsi daxildir. Bundan əlavə, ingilis dili indi bir çox xalqların arzularını, istəklərini, həmçinin müxtəlif ölkələrin təcrübəsini birləşdirir. Bu dil, müxtəlif məlumatların ötürülməsi məqsədilə istifadə olunur, istər elm və texnikadakı ən son nailiyyətlər, etnik qrupun təcrübəsinin zənginləşdirilməsi, istərsə də işgüzar danışıqlar; mədəni xüsusiyyətlərin sənədləşdirilməsi; fərdi təcrübə sahəsində. Onun lüğət tərkibi, dünyadakı digər dillərdən alınan yeni sözlərlə əhəmiyyətli dərəcədə zənginləşib.

On minə yaxın hind və digər hind dili ailələrindən alınan sözlər, hind ingiliscəsinin tərkibinə daxil olub. Bunlara misal olaraq: *guru, babu, çorpoy, kary* və s. kimi sözlər daxildir. Geniş istifadə olunan aşağıdakı sözləri də nümunə göstərə bilərik: *lathi-charge* (bir qrup polisin polis çubuğu ilə birini izlədiyi hadisə), *rickshaw-wall* (bir nəfər tərəfindən çəkilən iki təkərli kiçik arabada bir sərnişin üçün yer), *double-roti* (çörək) və s. [2].

Qlobal dil olaraq ingilis dili bir çox problemlə üzləşir. Danışıq ingiliscəsi yerli əhalinin mədəni və dil fərqliliklərinə uyğun olaraq bölgədən bölgəyə dəyişir. Eynilə, yazılı ingilis dili də leksik, forma və struktur baxımından çox fərqlənir, çünki dil, ilk növbədə, mənsub olduğu xalqın düşüncə tərzini daşıyır. Buna görə də, Afrikada yaşayan birinin istifadə etdiyi ingilis dili, Avstraliyada yaşayan birinin istifadə etdiyi dildən fərqlidir. Əlbəttə ki, bu fərqlər əsasən özünü leksik vahidlərdə göstərir. Elektron SMS-lərin təsiri də ingilis dili orfoqrafiyasına və qrammatikasına təsir göstərir. Müxtəlif ingilis dili növlərinin "aydınlıq", "anlaşılıqlıq", "qəbul edilə bilərlik" məsələləri [1, s. 168–175] hələ tamamilə həll olunmayıb.

Bundan əlavə, fransız, ərəb, alman və holland dilləri kimi nüfuzlu dillərin daşıyıcıları arasında ingilis dilinə qarşı ciddi müqavimətlər də hiss

olunmaqdadır. Qlobal dil məsələsi ilə bağlı önəmli yer tutan bir çox qeyri-dil amilləri də mövcuddur ki, bunlar arasında millətçilik, etnik mənsubiyyət, ideologiya, din, siyasət və mədəniyyət var, bunlar bəzən qarışıq şəkildə və bəzən partlayıcı qarışıqlar şəklində özünü göstərir [3, s.40].

Hazırda dünyada 2473 dil, ingilis dili və digər üstün dillərin geniş yayılması səbəbindən yox olma təhlükəsi ilə üzləşir. Hər il təxminən 25 dil ölərkən, XXI əsrin sonunda təxminən 3000 dilin yox olacağı proqnozlaşdırılır.

UNESCO tərəfindən hazırlanmış yox olmağa yaxın dialektlər siyahısında Hindistan (196 dil) liderlik edir. Hindistandan sonra ABŞ (192 dil) və İndoneziya (147 dil) gəlir.

Deməli, belə bir fakt ortaya çıxır ki, dünya nə qədər qloballaşmaya, qloballaşan dil anlayışına sarı gedirsə, ölü dillərin sayı da bir oqdər artmaqdadır. Beləliklə qloballaşan dünyada ingilis dilinin nüfuzun və yayılma arealının artması nə qədər yaxşı bir hadisə olsa da, həm də özlüyündə xırda xalqların dillərinin yox olmasına səbəb olan bir hadisədir.

The Impact of the English Language on World Languages as a Global Language

Summary

This article examines the reasons why the English language has gained the status of a global language, as well as its influence on the world's languages. English has taken a dominant position in areas such as science, technology, trade, diplomacy, and pop culture, infiltrating the lexicon, grammatical structure, and forms of everyday communication of other languages. The article notes that many languages have borrowed English words, and in some cases, this has threatened the originality and sustainability of local languages. At the same time, despite promoting bilingualism and linguistic diversity, this influence creates the risk of assimilation for minority and vulnerable languages. In conclusion, it is emphasized that the widespread use of English creates both opportunities and challenges in terms of language development and cultural diversity.

Key words: English, language, global, world, globalization

ƏDƏBİYYAT

1. Abbott G. W. Intelligibility and Acceptability in Spoken and Written Communication // ELT J 1979. xxxiii (3). Pp. 168–175.

2. Coleman H. (Ed.) Dreams and Realities: Developing Countries and the English Lan guage. London : British Council, 2011 [Электронный ресурс]. URL: www.teachingeng lish.org.uk/publications/dreams-realities-developing-countries-english-language.

3. Johnston A. Thinking about Strategic Culture // International Security. 1995. Vol. 19. No. 4. Spring. Pp. 32–64 [Электронный ресурс]. URL: http://www.fb03.uni-frankfurt. de/45431264/

4. Johnston-. McArthur T. The Oxford Guide to World English. Oxford : Oxford University Press, 2002.

FRANSIZ DİLİNDƏ AİLƏ KONSEPTİ İFADƏ EDƏN FRAZEOLOJİ BİRLƏŞMƏLƏRİN LEKSİK-SEMANTİK TƏHLİLİ

Günay Məhərrəmova
Naxçıvan Dövlət Universitetinin dissertantı
gunay.maharramova@adpu.edu.az

Ailə öz strukturu, funksiyaları və tələbləri ilə ayrıca bir qurumdur. Ailə cəmiyyətin üzvlərini formalaşdıran əsas amildir. Ailənin və onun funksiyalarının dərk edilməsi bir çox amillərdən asılıdır.

Nüvə ailəsindəki uşaqlar öz ailələrindən kənar şəxslərlə evləndikdə yeni nüvə ailəsi yaranır. Amma ailə sözünün də bundan daha geniş mənası var. Ailə daha çox sayda qohumdan, hətta nəsildən və ya sülalədən ibarət bir quruluşdur.

Ailə konseptli frazeoloji ifadələri nüvə sözə görə təsnif etmək mümkündür.

Ana, qadın, həyat yoldaşı nüvəli frazeoloji birləşmələr: Ümumiyyətlə, bütün dünya dillərində olduğu kimi, müasir fransız dilində də ailə konseptini əks etdirən frazeoloji birləşmələr çoxluq təşkil edir və ana məfhumu digər xalqlar kimi fransızlar üçün də müqəddəs sayılır. Qadın konseptinin əsasını ana anlayışı təşkil edir. Fransız mədəniyyətində ana yaxşılıq, qayğı, şəfqət, etibarlılıq, qoruma və xilas etmə simvoludur. Nümunələrə nəzər salaq: *folle mère pour enfant* (Uşağını dəli kimi sevən ana). Övladı üçün hər bir fədakarlığı edən ana mənasını verir; *tendresse maternelle toujours se renouvelle*. Fransızca olan bu ifadənin tərcüməsi "*ananın sevgisi hər zaman yenilənir*" deməkdir. Bu ifadə, ananın sevgi və şəfqətinin sonsuz və tükənməz olduğunu vurğulayan bir frazeologizmdir. *Quand l'enfant quitte la maison, il emporte la main de sa mère* (Uşaq evdən çıxanda anasının əlindən tutur); *La mère du muet en connaît le langage* (Uşağın dilini anası bilir). *Colère de mère ne passe pas la nuit* (Ananın qəzəbi gecəni keçməz). Bu frazeologizm, ananın qəzəbinin və ya narahatlığının uzun sürmədiyini və çox vaxt gecə yatdıqda bu emosiyaların sakitləşdiyini ifadə edir.

Ana və qızın bir-birinə bənzəməsi barəsində fransız dilində yetərincə frazeologizmə rast gəlinir. Fransız dilində belə fikir yer alır ki, qız anasına bənzəyir, həm zahiri görkəmi, həm də davranışı və xarakteri ilə. Nümunələrə nəzər salaq:

Telle mère, telle fille (Ana, qız kimi); *Une fille suit les moeurs de sa mère* (Qız anasının əxlaqına əməl edir; ana nədirsə, qız da odur); *Regarde la mère avant la fille* (Qızdan əvvəl anaya baxın; anaya bax qızını al, qırağına bax besini al); *Qui choisit une femme, regarde sa mère* (Kim arvad seçir, anasına baxır); *Regarde la mère, puis épouse la fille* (Anaya bax, sonra qızını al) və s.

Fransız dilində anaya hörmətin münasibətin vacibliyi vurğulanır:

Une mère nourrit plus facilement sept enfants que sept enfants une mère (Bir ana yeddi uşağı daha asan bəsləyər, nəinki yeddi uşaq bir ananı) deməkdir. Bu frazeologizm həyatlarını uşaqlarına həsr edən anaların çox vaxt da övladlarının nankorluğu ilə qarşılqşdığını bildirir.

Ana-qız münasibətləri ilə bağlı frazeologizmlər də frazeoloji sistemdə

intensiv şəkildə reallaşır: *Il faut amadouer la poule pour avoir les poussins* (Anasına bax qızını al, kənarına bax bezini al).

Əsas nüvəsini qadın–həyat yoldaşı fenomeni təşkil edən frazeoloji birləşmələr də fransız dilində intensiv şəkildə işlənir: *Plus une femme regarde dans son miroir, moins elle regarde sa maison* (Çirkin qadın evi yığışdırar, gözəl qadın toy gəzər) ; *Qui épouse la femme (veuve) épouse les dettes* (Alma avradın dulunu, yanında gətirir qulunu) [2,s.41].

Bəzənsə qadın nüvəli frazeoloji birləşmələr mənfi semantikaya malik olur. Məsələn, *Souvent femme varie, bien fol qui s'y fie:* (Qadının saçı uzun ağlı qısadır); *Qui entretiens femme et dé, mourra en pauvreté* (Atəşlə oynama əlini yandırar, arvadla oynama evini yıxar) və s[3,s.128].

Müasir fransız dilindəki ailə konseptli frazeoloji birləşmələrın müəyyən bir qismini məhz ər-arvad münasibətlərinin əks olunduğu frazeologizmlər təşkil edir. Ər-arvad münasibətlərini əks etdirən frazeoloji birləşmələr istər semantika, istərsə də struktur baxımından digər dillərlə ümumi xüsusiyyətlərə malikdir. Ər arvad münasibətlərini əks etdirən frazeoloji birləşmələr: *Qui se marie par amour a bonnes nuits et mauvais jours / Qui se marie par amourettes, a comme les nuits sont agitées, les jours sont difficiles à travailler. Comme équivalent en turc* (Ər-arvad yatağa girincə dərdlər bitər); *L'âne efface les pas du cheval* (Evi ər qurur, yuvanı qadın). Bu frazeoloji birləşmələr qadının doğmaq, törəmək, ana olmaq funksiyasının nə qədər önəmli olduğunu vurğulayır.

Bütün xalqlarda olduğu kimi, fransızlarda da ailənin başçısı və son sözü söyləyən tarixən ata, ər, evin kişisi sayılmışdır. Əsas nüvəsini ər fenomeni təşkil edən frazeoloji birləşmələrə bu nümunələri göstərmək olar: Une femme veuve emporte toujours des problèmes avec elle. Le même proverbe est dit par une façon comme; Chien apporte puces, pain apporte souris, femme apporte tourments (Dul bir qadın həmişə özü ilə problemlər gətirir. Eyni məsəli belə də ifadə edirlər: it bit gətirir, çörək siçan gətirir, qadın isə dərd gətirir.) [4,s.56]. Ata-oğul münasibətləri ilə bağlı frazeoloji ifadələr: *Tel père, tel fils* (Atasının oğlu olmaq); *Jamais petit chat n'a porté rat à sa mère* (Ata oğluna bir bağ vermiş, oğlu atasına bir salxım üzüm verməmiş) və s. Kişi konseptli frazeologizmlər qadınla müqayisədə sayca daha azdır. Fransızlar kişini güclü, yaradıcı və qoruyucu kimi təsvir edir. Məsələn: *Le mari crée la maison, la femme le foyer*. Kişi evi tikir, qadın ocağı qurur. Bu ifadə, cəmiyyətdəki ənənəvi gender rollarını vurğulayan bir deyimdir. Burada "ev" (maison) maddi və fiziki mənada evin qurulmasını, strukturunu, kişi tərəfindən təmin edilən zəhmət və şəraitin yaradıcılığını ifadə edir. "Ocaq" (foyer) isə evin emosional və sosial mərkəzini, qadının şəfqətini, qayğısını və ailə içindəki harmoniya yaratmaq rolunu simvollaşdırır. Bu deyim, kişinin maddi durumunu, qadının isə ailənin emosional və sosial tərəflərini formalaşdıran bir rol oynadığını ifadə edir. Fransız dilindəki frazeoloji birləşmələrdə ata ailənin lideri kimi təqdim edilir və bu anlayış frazeologiyada ata ilə bağlı ifadələrin üstünlüyü ilə təsdiqlənir. Fransız dilindəki frazeoloji birləşmələrin tərkibində ən çox həyat yoldaşı, ər obrazında kişi konseptini görürük. Kişi obrazı frazeoloji birləşmələrdə ikili şəkildə təzahür edir: mənfi və müsbət yönləriylə.

Nümunələrə nəzər salaq: *barbe-bleu* (arvadına çox pis və zalımcasına

davranan kişi); *bon amie* (aşiq olunası kişi); *bourreau des coeurs* (qadınları başdan çıxaran kişi); *braconner sur les terres d`autrui* (birinin arvadını əldə etməyə çalışmaq); *c`est en famille qu`on lave son linge sale* (sirr evdə qalmalı, qazanlar örtülü qaynayır); *homme à bonnes fortunes* (qadınlar tərəfindən aranılan kişi); *se conduire en galant homme* (kübar davranan kişi) və s.

Beləliklə, müasir fransız dilində bu gün də intensiv şəkildə işlənən, istər danışıq, istərsə də bədii üslubda rast gəlinən ailə konseptli frazeoloji birləşmələr ümumi qanunauyğunluqdan kənara çıxmır.

Fransız dilində ailənin özəyini, əsas nüvəsini təşkil edən ikili xarakter daşıyır. İdiomların bir çoxunda övlad vəfasızlıqda günahlandırılır. Məsələn, *Les enfants sont des soucis certains et des réconforts incertains* (Övladın var, dərdin var); *Attends le soir pour louer le beau jour, et la mort pour louer la vie* (Buğdam var demə anbara girməyincə, oğlum var demə yoxsulluğa düşməyincə); *Garçon doit être mal vêtu, bien nourri, bien battu. Ce proverbe prend un équivalent en turc comme* (Uşağın geyindiyi haram, yediyi halal) və s. Ailənin əsas nüvəsini nə qədər ki, ana, ata və övlad üçbucağı təşkil edirsə, burada qohum amilini də unutmamaq lazımdır. Çünki qohumlar olmasa, ümumi ailə tablosu bütöv şəkildə tamamlanmır. Təsadüfi deyil ki, müasir fransız dilindəki ailə konseptli frazeoloji ifadələrin böyük bir qismi də məhz qohum, qardaş, kürəkən və digər qohumları özündə əks etdirir. Lakin bu frazeoloji birləşmələrin bəziləri qohumun qardaşdan irəli olması fikrini dəstəkləsə də, bir çoxu bu fikri müdafiə etmir. Məsələn, *Il n'est de pire ennemi que ses proches* (Qohumun qohuma etdiyini əqrəb etməz); *Celui qui jette la pierre à ses parents ne prospère pas* (Qohuma daş atan yaxşılıq unmaz); *Les questions matérielles peu-vent être causes de querelles même entre parents proches* (Qohumla ye, iç, amma alış-veriş etmə) və s.

Nüvəsində qardaş leksik vahidi olan frazeologizmlər: *Deux frères contre un ours et deux beaux-frères devant une soupe au lait* (İnsana qardaş kimi yar, İraq kimi diyar olmaz); Kürəkənlə bağlı frazeologizmlər: *Aller être gendre* (Evləndiyi qadının evində yaşayan kürəkən); *Mieux vaut pousser une branche que greffer un rameau* (El oğlundan oğul olmaz) və s. [1,s.195]. Müasir fransız dilindəki ailə konseptli frazeologizmlərin böyük bir layının da əsas nüvəsini məhz kişi anlayışı təşkil edir.

LEXICAL-SEMANTIC ANALYSIS OF PHRASEOLOGICAL UNITS EXPRESSING THE CONCEPT OF FAMILY IN THE FRENCH LANGUAGE

Abstract:

This article explores the lexical-semantic features of phraseological units that express the concept of family in the French language. Since the notion of family lies at the center of human life both on an individual and social level, it occupies a significant place within the phraseological system of the language. In French, expressions related to family reflect not only kinship relations but also the emotional, social, and cultural dimensions of intra-family relationships.

The article analyzes the lexical composition, semantic nuances, and contextual interpretations of such phraseological units. Additionally, the study

presents a comparative overview of these expressions in the context of French culture and their equivalents in other languages, which highlights the article's scientific novelty. The findings reveal that family-related phraseological units serve as carriers of cultural values and national-ethical characteristics.

Key words: French language, family concept, phraseological units, lexical-semantic analysis, cultural context, kinship terms, language and culture, phraseology, expressions.

ƏDƏBİYYAT

1. Ducourant, B. Sentences Et Proverbes De La Sagesse Chinoise / B. Ducourant —Paris: Albin Michel. –1995
2. Gibbs, R.W., O'Brien , J. Idioms and mental imagery: The metaphorical motivation for idiomatic meaning. –Cognition, –1990.–Vol. 36
3. Maloux, M. Dictionnaire des proverbes, sentences et maximes / M. Maloux. –1960.
4. Pore-Ronginer, M.D. Les Expressions idiomatiques / M.D. Porée-Ronginer.– Paris: Editions Rirst. –2009.

İNGİLİSDİLLİ REKLAM MƏTNLƏRİNDƏ İSPAN ALINMALARI

Xanım Abbasova
AMEA Nəsimi adına Dilçilik İnstitutu
doktorant
xanm.abbasova.00@mail.ru

Dillərarası əlaqələr və mədəniyyətlərarası ünsiyyət nəticəsində bir dildən digərinə söz keçidi təbii və labüd bir prosesdir. İngilis dili bu baxımdan xüsusilə zəngin və açıq bir dil kimi tanınır. Latın Amerikası ilə ABŞ arasında uzunmüddətli tarixi, coğrafi və mədəni münasibətlər nəticəsində ispan dilindən bir çox söz ingilis dilinə daxil olmuşdur. Bu alınmalar yalnız leksik zənginlik yaratmaqla kifayətlənmir, həm də sosial və mədəni inteqrasiyanın göstəricisi kimi çıxış edir.

İspan sözlərinin ingilis dilinə keçidi əsasən aşağıdakı dövrlərdə və hadisələrlə bağlı olmuşdur: Amerikanın kəşfi və ispan müstəmləkəçiliyi; Meksika-Amerika müharibəsi (1846–1848) və ABŞ-ın cənub-qərb ərazilərinin birləşdirilməsi; İspan dilli immiqrantların ABŞ-a axını; Latın mədəniyyətinin populyarlaşması

Müasir imgilis dilində ispan alınmalarının reallaşdığı sahələr əsasən bunlardır.

Qida və içki: *taco, burrito, salsa, jalapeño, nacho, enchilada* Bu sözlər birbaşa Meksika mətbəxindən gəlmiş və demək olar ki, ABŞ-da gündəlik danışıq dilində intensiv şəkildə işlənmişdir.

Təbiət və coğrafiya: *canyon, mesa, siesta, pampas, arroyo*

ABŞ-ın cənub-qərb ştatlarında ispan mənşəli yer adları və coğrafi terminlər geniş yayılmışdır.

Əyləncə və mədəniyyət: *fiesta, macho, aficionado, matador, desperado, corrida*

Bu sözlər ispan mədəniyyətinin eksotik və emosional tərəflərini əks etdirir.

Geyim və moda: *sombrero, poncho, bolero, mantilla*

Bu terminlər daha çox ispan mədəni geyimlərini və üslublarını ifadə edir.

İngilis dilinə keçdikdən sonra bəzi ispan sözləri orijinal mənasından fərqli anlamlar da qazanmışdır. Məsələn, *macho* sözü ispan dilində "kişi" və ya "igid" mənasını daşısa da, ingilis dilində bu söz daha çox "kobud, hiper-maskulin kişi" mənasında işlənir.

Spanglish fenomeni ispan-ingilis dil əlaqələrinin təbii nəticəsidir. Spanglish, xüsusilə ABŞ-da böyüyən ispan mənşəli gənclərin danışığında özünü göstərir və ispan sözlərinin ingilis cümlə strukturuna uyğun şəkildə istifadəsini əhatə edir. Məsələn: *Let's go to the tienda* ("Gəlin mağazaya gedək").

İspan mənşəli sözlərin ingilis dilinə daxil olması iki dil və iki mədəniyyət arasında mövcud olan dinamik əlaqələrin göstəricisidir. Bu alınmalar ingilis dilini daha da zənginləşdirməklə yanaşı, mədəni müxtəlifliyə və tolerantlığa da xidmət edir. İspan dilindən gələn sözlər artıq yalnız müəyyən etnik qrupun deyil, ümumi amerikan və beynəlxalq dil mühitinin bir hissəsinə çevrilmişdir.

İspan mənşəli leksik vahidlər ingilis dilinin bütün sahələrində işləndiyi kimi, reklam mətnlərində də aktiv şəkildə reallaşırlar. Reklam nəzəri baxımdan çox bəsit bir sahə kimi görünür. Hər hansı bir lüğətdə bu anlayışın tərifi əsasən bir məhsulu və ya biznesi müştərilərə cəlb etməklə nəyisə satmaq məqsədini daşıyan fəaliyyət kimi verilir. Lakin reklama daha dərindən nəzər saldıqda görürük ki, məsələ bu qədər sadə deyil. "Reklam əslində şou-biznesdir" [1, s.11] və ya reklam "kapitalizmin rəsmi incəsənətidir" [3, s.63] kimi fikirlər bu "bəsit sahənin" əslində nə qədər mürəkkəb və çoxşaxəli olduğunu göstərir. Gördüyümüz kimi, reklam sadəcə satışdan ibarət deyil. Məsələn, Adorno və Horkheimer bildirirlər ki, reklam cəmiyyəti idarə edir, istehlakçını nəzarətdə saxlayır və hətta dili formalaşdırır. Əslində, reklam sosial gücün necə təcəssüm olunduğunu göstərir; bu, mədəniyyət sənayesinin "həyat eliksiridir" [3, s.22-23]. Birləşmiş Ştatlarda, daha dəqiq desək, ABŞ-ın Böyük Britaniyadan müstəqil olmadan əvvəlki on üç Britaniya koloniyasının birində, 1776-cı ilin 6 iyulunda, müstəqillik Bəyannaməsinin imzalanmasından yalnız iki gün sonra, Pennsylvania Evening Post qəzetində Müstəqillik Bəyannaməsinin bir nüsxəsi dərc olunmuşdu. Bu, şübhəsiz ki, o dövrün vacib xəbəri idi. Bu sənədin ardınca bir neçə elan dərc edilmişdi, onlardan biri isə kofe satışı ilə bağlı idi. Bu elan, "ən yüksək keyfiyyətli kofe" təklif edən Isaac Hazelhurst adlı bir şəxs tərəfindən verilmişdi.

Birləşmiş Krallıqda ilk reklam agenti 1786-cı ildə Londonda ofis açan William Tayler adlı bir kişi idi. Tayler reklam satış nümayəndəsi kimi çap evləri ilə işləyirdi və buna görə də qəzetlərlə əlaqə qururdu [4, s.11]. Birləşmiş Ştatlarda ilk reklam agentliyi isə 1842-ci ildə Filadelfiyada Volney B. Palmer tərəfindən açılmışdı. Tayler kimi, Volney də reklam verənlərlə yox, qəzetlərlə işləyirdi. Yəni həm Birləşmiş Ştatlarda, həm də Birləşmiş Krallıqda ilk reklam agentləri və ya agentlikləri bu günkü reklam agentliklərinin etdiyi kimi reklam

hazırlamırdılar, əksinə, reklamlar üçün məkan satırdılar. Onlar qəzetdə məkan satdıqları üçün komissiya alırdılar, yalnız reklam verməklə məşğul olmurdular, həm də özləri istədikləri qədər pul ala bilirdilər, bu da korrupsiya ehtimalını doğururdu. Əslində, o dövrdə reklam hələ real bir peşə deyildi, yalnız bir ticarət idi və bu, qeyri-etik bir ticarət idi . Nəhayət, reklamçılara sabit bir komissiya ödənilməsi reklamın qəzetlərdə hörmət qazandığı dövrü gətirdi, bu da korrupsiya ehtimalını aradan qaldırdı. Dəmir yollarının, radiosunun, kinoların, televiziyanın, jurnalların və digər ixtiraların yaranması ilə reklamın daha innovativ üsullarla yayılma imkanı demək olar ki, bu gün olduğu qədər müxtəlif oldu.

Son onilliklərdə ABŞ və digər ingilisdilli ölkələrdə ispan dilinin təsiri xeyli artmışdır. Bu, bir tərəfdən ispan dilli icmaların sayının artması, digər tərəfdən isə Latın Amerikası mədəniyyətinin populyarlaşması ilə bağlıdır. Bu dəyişiklik reklam sahəsinə də təsir etmişdir. Reklam mətnləri artıq təkcə ingilis dili ilə məhdudlaşmır, əksinə, müxtəlif dillərdən alınan ifadələrlə daha rəngarəng və dinamik hala gəlmişdir.

İspan sözləri, xüsusilə “fiesta”, “caliente”, “sabroso”, “amigo” kimi ifadələr məhsulu daha cazibədar və mədəni cəhətdən zəngin göstərmək üçün istifadə olunur. Məsələn, “Taste the *sabroso* flavor!” tipli reklamlar istehlakçıda fərqlilik və ləzzət təəssüratı yaradır.

Spanglish və ya ispan sözlərinin daxil edilməsi ispan dilli auditoriyanın tanındığını və onların mədəniyyətinin hörmətlə qarşılandığını göstərmək məqsədi daşıyır. Belə reklamlar həmin auditoriya ilə daha emosional bağ qurmaqda effektiv rol oynayır.

İspan dilinin melodik və emosional təbiəti onu reklam üçün ideal edir. Reklamdakı ritmik və səsli effektlər vasitəsilə ispan sözləri daha yadda qalan olur.

İspan sözləri xüsusilə aşağıdakı sahələrdə geniş istifadə olunur:

Qida və içki reklamları (“Taco Tuesday”, “Salsa night”, “Authentic *Mexican* taste” və s.)

Moda və gözəllik sektoru (“Latina style”, “Caliente collection”)

Əyləncə və musiqi (“Fiesta night”, “Baile en la playa”)

İspan sözlərinin ingilis reklam mətnlərinə daxil edilməsi həm marketinq strategiyası, həm də mədəniyyətlərarası ünsiyyət vasitəsi kimi mühüm rol oynayır. Bu sözlər reklamları daha cəlbedici və müxtəlif auditoriyalar üçün əlçatan edir. Eyni zamanda, bu tendensiya qloballaşma prosesində dillərin və mədəniyyətlərin qarşılıqlı təsirinin təbii bir nəticəsi kimi qiymətləndirilə bilər.

SPANISH BORROWINGS IN ENGLISH-LANGUAGE ADVERTISING TEXTS

Abstract

This article explores the function and impact of Spanish-origin borrowings used in English-language advertising texts. Within the context of globalization and multiculturalism, it is shown that Spanish words, expressions, and cultural elements are widely employed in advertising. The study emphasizes that such borrowings are especially common in the fields of food, fashion, music, and entertainment. By adding emotional nuance, exotic appeal, and cultural richness

to advertisements, Spanish borrowings help establish a stronger emotional connection with the target audience. The article also notes that this trend is closely linked to the cultural and economic influence of Latin America and the Spanish-speaking community in the United States. The findings reveal that Spanish borrowings function not only as stylistic devices in advertising language, but also as strategic marketing tools.

Keywords: advertising language, Spanish borrowings, language contact, globalization, intercultural communication.

ƏDƏBİYYAT

1. Advertisers to Latinos: “We Love it When You Speak Spanglish” www.forbes.com/…es/giovannirodriguez/2012/01/30/...

2. Lipski, J. (2004). Is “Spanglish” the third language of the South?: truth and fantasy about US Spanish. In 3rd Language Variation in the South (LAVIS III) conference, Tuscaloosa, AL.

3. Norris, V. P. (1980). Advertising history-according to the textbooks. Journal of Advertising, 9 (3), 3-11.

4. Rojas, V., & Piñón, J. (2014). Spanish, English or Spanglish? Media strategies and corporate struggles to reach the second and later generations of Latinos. International Journal of Hispanic Media, 7.

HİND-AVROPA DİLLƏRİ

Yaqub Axundov
Naxçıvan Dövlət Universiteti
doktorant

Giriş

Bir çox cəhətdən dillər heyvan növlərinə bənzəyir: bəziləri bir-birinə bənzəyir, digərləri yox və bu oxşarlıqlar onları ailələrdə qruplaşdırmağa imkan verir. Bunların içərisində xüsusilə maraqlı olanı Hind-Avropa dilləri ailəsidir. Hind-Avropa dil ailəsinə mənsub dillərdən hər birinin olmasa da bir çoxlarının istər qrammatik, istər fonetik, istərsə də leksik bənzərlikləri vardır. Bu dilləri eyni qrupa aid etmək üçün biz onlarda gündəlik həyatda istifadə edilən sözlərlə bağlı oxşarlıqlarına əsaslanırıq. Məsələn, "*ana*" ingiliscə "*mother*", almanca "*mutter*", latınca "*mater*", farsca "*madər*", sanskritdə "*matr*"dır. Fransız və ingilis dilləri eyni dil ailəsinə mənsubdur. [1] Sadə bir misal ilə yazsaq görərik ki, tələffüzü bir az fərqli olsa da "*stol*" sözünün yazılışı (table) tamamilə eynidir. Baxmayaraq ki, isveç dili də bu dil ailəsinə mənsubdur bu dildə "*stol*" sözü "*bord*" kimi yazılır. Sadə misal ilə görünür ki, eyni dil ailəsinə mənsub, eyni qitədə yaşayan əhalinin istifadə etdiyi dillər arasında kifayət qədər fərqlər də var. Bütün heyvan növlərində olduğu kimi, əgər dillər bənzəyirsə və onlar eyni dil ailəsinə mənsubdursa, bu onların ortaq mənşəyə malik olduğunu söyləməyə əsas verir. Yazının ixtirasından xeyli əvvəl, bu gün heç bir izi qalmayan, lakin

indiki bütün Hind-Avropa dillərinin törədiyi ibtidai bir Hind-Avropa dili mütləq şəkildə mövcud olmuşdur. Təbii ki, biz bu ibtidai dil haqqında demək olar ki, heç bir məlumata sahib deyilik, ancaq asanlıqla təsəvvür etmək olar ki, ibtidai Hind-Avropa dilində yuxarıda fərqli dillərdə qeyd etdiyimiz "*ana*" sözünə yaxın bir söz məsələn "*metr*" sözü mövcud olmuşdur. [1]

Bütün Hind-Avropa dilləri ortaq bir ibtidai dildən törəyirsə, bu dildə kim danışırdı, onlar harada və nə vaxt məskunlaşmağa başlamışdır ? Bu suala cavab verməyə çalışmaq üçün ümumiyyətlə dilçilik və arxeologiya elementlərinə etibar edilir. Hind-Avropa dillərinin mənşəyi haqqında çoxlu fərziyyələr mövcuddur.

Hind-Avropa dilləri ailəsinin yaranması və yayılması haqqında fərziyyələr

Hind-Avropa termini 1816-cı ildə alman Frans Bopp tərəfindən struktur qohumluğu əlamətdar olan Avropa və Asiyanın bir qrupunu təyin etmək üçün təqdim edilmişdir. Sanskrit, yunan, latın, het, qədim irland, qotik, köhnə bolqar, qədim prussiya və s., heyrətləndirici ümumi əlaqələrə malikdirlər. Bu o deməkdir ki, Avropa dillərinin əksəriyyəti və İran, Əfqanıstan, Pakistan, Banqladeş və Hindistan dillərinin böyük bir hissəsi Hind-Avropa ailəsinə aiddir. [2; 4, s. 22-23]. Bu məlumatları daha yaxşı izah etmək üçün ilk öncə Hind-Avropa dillərinin yaranması və yayılması haqqında olan üç fərziyyəni araşdırmağa çalışaq. Birinci Step, ikinci Qafqaz fərziyyələri, üçüncü isə bu iki fərziyyəni təsrif edəndir. [3]

İndiyə qədər bir-birinə zidd iki nəzəriyyə mövcud idi: birincisi, Hind-Avropa populyasiyalarının təxminən 6500 il əvvəl, xüsusən də at yetişdirmə yolu ilə yayıldığını irəli sürən "*Step*" nəzəriyyəsidir. Onlar Pont-Xəzər çöllərindən, yəni Qara dənizin şimalından, Dunay çayının mənsəbindən Ural çayına qədər yayılmışdırlar. [3]

Digər fərziyyə isə "*kənd təsərrüfatı*" adlanan Anadolu hipotezidir. Hind-Avropa dillərinin mənşəyinin ibtidai əkinçilik dövrünə, təxminən 9000 il əvvələ aid olduğu düşünülür. Beləliklə, bu hipotez onların Qafqazdan Avropa və Asiyaya ilk fermerlərin miqrasiyalarının nəticəsində yarandığını və tədricən yayıldığını iddia edir. [3; 4, s.16-19]

Əvvəlki tədqiqatların əsas tənqidlərindən biri məlumatların kifayət qədər dəqiq olmaması idi. Məlumatlar nə qədər dəqiqləşdirilsə, nəticə bir o qədər möhkəm olacaq. Araşdırılan məlumatlar əksər hallarda Avropa dillərini xüsusən də fransız dilini əhatə edir. Halbuki bu tədqiqatlar Hind-Avropa ailəsinin bütün digər qollarında da aparılmalı idi. Beləliklə, Şərqdə Hind-İran dilinə qədər dərindən öyrənilməli idi.

Nəticələri dəqiqləşdirmək üçün tədqiqatçılar buna görə də 52 qədim dil də daxil olmaqla 161 Hind-Avropa dilindən əsas lüğət məlumatlarının yeni toplusu yaratdılar. Bu, bu mövzuda indiyə qədər hazırlanmış ən böyük məlumat dəstlərindən biri hesab olunur. [3].

Hazırlanan bu məlumatlar sayəsində tədqiqatçılar bu dillərin miqrasiyasının yeni xronologiyasını qura bildilər. Marc Allassonnière-Tang-ın izah etdiyi kimi, əvvəlki iki fərziyyə bir araya gəlir. Bu araşdırmada yeni olan, məlumatlardan başqa, üçüncü bir fərziyyə irəli sürülür, yəni əvvəlki iki

fərziyyənin doğru olduğu qəbul edilir. Bu halda, tədqiqatın nəticələri göstərir ki, Hind-Avropa dillərinin tarixi təxminən 8000 il bundan öncəyə dayanır. Deməli, tarixlərə baxdıqda, Anadolu fərziyyəsini daha real kimi görsənir. Bununla belə, nəticələr eyni zamanda bu dil ailəsinə mənsub olan xalqların təqribən 7000 il bundan öncə öz yaşadıqları ərazidən çıxaraq digər yerlərdə məskunlaşmağa başladığını da göstərir. Bu dediklərimiz "*Step*" fərziyyəsini dəstəkləyə bilər, çünki bu nəticələr populyasiyaların mənşəyinin Qafqazın cənubunda olacağını və daha sonra şimala, çöllərə doğru uzanan bir qolu olduğunu və daha sonra çöllərdən və Anadoludan indiki Hind-Avropa əhalisinin olduğu yerə doğru bir hərəkətin olacağını istisna etmir. Bu məlumatlar hər iki hipotezin doğruluğunu təsdiqləyə bilər. [2; 3]

Hind-Avropa dilləri ailəsini tədqiq edərkən DNT məlumatlarının araşdırılması

Bu nəticələrə nail olmaq üçün alimlər təkcə lüğəti öyrənməklə kifayətlənməyib, həm də filogenetikadan istifadə ediblər. Əslində, onlar Mərkəzi Avropanın çöllərindən şimala doğru miqrasiya hərəkətlərini təsdiqləmək üçün qədim DNT məlumatlarından istifadə ediblər. Dilçi alimlər onilliklərdir ki, Parisdən Yeni Dehliyə qədər danışılan dillərin niyə Hind-Avropa kimi tanınan eyni dil qrupuna aid olduğunu anlamağa çalışırlar. "*Science*" jurnalında dərc olunan qədim insan DNT-si ilə bağlı ən böyük araşdırma bu suala cavab verir. Araşdırmalarda köçəri çoban əhalisinin 5000 il əvvəl Avrasiya çöllərindən qərbə (Avropa) və şərqə (Asiya) miqrasiya etməsi barədə məlumat verilmişdir. Tədqiqatçılardan biri olan Vagheesh Narasimhan izah edir ki, son 10 000 il ərzində insan hərəkətlərinin rolu linqvistik dəyişikliklərin, eləcə də insanların kənd təsərrüfatının inkişafının tədricən oturaqlaşmasını başa düşmək üçün əsasdır. [3]. İndiyə qədər bu sahədə bir çox araşdırmalar aparılmış bunlardan bir çoxunun nəticəsi barədə ətraflı məlumat olmasa da bəzilərinin faydası haqqında müxtəlif yerlərdə məlumatlar paylaşılmışdır. Bu araşdırmalardan biri Genetiklər, arxeoloqlar və antropoloqlardan ibarət beynəlxalq komandanın Mərkəzi Asiya və Hindistan yarımadasından olan 524 qədim insanın genomlarını təhlil etməsidir. Görülən bu iş sayəsində ardıcıllıqla düzülmüş qədim insan genomlarının ümumi sayını birdən-birə dörddə bir qədər artırmaq mümkün olmuşdur. [4, s. 35-37]. Hal-hazırda belə Hind-Avropa dil ailəsinin Asiya qitəsindən digər yerlərə yayılması barədə ciddi fikir ayrılıqları var. Bəzi tədqiqatçılar bu dil ailəsinin Anadoludan (Türkiyə) gəlməsi fərziyyəsinə üstünlük verir, lakin Hindistan yarımadasından və Türkiyədən olan insanların DNT-lərini müqayisə etdikdə onların arasında çox az ortaq cəhətlərin olduğunu görünür. Bu araşdırmanı edən alimlərin fikrincə Anadolu mənşəli fermerlərin Hindistan yarımadasına genişmiqyaslı köçünü istisna etmək lazımdır. [3]

Çöllərdə ümumi mənşəli fərziyyəni təsdiqləyən başqa bir ipucu Hind-İran dillərində danışan insanlar və Balto-slavyan budaqları arasında genetik oxşarlıqların aşkar edilməsidir. Edilən bir araşdırmaya görə hal-hazırda bu dillərdə danışan əhali 5000 il əvvəl Avropaya köç etmiş və sonrakı 1500 il ərzində şərqdən Hindistan yarımadasına qayıdan çöl alt qrupuna aiddir. [3].

Həmçinin arxeoloji qazıntılar göstərirdi ki, Hindistan yarımadasında kənd təsərrüfatı çöl miqrasiyalarının həmin ərazilərə gəlməsindən əvvəl başlamışdı. Beləliklə, bu araşdırma "*Step*" hipotezinin reallığını bir az da zəyiflədirdi.

Nəticə

Məqaləni yazarkən bir çox maraqlı faktlarla qarşılaşdım və həmin məlumatların gənc dilçi araşdırmacılar üçün də çox dəyərli olacağına əminəm. Hind-Avropa dilləri ailəsinə mənsub olan dillərin yaranması, yayılması, bəzilərinin günümüzdə ölü dilə çevrilməsi, aparılan DNT analizləri haqqında verilən məlumatlar bir sıra gənc tədqiqatçılar üçün yerinə yetirdikləri araşdırmalarda faydalı olacaq. Bu gün dilçilərin və gənc tədqiqatçıların qarşısında duran ən böyük vəzifələrdən biri dil ailələrini, xüsusən də digərləri ilə müqayisədə daha geniş olan və bəlkədə ən qədim tarixə malik olan Hind-Avropa dilləri ailəsini dərindən araşdırmaqdır. Bu sahədə tədqiqatlar apararkən mütləq şəkildə tarixçilərdən, arxeoloqlardan kömək almalı, müxtəlif xalqlara məxsus olan mənbələrə müraciət etmək lazımdır. Məsələn: Əksər DNT tədqiqatları indiyədək Avropa mənşəli insanlara yönəlmiş və tibbi əhatə dairəsini bu populyasiyalarla məhdudlaşdırmışdır. Çünki bu araşdırmaları edənlərin əksəriyyəti məhz Avropa alimləridir. Bu mövzunun tədqiq olunmasında dayanmadan çalışan dilçi alimlər, tarixçilər, arxeoloqlar kifayət qədərdir, lakin araşdırarkən şahidi oluruq ki, yüzlərlə araşdırılmalı olan qaranlıq nüanslar hələ də mövcuddur. Bu nüanslar içərisində diqqəti daha çox çəkən odur ki, bu qədər geniş bir dil ailəsinin ən qədim, ibtidai dili hansı olmuşdur ? Yazı ixtira olunmadan öncə bu dil necə oldu ki, digər dillərin yaranmasına və yayılmasına təkan verdi ? Bütün bu və ya buna bənzər suallara cavab tapmaq üçün ciddi şəkildə vaxt və enerji sərf etmək lazımdır.

INDOEUROPAN LANGUAGES

My article discusses interesting information about the Indo-European language family, which is used by approximately half of the world's population, that many people do not know. Here we try to clarify some of the nuances that are interesting to many of us. For example: What are the characteristics of languages that can be attributed to one family? How did languages and language families arise? Is it possible to identify people belonging to the same language family through DNA analysis? To what extent are languages of the same language family similar? etc. As we know, the Indo-European languages, which are considered the largest language family in the world, are used by approximately 2.5 billion people. This large language family is divided into 13 branches: Indian, Iranian, Slavic, Albanian, Romance, Baltic, Italian, Celtic, Germanic, Greek, Armenian, Tocharian and Anatolian. The Indian or Indo-Aryan branch is also divided into ancient, middle and modern Indian languages. The Middle Indic languages, called Practic, are derived from ancient Indian dialects, while Modern Indic, in turn, is derived from Prakrit. The most widespread of the Modern Indic languages are Urdu and Hindi. The Iranian branch of languages is divided into Western and Eastern groups. The Slavic branch is divided into 3 groups: East, West and South Slavic, and the Baltic languages are divided into two groups: East Baltic and the group that

includes the now extinct Prussian language. The Germanic languages are divided into northern, eastern and western groups. The North Germanic languages include Swedish, Norwegian, Danish, Icelandic and Faroese, the East Germanic languages include Osgothic, Visigothic, Vandal and Burgundian, and the West Germanic languages include Old English, Old Low Frankish, Old Saxon and Old High German. The Celtic branch is divided into the Gaulish, British and Kell language groups. The Gaulish language, the ancestor of the French and Belgians, is also attributed to the Celtic branch. The Italic branch is divided into two groups: the first group includes Latin, and the second group includes the Oscan and Umbrian languages. The Romance branch consists of Spanish, Portuguese, Catalan, French, Provençal, Italian, Sardinian and Rhaeto-Romance, Romanian, Moldavian and Dalmatian. The Albanian, Armenian and Greek branches of the Indo-European languages consist of a single language - Albanian, Armenian and Greek. The Anatolian branch includes the Hittite-cuneiform, Hittite-hieroglyphic, Luwian and Palaian languages. The Tocharian A (Garashar) and Tocharian B (Kuchan) languages, which are closely related to each other, form the Tocharian branch.mAs can be seen from the information provided above, studying the vast Indo-European languages in depth requires serious research and time. My goal in writing this article is to make the work of young specialists in the field of linguistics who are trying to study Indo-European languages a little easier and to introduce ordinary citizens who are interested to interesting information.

- ***Keywords:*** *language family, language groups, language branch, Indo-European languages, Romance languages, Gaulish language, Celtic branch*

- **Ədəbiyyat**

- 1. https://www.llceranglais.fr/naissance-des-langues-en-europe.html
- 2. https://www.uottawa.ca/notre-universite/institut-langues-officielles-bilinguisme/calc/perspective-
- internationale/bilinguisme-canadien/famille-indo-europeenne
- 3. https://www.radiofrance.fr/franceculture/podcasts/avec-sciences/une-nouvelle-hypothese-pour-
- les-origines-des-langues-indo-europeennes-5991575
- 4. Xavier Rouard. Les langues indo-européennes sont-elles issues d'une langue originelle trans-
- eurasienne ? Une approche interdisciplinaire.

GERMANŞÜNASLIQDA LEKSİKOQRAFİYA MƏSƏLƏLƏRİNİN TƏDQİQİ

İzzət Cabbarova
AMEA-nın Nəsimi adına Dilçilik İnstitutu
dissertant
izzatjabbarova@gmail.com

Leksikologiya dilçiliyin bir bölməsi olub, dilin müasir vəziyyətində və eləcə də tarixi inkişaf prosesində lüğət tərkibini öyrənir. Müasir dilçilikdə dilin leksikoqrafik təsviri ənənələrinin inkişafı dilçiliyin məşğul olduğu ən mühüm sahələrdən biridir. Dillərin inkişafı bir sıra səbəblərlə bağlıdır. Cəmiyyətin inkişafı ilə əlaqədar təbii ki, təfəkkür də inkişaf edir. Dil bu inkişafa mane olmur. Əksinə təfəkkürlə sıx bağlı olduğundan onunla inkişaf edərək təkmilləşir. Müasir linqvistik situasiya şəraitində, yəni müasir dövrdə mütəmadi yenilənən informasiya çoxluğu şəraitində yeni strukturlu lüğətin rolu getdikcə artır. Bu halda dil sisteminin leksik və qrammatik inkişafı və dəyişilməsini əks etdirən lüğət xalqın yenilənən həqiqətləri və tələbatlarına tezliklə reaksiya verməli olur. *Söz dilin mərkəzi vahididir, dil hər şeydən əvvəl sözlər sistemidir. Sözü nominativ vahid kimi leksem, qrammatik vahid kimi söz forması adlandırırlar. Leksemlər, dilin leksikası, dilin nominativ vasitələri haqqında elm leksikologiya adlanır. Leksikoqrafiya isə müxtəlif tip lüğətlərin tərtib olunması nəzəriyyəsi ilə məşğul olan elm sahəsidir [2.s.1].* Dil – ancaq insanlara aid olan həm ünsiyyət vasitəsi həm də dünya fəlsəfəsidir. Dünya haqqında təsəvvür yaradan təbii intellektual sistemdir. Hər bir dil, ayrılıqda dünya haqqında bilik, dünyanı görmək və anlamaq üçün vasitədir. Dilləri linqvistika öyrənir. Hazırda yer üzündə 7000-ə yaxın dil mövcuddur. Dünyanın yeddi dili dünya dilləri hesab olunurlar: ingilis dili, ispan dili, ərəb dili, rus dili, fransız dili, alman dili, portuqal dili [3]. German dilləri, əsasən Avropa, Şimali Amerika, Okeaniya və Cənubi Afrikada təxminən 515 milyon insan yaşayan yerli hind-Avropa dil ailəsinin bir qoludur. German dillərinə ən geniş yayılmış dillər daxildir: 360-400 milyon civarında ana dili olan ingilis; 100 milyondan çox ana dili olan alman və 23 milyon yerli dildə danışan hollandiyalılar. Qərbi German dillərinə 7.1 milyondan çox ana dilində danışan Holland dilindən olan afrikaans; Holland-Belçika-Alman sərhədi boyunca təxminən 1,3 milyon dinamik olan limburqiş sortları; Hollandiya və Almaniyada 0,5 milyondan çox ana dili ilə friz dilləri daxildir. Əsas Şimali German dilləri, təxminən 20 milyon dinamik olan isveç, danimarka, norveç, islandiya və farer dilləridir.

Şərqi German şöbəsinə indi yox olan Gothic, Burgundian və Vandalic daxil idi. Ölən sonuncu dil krım qotik idi, XVIII əsrin sonlarına qədər Krımın bəzi təcrid olunmuş ərazilərində danışılmışdır. German Etnologiyasına 48 fərqli yaşayan German dilləri, bunlardan 41-i Qərb filialına, 6-sı Şimal filialına aiddir. Tarix boyu German dillərinin ümumi sayı bilinmir, çünki bunlardan bəziləri, xüsusən Şərq German dilləri, miqrasiya dövründə və ya sonra yox oldu. XXI əsrdə, German dili lisenziyası qazanması səbəbindən onun ləhcələri hər halda məhv olur. Bu filialdakı bütün dillərin ortaq əcdadı, dəmir dövrü

Skandinaviyada eramızdan əvvəl I minilliyin ortalarında danışılan ortaq Germanik adı ilə məşhur olan Proto-German adlanır. Proto-Germanic, bütün nəsilləri ilə birlikdə bir sıra bənzərsiz dil xüsusiyyətləri ilə fərqlənir, ən məşhuru Grimm qanunu olaraq bilinən samit dəyişikliyidir. Almaniyanın erkən çeşidləri eramızdan əvvəl II əsrdə Skandinaviyadan cənub istiqamətində hərəkət edən German tayfaları ilə şimali Almaniyada və Danimarkanın cənubunda yerləşməyə başladı. Qərbi German Dilləri – İngilis dili, Beliz, Kanada, Folkland Adaları, Malta, Yeni Zelandiya, İrlandiya, Cənubi Afrika, Filippin, Yamayka, Dominika, Guyana, Trinidad və Tobaqo, Amerika Samoası, Palau, Müqəddəs Lusiya, Qrenada, Barbados, St. Vinsent və Qrenadinlər, Puerto Riko, Guam, Hong Kong, Pakistan, Hindistan, Papua Yeni Qvineya, Vanuatu, Solomon adaları və Asiya, Afrika və Okeaniyadakı keçmiş Britaniya koloniyaların rəsmi dilidir. Bundan əlavə, Birləşmiş Krallıq, ABŞ və Avstraliyanın bu dil de-fakto dilidir. Bu həmçinin Nikaraqua və Malayziyada da tanınan bir dildir. Qərbi German dili danışanların əksəriyyətini ingilis dili təşkil etməklə yanaşı, yerli German dillərinin əksəriyyətini alman dili təşkil edir. Alman Avstriya, Belçika, Almaniya, Lixtenşteyn, Lüksemburq və İsveçrənin rəsmi dilidir və İtaliya, Polşa, Namibiya və Danimarkada regional statusa malikdir. Alman, həmçinin Şimali Amerika, Cənubi Amerika, Mərkəzi Amerika, Meksika və Avstraliyadakı mühacir icmalar tərəfindən azlıqların dili olaraq danışmağa davam edir [16]. Almanca bir çox ölkədə xarici dil kimi öyrənilir və bu da ingiliscədən sonra geniş yayılmış dildir. Standart almancanın xarici dil kimi ən çox yayıldığı ölkələr Hollandiya, Skandinaviya, Baltik dövlətləri, Sloveniya, Polşa, Yaponiya, Bosniya-Hersoqovinya, Serbiya. Montoneqro, Macarıstan, Bolqarıstan və Makedoniyadır. Bu ölkələrin bəzilərində alman dili xarici dil kimi ingiliscədən öndə gedir. Belorusiyada, Zaqafqaziyada bu dil orta və ali məktəblərdə tədris olunur. Dünya üzərində 10-cu yeri tutan alman dilində 100 milyon insan ana dili kimi danışır, ümumilikdə isə bunların sayı 120 milyona çatır. İnternet səhifələrinin yüzdə səkkizi almanca, əllisi ingiliscədir. Almanca sadəcə Almaniyada deyil, eyni zamanda Avstriyada, Lichtenşteyndə, İsveçrənin böyük bir hissəsində – Belçikada, Lüksemburqda, Avropa Birliyində, Quzey İtaliyada, Danimarkada və Vatikanda rəsmi dil kimi tanınır. Germanşünastlıqda leksikoqrafiya iki ayrı, eyni dərəcədə vacib qruplara bölünür: ümumi leksikoqrafiya və xüsusi leksikoqrafiya. Ümumi leksikoqrafiya ümumi lüğətlərin dizaynına, tərtibinə, istifadəsinə və qiymətləndirilməsinə, yəni ümumi istifadədə dilin təsvirini təmin edən lüğətlərə diqqət yetirir. Belə bir lüğət ümumiyyətlə ümumi bir lüğət və ya LGP lüğəti (Ümumi məqsəd üçün dil) adlanır. Xüsusi leksikoqrafiya ixtisaslaşdırılmış lüğətlərin dizaynına, tərtib edilməsinə, istifadəsinə və qiymətləndirilməsinə, yəni bir və ya bir neçə mütəxəssis fənn sahəsinin, məsələn, hüquqi leksikoqrafiya, linqvistik və faktiki elementlərinin məcmusuna aid lüğətlərə yönəlmişdir. Belə bir lüğət adətən ixtisaslaşdırılmış lüğət və ya xüsusi məqsədlər üçün lüğət adlandırılır və 1994-cü ildən sonra Nielsen ixtisaslaşdırılmış lüğətləri çox sahəli, tək sahəli və ya alt sahədəki lüğətlər kimi adlandırıb [12]. Praktik leksikoqrafik iş bir neçə fəaliyyət növünü əhatə edir və yaxşı hazırlanmış lüğətlərin tərtib edilməsi üçün bəzi cəhətlərli diqqətlə araşdırılmasını tələb edir. Nielsen (2008) lüğətlərin hazırlanması

zamanı leksikoqraflar üçün nəzərə alınmalı olan məqamları təklif edir, çünki bunların hamısı istifadəçilərin təəssüratına və xüsusi lüğətlərin faktiki istifadəsinə təsir göstərir [13]. Nəzəri leksikoqrafiya leksikoqrafiya ilə eyni aspektlərə aiddir, lakin gələcək lüğətlərin keyfiyyətini, məsələn, məlumat əldə etmək və leksikoqrafik məlumat xərcləri baxımından yaxşılaşdıra biləcək prinsipləri inkişaf etdirmək məqsədi daşıyır. Nəzəri leksikoqrafiya XX əsrin II yarısında yaranmışdır. Lüğətlərin ilk elmi tipologiyasını sovet alimi Leksikoqrafiya V. Şerba (1940) yaratmışdır. Bir çox Sovet və xarici dilçi yazıların (Çexoslovakiya, Fransa, ABŞ və s.) yazılarında daha da inkişaf etdirilmişdir [5]. Germanşünastlıqda akademik lüğət araşdırmalarının bir neçə perspektivi və ya filialı fərqləndirilmişdir: "tənqidi lüğət" (bir və ya daha çox lüğətin keyfiyyətini qiymətləndirmə, məsələn, nəzərdən keçirməklə), "lüğət tarixi" (və ya ənənələrin izlənməsi lüğətin növü və ya müəyyən bir ölkədə və ya dildə leksikoqrafiya növü), "lüğət tipologiyası" (və ya lüğət, ensiklopediya, monolöz və ikidilli lüğət, ümumi, texniki və ya pedaqoji lüğət kimi müxtəlif istinad janrlarının təsnifatı), "lüğət quruluşu" (və ya məlumatın bir lüğətdə təqdim edilməsinin müxtəlif üsullarını formatlamaq), "lüğətdən istifadə" (və ya lüğət istifadəçilərinin istinad aktlarını və bacarıqlarını müşahidə etmək) və "lüğət İT" (və ya lüğət prosesinə kompüter yardımçılığını tətbiq etmək) tərtibi [14].

Germanşünastlıqda leksikoqrafiyanın müasir nəzəriyyəsi aşağıdakılar ilə xarakterizə olunur:

a) bir lüğət kimi söz anlayışı, bütövlükdə dilin leksik-semantik quruluşu və lüğətin semantik quruluşunu lüğətin tərkibində əks etdirmək istəyi (mətndə və içərisində semantik sahələrdə digər sözlərlə əlaqələrinin sözlərin mənasını vurğulanması);

b) işaredici ilə söz işarəsində işarələnən arasındakı əlaqənin mobil təbiətini nəzərə alaraq sözün mənasına dialektik baxışı (sözlərin mənalarında kölgə və keçidləri qeyd etmək istəyi, onların nitqdə istifadəsi, müxtəlif ara hadisələr);

c) lüğətin qrammatika və dilin digər cəhətləri ilə sıx əlaqəsinin tanınması.

Leksikoqrafiya dilçiliyin bütün bölmələri ilə, xüsusən leksikologiya ilə əlaqələndirilir, bir çox problemləri leksikoqrafiyada xüsusi refraksiya alır. Müasir leksikoqrafiya, bir dövrün cəmiyyətinin biliklərinin məcmusunu qeyd edən lüğətlərin mühüm sosial funksiyasını vurğulayır. Leksikoqrafiya lüğətlərin tipologiyasını inkişaf etdirir. Tək dilli leksikoqrafiya (izahlı və digər lüğətlər), ikidilli leksikoqrafiya (tərcümə edilmiş lüğətlər) var; tədris leksikoqrafiyası (dil öyrənmək üçün lüğətlər), elmi və texniki leksikoqrafiya (terminoloji lüğətlər) və s. Johann Christoph Adelung 1781 ildə ilk böyük lüğətini istifadəyə vermişdir. Jacob ile Wilhelm Grimm qardaşları 1852-də ən böyük və əhatəli lüğətin nəşrini hazirlamaya baslamis və 1961-də tamamlamişlar, lakin o vaxtdan buraya lüğət bir daha gözdən keçirilmişdir. Əhatəli bir Alman yazi dilinin inkişafı Konrad Duden'in „Alman Dilinin Yazı lüğəti" (1880) sayəsinə mümkün olmustur. Bu əsər 1901-ci ildə tətbiq olunan imla reformasiyasında cüzi şəkildə dəyişdirilmiş və rəsmi imlanın təməli olarak elan edilmistir [3]. XIX əsrin əvvəllərində

F.Bopp (1791-1867), J.Qrimm (1785-1863), R.Rask (1787-1832), A.Şlayxer (1821 -1868) öz tədqiqatları ilə nəinki tarixi-müqayisəli, həm də germanistikanın elmi özülünü qoymağa nail oldular. J.Qrimm "Deutsche Grammatik" (1819), A.Şlayxer isə "Compendium der vergleichenden Grammaik der indogermanischen Sprachen" (1861/62) əsərlərində german və hind-german dillərinin qrammatik quruluşunu açıb göstərə bildilər. Birincisi müasir dil formalarını ən qədimlərilə bağlayır, ikincisi isə daha uzağa gedərək qədim hind-german ulu dilində yaratdığı «Qoyun və atlar» təmsili ilə ulu dili rekonstruksiya etmək istəyirdi. Amma bərpa edilmiş dilin həqiqətən məhz bu şəkildə mövcudluğunu, elə bu şəkildə işlədildiyini yoxlamaq, demək olar ki, mümkün deyildi. Amma bu, rekonstruksiya məsələsini cazibəli etmişdi və elə A.Şlayxer özü 1850-ci ildə yazdığı "Die Sprachen Europas in systematischer Übersicht" kitabında "Ağac" nəzəriyyəsini inkişaf etdirərək hind-Avropa dillərinin qohumluğunu kökü, gövdəsi və budaqları olan ağaca bənzədirdi. Bu gün germanlar roman, slavyan, Skandinaviya dillərilə nəinki genetik cəhətdən qohum olduğuna, həm də qonşuluqda yaşamağa məhkum edilmiş xalqlar kimi qanlı müharibələrdən çıxmış və müxtəlif vasitələrlə bir-birinin mədəniyyətinə, dilinə, ədəbiyyatına, həyat tərzinə təsir etmişlər. Sözalma və sözvermə adi hala çevrilib. İngilis alimləri yazırlar ki, çağdaş ingilis leksikonunun yarısı german dillərinin payına düşürsə, yarısı roman dillərinin (fransız, italyan və s.) payına düşür [4]. Bu günkü leksikoloji tədqiqatlarda ilk növbədə dilin lüğət tərkibinin sinxron dərkedilməsinin təhlili ön plana keçir. Belə halda dildəki leksik vahidlərə makrosistemin tərkib hissəsi kimi baxılır. Bu baxımdan da dilin funksional-semantik, praqmatik və sosiolinqvistik aspektlərinə böyük diqqət yetirilir. Bununla əlaqədar olaraq, alman dilinin lüğət tərkibinin sosial və dialektik nöqteyi-nəzərdən təbəqələşməsində R.Grosse, semantik baxımdan araşdırılmasında V.Şmidt və T.Şippan, söz mənasının struktur çalarlarının tədqiqində Q.Votyak, E.Aqrikola, D.Vayhveqer kimi dilçilərin fikirləri diqqətəlayiqdir. Hələ XX əsrin ortalarından formalaşmağa başlayan leksikologiyanın qarşısında duran əsas məqsədlərdən biri dilçilik elminin bir şöbəsi kimi dilin lüğət tərkibinin diaxronik baxımdan öyrənilməsi idi. Həmin dövrdə dilçilərin əsas diqqəti sözyaradıcılığına yönəlmişdir. Dilçilik ədəbiyyatında bu konsepsiyanın ilk baniləri J.Qrimm və H.Paul hesab edilirlər. Dilin lüğət tərkibi onun qrammatik sistemi ilə müqayisədə daha çox sürətlə inkişaf edir və dəyişilir. Belə ki, qədim alman dili ilə müqayisədə müasir alman dilinin lüğət tərkibinin bütün sahələrində əsaslı şəkildə dəyişikliklər özünü göstərir. Bu dəyişikliklər birbaşa alman xalqının konkret olaraq tarixi, həyat tərzi və bu günkü coğrafi-geosiyasi mövqeyi ilə sıx bağlıdır. [17, 213]. 1755-ci ildə Samuel Jonson İngilis dilinin ikicildlik izahlı lüğətini çap etdirdi. 1933-cü il nəşri 424825 vahiddən ibarət Oxford English Dictionary nəşr edildi (bu nəhəng layihənin birinci nəşri 1884-cü ilə təsadüf edir). Amerikada "An American Dictionary of the English Language" 1828-ci ildə Webster tərəfindən nəşr edildi, 1961-ci il nəşri 450000 vahiddən ibarət idi. Germanistikanın tədqiqat metodlarından danışanda ümumi dilçilik zəminində işlənib hazırlanmış üsul və priyomlardan yan keçmək olmaz. Ontoloji baxımdan olduğu kimi, metodoloji baxımdan da İ.A.Boduen de Kurtene (1845-1929) və F. de Sössür bu sahədə

öncüllərdən hesab edilirlər. F. de Sössür 1879-cu ildə Laypsiqdə çap etdirdiyi Hind-Avropa dillərində qədim sait sistemi haqqında əsərilə german dilçiliyinə töhfə vermişdir [6]. Sonra isə məlum olduğu kimi, onun ümumi dilçilik sahəsində sanballı əsəri çap olundu. F. de Sössür dixotomiyasında dil-danışıq (langue-parole), paradiqmatik-sintaqmatik, sinxronik-diaxronik qarşılaşmaları ilə yanaşı, dil işarələrinin bilaterallığı, diskretliyi, linearlığı germanistikanın sonrakı inkişafına güclü təkan verdi, dil nəzəriyyəsinin yeni baxımdan işlənib hazırlanmasına möhkəm zəmin yaratdı. Kitabın Avropada əks-sədası xeyli sonralar yayılmağa başladı. Buna da səbəb Avropada müharibələrin getməsi oldu. Ancaq buna baxmayaraq onun V. fon Humboldtdan sonra dilə canlı bir fenomen kimi yanaşması, danışığı yazıdan üstün tutması, təcrid edilən fonetik meyllərin və adi qrammatik müqayisələrdən fərqli olaraq dilə (langue) sistem kimi yanaşması və onu öz sosial zəminə qaytarması (ona qədər dil zahiri əlamətlərin toplusu kimi götürülürdü) tezliklə özünə çoxlu tərəfdar tapdı. Artıq 1928-ci ildə mənşəcə Rusiyadan olan N.S.Trubeskoy, R.O.Yakobson (1896-1982) və S.N.Karcevski (1884-1955) Haaqada birinci Beynəlxalq Dilçilər qurultayında proqram sənədi ilə çıxış edərək prinsipcə dilin sistem kimi götürülərək sinxron və funksional aspektdə tədqiqini nəinki təsviri, həmçinin tarixi fonologiya sahəsində vacibliyini elan etdilər [6]. Çox maraqlıdır ki, L.V.Şerba (1880-1944) xatirələrində yazırdı ki, F. de Sössürün dəyərli fikirlərlə dolu olan bu kitabı Petroqrada gec gəlib çatmışdı. Ancaq onu oxuyub qurtarandan sonra yəqin etdik ki, orada söylənilənlərin çoxu bizə öz müəllimimiz İ.A.Boduen de Kurtenin əsərlərindən çoxdan bəlli idi [1].

Beləliklə, German dillərinə xas olan xalqları, onların dillərini və bu dilə malik olan qrupları aydınlaşdırdıq. Germanşünaslıqda leksikoqrafiya məsələlərinin tədqiqi zamanı lüğətlərin ilkin nəşrlərini, növlərini və onların müxtəlif dillərin və terminlərin öyrənilməsində əsas rol oynadıqları aydın oldu. Burada alman dili lüğətlənin ilk nəşri və müəllifləri haqqında nəzəri məlumatlar verilir. Leksikoqrafiyanın bir termin kimi ortaya çıxdığı və onun tədqiqi üsulları aydınlaşdırıldı.

Summary

The study of lexicographic issues in German studies, which is a field of modern linguistics is dealt with in the article. Each language, in its own right, is intended to be a means of knowledge about the world, a means of seeing and understanding the world. It is determined that the Germanic languages are a branch of the Indo-European language family. It is noted that English is included in this group. In German studies, lexicography is divided into two separate, equally important groups: general lexicography and special lexicography. Several perspectives or branches of the research academic dictionary have been distinguished in German studies. In today's lexicological research, first of all, the analysis of the synchronous perception of the vocabulary of a language comes to the fore. In the article the peoples, their languages, and the groups that speak the Germanic languages are clarified.

Key words: German studies, lexicographic issues, language family, academic dictionary, synchronous perception

Ədəbiyyat

1. Fəxrəddin Yadigar oğlu Veysəlli. German dilçiliyinə giriş. – Bakı Mütərcim, 2011. 408 səh. A

2. Leyla Bayramova "Leksikologiya və Leksikoqrafiya" Metodik Tövsiyə https://metodiktovsiyye.blogspot.com/2015/12/leksikologiyav-leksikoqrafiya.html

3. https://www.facebook.com/VMAdanZye/posts/hind-avropa-dillərіavropa-qolu-1-german-qrupu-ingilis-alman-holland-afrikaansi/701157956603711/

4. https://tr.wikipedia.org/wiki/Cerman_dilleri

5. VİKİPEDİYA DİLÇİ https://az.wikipedia.org/wiki/Dil%C3%A7i

6. www.anadilim.org/hint-avrupa-dilleri-ailesi.html

13.11. Marello, Carla (1998) "Hornby's bilingualized dictionaries", in *International Journal of Lexicography* 11,4, pp. 292–314.

12. Nielsen, Sandro (1994) *The Bilingual LSP Dictionary*, G. Narr. ISBN 978-3-8233-4533-6

13. Nielsen, Sandro (2008) "The effect of lexicographical information costs on dictionary making and use", in *Lexikos* (AFRILEX-reeks/series 18), pp. 170–189.

14. Nielsen, Sandro (2009): "Reviewing printed and electronic dictionaries: A theoretical and practical framework". In S. Nielsen/S. Tarp (eds): *Lexicography in the 21st Century. In honour of Henning Bergenholtz*. Amsterdam/Philadelphia: John Benjamins, 23-41.ISBN 978-90-272-2336-4

17.. Zgusta, Ladislav (1971) *Manual of lexicography* (Janua Linguarum. Series maior 39). Prague: Academia / The Hague, Paris: Mouton. ISBN 978-90-279-1921-2

16. WIKIPEDIA https://en.wikipedia.org/wiki/Germanic_languages

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN
ANADAN OLMASININ 102-Cİ İLDÖNÜMÜNƏ
HƏSR OLUNMUŞ
GƏNC DİLÇİ DOKTORANT VƏ DİSSERTANTLARIN
SƏLƏFLƏR VƏ XƏLƏFLƏR RESPUBLİKA
ELMİ KONFRANSI

SERTİFİKAT
SERTİFİKAT
SERTİFİKAT